**Sumqayıt Dövlət Universiteti**

**Folklorşünaslıq Elmi-Tədqiqat laboratoriyası**

**Aslan Bayramov**

# TARİXİ FACİƏLƏRİMİZ: DEPORTASİYA, REPRESSİYA VƏ SOYQIRIMI

*Sumqayıt Dövlət Universitetinin Tarix və Coğrafiya fakültəsinin Elmi şurasının 03.03.2015-ci il tarixli qərarı ilə dərs vəsaiti kimi çap olunması məsləhət görülmüşdür. (Protokol №8)*

**Sumqayıt 2015**

**Redaktor: dos. Avdandil Ağbaba**, Əməkdar jurnalist

**Rəyçilər: prof. Həsən Sadıqov**, Əməkdar müəllim

**dos. Nazim Mustafa**, Dövlət Mükafatı laureatı

**Məsləhətçilər: prof. Adil Baxşəliyev**, Əməkdar müəllim

**prof. Ramazan Məmmədov**, SDU-nun Elm və innovasiyalar üzrə prorektoru

**Aslan Bayramov, TARİXİ FACİƏLƏRİMİZ: DEPORTASİYA, REPRESSİYA VƏ SOYQIRIMI. "AM965" MMC-nin mətbəəsi, Bakı 2015, səh. 416.**

*Kitabda Azərbaycanşünaslığın əsas tədqiqat sahələrindən biri olan deportasiya, repressiya və soyqırımı tariximiz əks olunur. Burada Rusiya dövlətinin Cənubi Qafqaz və Anadolu siyasəti, İrəvan, Naxçıvan xanlıqlarının Rusiya tərəfindən işğalı, 25 min gəlmə ermaninin olduğu İrəvan xanlığı ərazisində ermənisiz "Erməni vilayəti"nin yaradılması və s. məsələlər göstərilir. Bununla belə, rus, ingilis və fransız silahı və əsgər forması ilə təchiz olunan ermənilərin Anadolu və Cənubi Qafqazda türk və azərbaycanlılara qarşı törətdikləri saysız-hesabsız qətliamlar, azərbaycanlıların demoqrafik vəziyyəti, onların məhvinə yönəldilmiş soyqırımları, köçürmə və sürgünlər şərh edilir. Xüsusilə ermənilərin Cənubi Qafqaza haradan və neçənci illərdə gəlmələri erməni mənbələrindən götürülmüş sənədlərlə əsaslandırılır. Bununla belə, Qərbi Azərbaycanda yer yaddaşının – yer-yurd adlarının da soyqırımına məruz qalması faktlarla təqdim olunur. Kitabda verilən statistik cədvəllər əsərin məzmununu tamamlayır.*

*Kitabdan bakalavr, magistr və doktorantlar, eləcə də müəllimlər dərs vəsaiti kimi faydalana bilərlər.*



## AZƏRBAYCANLILARIN SOYQIRIMINA AİD DÖVLƏT SƏNƏDLƏRİ

### Azərbaycan Respublikası Prezidenti HEYDƏR ƏLİYEV cənablarinin 28 may – Respublika günü münasibətilə 1997-ci il mayin 27-də keçirilmiş təntənəli yığıncaqdakı nitqindən

"... Azərbaycan xalqı 70 il sovet sosialist sistemi şəraitində yaşamışdır. Bu, XX əsrdə bizim xalqımızın həyatının böyük bir hissəsidir. Biz o vaxt dövlət müstəqilliyindən məhrum olmuşuq, ancaq respublika kimi bir çox müstəqil işlər görmək imkanına malik olmuşuq. Ona görə də bu dövrü lazımınca qiymətləndirmək zəruridir. Çünki bu dövrdə bizim xalqımız yaşamış, yaratmış, qurmuş və nəhayət 1991-ci ildə Azərbaycan yenidən dövlət müstəqilliyini elan edərkən Azərbaycan Respublikası artıq böyük bir ölkə idi.

Bu dövrün Azərbaycan xalqı üçün böyük itkiləri də, ziyanları da olmuş, xalqımız əzab-əziyyətlər də çəkmişdir. Ancaq eyni zamanda bu dövrdə xalqımızın böyük nailiyyətləri də olmuşdur. Biz nə onları, nə də o birilərini unutmamalıyıq. 20-30-cu illərdə kommunist, bolşevik hakimiyyətinin qurulması, möhkəmlənməsi ilə əlaqədar yüzlərlə, minlərlə, on minlərlə insan

ədalətsiz olaraq repressiyalara uğramış, yerindən-yurdundan uzaq ellərə - Orta Asiyaya, Qazaxıstana sürgün edilmiş, öz mülklərindən, varlarından məhrum olmuş, çox əzab əziyyətlərə məruz qalmışlar.

1937-1938-ci illərin represiyaları Azərbaycan xalqına, onun mədəniyyətinə, mənəviyyatına böyük zərbələr vurmuşdur. Azərbaycan xalqına bu dövrdə vurulan ən böyük zərbələrdən biri də 1947-1948-ci illərdə Azərbaycan xalqına qarşı sovet hakimiyyəti tərəfindən edilmiş ən böyük ədalətsizlikdir. Təssüflər olsun ki, bizim tarixçilərimiz və hamımız, nədənsə, bu hadisəyə o vaxtlar da və indi də, xüsusən dövlət müstəqilliyimizi əldə edəndən sonra da doğru qiymət verə bilməmişik.

1947-ci ilin sonunda Moskvada sovet hökuməti azərbaycanlıların əsrlər boyu yaşadığı doğma yerlərindən, o vaxtkı Ermənistan ərazisindən kütləvi sürətdə deportasiya edilməsi haqqında qərar qəbul etmişdir. Sonrakı illərdə - 1948, 1949, 1950-ci illərdə bu deportasiya tədbiri həyata keçirilmişdir. Biz, nəinki biz, bütün dünyada sovet hakimiyyətinin tarixi haqqında danışarkən İkinci dünya müharibəsindən sonra Krımdan Krım tatarlarının deportasiyasından, Şimali Qafqazdan çeçenlərin, inquşların, qaraçaylıların, çərkəzlərin, balkarların, Gürcustandan Axıska türklərinin deportasiya edilməsindən, bu haqsızlıqlardan geniş bəhs edirik, buna geniş qiymət veririk və



bunlar mətbuatda, tarixi sənədlərdə öz əksini tapmışdır. Ancaq biz çeçenlərin, inquşların, qaraçaylıların deportasiyası barədə qəbul edilmiş qərar kimi qərarla – Sovet İttifaqı hökumətinin qərarı ilə azərbaycanlıların öz yerindən-yurdundan deportasiya olunmasını nədənsə, adi bir hadisə kimi qəbul etmişik. Halbuki hamımız yaxşı bilirik ki, o vaxt bizim soydaşlarımız – azərbaycanlılar o yerlərdən, öz doğma vətənlərindən, yurdlarından zorla çıxarılarkən, deportasiya edilərkən nə qədər itkilər verdilər, çətinliklərə məruz qaldılar, nə qədər insan faciəli surətdə həlak oldular.

O vaxt, yaşayan insanlar və doğma yerlərindən deportasiya olunanlar yaxşı xatırlayırlar: Ermənistanın çox gözəl iqlimə – yəni bu torpaqlar vaxtilə azərbaycan torpaqları olub – malik olan yaşayış yerlərindən insanları gətirib evsiz-eşiksiz Mil-Muğan çöllərinə salanda, əlbəttə ki, onlar o şəraitdə yaşaya bilməyəcəkdilər. Məlumdur ki, o vaxt bir çox insanlar qırıldı, tələf oldu, əzab-əziyyət çəkdilər. Hətta məlumdur ki, bəziləri burada yaşaya bilmədilər, gizli olaraq qayıdıb öz yerlərinə, evlərinə getdilər. Nə qədər əzab-əziyyət, çətinliklər çəkdilər. Hesab edirəm ki, bu da bizim xalqımıza qarşı edilən ən böyük ədalətsizlikdir.

Sovet hakimiyyəti dövründə, ümumiyyətlə, Sovetlər İttifaqının bütün ərazisində – bir yerdə az, bir yerdə çox – bütün

xalqlara qarşı repressiya olmuşdur. Ancaq mən bu gün bunu xüsusi qeyd emək istəyirəm ki, 1937-1938-ci illərdə Azərbaycan xalqına qarşı edilən repressiya başqa respublikalardakı repressiyalardan daha da ağır, çox itkili olmuşdur. Bu həqiqətdir.

Amma Azərbaycan xalqı 1948-1949-cu ilərdə və sonrakı illərdə yenidən deportasiyaya məruz qalmış, demək, yenidən repressiya altında olmuşdur. Bu, bizim xalqımıza qarşı edilən ədalətsizlikdir.

Bu yaxın günlərdə mən xüsusi sərəncam, yaxud fərman imzalayacağam ki, o dövrlə əlaqədar məsələlər – Azərbaycana, xalqımıza qarşı edilmiş bu ədalətsizliklə əlaqədar məsələlər – araşdırılsın və tariximizdə bu dövr də öz yerini tutsun.

Beləliklə, o vaxt Ermənistandan azərbaycanlıların çıxarılması, etnik təmizləmə baş veribdir. Onları öz yerlərindən, yurdlarından, doğma torpaqlarından o vaxt didərgin salıblar. Təəssüflər olsun ki, biz tarixin cürbəcür mərhələlərində belə hadisələri lazımi qədər təhlil edə bilməmişik və xalqımıza edilən bu ədalətsizliklərə qarşı öz səsimizi lazımi qədər qaldırmamışıq. Məhz bunların nəticəsində də 1988-ci ildə Ermənistan Azərbaycana artıq təcavüz ediblər. O dövrdə Ermənistan ərazisində qalmış azərbaycanlılar qısa bir müddətdə Ermənistandan zorla çıxarıldılar.



Ermənistan deyəndə, o ərazinin keçmişdə kimə mənsub olduğu məlumdur. O ərazinin çox hissəsi azərbaycanlıların əsrlərdən-əsrlərə yaşadıqları doğma diyarı olubdur. Onları öz dədə-baba yurdlarından tədricən çıxarılıblar və bunlar hamısı da 1988-ci ildə Ermənistanın Azərbaycana artıq hərbi təcavüzünün başlanmasına gətirib çıxarıbdır.

Bəli, həmin bu 70 il müddətində bizim xalqımızın böyük itkiləri olubdur. Biz bunları bilməliyik, gələcək nəsillər də bunları bilməlidirlər. Bilməliyik və gələcək nəsillər də bilməlidirlər ki, Azərbaycana qarşı bir daha belə xəyanətlərin, tədbirlərin, belə təcavüzlərin qarşısı alına bilsin..."

***"Azərbaycan" qəzeti, 28 may 1997-ci il***

**1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarının kütləvi surətdə deportasiyası haqqında Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEVİN**

**FƏRMANI**

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə geyri insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidə - min illər boyu yaşadıqları öz doğma tarixi etnik torpaqlarında didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əssasında 1948-1953-cü illərdə 150 mindən çox azərvbaycanlı Ermənistan SSRİ ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar körpələr ağır



köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasətilə yanaşı, o dövrkü Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirak edən az rol oynamamışdı.

Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSRİ ərazisində deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir.

**Yuxarıda göstərilənləri nəzərə alaraq qərara alıram:**

1. 1948-53-cü illərdə azərbaycanlıların Ermənistan SSRİ ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə dövlət komissiyası yaradılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmanın icrası ilə bağlı məsələni həll etsin.

***Heydər Əliyev,***

***Azərbaycan Respublikasının Prezidenti***

***18 dekabr, 1997-ci il***

## “Azərbaycanlıların soyqırımı haqqında” Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır.

Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir.

1813-cü və 1828-ci illərdə Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında “Erməni vilayəti” adlandırılan



inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. “Böyük Ermənistan” ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına “bəraət qazandırmaq məqsədi ilə” erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş geniş miqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi.

“Böyük Ermənistan” yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə geniş miqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları *məsələnin mahiyyətinin açılmasına*, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarini pərdələmişlər.

Birinci dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən

ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunnası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı.

Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər.

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqlarla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədi ilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı



vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbyacan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi.

Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədi ilə yeni vasitələrə əl atdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular.

Erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci

illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kampaniyasına başladılar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrəmizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Eyni zamanda onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırmaq cəhdləri də güclənirdi. "Yazıq və məzlum erməni xalqı"nın surətini yaradaraq əsrin əvvəllərində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunur, azərbaycanlılara qarşı soyqırım törədənlər soyqırım qurbanları kimi qələmə verilirdi.

Əsrin əvvəllərində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-in digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulur. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almasına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirilir. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilir, toponumika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş verir.

Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılır. Böyük humanist ideallara xidmət edən Azərbaycan ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş



yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır.

Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradırdı. Xalqımıza qarşı aparılan soyqırım siyasəti özünün siyasi-hüquqi qiymətini tapmadığı üçün tarixi faktlar sovet mətbuatında ermənilər tərəfindən təhrif olunur və ictimai fikir çaşdırılırdı. Ermənilərin Sovet rejimindən bəhrələnərək həyata keçirdikləri və 80-ci illərin ortalarında daha da güclənən antiazərbaycan təbliğatına Azərbaycan Respublikasının rəhbərliyi vaxtında lazımi qiymət vermədi.

1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ konfliktinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından Qərbi Azərbaycandan qovulmasına da respublikada düzgün siyasi qiymət verilmədi.

Azərbaycanın Dağlıq Qarabağ Muxtar vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında ermənilərin qeyri-konstitusion qərarını və Moskvanın əslində bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsi ilə Azərbaycanın tabeliyindən çıxarmasını xalqımız ciddi narazılıqla qarşıladı və mühüm siyasi aksiyalara əl atmaq məcburiyyəti qarşısında qaldı. Respublikada keçirilən mitinqlər zamanı torpaqlarımızın işğalı siyasəti qətiyyətlə pislənsə də, Azərbaycan rəhbərliyi öz passiv

mövqeyindən əl çəkmədi. Məhz elə bunun nəticəsi olaraq, 1990-cı ilin yanvar ayında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədi ilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu.

1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə yeksan edilməsi ilə qurtardı.

Millətçi-separatçı ermənilərin Dağlıq Qarabağda başladığı avantürist hərəkətin nəticəsi olaraq bu gün bir milyondan artıq soydaşımız erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış, çadırlarda yaşamağa məhkum edilmişdir. Ərazimizin 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğah zamanı minlərlə vətəndaşımız şəhid olmuş, xəsarət almışdır.

Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarımn zəbti ilə müşaiyət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə – 1918-ci il mart qırğımna siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün



onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edirdi.

Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırım faciələrini qeyd etmək məqsədi ilə qərara alıram:

1. 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilsin.
2. Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun ki, asərbaycanlıların soyqırımı ilə bağlı hadisələrə həsr olunmuş xüsusi sessiyanın keçirilməsi məsələsinə baxsın (6).

***Heydər Əliyev,***
***Azərbaycan Respublikası Prezidenti,***
***Bakı şəhəri, 26 mart 1998-ci il***

"İndiki Ermənistan dövləti tarixi Azərbaycan torpağında formalaşıbdır. İrəvan xanlığı əzəli Azərbaycan torpağıdır. Bir daha demək istəyirəm ki, ermənilər bu bölgəyə qonaq kimi gəlmişdilər. Ona görə haqq-ədalət, tarixi həqiqət, beynəlxalq hüquq, iqtisadi imkanlar, hərbi potensial – bütün bu amillər tərəzinin bir gözündə, Ermənistanın qeyri-konstruktiv və heç bir beynəlxalq normalara sığmayan siyasəti tərəzinin başqa gözündədir. Biz istəyirik ki, bizim torpaqlarımız dinc yolla işğalçılardan azad olunsun və Azərbaycan vətəndaşları öz vətəndaş hüquqlarından istifadə edə bilsinlər".

***İlham Əliyev,***
***Azərbaycan***
***Respublikasının***
***Prezidenti***

Erməni milətçiləri tərəfindən xalqımıza qarşı aparılan soyqırımı və təcavüz siyasətinin iki yüz ildən artıq tarixi vardır. Bu siyasətin məqsədi azərbaycanlıları qədim torpaqlarından sıxışdırıb şıxarmaq, bu ərazilərdə erməni tarixçilərinin və ideoloqlarının uydurduğu "Böyük Ermənistan" dövləti yaratmaq idi. Öz mənfur və təhlükəli siyasətlərini gerçəkləşdirmək üçün onlar müxtəlif üsul və vasitələrindən, tarixin saxtalaşdırılmasından, siyasi



təxribatlardan istifadə etmiş, dövlət səviyyəsində davakar millətçiliyi, separatizmi və qonşu xalqlara qarşı təcavüzü dəstəkləmişlər. Bu məqsədlə Ermənistan və ayrı-ayrı xarici dövlətlər də "milli-mədəni", dini siyasi və hətta terrorçu təşkilatlar qurmuş, erməni diasporunun və lobbisinin imkanlarını səfərbər etmişlər.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 mart 2004-cü il.***

**Kitab erməni vandalizmi nəticəsində həlak olmuş insanların xatirəsinə həsr olunur.**

## GİRİŞ

XX yüzillik xalqımız üçün faciələr, qırğınlar, məhrumiyyətlətr əsri olmuşdur. Lakin bu faciələr qırğınlar XXI əsrdə də davam etdirilir. Rus çarları, sonralar rus-bolşevik, erməni-daşnak hərbi birləşmələrinin iştirakı ilə dövlət səviyyəsində xalqımız 1801, 1830, 1875, 1905-1906, 1918-1920, 1930-1936, 1948-1953 və 1988-ci illərdə repressiyalara, soyqırıma, deportasiyalara məruz qalmış, tarixi torpaqlarının çoxunu itirmişdir. Gəlmə ermənilər isə Qərbi Azərbaycanda mono-etnik "Ermənistan" yaratmağa nail olmuşlar.

1919-cu ildə ADR höküməti 1918-ci ildə Bakı, Quba, İrəvan, Zəngəzur, Qarabağ, Gəncə, Şamaxı və digər yerlərdə erməni vəhşiliyinin qurbanı olan soydaşlarımızın xatirəsini əbədiləşdirmək məqsədilə mart ayının 31-ni Milli matəm günü elan etmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bir sıra adət-ənənələrimiz, milli dəyərlərimiz, müsibət və faciələrimiz kimi ADR-ın 31 mart – Milli matəm günü haqqında



verdiyi qərarı da tarixin qaranlıq arxivinin əlçatmaz küncünə atıldı. Bilərəkdən ermənilərin Cənubi Qafqazda törətdikləri qanlı olaylar unutduruldu. 1918-ci ilin mart şəhidlərinin dəfn olunduğu qəbiristanlıq sonralar parka çevrildi. Orada S.M.Kirovun heykəli qoyuldu. Erməni vəhşiliyini əks etdirən sənədlər yoxa çıxdı. Ermənilərlə mümkün olmayan "dostluq" yaradıldı.

1998-ci il martın 26-da ümummilli liderimiz Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" fərmam imzaladı, tariximizi müdrik əli ilə açdı, başımıza gətirilən müsibətləri millətə çatdırdı (6). Bununla da geniş araşdlrmalar aparılmağa başlanıldı.

Bu gün ermənilər Azərbaycanın 20% torpaqlarım işğal ersələr də, yeni-yeni Azərbaycan torpaqlarına göz dikir, "Naxçıvan" cəmiyyəti yaradaraq Naxçıvamn qədim erməni torpağı olması haqqında dünyaya car çəkir, kömək, yardım diləyirlər. Biz isə heç olmazsa, erməni tarixçilərinin yazdıqları tutarlı real faktlardan istifadə edib ermənilərin Qafqaza gəlmə, yad xalq olduğunu sübut etməliyik. Erməni müəllifi hələ 1919-cu ildə açıq-aydın yazırdı ki, indiki Ermənistanda erməni yaşamamışdır. Ermənistan Kiçik Asiyadadır, yəni Rusiya hüdudlarından kənardadır və ermənilər Cənubi Qafqazda başlıca olaraq İrəvan qubemiyasında Qafqaz ərazisinin müxtəlif hissələrində yalnız son əsrlərdə məskunlaşmışlar.

Cənubi Qafqazda ermənilərin yerləşdirilməsi məsələləri I Pyotrunn başlıca məqsədi olmuşdur. Xüsusilə, Xəzəryanı əraziləri zəbt etmək üçün hərbi müdaxiləyə başladı. 1721-ci ildə İsveç üzərində qələbədən sonra I Pyotr M.Matyuşkinin komandanlığı altında Bakıya donanma göndərir. 12 iyul 1723-cü ildə Bakı hakimi Məhəmməd Hüseyn bəy müqavimət göstərsə də, ancaq güclü qüvvə qarşısında məğlub olur. Özünü isə həbs edib Rusiyaya göndərirlər. (19, 501,503). 1723-cü ilin 3 sentyabrında Peterburqda I Pyotr Bakının alınmasını bayram etdi. 1724-cü ildən Bakı rus komendantı knyaz Baryatinskinin idarəsinə verildi. Bakıya və ona yaxın yerlərə xaçpərəstləri köçürməyə başladılar. I Pyotr 1724-cü ilin 10 noyabrında üç erməni katalokosunu qəbul edib Xəzəryanı əyalətlərdə yerləşmək barədə onların xahişini dinlədi. Bu məsələ ilə bağlı Pyotrun verdiyi göstərişdə deyilirdi: "Ermənilərin Gilan, Mazandaran, Bakı, Dərbənd və başqa yerlərdə yerləşdirilməsinə çalışın, bu bölgədəki yerli əhalini isə imkan düşdükcə sıxışdırıb çıxarın". Tarixə "Protrun vəsiyyəti" adı ilə daxil olan rus siyasətinin başlanması nəinki 1918-ci il mart qırğınında gedən yolun başlanğıcı, hətta Azərbaycanın bugünkü faciəsinin bünövrəsi oldu. Pyotrun ölümündən sonra "vəsiyyətləri" dövlət siyasətinə çevrildi. 11 fevral 1725-ci ildə Rusiyanın Xarici İşlər Kollegiyası ermənilərin köçürülməsi ilə bağlı fərman verdi. (26, 33-35).



Rus çarları və bolşevik rəhbərlərinin köməkliyi və dəstəyi ilə torpağımızda sığınacaq tapan ermənilərin Azərbaycana güclü axını XIX əsrin əvvəllərindən başlamış, əsrin sonuna qədər Rus hökumətinin fəal köməyi və yardımı ilə bir milyon üç yüz erməni İrəvan, Naxçıvan, Qarabağ xanlıqlarının ərazilərində, habelə Bakıda, Gəncədə, Şamaxıda və başqa yerlərdə yerləşdirilmişdir. XX əsrdə də ermənilərin müxtəlif ölkələrdən gətirilib Azərbaycan torpaqlarında yerləşdirilmələri davam etdirildi.

1905-1906-cı illərdə "Böyük Ermənistan" ideyasının silahlı yolla, qan tökməklə həyata keçirilməsinə başlayan ermənilərin Bakıda törətdikləri qırğın Naxçıvanı, İrəvanı, Zəngəzuru, Göyçəni, Qaraqoyunlunu bürümüşdü. 1905-ci il noyabrın 28-də erməni silahlı dəstələrinin Qarabağda törətdikləri vəhşiliyi, qocaları, uşaqları, qadınları amansızcasına məhv etmələri hələ də o dövrün yaşlı insanlarının yaddaşlarında və xatirələrində qalmışdır. Xatirələrdə silinməz işlər buraxmışdır. Həmin dövrdə erməni quldurları Şuşa, Cəbrayıl, Zəngəzur qəzalarında, İrəvan və Gəncə quberniyalarında 300-ə yaxın kəndi, yaşayış məntəqəsini dağıtmış, məhv etmiş, əhalisini isə amansız işgəncələrlə qətlə yetirmişlər (37, 27).

"Azərbaycanlıların soyqırımı haqqında" fərmanında deyilir: "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azırbaycanlılara qarşı

geniş miqyasda qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri bütöv Azərbaycanı və indiki Ermənistan ərazisindəki azərbaycanlılar yaşayan kəndləri əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin tışkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər (6).

XX əsrin ikinci onilliyində ermənilərin xalqımıza qarşı törətdikləri 1918-ci il mart soyqırımı daha geniş miqyas almış və daha amansız olmuşdur. Təkcə Bakıda deyil, bütün Cənubi Qafqazda Sovet hakimiyyətinin qələbəsini təmin etmək məqsədilə bolşeviklər 1918-ci ilin əvvəllərindən Bakida güclü ordu yaratmağa başlayırlar. Əslində isə bu, Bakıda dinc, silahsız azərbaycan əhalisinə qarşı planlı şəkildə həyata keçirilən milli qırğına hazırlıq idi. Bu qırğında Q.Karqanov və Petrovla birlikdə azərbaycanlı qanına susamış, bolşevik cildinə girmiş daşnaq A.Mikoyanın, Amazaspin, Avetisyanın, Lalayansın quldur dəstələri xüsusi fəallıq göstərmişlər. Bolşevik-daşnak hərbi birləşmələri 1918-ci il mart ayının son üç günündə Bakı şəhərinin məhəllələrini çapıb talamışlar (16, 226-227).



Azərbaycanlılara qarşı Bakıda başlayan soyqırımı təkcə onun ətraf bölgələrində deyil, Qərbi Azərbaycanda da davam etdirildi. Budur, erməni vəhşiliyini ifşa edən rəqəmlər: Şamaxı qəzasında 58 kənd dağılmış, 7 mindən çox soydaşımız, o cümlədən 1653 qadın, 956 uşaq məhv edilmişdir. İrəvan quberniyasında 211, Qarabağın dağlıq hissəsində 150 kənd dağıdılmışdır. İrəvan quberniyasında 211, Qarabağın dağlıq hissəsində 150 kənd dağıdılmışdır. Təkcə Zəngəzur qəzasında 115 kənd yandırılmış, 3257 kişi, 2276 qadın və 2196 uşaq məhv edilmişdir, 1060 kişi, 794 qadın və 485 uşaq ömürlük şikəst edilmişdir.

Ermənilərin Qubada törətdikləri qırğın da miqyası və vəhşiliyi ilə XX əsrin görünməmiş faciələrindəndir. Bakı qırğını başa çatan kimi onun iştirakçıları bolşevik partiyasının nümayəndəsi David Qelovanın rəhbərliyi ilə 187 silahlı dəstə Qubaya gəlir və burada bolşevik idarəçiliyi tətbiq edirlər. Əhali bununla razılaşır. Bir dəstə, guya ləzgi dəstəsi Qelovanın şəhəri tərk etməsini və ya döyüşsüz təslim olmasını tələb edir. Bundan sonra Quba faciəsi başlayır. Bolşevik-daşnak silahlı birləşmələri burada 122 kəndi talan etmiş, yandırmış, bütün var-dövlətə sahib olmuşlar. Üstəlik, Qubada belə bir şayə yayılmışdır ki, guya dinc əhalini qırmaq üçün Bakıdan Qubaya böyük silahlı dəstə gəlir. Əhali vahimədən qorxaraq ev-eşiyini, var-dövlətini buraxıb

canını qorumaq üçün dağlara, meşələrə qaçmağa başlayır. Məşhur qaniçən Amazaspın köməkçisi Nikolay və əsasən ermənilərdən təşkil edilmiş silahlı dəstə şəhəri mühasirəyə alaraq canını qorumaq üçün qaçan azərbaycanlıları qətlə yetirmişlər. Şəhərdə 165 ev və tikili yandırılmış, 32,8 milyon manat nəğd pul, qızıl, daş-qaş və s. ermənilər tərəfindən mənimsənilmişdir. Son dövrlərdə Qubada erməni vəhşiliyini əks etdirən qəbiristanlıq aşkar olunmuş və muzeyə çevrilmişdir (9, 84,87).

Həmin illərdə Qərbi Azərbaycanda soyqırıma rəhbərlik edən başqa bir daşnak deyirdi: "Mən Basarkeçərdə ağına-bozuna baxmadan tatarları (azərbaycanlıları) qırıb tökdüm. Hərdən adamın gülləyə heyfi gəlirdi. Bu köçkünlərə qarşı ən etibarlı vasitə döyüşdən sonra sağ qalanların hamısını qırıb quyuya doldurmaq və üstündən də ağır daşlar yığmaqdır ki, onlardan heç biri sağ qalmasın. Mən də belə edirdim: bütün kişiləri, qadınları, uşaqları bir-bir quyuya doldurur, üstündən də ağır-ağır daşlar yığırdım" (25, 273-274). Bir Basarkeçərdə yox, yüzlərlə belə yerdə ermənilər vəhşilik etmişlər. Budur, erməni vəhşiliyi! Budur erməni qaniçənliyi!

Azərbaycan tarixinin bir çox problemləri kimi, onun Naxçıvan və Zəngəzur bölgələrində 1917-1921-ci illərdə yaranan siyasi-hərbi vəziyyət və bəzi xarici dövlətlərin siyasəti ilə



əlaqədar məsələlərin tədqiq olunması da böyük elmi maraq doğurur və olduqca mühüm əməli əhəmiyyət kəsb edir.

Naxçıvan və Zəngəzurun strateji əhəmiyyətini nəzərə alan Qərb dövlətləri, ilk növbədə Böyük Britaniya və ABŞ həmin bölgələrdə nüfuza malik olmağa, Transqafqaza, xüsusilə də Azərbaycanı, həmçinin Türkiyə və İranı da əhatə etməklə bütün Orta və Yaxın Şərqə təsir göstərə biləcək əlverişli imkan kimi baxırdılar. Təxminən iki əsr ərzində Qafqaz xalqlarının müstəqilliyi yolunda başlıca əngəllərdən və bu regiondakı rus müstəmləkəçiliyinin əsas dayaqlarından, alətlərindən biri olan ermənilər tarixin kəskin dönüş anlarından həmişə faydalanmağa çalışmışlar. Yaranmış yeni siyasi şəraiti əlverişli sayıb, əvvəlcə Rusiyanın, oradan Qərbin, sonra isə yenə də Rusiyanın köməyi ilə hər dəfə "Böyük Ermənistan" ideyasının reallaşdırılmasına girişmişdilər. Bu niyyətlə də onlar ərazi iddiaları irəli sürürdülər. Kilsələri də həmişə onları dəstəkləyir və təşkilatlandırırdı.

Qərb dövlətləri çalışırdılar ki, Azərbaycanın Türkiyə ilə sərhədi olmasın. 1921-ci ildəki Moskva andlaşmasında göstərilirdi ki, daşnakların Naxçıvan ərazisində Azərbaycanlılara qarşı yönəltdiyi soyqırıma cavab olaraq türk ordusu Naxçıvana daxil olmuşdur. Yerli xalqın erməni idarəçiliyinə qarşı kəskin etirazlarını nəzərə alaraq türk diplomatları adekvat addım ataraq məsələni belə qoymuşlar: "Naxçıvan əhalisinin türk ordusunu

qəbul etməsi onu göstərir ki, Naxçıvan da Türkiyənin himayəsi altındadır. Buna baxmayaraq, əgər Azərbaycan bu himayə hüququnu 3-cü dövlətə verməyəcəyi ilə bağlı öhdəlik götürürsə, Türkiyə bu himayə hüququnu Azərbaycana verməyə hazırdır" (20, 9). Bununla da erməni daşnaqlarının uzunmüddət düşündükləri planları həyata kecmədi. Naxşıvan Azərbaycan Respublikasınıb tərkibində Muxtar Respublika statusunu aldı. Bununla belə, türk diplomatların səyi nəticəsində müqavilədə göstərilirdi ki, gələcəkdə belə Naxçıvanın statusu və sərhədləri məsələsi Azərbaycan ilə Ermənistan arasında müzakirə obyektinə çevrilməməlidir (31, 9).

Azərbaycanın ərazi bütövlüyünə ermənilər və onların havadarları tərəfindən dəfələrlə edilən açıq qəsdlər Sovet hakimiyyəti zamanı "hüquqi sənədlər" əsasında baş verdi. Bu yolla da 20-ci illərin sonunda və 30-cu illərdə, lap axır zamanlarda belə Azərbaycanın Naxçıvan Muxtar Respublikasının müəyyən hissələri, Qars müqaviləsinə zidd olaraq ermənilərə verildi.

1965-ci ildə Sovetlər birliyi rəhbərliyinin (A.Mikoyanın səyləri sayəsində) rəsmi icazəsi ilə uydurma 1915-ci il "erməni soyqırımı"nın 50 illiyinin Ermənistanda qeyd olunması və "milli qəhrəman" Andranik Ozayana "siyasi bəraət" qazandırılması ilə



"Naxçıvan komitəsi"nin və "Qarabağ komitəsi"nin fəaliyyətinə təkan verildi.

Kim idi bu Andranik? Türkiyədə və Cənubi qafqazda müsəlmanların, eləcə də öz xalqının faciəsinə səbəb olan Andranik əvvəlcə İngiltərədə, sonra Amerikada yaşamışdır. 1927-ci ildə Parisdə ölmüş Per-Laşez qəbristanlığında dəfn olunmuş, qəbri üzərində at üstündə heykəli qoyulmuşdur. Heyf sənə Per-Laşez! Belə bir qaniçən qulduru necə qəbul etmisən?

İrəvanda Andranikin 50 illik yubileyi keçirilən ərəfədə, yəni 1965-ci ildə Rəsul Rza Parisdə imiş. Per-Laşez qəbiristanlığında dəfn olunan məşhur yazıçı və şairlərin qəbirlərini ziyarət edirmiş. O, orada qaniçən Andranikin at üstündə nəhəng heykəlini görüb təəcüblənir . Bu üzdəniraq heykələ bir ser həsr edir:

*Per-Laşez!*
*Kommunarlar divarı,*
*Hörmətlə açıram başımı,*
*... O kimdir? At üstündə:*
*Kimə oxşayır ... Allah!*
*Kimə?*
*Elə bil ki qaba bir əl toxunur*
*İncə simə*
*Gözlərimdə canlanır*

*Naxçıvanın Arazı.*
*Söndürülmüş ocaqlar!*
*Əbədi susdurulmuş uşaqlar!*
*Qanlı üzlər keçir gözlərimdən,*
*Min-min azı.*
*Bağırmaq istəyirəm*
*Hardan gəldi bura*
*Bu dələduz,*
*Daşa dönmüş daş ürəkli quduz!*

Şerdə qaniçən, quldur Andranikin adı çəkilməsə də, şerin məzmunundan aydın olur ki, hədəf Andranikə yönəlmişdir. Həmin ildə Azərbaycan jurnalının 9-cu sayında çap olunan bu şer parçası Ermənistanda böyük hay-küyə səbəb olmuşdur.

2 fevral 2000-ci ildə Andranikin məzarını Per-Laşez qəbiristanlığından İrəvana köçürmüşlər. Bu barədə Qafar Çaxmaqlı yazır: "Keçdiyi hər yerdə qan izi olan Andraniki müqəddəs Qafqazda dəfn etmək günah idi. Ermənilər bu günaha da batdılar" (20, 93).

Ermənistan Ali Sovetinin son illərdəki sessiyalarinda Naxçivana dair ərazi iddialarının yenidən qaldırılması, SSRİ xalq deputatlarının II qurultayında (iyun 1989-cu il) akademik V.Ambarsumyanın 1921-ci il 16 mart tarixində Sovet-Türkiyə müqaviləsini qüvvəsini itirmiş saymaq çağırışı, B.Dadamyanın



"Dağlıq Qarabağ ermənilərinin gözləri qarşısında Naxçıvanın faciəli aqibəti durur", fikirləri erməni daşnaqlarının növbəti fitnələri idi. Naxçıvanın qədim erməni olkəsi hesab edən Dadamyan həyasızcasına bildirir ki, "Naxçıvan Türkiyənin tələbi ilə Rusiya ilə Türkiyə arasındakı 1921-ci il müqaviləsinə uyğun olaraq Azərbaycana verilmişdir və o da onunla özü bildiyi kimi rəftar etmişdir" kimi əsassız çıxışına həm də ermənilərin Naxçıvanla bağlı 1917-1921-ci illərdəki yarımçıq qalmış planlarının həyata keçirilməsinin davamı kimi baxılmalıdır.

Daha sonra "məşhur" Z.Balayan müxtəlif səviyyəli məclislərdə, kitablarında və rus mətbuatında Sovet-Rusiya rəhbərliyinə bu kimi çoxsaylı müraciət – "məsləhətləri": "Təcili olaraq Naxçıvan məsələsinin müzakirəsinə başlamaq", "Naxçıvan MSSR-i ləğv edib onu ermənilərə vermək", "nə Rusiya, nə də Ermənistanın bir-birisiz mövcud ola bilməyəcəyinə dair ənənəvi strategiyanı reallaşdırmaq üçün Naxçıvanı ermənilərə "qaytarmaq", ermənilərin "ideoloji muzdluları"nın 1921-ci il Qars müqaviləsini "bədnam" adlandıraraq qanunsuz saymaları, habelə "Naxçıvan-Ermənistan sərhədləri" kimi dolaşıq, qərəzli (qəsdən Azərbaycan əvəzinə Naxçıvan yazılması) ifadələr işlətməklə ermənilərin siyasətinə havadar olmaları da nəzərdən qaçırılmamalıdır". 1990-cı ilin sentyabrında mənfur Z.Balayan M.S.Qorbacova müraciətində Türkiyənin Stalinə

təzyiqi nəticəsində Naxşıvanın Azərbycana verilməsini pisləyir. Naxçıvanda erməni kəndlərinin qalmamasından şikayətlənir və tarixi "ədalətsizliyi" bərpa etməyi xahiş edirdi (57, №205).

1990-cı ilin 15 sentyabrında öz mundar xisləti ilə erməni gənclərini millətçilik toxumu ilə zəhərləyən Zori Balayan Sovet Sosialist Respublikaları İttifaqı Ali Sovetinin üzvi kimi Moskvada "Moskva" mehmanxanasmda siyasi aclıq edir. 82 yaşlı akademik V.Hambarsumyan, SSRİ xalq artisti S.Sarkisyan da ona qoşulur. Akademik A.Saxarov və Elena Bonner də onları dəstəkləməklə mərkəzi hakimiyyətə təzyiq göstərmək istəyirdilər (57, №204).

Həmin dövrdə cərəyan edən ictimai prosselərin və baş verən siyasi hadisələrin mahiyyəti təhrif edilmiş, onlara dair faktlar, sənədlər, materiallar tədqiqatçılardan və xalqdan gizlədilmiş, tariximizə böhtanlar atılmış, xarici ölkələrin bu sahədə də elmi axtarışlar aparan alimlərinə "burjua saxtalaşdırıcısı" və s. damğalar vurulmuşdu.

Həmin tarixi çərçivə daxilində cərəyan edən proseslər və baş verən hadisələr əsasında isə konkret zaman kəsikləri 1917-ci ilin mart-oktyabrı: bölgələrin siyasi həyatında və xüsusilə də idarəçiliyində baş verən dəyişikliklər; 1917-ci ilin noyabrı-1918-ci ilin mayı: hələlik Rusiyanın müxtəlif siyasi qüvvə və dairələri tərəfindən istiqamətləndirilən ermənilərin bölgələrə ərazi



iddiaları və silahlı müdaxiləsinin başlanması, onlara qarşı mübarizə; 1918-ci ilin may-oktyabrı: Osmanlı dövlətinin bölgələrə siyasi-hərbi yardım göstərməsi; 1918-ci ilin noyabr-dekabrı: Naxçıvan mahalında Araz-Türk Respublikasının təşkili, Andranikin silahlı quldur dəstələrinin Zəngəzur qəzasında azərbaycanlılara qarşı törətdikləri zorakılıqlar; 1919-cu ilin yanvar-iyulu: İngiltərənin bölgələrdə möhkəmlənməyə çalışması – bu özü də müəyyən, daha kiçik mərhələlərə ayrıla bilər, yəni ki, 1919-cu ilin yanvar-apreli: mahallarda ingilis general-qubernatorluğunun fəaliyyəti və 1919-cu ilin may-iyulu: Naxçıvan bölgəsində erməni "idarəçiliyi"; 1919-cu ilin avqust-dekabrı: ABŞ-ın bölgələrdə öz təsirini qüvvətləndirmək və Naxçıvan bölgəsində Amerika general-qubernatorluğu yaratmaq cəhdləri; 1920-ci ilin əvvəlləri: Türkiyənin Naxçıvan bölgəsinə hərbi yardımının yenidən davam etdirilməsi və ADR hökumətinin Zəngəzur, Qarabağ mahallarının erməni qoşunlarına qarşı hərbi əməliyyatları: 1920-ci ilin may-noyabrı: bölgələrin rus-sovet qoşunları tərəfindən işğalı gedişində buradakı siyasi şərait; 1920-ci ilin dekabrı-1921-ci ilin yayı: Zəngəzurun bir hissəsinin Ermənistana verilməsi prosesi; 1920-ci ilin sonu – 1921-ci ilin payızı: beynəlxalq konfrans və müqavilələrdə Naxçıvan məsələsinin müzakirə və həlli və s. məsələlər xüsusi maraq doğurur (16, 250-286).

Ermənistan-Azərbaycan müharibələri və onların tərkib hissələri kimi Naxçıvan-Zəngəzur-Qarabağ və s. bölgələrdə baş verən millətlərarası silahlı toqquşmalara hər iki tarixşünaslığın yanaşmasındakı müxtəliflik baxımından, bizcə, daha mühüm məsələ də mütləq qeyd olunmalıdır. Belə ki, ermənilər satqınlıq və xəyanətlər yolu ilə xalqımıza qarşı törətdikləri bütün bəd əməlləri "mübarizələrlə dolu qəhrəmnlıq tarixi", bu işlərə başçılıq edənləri isə "milli qəhrəmanlar" səviyyəsinə qaldırmışlar. Bizim tarixşünaslığın bu sahəsindəki əsas nöqsanlardan biri də bütövlükdə Ermənistan-Azərbaycan müharibələrini, xüsusilə də Naxçıvan, Zəngəzur və Qarabağ mahallarının azərbaycanlı əhalisinin ermənilərə qarşı tarixi mübarizəsini başqa bir istiqamətdə də birtərəfli (yəni ancaq elə ermənilərin qırmalarından, dağıtmalarından bəhs olunması, onlara qarşı ardıcıl mübarizə aparanlara böhtanlar atılması, "xalq düşməni", "bəy-xan", "pantürkist", "panislamist" və s. damğalar vurulması) işıqlandırılmışdır. Çünki xeyli arxiv sənədləri və şifahi tarixi materialları ilə təsdiqlənən çoxlu qalibiyyətli döyüşlər, qəhrəmanlıq səhifələri tarixi ədəbiyyatda, dərsliklərdə və s. özünün lazımi ifadəsini tapmamışdır. Tarixşünaslığımızın bu istiqamətdəki elmi axtarışları daha da genişləndirilməlidir.

Rusiya Birinci dünya müharibəsində öz müstəmləkələrini qoruyub saxlamaq və hətta imperiyanın hüdudlarını



genişləndirmək məqsədini güdür, bu işdə ermənilərdən də istifadə etməyə çalışırdı. Bununla əlaqədar olaraq kadetlərin lideri P.Milyukovun 1915-ci il yanvarın 4-dəki nitqində açıqcasına söylədiyi bir fikri xatırlamaq yerinə düşərdi: "İşdə mənim üçün ermənilərin istədikləri yox, Rusiya üçün əlverişli olanı vacibdir". Digər tərəfdən rus müstəmləkəçiliyinin vasitələrindən birinə və Rusiyanın müttəfiqinə çevrilən ermənilər isə tarixin bu dövrdəki qarmaqarışıqlıqlarından bilavasitə özləri üçün faydalanmaq istəyirdilər.

II Nikolay 1914-cü ilin noyabrında Tiflisə gələrkən daşnaklardan S.Arutunyan və A.Xatisyanın başçılıq etdikləri nümayəndə heyəti onun qəbulunda olmuşdur. Ermənilərin "Mşak" ("Zəhmətkeş") qəzetinin 1914-cü il 29 noyabr tarixli sayında A.Xatisyanın çarın qəbulunda olarkən söylədiyi nitq dərc edilmişdi. Burada deyilirdi ki, Türkiyə Almaniyanın köməyi ilə Rusiyaya əl qaldırmağa cəsarət etdiyi indiki vaxtda ermənilər bir nəfər kimi ayağa qalxmışlar və özlərinin həyatlarını, əmlaklarını böyük taxt-tacın yolunda qurban verməyə hazırdırlar. Məqsədlərinə çatmaq üçün ifrat fəallıq göstərən ermənilər Tiflisdə A.Xatisyanın başçılığl ilə Erməni Milli Bürosu yaradaraq özlərinin silahlı qüvvələrinin təşkilinə girişmişdilər (52, 201).

Ermənilər bu silahlı qüvvələri təşkil etməklə özlərinin ərazi iddialarının reallaşması üçün müəyyən hərbi potensiala malik

olmağa çalışır, Rusiya qoşunlarının tərkibində Türkiyəyə qarşı vuruşmaqla isə gələcək diplomatik-siyasi oyunlara (dünya müharibəsinin iştirakçısı, Antantanın müttəfiqi və s. rollarda özlərini qələmə verməyə) zəmin hazırlayırdılar.

Arxiv sənədləri arasında Naxçıvan-Şərur-Ordubad mahalları və Zəngəzur qəzası əhalisinin etnik tərkibinə dair aşkarladığımız məlumatlara və elmi axtarışların nəticələrinə əsasən çox da qədimlərə getmədən – Qafqazın Rusiyanın müstəmləkəsinə çevrilməsindən sonrakı dövrə aid olan aşağıdakı faktları qeyd etmək lazimdir. Belə ki, 1832-ci ildə Naxçıvan şəhərinin 5470 nəfərlik əhalisinin 3641-i azərbaycanlı, 1829-u erməni, Ordubad şəhərinin 3444 sakinindən 3262-si azərbaycanlı, 182-si erməni idi. Yenə də həmin ildə İrəvan əhalisinin 49875 nəfərini azərbaycanlılar, 20073-nü yerli və 45207-ni köçürülmə ermənilər təşkil edirdi. 1873-cü ilə aid statistika məlumatlarından göründüyü kimi, Güney Qafqaz əhalisinin 16,5%-ni təşkil edən ermənilər yalnız İrəvan quberniyasında cüzi üstünlüyə (54%) malik idilər. Bu üstünlük də İran və Türkiyədən gələn ermənilərin hesabına olmuşdur.

1916-cı il yanvarın 1-nə olan staistik materiallarda həmin bölgələrdə və onlarla qonşu mahallarda əhalinin etnik tərkibi haqqında bu kimi məlumatlara görə Naxçıvan qəzasında: azərbaycanlılar – 81708 nəfər (59,0%), ermənilər-54209 nəfər



(40,0%); Şərur-Dərə Ələyəz qəzasında: azərbaycanlılar – 60183 nəfər (66,7%), ermənilər – 29165 nəfər (32,3 %); Zəngəzur qəzasında: azərbaycanlılar – 66370 nəfər (63,6%), ermənilər – 32686 nəfər (31,2%); İrəvan qəzasında: azərbaycanlılar 74,2 min nəfər (48,0%), Bütövlükdə İrəvan quberniyası üzrə isə azərbaycanlılar – 423123 nəfər (37,7%), ermənilər – 669871 (59,79%).

Güney Qafqazdakı siyasi vəziyyət, onun xarici və daxili sərhədləri məsələsi 1917-ci ilin sonu-1918-ci ilin əvvəllərində bir sıra danışıq və müqavilələrdə (Ərzincan, Brest-Litovsk, Batum) mühüm yertlərdən birini tuturdu. Lakin ermənilər əldə edilən sazişlərtə məhəl qoymayaraq xeyli silahlı qüvvə ilə Azərbaycan torpaqlarında, xüsusilə də Naxçıvan və Zəngəzur bölgələrində 1918-ci ilin martınadək olan müddətdə İrəvan quberniyasında 197 kənd talan edilmiş, boşaldılmışdı. 1917-ci ildə Zəngəzur qəzasında 109, Qarabağda 157 kənd qismən dağılmış, Azərbaycan üzrə isə (Lənkəran çıxılmaqla) 60 yaşayış məskəni tamamilə məhv edilmiş, 388-i qismən zərər çəkmiş, yandırılmış, viran qoyulmuş təsərrüfatların sayı 5140-a çatmışdır.

Ermənilər müxtəlif yerlərdə azərbaycanlılara qarşı zorakılıq hərəkətləri törətdikdən sonra 1918-ci ilin yazından etibarən Azərbaycan torpaqlarına bilavasitə təcavüz etməyə başladılar. Erməni hərbi hissələri və ayrı-ayrı dövrlərdə müxtəlif

xarici siyasi orientasiyalara malik olan Andranikin dəstəsi bu sahədə əsas qüvvələr idilər. Qafqazda birinci cahan savaşının hərbi əməliyyatları dayandırıldıqdan sonra bu cəbhəni tamamilə bir növ öz əllərinə keçirən ermənilərin silahlı qüvvələri Rusiyanın dəstəyinə güvənirdilər. Tiflisdə, İrəvanda erməni silahlı hissələrinin təşkilinə və Azərbaycana qarşı hərbi əməliyyatlara hazırlanmasına başçılıq edən Andranik bu dövrdə Rusiyaya meyl edərək və ona bel bağlayırdı.

S.Şaumyan və digər erməni bolşevik rəhbərləri vasitəsilə Sovet Rusiyasmm rəhbərləri ilə himayə və təminatını əldə edən ermənilər, xüsusilə də Andranikin silahlı quldur dəstələri Azərbaycanın Naxçıvan, sonra isə Zəngəzur, Sisyan kəndində Andranikin və digərlərinin başçılıq etdikləri silahlı qüvvələr Azərbaycan torpaqlarını ələ keçirmək və həmin ərazilərdə "etnik təmizləmə" aparmaqla məşğul oldular (25, 227).

Ordubad şəhərində yaşayan Salman bəy Əsgərxanov, Məşədi Hüseyn İsmayılov və Mirzə Cabbar Həsənəliyevin teleqramında bildirilirdi ki, Andranik və erməni ordusu kəndləri talan edir, öldürür, vəhşiliklər törədirlər. Bu dövrdə Tiflisdə çıxan qəzetlərdən biri yazırdı ki, "Andranikin quldur dəstələri çoxlu türk kəndlərini dağıtdılar. Təkcə Yaycı kəndində 2500 nəfər öldürüldü və Araz çayında boğduruldu".



20-25 iyun 1918-ci ildə ermənilər Culfada Araz çayı üzərindəki körpünü yandırdılart. Ordubadda 2000 türkü (azərbaycanlını) öldürdülər. Andranikin dəstəsinin qeyri-insani hərəkətləri barədə ADR Xarici İşlər nazirinin notasında bildirirdi ki, İrəvan quberniyasının müsəlman əhalisinə qarşı zorakılıqlar baş verir, çoxsaylı silahlı erməni qüvvələri şəhər və kəndləri dağıdır, müsəlmanlar tərksilah olunur, öldürülür, qarət edilirlər; Araz çayından keçərkən boğulanların sayı 300-ə çatmışdır (27, 17).

Ermənilərin bu təcavüzü ilə bağlı 22 dekabr 1918-ci ildə Ordubad qəza milli komitəsinin sədri Hidayət Seyidzadə Azərbaycan hökumətinə göndərdiyi məlumatında yazırdı: "Türklərin Qafqazdan, eləcə də Naxçıvan qəzasmdan gedişindən sonra ermənilər yenə də Zəngəzur qəzasına, Şərur qəzasına və İrəvan quberniyası müsəlmanlarına qarşı düşmənçiliyə başlayıblar. Onlar bizim kəndlərimizə təkrar basqınlar edir və əhalini qırırlar. Zəngəzur qəzasında 20-yə qədər kəndin əhalisi öz doğma yurdlarını tərk edib İrana, Qarabağa və bizə qaçmaqla xilas olublar".

1919-cu ilin yanvar ayında general Doluxanovun komandanlıq etdiyi erməni qoşunları Şərur qəzasına yenidən hücum edirlər. Ermənilərin Şərur tərəfə yenidən hücumları 1918-ci ilin oktyabr ayında yaradılmış Araz-türk respubliası

hökumətinə məlumat verilir və hökumət tərəfindən sərəncam verilir ki, erməni qoşunlarının qabağı alınsın. Həmçinin Şərur qəzasının "Qurd qapısı" adlanan yerə erməni qoşunlarının qabağını kəsmək üçün Kəlbalı xan Naxçıvanskinin başçılığı ilə yerli müdafiə dəstələri göndərilir. Çox böyük qan tökülən döyüşlərdən sonra Baş-Noraşendən (Şərur) yuxarıda – Zeyvə kəndində erməni daşnakları məğlub olaraq geri çəkilirlər.

Bu məğlubiyyətlərə baxmayaraq sənədlərdə ermənilərin 1919-cu ilin yanvar-mart aylarında Naxçıvan, Şərur və Ordubad qəzalarına müxtəlif istiqamətlərdən hücumlar edərək böyük qırğınlar törətmələri göstərilir (27, 16-18).

Ermənilərin bu təcavüzkarlığı ilə bağlı Azərbaycan Demokratik Respublikasının Naxçıvandakı müvəkkili Səməd bəy Cəmilinski 20 mart 1919-cu ildə Azərbaycan Xarici İşlər Nazirliyinə göndərdiyi teleqramında yazırdı: "Martın 19-da ermənilərin nizami qoşunları bizim üzərimizə üç tərəfdən çox güclü hücuma başlamışlar. Birinci Böyük Vedi, 2-ci Tivi kəndi və 3-cü Ordubad tərəfdən. Xahiş edirəm bu barədə vəziyyəti bizim hökumətə çatdırasınız".

İngiltərə, Amerika və Fransanın razılığı ilə 1919-cu ilin payızında Amerika emissarı Haskil demişdir: "Naxçıvan və Şərurda sakitlik yaratmaq məqsədilə bu iki rayon Amerika



qubernatorluğunun hakimiyyəti altında keçəcək, polkovnik Edmond Devi qubernator olacaqdır" (27, 19).

Naxçıvanı "bitərəf zona" elan edib Ermənistanın hakimiyyətinə vermək məqsədilə Naxçıvana gələn ingilis imperialistləri öz hərbi hissələrini Noraşen, Şahtaxtı, Naxçıvan, Culfa dəmir yol stansiyalarında və Şərur-Dərə Ələyəz şosse yolunda yerləşdirmişdilər. 1919-cu ilin may ayının 5-də Naxçıvan şəhərinə gələn ingilis generalı Devi Naxçıvan və Şərur qəzalarında yaşayan müsəlmanları yığıb mitinq keçirir və bildirir ki, müsəlmanlar Ermənistan hökumətinin rəhbərliyinə tabe olmalıdılar.

General E.Devinin irəli sürdüyü bu təklifin hərtərəfli təhlilindən sonra şəhərin nüfuzlu adamlarından Hacı Həsənəli mitinqdə çıxış edib demişdir: "Mən şəhər əhalisi adından deyirəm, biz daşnak hakimiyyətini qəbul etməyirik və ona tabe olmayacayıq".

Azərbaycan hökumətinin bu qırğınlara son qoyulması barədəki müraciət və notalarına Ermənistan rəhbərliyi "General Andranik- Xoy rayonuna özbaşına daxil olmuşdur. Biz onun hərəkətlərinə cavabdeh deyilik, o bizimlə heç bir əlaqəyə malik deyildir" cavabını vermişdi. D.Kirakosyanın yazdığına görə, guya daşnak hökumətinin liderləri hətta 1918-ci ilin iyinun 17-də Osmanlı dövlətinin hərbi naziri Ənvər paşaya Andranikin

dəstəsini darmadağın etmək üçün birgə səylər göstərmək xahişi ilə müraciət etmişdilər.

Andranikin əsas planı Zəngəzurun etnoqrafik xəritəsində ermənilərin xeyrinə köklü dəyişikliklər aparılmasına yönəlmişdi. Bu niyyətlə də o, mahalın çoxunu təşkil edən azərbaycanlı əhalisindən Ermənistan hökumətinə tabe olmağı, əks təqdirdə isə qəzanı boşaltmağı tələb etmişdi. Elə Naxçıvanla Azərbaycan arasında böyük bir boşluq yaratmaları onların məkrli planlarından biri idi. Bu boşluğu yaratmışdılar, ona görə ki, gələcəkdə Naxçıvan ərazisini də Ermənistana qatsınlar.

Zəngəzurun müsəlman əhalisinin Andranikin tələbini rədd etməsi onun məqsədyönlü surətdə qırılması və qovulması üçün bəhanə oldu. Və bu əsasən Sisyan və Qafan rayonlarının müsəlman camaatına divan tutuldu. 1918-ci ilin Zəngəzur qırğınları Andranikin törətdiyi qanlı hadisələrin ən dəhşətlisi idi. Görkəmli yazıçı Ə. Abbasovun "Zəngəzur" tarixi romanında da həmin hadisələr əks olunmuşdur.

1918-ci il sentyabrın 4-də Sisyana gələn Andranik, "Наше время" qəzetinin (3 yanvar 1919-cu il) yazdığı kimi, burda ümumi yığıncaq keçirərək, 20-30 yaşlı kişilərin səfərbərliyi barədə elan vermişdi. Onun dəstəsi tərəfindən isə Qaraqışlaq kəndi yaxınlığında 200-300 nəfər azərbaycanlı öldürülmüşdür.



"Грузия" (9 noyabr 1918-ci il) və "Азербайджан" (13 noyabr 1918-ci il) qəzetlərində dərc olunan bu sənəddən bəlli olur ki, həmin müddətdə bu ərazidə 16 kənd (Kürdlər, Ərəfsə, Bəhrili, Dulus, Qarakilsə, Məlikli, Pulkənd, Arıqlı, Şıxlar, Zabazadur, Şəki, Yaqublu, Qızılcıq, Vağudi, Sisyan) dağıdılmış, üst-üstə 708 nəfər məhv edilmiş, 47 mln. 390 min man. məbləğində ziyan vermişdi.

Andranikin dəstəsi və onun Zəngəzur bölgəsində olmasından ürəklənən yerli ermənilər 1918-ci ilin payızında daha da azğınlaşdılar. Nəticədə çoxlu yaşayış məskənləri viran qoyuldu, azərbaycanlıların qırılanı qırıldı, qırılmayanı qaçqın düşdü. Azərbaycan Demokratik Respublikası hökumətinin Fövqəladə İstintaq Komissiyasının araşdırma və təhqiqatları əsasında hazırlanmış materiallar həmin hadisələrə dair çoxlu faktlarla zəngindir. Komissiyanın hazırladığı istintaq materialları (arxiv sənədləri əsasında Zəngəzurun 58 kəndinin dağılması barədə aparılmış istintaqa dair işlər vardır) ermənilərin bölgədəki viranedici hücumlarını və antibəşəri hərəkətlərini sübuta yetirir.

Həmin işlərin bir qisminin – təxminən 332 kəndə (Qaraçimən, Bayandur, Şayıflı, Tey, I (Aşağı) Vərtənəzur), Təğəmir, Mülk, Ağudi, Şabadın, Vağudi, Əldərə və s.) aid 30 işin araşdırılması nəticəsində üst-üstə 1574 həyətdən (bəziləri göstərilməyib) ibarət olan bu kəndlərdə 495 ev və tikili

yandırılmış, 492-si isə dağılmış (yenə də bəzilərində qeydiyyat aparılmayıb), 2254 nəfər (1826 kişi, 275 qadın, 153 uşaq) öldürülmüş və 304 nəfər (212 kişi, 53 qadın, 39 uşaq) yandırılmışdır. Istintaq materiallarından göründüyü kimi, bu kəndlər arasında ən çox adam Bağud (450 nəfər), I Vərtənəzur və II Vərtənəzur (384 nəfər), Ağudi (325 nəfər), Tey (135 nəfər), Şabadın (110 nəfər) və s. yaşayış məntəqələrində azərbaycanlılar məhv edilmişdir, onlara qarşı soyqırımı törədilmişdir.

Fövqalədə Təhqiqat Komitəsi Zəngəzurda ermənilərin törətdikləri zorakılıq hərəkətləri və onların nəticələrinə dair bir sıra mühüm, əhəmiyyətli statistik ümumiləşdirmələr də aparılmışdır. Belə ki, 1918-ci il yayın sonu-payızda Sisyan mahalının birinci polis sahəsinin bütün müsəlman kəndləri, 2-ci sahənin kəndlərinin böyük hissəsi, 3-cü, 4-cü və 5-ci sahələrin mühüm hissələri tamamilə məhv edilmiş, 50000 nəfərədək müsəlman 4-cü sahəyə və Cəbrayıl qəzasına qaçmışdı. Bütövlükdə qəzada 115 kənd dağıdılmış və yandırılmış, habelə 10-a qədər adları olmayan kiçik yaşayış məntəqələri də məhv edilmişdir. Bütün bu kəndlərdə, ümumiyyətlə, 10068 nəfər müsəlman öldürülmüş və yaralanmışdır. Onlardan 7729 nəfəri (3257 kişi, 2276 qadın və 2196 uşaq) məhv edilmiş və 2339 nəfəri isə (1060 kişi, 794 qadın və 485 uşaq) şikəst olmuş, qəzanın qzərbaycanlı əhalisinə üst-üstə bir milyarda yaxın maddi ziyan



dəymişdi. Bölgədə törədilən saysız-hesabsız zorakılıq hərəkətləri içərisindən seçilən 19 amansız qəddarlıq halı şahidlərin ifadələrinə əsasən məruzədə əks olunmuş və həmçinin azərbaycanlılara qarşı edilən vəhşiliklərin iştirakçıları olan yerli ermənilərin siyahısı da göstərilmişdi (23, 369-372).

Sisyanda aparılan "etnik təmizləmə" tədbirləri Qafan rayonuna da yetmişdi. Bu rayonun əhalisinin böyek əksəriyyətini azərbaycanlılar təşkil edirdilər. Qafan şəhər arxivindən əldə edilən məlumatlara görə 1918-ci ildə rayonda azərbaycanlılar ermənilərdən 1,5 dəfə çox olmuşdur, 72 kənddən 48-i azərbaycanlı, 24-ü isə erməni kəndi idi. Ermənilərin təxribat və özbaşımalıqlarının genişləndiyini görən Qafan rayonunun müsəlman əhalisi qonşu Sisyanın acı təcrübəsini nəzərə alaraq, imkan daxilində silahlanaraq gözləmə mövqeyi tutdular. Bunu nəzərə alan ermənilər məkrli siyasətə əl atdılar: Sovet hakimiyyətinin lap ilk vaxtlarında Zəngəzur qəzası 3-cü milis sahəsi Qubadlı kəndindən olan qaçqın Abbas Sultanovun Qarabağ və Zəngəzur Fövqəladə Komissarına yazdığı ətraflı məlumat vərəqəsindən bəlli olduğu kimi, 4-cü polis sahəsi Arçatsur kəndinin sakini, daşnakların Qafandakı lideri S.Məlik-Parsadanov Qafan rayonunun azərbaycanlı və erməni ağsaqqallarının yığıncağını keçirmişdi.

Burada hər iki tərəfə Qafan rayonunun müsəlmanları və ermənilərinin qardaş qırğınında iştirak etməyəcəkləri barədə and içmək və digər rayonların əhalisi üçün nümunə göstərmək təklif olunmuşdu. Dəfələrlə olduğu kimi, bu dəfə də azərbaycanlılar ermənilərə inanaraq ümidlə evlərinə qayıtmışdılar. Lakin elə həmin günün gecəsi S.Məlik-Parsadanovun dəstələri əlverişli mövqe tutaraq Oxtar dərəsi, onun ardınca isə Güney mahalın yaşayış məntəqələrindəki əhalinin tərksilah edilməsinə başlamışdılar.; Girətağ və Oxçu dərələrinin kəndlərinə soxulmaq cəhdləri olmuşdu. Lakin hətta noyabr ayında Andranikin hərbi hissələrinin Qafana gəlməsinə baxmayaraq, ermənilər 1918-ci ildə Oxçu və Gığı dərələrində istənilən nəticələri əldə edə bilməmişdilər. Ümumiyyətlə, isə bu müddətdə həmin ərazilərdəki kəndlərin azərbaycanlı əhalisi qəhrəmancasına öz torpaqlarının müdafiəsini davam etdirmişdi.

Azərbaycan Demokratik Respublikasının 1918-ci il avqustun 31-də təşkil etdiyi Fövqəladə Komissiyanın məlumatında deyilirdi: “Komissiya ermənilərin törətdikləri vəhşiliklə bağlı 36 cildlik, 3500 səhifəlik material hazırlamışdır. Həmin materialın 8 cildi ermənilərin Zəngəzurda törətdikləri vəhşiliklərə aiddir”. Çox təəssüflər olsun ki, həmin sənədlərin araşdırılmasına uzun müddət icazə verilmədi. Bütövlükdə Qərbi



Azərbaycanda ermənilər 1,5 milyon azərbaycanlını deportasiya olunmuş və məhv edilmişdir (35, 85).

Rusiyanın hərbi və siyasi dəstəyi ilə ermənilər öz dövlətlərini azərbaycanlıların faciəsi üzərində qurmağa nail oldular. Onların XX əsrdə törətdikləri bu qırğınlar, soyqırımlar Şaumyan, V.Lenin, Mikoyan, Stalin, Qorbaçov və bunlar kimilərinin bizlərə düşmən münasibətinin nəticəsidir. Bizlərə qarçı olan bu soyqırımlar bu günkü müstəqilliyimiz dövründə öyrənilməli, dünya xalqlarına çatdırılmalıdır. Bu yolda Azərbaycan Respublikasınm sabiq prezidenti Heydər Əliyev və onun siyasi kursunu davam etdirən möhtərəm prezidentimiz İlham Əliyev cənablarının fəaliyyəti əvəzsizdir. Biz inanırıq ki, xalqımız bir daha belə soyqırımlara məquz qalmayacaqdır. Çünki, bu gün bizim müstəqil azərbaycanımız, müstəqil siyasətimiz və hər bir şeyə qadir olan ordumuz vardır.

Əsrin əvvəlində ingilis və amerikalılar, indi də ATƏT adlandırdığımız bir qurum neçə illərdir ki, Qarabağ və ətraf rayonlarımızın ermənilər tərəfindən işğal olunmasına ikili standartlarlı yanaşır, kimin kimi işğal etməsi barədə hələ konkret fikir söyləməmişdir. Onlar Bakıda bir çür, İrəvanda başqa cür danışmaqla münaqişəni sülh yolu ilə həllini uzadırlar.

Həmin ssenari ilə də Moldovanı parçalayaraq “Dnestryanı Respublika”, Ukraynanı parçalayaraq “Donetsk Respublikası”,

Gürcüstanı parçalayarq müstəqil "Abxaziya Respublikası", "Osetiya Respublikası" və s. yaradılması da rus şovinizmindən, "Böyük Rusiya" yaratmaq ideyasmdan irəli gəlir. Yuxarıda qeyd etdiyimz bölgələrdə də ATƏT ikili standartlar aparır, respublikaların müstəgilliyini şübhə altına salır.



# I FƏSİL

## 1801-1830-CU İLLƏRDƏ QƏRBİ AZƏRBAYCANDAN AZƏRİ TÜRKLƏRİNİN DEPORTASİYASI, SOYQIRIMI VƏ ERMƏNİSİZ "ERMƏNİ VİLAYƏTİ"NİN YARADILMASI

### 1.1. Rusiya-İran və Rusiya-Türkiyə müharibələrinin acı nəticələri

Qərbi Azərbaycandan – indiki Ermənistan ərazisindən Azərbaycan türklərinin ilkin qaçqınlıq dövrü 1801-ci ildə Rusiyamn Şərqi Gürcüstanı ilhaq etməsi və bunun nəticəsində Şəmşəddin, Loru-Pəmbək, Qazax, Borçalı və Şörəyel bölgələrinin rusların əlinə keçməsi anından başlamışdır. Rusların işğalı zamam minlərlə azərbaycanlı məcburi formada müxtəlif yerlərə deportasiya olunmuşlar. Müharibə meydanına çevrilən ərazilərdən qaçqın düşmüşlər (29, 287; 38, 189).

1801-ci il iyulun 13-də general-mayor Lazarev Qafqaz qoşunlarınm komandanı Knorrinqə göndərdiyi raportunda göstərirdi ki, Pəmbək əyalətinin 14 kəndindən təxminən 5-6 min əhali bölgəni tərk edərək İrəvan xanlığı ərazisinə sığınmışlar. Sonralar Pəmbək əyalətində yaşayan türklərinin bir hissəsi Rusiyanın itaətinə girmək istəmədikləri üçün üsyan etmiş, 1804-

cü ilin iyulunda Pəmbək bəyləri Rəhim bəy və Səid bəyin himayəsi altında bölgədən qaçaraq Qars paşalığına sığınmışdılar. Onların geri qaytarılması üçün knyaz Sisianov dəfələrlə Qars paşası Məmməd paşaya müraciət etmişdi (9, 19).

1804-cü ilin yazında İrəvan xanlığının ərazisindən ruslara kömək etmək üçün 2 min erməni qaçaraq rusların himayəsinə keçmiş və onlar Loru-Pəmbək bölgəsində məskunlaşdırılmışdılar. Həmin il rus qoşunları Şörəyelə daxil olur. 1805-ci il oktyabrın 20-də Şörəyel sultanı Budaqla knyaz Sisianov Gəncədə Şörəyelin əbədi olaraq Rusiyanın tabeliyinə keçməsi haqqında sənəd imzalayırlar. Məhz bundan sonra həmin ərazidə 100-dən çox kənddə yaşayan türklərin qaçqınlıq dövrü başlanmışdır. Şörəyel kəndlərinin qarapapaq boyundan olan əhalisinin də bir hissəsi 1807-ci il rus-türk müharibəsi nəticəsində İrəvan xanlığının və Qars paşalığının ərazilərində sığınacaq tapmışdılar (9, 19).

Qarapapaq tayfaları fürsət tapan kimi əvvəllər yaşadıqları kəndlərə hücum edib erməniləri qovmaq istəyirdilər. 1807-ci il avqustun 26-da general Nesvetayev Qafqazın ali baş komandanı, qraf Qudoviçə yazdığı məktubda göstərirdi ki, qarapapaqlar Gümrü yaxınlığında yerləşən Tapanlı və Qoçqant kəndlərinə basqın etmiş, onlarla erməni quldurunu məhv etmişlər. Oktyabrın 29-da göndərilən raportda isə Şörəyelin yerli sakinlərindən 26



ailənin Qars paşalığına qaçdıqları qeyd edilir. "Əkinçi" qəzetində də bu barədə qeydlər var (1875, №14).

Şərqi Anadoluda yaşayan ermənilər İrəvan xanlığının ruslar tərəfindən işğalını səbirsizliklə gözləyirdilər. Bayazid paşalığında yaşayan ermənilər 1806-cı ilin sentyabr ayında Tiflisə məktub göndərmişdilər ki, rus qoşunları İrəvanı ələ keçirən kimi, 10000 erməni hər şeylərini atıb gələcəklər. Ərzurum ermənilərindən 200 ailə rusların İrəvanı ələ keçirdiklərini eşidib hətta yola düşüblərmiş. Onlar Qarsa çatanda bu xəbərin yalan olduğunu eşidib, orada gözləməyə məcbur olmuşdular. Eyni zamanda həmin məktubda göstərilir ki, İrəvan sakinlərindən (xanlığın ərazisindən) 500 tatar (azərbaycanlı) ailəsi Qarsa köçmüşdür (9, 19).

Rus qoşunları Şörəyelə daxil olanadək sultanlığın ərazisində 170-ə yaxın kənd olmuşdur. 1805-ci ilin statistik məlumatlarına görə isə Şörəyeldə sultan Budağın itaətində cəmisi 524 ailə yaşamışdır. Həmin ərazidə rusların istər türklərlə, istər İrəvan xanının, istərsə də İran şahının vəliəhdi Abbas Mirzənin qoşunları ilə müharibələri nəticəsində Şörəyel kəndlərinin əksəriyyəti xaraba qalmış, əhalisi isə qaçqın düşmüşdür. Sonradan həmin ərazidə Türkiyədən gələn ermənilər məskunlaşmışdılar. Sultan Budaq və kapitan Cəfər bəyin 1809-cu ilin dekabrında general-mayor Haqverdova yazdıqları ərizədə

göstərilirdi ki, İranla müharibə nəticəsində kəndlər dağıdılıb xaraba qalmış və bütün Şörəyel əyalətində cəmisi 250 ev qalmışdır.

1804-1808-ci illərdə çar ordusu İrəvan qalasını hücumla almaq istəsə də, çoxlu itki verib geri çəkildi (29, 309, 311). 1813-cü il oktyabrın 12-də Rusiya ilə İran arasında bağlanan Gülüstan müqaviləsinə əsasən İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla Şəmsəddin, Loru-Pəmbək və Şörəyel əyalətləri Gəncə, Qarabağ, Şəki, Şirvan, Bakı, Quba, Dərbənd, Talış xanlıqları və Dağıstan həmişəlik Rusiyanın tərkibinə qatıldı.

19-cu əsrin əvvəllərində İrəvan xanlığı 15 mahaldan – Qırxbulaq, Zəngibasar, Gərnibasar, Vedibasar, Şərur, Sürməli, Dərəkənd-Parçanis, Səədli, Talın, Seyidli-Axsaxlı, Sərdarabad, Körpübasar, Abaran, Dərəçiçək və Göyçə mahallarından ibarət idi. İ.Şopenin tədqiqatında əks olunan cədvəldə İrəvan xanlığına aid olan mahallar və mahallara aid olan kəndlər qeyd olunur (69, 510, 518).

İ.Şopenin məlumatına görə 1826-1828-ci illər Rusiya-İran və 1828-1829-cu illər Rusiya-Ttürkiyə müharibələri nəticəsində İrəvan xanlığının ərazisində mahallar üzrə dağıdılmış kəndlərin siyahısı belədir (69, 543, 599):



**1. Qırxbulaq mahalında**

1. Küzəcik, 2. İynədüz, 3. Güllücə, 4. Qaracaörən, 5. Tecrəbək, 6. Bəzəklı, 7. Qaraqala, 8. Qatırçay (Heydərgöl), 9. Ərzap, 10. Horinus, 11. Damcılı, 12. Kitikən (Kətiqut), 13. Quyulu, 14. Qızqala, 15. Tezxaraba, 16. Babacur, 17. Damagirməz, 18. Dəlləkli, 19. Kankan, 20. Göykilsə, 21. Yaycı, 22. Qızqala, 23. Çobangərəkməz, 24. Azoklar, 25. Əkikənd (Muradtəpə), 26. Ərzni.

**2. Zəngibasar mahalında**

1. Həsənağa, 2. Sinnik, 3. Qaracalar, 4. Ozanlar, 5. Dərcan, 6. Horaköy, 7. Cəfərabad.

**3. Gərnibasar mahalında**

1. Məsimli, 2. Taytan, 3. Bayraməliqışlağı, 4. Qulaqsız, 5. Zöhrablı, 6. Kürdkəndi, 7. Şəfiabad, 8. Kir-Bozavand, 9. Baş Gərni, 10. Mürzük, 11. Heyranıs-Uliya, 12. Burduq, 13. Gerçək, 14. Gilanar-Sufla, 15. Molla Əhməd, 16. Qaqavuz, 17. Şəhriyar, 18. Heyranıs-Sufla, 19. Şoğayib, 20. Kərpicli, 21. Abdallar, 22. Qurbanqala-Uliya, 23. Qurbanqala-Sufla, 24. Ərtiz, 25. Yappa, 26. Əlimərdan, 27. Əliqırağı, 28. Ellicə, 29. Buralan, 30. Sultantəpə, 31. Əzizli, 32. Əlisorki, 33. Qalakəndi, 34. Qarahacılı, 35. Xıdırlı, 36. Ədətli, 37. Taraşköy, 38. Əliqızıl, 39. Bulaqbaşı, 40. Bayraməlikəndi, 41. Purço, 42. İmamverdiqalası, 43. Tərəkəmələr.

**4. *Vedibasar* mahalında**

1. Reyhanlı, 2. Şirazlı, 3. Qaralar, 4. Saray, 5. Cadqıran, 6. Qarabağlar-Sufla, 7. Qarabağlar-Uliya, 8. Talasavan, 9. Şahablı, 10. Zəncirli, 11. Pünüt, 12. Şorsu, 13. Daşnov, 14. Həsənqala, 15. Cəfərli, 16. Örtük, 17. Vəlican, 18. Keşağlı, 19. Abbasabad, 20. Əli Qızıl, 21. Muradabad, 22. Əliabad, 23. Əliqırıq, 24. Günlük, 25. Baxcacıq, 26. Xamut, 27. Qızılverən, 28. Zimmi, 29. Musacıq, 30. Hand, 31. Qazançı, 32. Xosrov, 33. Haxıs.

**5. Şərur mahalında**

1. Hacıqara, 2. Qalaciq, 3. Fərhad Arxı, Boşaqışlağı, 5. Daşarx-Uliya, 6. Örtülü Məzrə, 7. Şaban Məzrə, 8. Kərki-Bayat Məzrə, 9. Yovşan Məzrə, 10. Göy –Məzrə, 11. Dəhnəkənd (Dəmirçiqışlağı).

**6. Sürməli mahalında**

1. Vəlican, 2. Talasavan, 3. Abbasabad, 4. Sərhəngabad, 5. Rəsullu, 6. Zəngan, 7. Hacı Abbas, 8. Saxsalı, 9. Atlıca, 10. Qaraçılı, 11. Mərhaba, 12. Çıraxlı, 13. İstinax-Çıraxlı, 14. Urumuş, 15. Ərgöv, 16. Göyumus, 17. Qurğan, 18. Qaraçay, 19. Əli Malik, 20. Zor, 21. Əlikeçən, 22. Quşçu, 23. Karvansaray, 24. Əsmə, 25. Quyuca, 26. Çıraxçı, 27. Sarı Hasar, 28. Muça.

**7. Dərəkənd-Parçenis mahalında**

1. Qaraqoyunlu, 2. Kiti, 3. Sürməli, 4. Aşıq Hüseyn, 5. Qarabulaq, 6. Qaraqala, 7. Çaldağ, 8. Qazıqoparan.



**8. Səədli mahalında**

1. Xəlilqışlağı, 2. Erməni kövşəni, 3. Səfilər, 4. Mirzəxan, 5. Baş Qışlağı.

**9. Talın mahalında**

1. Aylanlı, 2. Siçanlı, 3. Nadirxanlı. 4. Pirmələk, 5. Sutökülən, 6. Ağakiçik, 7. Məzarcıq, 8. Pirtikən, 9. Qaraqala, 10. Çiçəkli, 11. Püsəgən, 12. Çaltəpə, 13. Mustuqlu, 14. Qoruq, 15. Parakənd, 16. Daşqala, 17. Çoturlu, 18. Bəbirli, 19. Sadıqlı, 20. Zarınca, 21. Aşağı Dəmirçili, 22. Sabunçular, 23. Kiçik Yataq, 24. Kalaşbəy qulası, 25. Bəhlul kəndi, 26. Böyük Qızılqula, 27. Göyərçin.

**10. Sərdərabad mahalında**

1. Cəfərxan Rəncbəri, 2. Teymurxan kəndi (Dövlətabad), 3. İtröy, 4. Qatırabad (Əbdülabad), 5. Artaşat (Fətabad), 6. Rəhimabad (Molla Bədəl), 7. Keçili, 8. Xam.

**11. Körpübasar mahalında**

1. Teymurxan Kolanısı, 2. Ağdamar, 3. Qaraqışlaq, 4. İnəkli, 5. Çobanı, 6. Arpahəvəcik, 7. Haçabağ, 8. İlançalan, 9. Anberd.

**12. Abaran mahalında**

1. Qotur, 2. Tezxaraba, 3. Şabanlı, 4. Xaçbulaq, 5. Köhnə Qəzənfər, 6. Bitli, 7. Əmirli, 8. Yarbaş, 9. Məmişkəndi, 10. Qarabulaq, 11. Hamamlı, 12. Kürd Əli, 13. Cancik, 14. Cili-

Göl, 15. Şahquluölən, 16. Porsuxlu, 17. Camışlı, 18. Əyribudaq, 9. Muncuqlu, 20. Pəmbək, 21. Günbəz, 22. Sibitağ.

**13. Dərəçiçək mahalında**

1. Ada, 2. Kiçik Ördəkli, 3. Allahapənah, 4. Barat, 5. Qonaqgirməz, 6. Eşşəkquduran, 7. Çobangölü, 8. Keğac, 9. Maman, 10. Aydın, 11. Şakirbaşı, 12. Misxana, 13. Sutökülən, 14. Çiçəkli, 15. Pirpalıd, 16. Zeynalağa.

**14. Göycə mahalında**

1. Buğdatəpə, 2. Hacımumuxan, 3. Allahverdibəy, 4. Üçtəpə, 5-6. adları unudulub, 7. Kərimkəndi, 8-11. adları unudulub, 12. Yuxarı Altuntaxt, 13. Aşağı Altuntaxt, 14. Dəmirçi Poğos, 15-19. adları unudulubb, 20. Əyricə, 21. Atdaş, 22. Axsaxtovuz, 23. Karvansaray, 24. adı unudulub, 25. Qasımbaşı, 26. Mədinə, 27-32. adları unudulub, 33. Baş Gözəldərə, 34. Xancığazoğlu, 35-38. adları unudulub, 39. Qızılkilsə, 40-44. adları unudulub, 45. Böyükağa, 46-54. adları unudulub, 55. Ağkilsə, 56-57. adları unudulub, 58. Göyçə, 59, Sultanəli, 60. Sətənağac, 61. Karvansaray, 62. Əyricə, 63-64. adları unudulub, 65. Kərimkəndi, 66. Dəli Harutyun, 67. Qəməsar.

Göründüyü kimi, xanlığın ərazisində soykökümüzlə bağlı qiymətli etnotoponimlər (Cızıqlar, Qaraqoyunlu, Səfilər, Nadirxanlı, Baburlu, Çobani, Dəmirçilər və s.) mövcud olmuşdur. Xüsusilə "Kitabi-Dədə Qorqud" dastanında xatırlanan Ağcaqala,



Altuntaxt, Bayat, Dögərli, Türkmən, Ozan, Ulaşlı, Oxçu və s. toponimləri də İrəvan xanlığınm ərazisində torpağın yaddaşına çevrilmişdir.

1441-ci ildən 1828-ci ilədək İrəvan xanlığını idarə edən əmir, sərdar və xanlarm siyahısını kilsə kahini Hovannes ŞahXatunyan tərtib etmişdir (Ermənі Sovet Ensiklopediyası. III cild, səh. 571). Bunlara diqqət edək:

**I. İrəvan xanlığını idarə edən əmir və sərdarlar.**

1. Əmir Səd – XIV əsrin axırı – 1410
2. Pir Hüseyn – Əmir Sədin oğlu – 1410-cu ildən
3. Pir Yaqub (Pir Hüseynin oğlu) – 1420-ci il
4. Əbdül – Pir Hüseynin oğlu – 1430-cu illərdə
5. Uzun Həsən – 1471
6. Yaqub bəy – Cahan şahın əmri ilə 1440-cı il
7. Həsən Əli Qaraqoyunlu – 1460-cı illərdən
8. Həsənbəy Bayandurun nəvəsi – 1475
9. Div Sultan Rumlu – 1515-ci ildən
10. Hüseynxan Sultan – 1550-ci ilədək
11. Şahqulu Sultan Ustaclı – 1550-1575
12. Lala Paşa "Qara Mustafa" adlı Sultan Murad dövrü – 1577
13. Mahmudxan "Toxmaq" Xudavənd şah dövrü – 1576-1583

14. Xıdır paşa (Sultan Murad dövrü) 1583-cü il
15. Məhəmməd Şərif paşa – 1604-cü ilədək
16. Əmirquna Xan Qacar (Şah Abbas dövrü) – 1605-1625
17. Təhməzqulu (Əmiqunanın oğlu) – 1635
18. Fərhad paşa – 1635
19. Murtuza paşa (Sultan Murad bəy dövrü) – 1635
20. Kəlbəli xan – 1636-1639
21. Məmmədxan "Çağata Götük" – 1639-1648
22. Xosrov xan – 1648-1652
23. Məhəmmədqulu xan – (Lala bəyin oğlu) – 1652-1656
24. Nəcəıfqulu xan – 1656-1663
25. Abasqulu xan (Əmirqunanın oğlu) – 1663-1666
26. Səfiq xan – 1666-1674
27. Sarıxan bəy – İki il əvəz edir – 1674-1675
28. Səfiqulu xan (Təbrizli Rüstəm xanın oğlu) – 16751679
29. Zal xan – 1679-1688
30. Murtuzaqulu – (Naxçıvanlı Məhəmmədrza xanın oğlu) – 1688-1691
31. Məmmədqulu xan – 1691-1694
32. Zöhrab xan – 1694-1699
33. Fərzəli xan-Əmirqunanın nəvəsi-Sultan Əhməd dövrü – 1694-1705
34. Əbdül Məhəmmədxan – 1705-1709



35. Mehrəli xan – 1709-1719
36. Alahqulu xan – 1719-1725
37. Rəcəb paşa – 1725-1728
38. İbrahim və Mustafa paşalar – 1728-1734
39. Əli paşa – 1734
40. Hacı Hüseyn paşa – Əli paşanın müavini – 1734
41. Məmmədqulu xan – 1735-1736
42. Pirməhəmməd xan-1736

**II. İrəvan xanlığını idarə edən xanlar:**

1. Mehdi xan Qasımlı (Əfşar) – 1747-1798
2. Məhəmməd Hüseyn xan Qəraylı – 1748-1951
3. Xəlil xan özbək – 1752-1755
4. Həsənəli xan Qacar – 1755-1759
5. Hüseynəli xan (Həsənəli xanın qardaşı)-1759-1783
6. Qulaməli xan (Hüseynəli xanın oğlu) – 1783-1784
7. Məhəmməd xan (Qulaməli xanın qardaşı) – 1784-1805
8. Əliqulu xan Qacar (Ağa Məhəmməd şah Qacarın qardaşı) – 1797
9. Həsən xan Makulu - 1797
10. Mehdiqulu xan – 1805-1806
11. Əhəməd xan Marağalı – 1806
12. Hüseynqulu xan Qacar (Həsən xanın oğlu) – 1806-1827 (oktyabra qədər) (29, 60).

Göründüyü kimi, İrəvan xanlığını idarə edənlərin arasında bir nəfər də olsun qeyri-millətin adı yoxdur. Göstərilən titul və adlar etnik tariximiz üçün maraqlı məsələlərdəndir.

### 1.2. Qərbi Azərbaycanda ermənisiz erməni vilayətinin yaradılması

Yuxarıda qeyd etmişik ki, xanlığın mərkəzi İrəvan şəhərini 1804-1813-cü illərdə ruslar ələ keçirmək üçün iki dəfə cəhd göstərmişdilərsə də, buna nail olmamışdılar. Gülüstan müqaviləsinin bağlanmasından 14 il sonra yenidən başlanan Rusiya-İran müharibəsi zamanı 1827-ci il iyunun 26-da ruslar Naxçıvan şəhərini, sentyabrın 20-də Sərdarabad qalasını, oktyabrın 1-də isə İrəvan qalasını ələ keçirmişdilər. 1828-ci il fevralın 10-da Təbriz-Tehran yolunun üstündə yerləşən Türkmənçay kəndində bağlanan müqavilə ilə 1826-1828-ci illər Rusiya-İran müharibəsinə son qoyulur. Bu müqavilə ilə İrəvan və Naxçıvan xanlıqları bütünlüklə Rusiyanın ərazisinə qatılır. Martın 20-də I Nikolay bu müqaviləni təsdiq edir və ertəsi gün cəmisi 25 min ermənininin yaşadığı ərazidə "Erməni vilayəti" yaradılması haqqında fərman verilir. Ermənisiz erməni vilayəti yaradıldıqdan sonra Rusiyanın o vaxtkı Xarici İşlər Naziri L.Rostovskinin bir kəlamı – "Ermənisiz Ermənistan" dillər əzbəri olur və bu kəlam bir deyimə şevrilir (51, 31). İrəvanın ələ



keçirilməsində xüsusi xidmətlərinə görə Xüsusi Qafqaz korpusunun komandanı general İ.F.Paskeviçə çar I Nikolayın fərmanı ilə "Qraf Erivanski" titulu verilmiş və 20 mart 1828-ci ildə çarın əmriylə Erməni vilayəti yaradılmışdı (29, 351).

Bütün bu hadisələr folklorumuzda da öz əksini tapmışdır. Göyçəli Aşıq Alı hələ Türkmənçay müqaviləsinin ağır şərtlərini ürək yanğısı ilə qarşılamış, bu tarixi ədalətsizliyə – müstəmləkə siyasətinə qarşı öz münasibətini bildirmiş, hətta müstəmləkəçiləri, eyni xalqın arasına sərhəd çəkənləri "haramzada" adlandırmışdır:

*Əzəl gündən ana dedim,*
*Kürümə də, Araza da.*
*Gida düşdü elim eldən,*
*Ara kəsdi haramzada.*

Rus qoşunlarının İrəvan xanlığını işğal etməsində ermənilər xüsusi fəallıq göstərmişdilər. İmperator I Nikolayın razılığı ilə yaradılmış 1000 nəfərlik ilk erməni könüllülərindən ibarət alay İrəvan qalasını ələ keçirmək üçün İ.F.Paskeviçə köməklik göstərirdilər (29, 337). Eçmiədzin kilsəsi, xüsusən də arxiyepiskop Nerses arxada təxribatla məşğul olur, rus qoşunlarına silah, minik və ərzaqla yardım edirdi. Ona görə İrəvan qalasının alınmasında köməkliyinə görə Nersesə "Müqəddəs Aleksandr Nevski" ordeni təqdim olunmuşdur (39, 14-16). Ermənilərin Abbas Mirzənin qoşununa içəridən zərbə

vurmasına aid Erməni vilayətinin rəisi A.Çavçavadze 1828-ci il mayın 21-də Paskeviçə yazmışdı: "İrəvan əyalətinin Nurnus kənd sakini erməni Hakan Harutyunov Abbas Mirzənin ordusunda topçu kimi xidmət edərkən, avqustun 17-də döyüş zamanı top atəşini rus qoşunlarına deyil, əks istiqamətə – İrəvan xanının qoşunlarına tərəf yönəltdiyi diqqəti cəlb etmişdir. Harutyunov onun hərəkətinin diqqəti cəlb etdiyini duyan kimi döyüş meydanından qaçmışdır. Ancaq bədbəxtlikdən Eçmiədzin monastrının yaxınlığında tutulmuşdur. İrəvan sərdarı Hüseyn xan onun gözlərini çıxarmış, burnunu, dodaqlarını və dabanlarını kəsmişdir (9, 21).

İ.F.Paskeviç Erməni vilayətinin idarəsinə 1828-ci il iyulun 4-də göndərdiyi məktubda bildirmişdir ki, müharibə zamanı xanlığın ərazisində rus komandirlərinin məktubunu gəzdirdiyinə görə Astvatsaturovanın ərini öldürmüş, rus generalı Benkendorfun dəstəsinə bələdçilik etdiyinə görə isə Hovhannes Əsliyanın gözlərini çıxarmış, burnunu və dilini kəsmişdilər. Arxiyepskop Nersesin təqdimatı ilə hər üç ailəyə 10 çervon qızıl verilmiş, onların ailəsinə 30 manat təqaüd kəsilməsi qərara alınmışdı (9, 21).

Rus ordusunun İrəvan şəhərinin ətraf bölgələrini işğal etdiyi zaman həmin ərazilərdən müsəlman əhalisinin didərgin edilməsi haqda Paskeviç 1827-ci il iyulun 27-də qraf Nesselroda



göndərdiyi məktubunda bildirmişdi ki, qarapapaqlardan 100 ailə və ayrımlardan 300 ailə Qarsa qaçmışlar, qüvvətli Uluxanlı tayfasından 600 ailə Bayazidə pənah aparmışlar. Azərbaycan türkləri olan Qarapapaqlardan digər 800 ailə isə Arazı keçib Həsən xanın (İrəvan xanı Hüseyn xanın qardaşı) dəstəsinə birləşmişlər (29, 378).

İrəvan xanlığının ərazisində yeni rus üsul-idarəsi tətbiq etmək üçün İ.F.Paskeviçin əmri ilə İrəvan müvəqqəti idarəsi yaradılır və yerli qoşunlarm komandanı, general Krasovski rəis təyin edilir. Arxiyepiskop Nerses Aştaraketsi idarənin üzvü olur. Krasovskinin Nersesə verdiyi qeyri-məhdud səlahiyyətlər sayəsində ermənilər istədiklərinə nail olurlar. Müharibədən çıxmış əhaliyə paylamaq üçün verilən 4500 çetvert taxılın böyük hissəsi sayca azlıq təşkil edən ermənilərə paylanmışdı. Müsəlmanlar dövlət himayəsindən məhrum edilmişdilər. Bununla əlaqədar Paskeviç baş Qərargah rəisinə göndərdiyi məktubunda yazırdı: "Mən təsəvvür etməzdim ki, Krasovski yalnız Nersesin iradəsi ilə hərəkət edəcək, mənim ona verdiyim təlimata məhəl qoymayıb, yenicə ələ keçirilmiş əyalətin idarə edilməsi qayğısına qalmayacaq, bütün əhalinin dörddə üçünü təşkil edən müsəlmanlara himayədarlıq etməyəcək, lazımi vəsait ayırmayacaq".

Yerli müsəlmanlar arasında narazılığın artması əhalini yaşadıqları yerlərdən köçüb sərhədin o tayına keçməyə vadar edirdi. Rusiyadan narazı əhalinin sərhədin o tayında cəmlənməsi Paskeviçi narahat edirdi. Ona görə də o, Nersesi İrəvan müvəqqəti idarəsindəki fəaliyyətindən uzaqlaşdırmışdı. Türkmənçay müqaviləsi imzalandıqdan sonra Paskeviç general Krasovskini rəis vəzifəsindən azad etmiş, müsəlmanlara qarşı bəd əməllərindən əl çəkməyən Nersesi isə Bessarabiyaya sürgün etdirmişdi (9, 21, 23).

1827-ci ilin sonu, 1828-ci ilin əvvəli rus qoşunları Cənubi Azərbaycanın Təbriz, Xoy, Urmiya, Salmas və Ərdəbil şəhərlərini də ələ keçirirlər.

Erməni vilayəti İrəvan və Naxçıvan əyalətlərinə və Ordubad dairəsinə bölünmüşdü. İrəvan əyalətinə keçmiş İrəvan xanlığının 15 mahalı, Naxçıvan əyalətinə 5 mahal və Ordubad dairəsinə 5 mahal daxil idi. Vilayət idarəsinin rəisi vəzifəsinə yerli qoşunların komandanı Aleksandr Çavçavadze təyin edilmişdi.

1829-cu ilin əvvəlində qraf Paskeviç Erivanskinin tapşırığı ilə kollej assesoru İ.Şopen erməni vilayətində kameral siyahıyaalma keçirmişdir. Əlyazması 20 cilddən ibarət olan bu siyahıyaalmanın nəticələri müəllifin 1852-ci ildə nəşr edilən "Erməni vilayətinin Rusiya imperiyasına birləşdirilməsi



dövrünün tarixi abidəsi" əsərində verilmişdir (69, 510, 518). Bu siyahıda diqqət yetirsək, "Erməni vilayəti"ndə Azərbaycan türklərinin say çoxluğu daha çox nəzərə çarpır.

***1. İrəvan əyaləti (keçmiş İrəvan xanlığı)***

| Adları | Müsəlmanlar | | Yerli ermənilər | | İrandan köçürülən ermənilər | | Türkiyədən köçürülən ermənilər | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | | 3 | | 4 | | 5 | | 6 | |
| | ailə | nəfər | ailə | nəfər | ailə | nəfər | ailə | nəfər | ailə | nəfər |
| 1. İrəvan şəhərində | 1807 | 7331 | 567 | 2369 | 366 | 1715 | 11 | 48 | 2751 | 11463 |
| Mahallar<br>1. Qırxbulaq | 81 | 383 | 262 | 1396 | 216 | 1043 | 38 | 231 | 597 | 3053 |
| 2. Zəngibasar | 910 | 5413 | 133 | 603 | 442 | 2360 | - | - | 1485 | 8376 |
| 3. Gərnibasar | 753 | 4176 | 34 | 145 | 1211 | 5359 | - | - | 1998 | 9680 |
| 4. Vedibasar | 574 | 3449 | 2 | 15 | 200 | 1069 | - | - | 776 | 4533 |
| 5. Şərur | 1305 | 6510 | - | - | 336 | 1757 | - | - | 1641 | 8267 |
| 6. Sürməli | 709 | 4832 | 935 | 5892 | 299 | 1459 | 261 | 1342 | 2204 | 13525 |
| 7. Dərəkənd Parçenis | 589 | 3267 | 1 | 5 | - | - | - | - | 590 | 3272 |
| 8. Səədli | 160 | 1004 | - | - | - | - | - | - | 160 | 1004 |
| 9. Talın | 91 | 420 | 74 | 416 | - | - | 185 | 1144 | 350 | 1980 |
| 10. Seyidli və Axsaqqallı | 311 | 1754 | 6 | 28 | - | - | - | - | 317 | 1782 |
| 11. Sərdarabad | 276 | 1837 | 469 | 3214 | 66 | 356 | 4 | 21 | 815 | 5428 |
| 12. Körpübasar | 400 | 2592 | 897 | 5290 | 518 | 2897 | 35 | 176 | 1850 | 10955 |
| 13. Abaran | - | - | 11 | 58 | 330 | 2018 | 1116 | 6857 | 1487 | 8933 |
| 14. Dərəçiçək | 231 | 1300 | 92 | 552 | 575 | 3535 | 539 | 3263 | 1437 | 8650 |
| 15. Göyçə | 999 | 5607 | 15 | 90 | - | - | 1485 | 8557 | 2499 | 14254 |
| CƏMİ | 9196 | 49875 | 3498 | 20073 | 4559 | 23568 | 3674 | 21639 | 20927 | 115155 |

*2. Naxçıvan əyaləti*

| | ailə | nəfər | ailə | nəfər | ailə | nəfər | ailə | nəfər | ailə | nəfər |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1. Naxçıvan şəhərində | 909 | 3641 | 156 | 719 | 265 | 1110 | - | - | 1330 | 5470 |
| Mahallar 1. Əlincəçay | 400 | 1848 | 123 | 683 | 208 | 1051 | - | - | 731 | 3582 |
| 2. Naxçıvan | 979 | 4194 | 150 | 776 | 941 | 4507 | - | - | 2070 | 9477 |
| 3. Məvazixatun | 282 | 1497 | - | - | 216 | 1146 | - | - | 498 | 2643 |
| 4. Xok | 292 | 1375 | 43 | 224 | - | | - | - | 335 | 1599 |
| 5. Dərə Ələyəz | 1001 | 4583 | 58 | 288 | 507 | 2838 | 8 | 27 | 1574 | 7736 |
| CƏMİ | 3863 | 17138 | 530 | 2690 | 2137 | 10652 | 8 | 27 | 6538 | 30507 |

*Ordubad dairəsi*

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ordubad şəhəri | 767 | 3262 | - | - | 36 | 182 | - | - | 803 | 3444 |
| Mahallar 1. Ordubad | 146 | 552 | 36 | 215 | 14 | 76 | - | - | 196 | 843 |
| 2. Əylis | 77 | 347 | 214 | 1356 | 29 | 183 | - | - | 320 | 1886 |
| 3. Dəstə | 317 | 1533 | 62 | 346 | - | - | - | - | 379 | 1879 |
| 4. Biləv | 289 | 1210 | 39 | 208 | - | - | - | - | 499 | 2317 |
| 5. Çənnəp | 79 | 343 | 49 | 263 | - | - | - | - | 128 | 606 |
| CƏMİ | 1675 | 7247 | 400 | 2388 | 250 | 1340 | - | - | 2325 | 10975 |

*Köçəri xalqlar*

| | Müsəlmanlar | | Yerli ermənilər | | Köçərilər | | Yezdi kürdləri | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | ailə | nəfər | ailə | nəfər | ailə | nəfər | ailə | nəfər | ailə | nəfər |
| Köçəri xalqlar | 1344 | 7489 | - | - | - | - | 67 | 324 | 1411 | 7813 |

*Cəmi Erməni vilayətində*

| | Müsəlmanlar | | Yerli ermənilər | | İrandan köçürülən ermənilər | | Türkiyədən köçürülən ermənilər | | Yezdi kürdləri | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **CƏMİ** | **16078** | **81749** | **4428** | **25151** | **6949** | **35560** | **3682** | **21666** | **67** | **180** | **31201** | **164450** |



İ.Şopenə görə Erməni vilayətində 752 kənd olmuşdur. Onlardan 521-i İrəvan əyalətində, 179-u Naxçıvan əyalətində, 52-si Ordubad dairəsində olmuşdur. Müharibə nəticəsində vilayətin ərazisində 359 kənd, o cümlədən 310 kənd İrəvan əyalətində, 42 kənd Naxçıvan əyalətində, 6 kənd Ordubad dairəsində xaraba qalmış, əhalisi didərgin düşmüşdü (69, 172).

Deməli, dağıdılmış, xaraba qoyulmuş kəndlərlə birlikdə Erməni vilayətində cəmisi 1111 kənd olmuşdur.

İ.Şopenin hesablamasına görə, xanlıqların işğal edilməsinədək Erməni vilayətinin ərazisində təxminən 23.730 ailə (İrəvan əyalətində 17000 ailə, Naxçıvan əyalətində 4600 ailə, Ordubad dairəsində 2130 ailə) yaşamışdır ki, orta hesabla, hər ailədə 5 nəfər götürdükdə, bu 118650 nəfər təşkil edir.

Siyahıyaalmanın nəticələrinə görə, vilayətdə 81749 müsəlman və 25131 yerli erməni qeydə alınmışdır. Bu siyahıyaalınmanın üstün cəhəti ondadır ki, ayrı-ayrı yaşayış məntəqələri üzrə İrəvandan və Türkiyədən köçürülən erməni ailələrinin sayı və onların hansı yaşayış məntəqəsində məskunlaşdırıldıqları göstərilmişdir.

1840-cı ildə Erməni vilayəti buraxılır. Əvəzində təşkil edilən İrəvan qəzası Gürcü-İmeretiya quberniyasının tərkibinə daxil edilir. 1849-cu ildə İrəvan, Aleksandropol, Naxçıvan, Ordubad və Novo-Bayazid (Yeni Bayazid) qəzalarından ibarət

İrəvan quberniyası təşkil edilir və 1917-ci ilə qədər bu struktur dəyişməz qalmışdır (35, 202).

1828-ci il fevralın 10-da bağlanan Türkmənçay müqaviləsinin 15-ci maddəsinə əsasən İranda yaşayan ermənilərə sərbəst surətdə Rusiyanın himayəsinə keçmək hüququ verilirdi. Hökumət və yerli rəisliyin heç bir maneçiliyi olmadan onların satlıq malına və ya əmlakına, əşyalarına hər hansı kömrük və vergi qoyulmadan daşınan mülkünü aparmaq və satmaq üçün bir il, daşınmaz mülkə gəldikdə isə, onun satılması və ya onun haqqında özxoşuna sərəncam (vəkalət) üçün 5 illik müddət müəyyən edilmişdi.

Azərbaycan türklərinin tarixi-etnik torpaqlarından didərgin salınması nəticəsində həmin ərazilərdə dünyanın hər bucağından köçürülüb gətirilən ermənilər məskunlaşdırılmışdır. 1828-ci ildə çar Rusiyası və İran arasında imzalanmış Türkmənçay sülhündən sonra Azərbaycan əraziləri kütləvi şəkildə gəlmə ermənilərin "vətəninə" çevrilməyə başladı. İstər aparılan araşdırmalar, istərsə də arxiv materiallarından məlum olur ki, 1826-1828-ci il Rusiya-İran və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələrindən sonra Qərbi Azərbaycan ərazisinə köçürülən ermənilərin sayı süni şəkildə yerli türk-müsəlman əhalisinin sayına çatdırılmışdı. Təkcə İrəvan şəhərində köçürülmədən sonra 11436 nəfərlik əhalinin 6000-ə yaxınını ermənilər təşkil edirdi. Ümumilikdə isə



1828-1830-cu illərdə Azərbaycan ərazilərinə Türkmənçay müqaviləsinə (1828) əsasən 40000 İran ermənisi, Ədirnə sülh müqaviləsinə (1829) əsasən isə 84.000 Türkiyə erməniləri köçürülmüş və onların da böyük hissəsi Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı torpaqlarında yerləşdirilmişdir. Məhz bu dövrdən başlayaraq Azərbaycanın qərb torpaqlarında ermənilərin yerləşdirilməsi yaxın gələcəkdə yerli azərbaycanlı əhaliyə qarşı kütləvi qırğınlardan, soyqırımı və deportasiyadan xəbər verirdi. Beləliklə, zaman-zaman vilayətin etnik tərkibi ermənilərin say üstünlüyü ilə nəticələnir və bununla da erməni vilayətinin inzibati-ərazi bölgüsü möhkəmləndirildi. Cənubi Azərbaycanda da rus işğalı davam edirdi. Belə ki, 1827-ci ilin payızında Cənubi Azərbaycanin Xoy, Səlmas, Marağa, Təbriz, Urmiyə və digər vilayətləri rus orduları tərəfindən tam işğal olunur. Tarixçi etnoqraf S.N.Qlinka yazır: "Buradan aydın olur ki, bütün İran Ermənistanı həm rus silahının gücü ilə, həm də ermənlərin Rusiyada gizli məhəbbətinin köməyi ilə işğal olundu" (33, 6). Bundan sonra Paşkeviç milliyətcə erməni olan polkovnik Lazarevi 19 oktyabr 1827-ci ildə Təbrizə komendant təyin edir. Bu zaman İranın bütün xanlıqlarından Təbrizə tökülüb gələn ermənilər Rusiya tərəfə köçmək üçün məsələ qaldırılır və özlərinə daha məhsuldar torpaqlar axtarırdılar. Türkmənçay müqaviləsi bağlanandan sonra Lazarevə xristianların Rusiya torpaqlarına

köçmələrinə rəhbərlik etmək işi tapşırıldı (33, 20, 21) O, Urmiyada qalıb köçürmə işlərinə rəhbərlik edirdi. Lazarev Cənubi Qafqazın məhsuldar torpaqlarında ermənilori yerləşdirmək üçün yeni yaradılan "Erməni vilayəti" idarəsinə rəsmi müraciət etdi (33, 39). Beləliklə, Lazarev rus hökumətinin verdiyi 14 000 manat qızıl, 400 manar gümüş pula 40 mindın çox ermənini Qafqaza gətirdi. (33, 40,41)

1828-ci ilin 9 martında sonuncu rus qoşunları Təbrizi tərk etdi. Türkmənçaya yaxın olan müxtəlif kəndlərin erməniləri Qarabağa yola düşdülər. (33, 21).

1828-1829-cu illərdə İranın Xoy, Səlmas və digər əraziərində ermənilərin gətirilib Sisiyan Şenatağ (Şernaşen), Alılı (Salvartı), Tırıkınd (Tasik), Uz, Şəki, Ağkənd (Aşotavan), Brnakot, Vagudi, Darvaz, Məzrə, Şaqat kəndlərində yerləşdirilməlırini erməni mənbələrində də qeyd olunur (70, 42)

Ermənilərin İran və Türkiyədən indiki Ermənistan ərazisinə kütləvi surətdə köçürülməsi ilə paralel olaraq Erməni vilayətinə daxil edilən İrəvan əyalətinin Qırxbulaq, Zəngibasar, Körpübasar, Vedibasar, Şərur, Sürməli, Dərəkənd-Parçanis, Saatlı (Səədli), Talin, Seyidli-Ağsaqqallı, Sərdarabad, Gərnibasar, Abaran, Dərəçiçək, Göyçə (bir hissəsi) mahallarının, Naxçıvan əyalətinin Əlincəçay, Məvazixatun, Xok, Naxçıvan, Dərə Ələyəz mahallarının, Ordubad dairəsinin Ordubad, Əylis,



Dəstə, Biləv və Çənbəp mahallarında yaşayan türklərinin əksəriyyəti əsasən Türkiyə və İrana köçməyə məcbur olmuşlar.

Düzdür, tarixçi Qlinka S.N. ermənilərin İrandan, yəni Cənubi Azərbaycan xanlıqlarından köçürülmələrini öz incəliyi ilə təsvir edir, ancaq onların İrəvan, Qarabağ, Şamaxı, Gəncə ətrafı Azərbaycan kəndlərinə yerləşdirilmələri zamanı yaranan çətinliklərdən danışmır. Bununla belə, Qərbi Azərbaycan Bozabdal, Pəmbək, Avaran, Əstərək, Vedi, Zəngi, Qaracay, Qatnıçayı ərazilərdəki döyüşləri təsvir edir. Amma müharibə meydanında köməksiz qalan Azərbaycan türklərinin pərəm-pərəm düşməsi, müxtəlif yerlərə deportasiya olunmalarının üstündən sükutla keçir.

Aşağıda qeyd olunan cədvəldə Qafqaza köçürülən ermənilərin məskunlaşdıqları ərazilərə bir an nəzər salmaq kifayətdir (9, 39).

| Haradan köşürülmüşdür | Köçürülən ailələrin sayı | Harada məskünlaşmışdır |
|---|---|---|
| Ərzurumdan | 7288 | 1. 5000 ailə Axıskada (paşalığın ərazisində) |
| Ərdəbildən | 67 | 2. 1050 ailə Borçalı distansiyasında və Zalqa ətrafında |
| | | 3. 1305 ailə Pəmbək və Şörəyel distansiyalarında |

| | | |
|---|---|---|
| Qarsdan | 2464 | 1. 2264 ailə Pəmbək və Şörəyel distansiyalarında |
| | | 2. 200 ailə Talın mahalında |
| Bayaziddən | 4215 | Erməni vilayətində - Göyçə gölü ətrafında, Baş Abaranda |
| | | |
| Cəmi | 14044 ailə | |

Sənədin bu cədvələ əlavə edilən qeydində göstərilir ki, heç də digər yerlərdəki nümayəndələrin hamısı tam və dəqiq hesabat təqdim etmədikləri üçün neçə nəfərin köçürüldüyü göstərilməmişdir. Əgər bir ailədə orta hesabla altı nəfər götürülsə, nəticədə 84 mindən artıq erməni və yunanların köçürüldüyü məlum olur. Bəzi erməni tarixçiləri köçürülənlərin 90 mindən artıq, bəziləri isə 100 minə yaxın olduğunu göstərirlər. Cədvəldən o da aydın olur ki, erməniləri ancaq türklərin sıx yaşadığı yerlərə məskünlaşdırmışlar.

Ermənilərin İrandan köçürülməsi zamanı fəallıq göstərən hərbiçilər və din xadimləri mükafatlandırıldıqları kimi, Türkiyədən köçürülmələr zamanı xidməti olanlar da mükafatlandırılmışdılar.

Ərzurumdan ermənilərin köçürülməsi işindəki xidmətlərinə görə 1830-cu il oktyabrın 20-də arixiyepskop Karapet 1-ci dərəcəli Müqəddəs Anna ordeni ilə təltif edilmişdi. Sonralar İmperator I Nikolay 1837-ci ilə Axıskaya gedərək



Karapetlə görüşmüş, həmin xidmətinə görə ona öz minnətdarlığını bildirmişdi.

İmperatorun fərmanı ilə 1831-ci il aprelin 24-də Türkiyədən köçürülən ermənilərin təsərrüfat ehtiyaclarını ödəmək üçün verildiyi vaxtdan 4 il keçəndən sonra, 6 il müddətinə faizsiz olaraq qaytarmaq şərti ilə xəzinədən 380 min gümüş rubl ayrılmışdı.

Ümumiyyətlə, 1828-29-cu illər Rusiya-Türkiyə müharibəsindən sonra İ.Şopenin Erməni vilayətində (keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisində) apardığı siyahıyaalınmanın nəticələrinə görə, vilayətin ərazisinə 21666 nəfər (3682 ailə) erməni, 324 nəfər (67 ailə) yezidi kürdlərinin köçürüldüyü göstərilir, Köçürülən ermənilər Qırxbulaq, Sürməli, Talın, Körpübasar, Abaran, Dərəçiçək və Göyçə mahallarının 129 kəndində yerləşdirilmişdilər (9, 40).

İndiki Ermənistan ərazisinin Şorəel və Loru-Pəmbək bölgələri 1801-1805-ci illərdə Gürcüstana birləşdirildiyindən Erməni vilayətinə daxil edilməmişdi. 1829-cu ilə qədər, yəni Rusiya-Türkiyə müharibəsindən sonra ermənilərin rəsmi köçürülməsinə qədər Şörəyel-Pəmbək distansiyasına 1536 ailə (5425 nəfər kişi cinsi) köçürülmüşdü. Sonra isə Türkiyədən 3148 ailə (10575 nəfər kişi cinsi) köçürülmüşdü. 1832-ci ilin sonu, 1833-cü ilin əvvəlində Türkiyədən Zalqaya- Ağbulağa köçürülən

ermənilərdən 182 ailə (674 nəfər kişi cinsi) yenidən Şörəyel-Pəmbək distansiyasına köçürülmüşdülər. Köçürülənlərin arasında 169 yunan və 963 nəfər erməni katolikləri (frankları) var idi. Şörəyel-Pəmbək bölgəsində 100-ə yaxın kənddə Türkiyədən köçürülən ermənilər yerləşdirilmişdilər. Şörəyel bölgəsinin (Gümrü ətrafı – indiki Axuryan rayonu) əhalisinin vaxtilə Türkiyədən köçürülən ermənilərdən ibarət olması haqqında Z.Balayan "Ocaq" kitabında yazır: "Demək olar ki, bu bölgənin bütün əhalisi Qars, Van, Muş və Bidlisdən, Qərbi Ermənistanın bir çox əyalətlərindən olan bədbəxt qaçqınlardan ibarətdir. . Hesablanmışdır ki, vaxtilə Axuryan rayonunda (keçmiş Düzkənd rayonu) Qərbi Ermənistanın 80-dən artıq yaşayış məskənindən türk yatağanından (əyri qılmcından) xilas olan ermənilər gəlib məskunlaşmışlar". (73, 121). Mənfur Z.Balayan "Ocaq" kitabında bu bölgənin əhalisinin bütünlüklə Türkiyədən gələn ermənilərdən ibarət olmasını qeyd etməklə, həmin ərazidə vaxtilə türklərin məskunlaşmış olduğunu bilavasitə təsdiq etmiş olur. Bununla belə, ermənilər Türkiyə vətəndaşı olsalar da, ruslara satqınlıq etmələri öz ölkələrinə xəyanətcəsinə yanaşmaları haqqında Z.Balayan susur (73, 273).

İndiki Ermənistan ərazisinə ermənilərin kütləvi axını 19-cu əsrin əvvəllərində baş verən Rusiya-İran, Rusiya-Türkiyə müharibələrindən sonra da davam etmişdir. Həmin dövrdə



ermənilərlə yanaşı, aysorilər, yunanlar, yezdi kürdlər də gəlib indiki Ermənistan ərazilərində yerləşmişdilər. Düzdür, müsəlman kürdləri də köçmək arzusunda olduqlarını bildirirdilər, lakin rus rəhbərliyi buna qətiyyən icazə vermədi. Çünki, Qafqazda müsəlmanların sayı arta bilərdi. Bu isə rus hakimiyyətinin siyasətinə uyğun deyildir.

1834-cü ilin məlumatına görə İrəvan əyalətində Bayaziddən gəlmiş 1000 nəfər (təqribən 300 ailə) yezidi kürdləri məskunlaşdırmışdılar. Lakin ermənilər yezidi kürdlərə qarşı da ayrıseçkilik etmişlər. 1980-ci illərin axırlarında yezidi kürdlər də məcbur olub Şimali Qafqaz və Qırğızıstana köç etmişlər.

Ələyəz dağının ətəyində, bir sıra boşalmış türk kəndlərində də Türkiyədən gələn yezidi kürdləri məskunlaşdırmışlar. Yezidi kürdləri 1839-cu ildə Mirək, Quruboğaz, Carcarçı, Çobangərəkməz kəndlərində, sonralar isə Pəmbək, Qundaxsaz, Böyük Camışlı, Kiçik Camışlı və Korbulaq kəndlərində yerləşmişdilər. Nəhayət, yezidi kürdləri 1877-ci ildə Bağdad, Dolu-Taxt və Kiçik Cəngi kəndlərində gəlib yerləşmişdilər. Sonralar Ermənistanın rəsmi dairələri tərəfindən adları dəyişdirilən, lakin əsasən bu kəndləri əhatə edən Araqats (Ələyəz) rayonu təşkil edilmişdir. Onlar müsəlman olmadıqlarına görə Qafqaza köçürülmüşlər.

İndiki vəziyyətdə Ermənistanda qalan yezidi kəndlərin

çoxu ermənіləşdirilmişdir. Buna baxmayaraq Suriyadakı son hadisələrdə ermənilər İŞİD tərəfindən mühasirəyə alınan Kobani yezidi kürdlərinin müdafiəçisi kimi özlərini göstərir, mətbuatda yenə Türkiyəni günahlandırırlar. Halbuki Türkiyə 2 milyondan çox Suriya qaçqını öz ölkəsində yerləşdirərək onlara hər cür humanitar köməklik göstərməkdədir.

Yezidi kürdlərə qarşı ermənilərin pis münasibətlərinin omasına baxmayaraq onlar dünya ictimaiyyətini aldadaraq Elmlər Akademiyasında kürd mərkəzi açmış, hətta 2010-cu ildə İrəvanda kürdlərin dil və tarixləri ilə bağlı elmi konfrans keşirmişlər. Konfransın dili erməni və kürd dillərində olmuşdur.

Türkiyədən köçürülən yunanlar isə əsasən Şörəyel-Pəmbək distansiyasının Alakilsə, Bayandur, Sisimədən kəndlərində və Gümrüdə yerləşdirilmişdilər. Sonralar yunanlar Ermənistanda tamamilə assimilyasiyaya uğrayaraq tədricən ermənіləşmişlər. Bununla belə, onlar mədən, tunelqazma işlərində, daş karxanalarında ağır işlərdə çalışırdılar.

Gürcüstanın Zalqa rayonunda yerləşdirilən yunanlar isə tədricən öz dillərini unutmuş, hələ də türk dilində danışırlar. Lakin onlar rus məktəblərində oxuyurdular. Gürcüstanda 1990-cı ilin axırlarında rus məktəbləri bağlanmış, onlar gürcü dilində olan məktəblərdə oxumaqdan imtina etmişlər. Ona görə də 90-cı illərdə onların çoxu Yunanıstana köç etmişlər.



Ümumiyyətlə, 1826-1828-ci illər Rusiya-İran və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələrindən sonra Erməni vilayətinə (İrəvan və Naxçıvan xanlıqlarınn ərazisinə) İran və Türkiyədən 57266 nəfər erməni (10631 ailə) köçürülmüşdü. Köçürülmələrdən əvvəl həmin ərazidə cəmisi 25131 nəfər (4428 ailə) erməni yaşamışdır. Müharibələrin nəticəsində İrəvan və Naxçıvan xanlıqlarının ərazisindən türklərin xeyli hissəsi qaçqın düşmüş, orada yalnız 81749 nəfər (17078 ailə) müsəlman qalmışdı. Köçürmələrdən sonra isə ermənilər 82397 nəfər (15059 ailə) təşkil etmiş, nəticədə müsəlmanları sayca üstələmişdilər.

Lakin hələ 19-cu əsrin əvvəlində Rusiyanın müəyyən dairələri rus ordusunun Zaqafqaziyada işğal etdiyi ərazilərdə təkcə erməniləri deyil, məhz rus koloniyalarının-kazakların, malakanların, duxoborların və s. yerləşdirilməsinə üstünlük verirdilər. Bu məqsədlə bir neçə layihə hazırlanmışdısa da, sonralar icrası təxirə salınmışdı. Buna baxmayaraq, 1830-cu ildən ta 1917-ci ilədək Cənubi Qafqazdan İran və Türkiyəyə uzanan hərbi yolların kənarında rus koloniyaları yerləşdirilmişdir. Hərbi yolların kənarında yerləşdirilən rus koloniyaları həm yerli əhalinin etnik tərkibini dəyişdirir, həm də gələcəkdə ehtimal olunan Türkiyə və İranla müharibədə onların rus ordusuna köməkliyi nəzərdə tutulurdu. Bu köməklik nədən ibarət olmalı idi: rus ordusunu əsgər, minik və ərzaqla təmin etsin. Yaralılara

tibbi yardım göstərsin. Relyefi bildiklərinə görə bələdçilik etsin və s. Sonrakı müharibələrdə bunların hamısı gerçək oldu. İrəvan qubernuyasına rusların köçürülməsini aşağıdakı cədvəldən də görmək olar[1]:

| **№** | **Yaşayış məntəqəsinin adı** | **XIX əsrin 30-80-ci illərində köçürülənlər** | **XIX əsrin 80-ci illərindən, XX əsrin əvvələrində köçürülənlər** | **1905-1917-ci illərdə köçürülənlər** |
|---|---|---|---|---|
| *1* | *2* | *3* | *4* | *5* |
| 1 | Aleksandrovka (İrəvan quberniyası, Yeni Bayazid qəzası) | 158 | 299 | 366 |
| 2 | Aşağı Axta (İrəvan quberniyası, Yeni Bayazid qəzası) | 350 | 574 | 450 |
| 3 | Bazarçay (Yelizavetpol quberniyası, Zəngəzur qəzası) | 469 | 623 | 878 |
| 4 | Voronsovka (Tiflis Quberniyasının Borçalı qəzası) | 2284 | 3325 | 3510 |

[1] *Bu faktlar D. İsmayılzadənin «Русское крестьянство в Закавказье» əsərindən (M., 1982 s. 289-302) götürülmüşdür.*



| | | | | |
|---|---|---|---|---|
| 5 | Voronsovka (İrəvan quberniyasının Aleksandropol qəzası) | 453 | 698 | 861 |
| 6 | Qorlovka, Gərgər Rus (Tiflis Quberniyasının Borçalı qəzası) | 510 | 830 | 810 |
| 7 | Yeni Dilican (Yelizavetpol quberniyasının Qazax qəzası) | 390 | 598 | 710 |
| 8 | Calaloğlu Rus (Tiflis Quberniyasının Borçalı qəzası) | 268 | 585 | 812 |
| 9 | Yelenovka (İrəvan quberniyası, Yeni Bayazid qəzası) | 1226 | 1606 | 1794 |
| 10 | Konstantinovka (Dərəçiçək, İrəvan quberniyası, Yeni Bayazid qəzası) | 226 | 499 | 632 |
| 11 | Nadejdin (Şorjalu), İrəvan Quberniyanın Yeni Bəyazid qəzası | 226 | 429 | 581 |
| 12 | Nikitino (irəvan quberniyasının | 504 | 826 | 1050 |

| | | | | |
|---|---|---|---|---|
| | Aleksandropol qəzası) | | | |
| 13 | Novo Mixaylovka (İrəvan quberniyasının Yeni Bəyazid qəzası) | - | - | 355 |
| 14 | Novo Mixaylovka (İrəvan quberniyasının İrəvan qəzası | 156 | 215 | 315 |
| 15 | Semyonovka (İrəvan quberni-yası, Yeni Bayazid qəzası) | 338 | 469 | 529 |
| 16 | Suxoy Fontan (İrəvan quber-niyası, Yeni Bayazid qəzası) | 143 | 206 | 238 |
| 17 | Borisovka (Sisian) | 105 | 30 | 135 |
| 18 | Bicənək (Naxçıvan) | 80 | 20 | 100 |

N.N.Şavrov Rusiyanın Zaqafqaziyadakı müstəmləkəçilik siyasəti haqqında yazır: "Biz müstəmləkəçilik fəaliyyətimizə Zaqafqaziyada rusların deyil, bizə yad olan xalqların yerləşdirilməsindən başladıq... 1826-28-ci illər müharibəsinin qurtarmasından sonrakı iki il ərzində 1828-ci ildən 1830-cu



ilədək Zaqafqaziyaya 40 min İran və 84 min Türkiyə ermənilərı köçürmüş və onları Yelizavetpol (Gəncə) və İrəvan quberniyalarının ən yaxşı dövlət torpaqlarında yerləşdirmişdik ki, orada erməni əhalisi cüzi idi. Onları həmçinin Tiflis quberniyasının Borçalı, Axıska və Axılkələk qəzalarında yerləşdirdik, onların yerləşdirilməsi üçün 200 min desyatindən artıq dövlət torpağı ayrılmış, 2 milyon rubldan artıq məbləğdə müsəlmanlardan xüsusi mülkiyyət torpaqları satın alınmışdı. Yelizavetpol quberniyasının dağlıq hissəsi (Dağlıq Qarabağ, Xanlar və Şəmkir rayonları nəzərdə tutulur – red.) və Göyçə gölünün sahili həmin ermənilərlə məskunlaşdırılmışdı. Nəzərə almaq lazımdır ki, 124 min rəsmi köçürülən ermənilərlə yanaşı, qeyri-rəsmi şəkildə köçənlər də çox olmuşdur və ümumiyyətlə, köçənlərin sayı 200 min nəfərdən xeyli artıqdır (68, 63).

Erməni müəllif A.Poğosyan etiraf edir ki, 1877-1878-ci illərdə rus-türk müharibələrində Türkiyənin məğlubiyyəti ilə əlaqədar olaraq ermənilərin kütləvi şəkildə Qars vilayətinə köçürülmələri də regionun etnik tərkibini dəyişdirmək məqsədi güdürdü. 27 dekabr 1878-ci ildə Qars vilayəti yaradıldıqdan sonra türklər müxtəlif yerlərə deportasiya olunur, kəndlərə rus, erməni, latış, eston və digər millətlər yerləşdirilirdi (65, 63, 69).

Ermənilərin indiki Ermənistan ərazisinə axını 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsindən sonra bir daha

güclənmişdi. 90-cı illərdə Türkiyədə baş verən erməni üsyanları nəticəsində 400 minə yaxın erməni yenə də Qafqaza köçüb gəlmişdi (54, 2).

N.Şavrov qeyd edir ki, 20-ci əsrin əvvəlində Zaqafqaziyada yaşayan 1.300.000 ermənidən bir milyonu yerli əhali deyil, rusların vasitəsilə başqa yerlərdən gətirilərək Cənubi Qafqazda məskunlaşdırılmışlar. (68, 73).

1880-cı ildə "Qafqaz" qəzeti 2-ci sayında yazırdı ki, rusların simpatiyasından istifadə edən ermənilər köməksiz müsəlmanlara qarşı qırğınlar törədir, ona görə də onlar rusların işğal etdiyi ərazilərdən köçməyə məcbur olurdular (65, 121).

N.N.Şavrov daha sonra qeyd edir ki, 1864-1876-cı illərdəki Krım müharibəsi, 1877-1878-ci illərdəki rus-türk müharibələri zamanı və 1893-1894-cü ildə Türkiyədə üsyanlar törədən – 90 min nəfər ermənini yenə də knyaz Q.Qolitsin Qafqaza gətirdi (68, 64).

Əsas əhalisi tam Azərbaycan türklərindən ibarət olan Ağbaba mahalı 1921-ci ilin Qars müqaviləsinə görə Şura hökuməti tərəfindən icad ediiən "Ermənistan"a qatılmışdır. Halbuki Ağbaba həmişə Qars sancağı, Qars paşalığı, Qars bəylərbəyliyi və Qars vilayətinin tərkibində mahal, qəza və ya nahiyyə inzibati vahidi kimi fəaliyyət göstərmişdir (49, 70, 84).



XIX əsrin əvvəllərində müasir Amasiya və Qızılqoç (Qukasyan) rayonlarının ərazilərini əhatə edən Ağbaba mahalında son dövrlərdə, yəni 1988-ci ildə əhalisinin 85%-ni azərbaycanlılar təşkil edən Amasiya rayonunun 23 kəndində 23 min azərbaycanlı yaşayırdı.

Ağbaba mahalı Qızılqoç (Qayqulu) eli ilə birlikdə indiki Ermənistanın ən böyük ərazisini əhatə edirdi. Z.Korkodyan statistik sənədlərə və tarixi hadisələrə real yanaşaraq göstərirdi ki, mahalda 77 kənd olmuşdur. Rusiya-Türkiyə müharibəsi nəticəsində Ağbaba mahalının 60 kəndi xarabalığa çevrilmiş, yerli sakinləri olan azərbaycanlıların bir qimi müharibədə həlak olmuş, bir qismi isə Türkiyəyə köçmüşdür. Beləliklə, Türkiyədə yaşayan ermənilərin bir qismini 1828-1830-cu illərdə Ağbaba mahalının ərazisində yerləşdirmişdir. 1828-1830-cu illərdə köçürülən ermənilər Aşağı Bəndovan (213 nəfər), Təknəli (153 nəfər), Toros kəndi (180 nəfər), İlli Qarakilsə (175 nəfər), Cızıxlar (174 nəfər), Böyük Şiştəpə (64 nəfər), Çorlu (18 nəfər), Cələb (206 nəfər) və Baytar (127 nəfər) kəndlərində məskunlaşdırılmışdır ki, bu da üst-üstə 1320 nəfər təşkil edirdi. 1873-cü ildən əlavə olaraaq köçürülən 5811 erməni Əlixan (230 nəfər), Başkənd (598 nəfər), Bavra (143 nəfər), Bozyoxuş (247 nəfər), Erməni Güllübulağı (151 nəfər), Dərəköy (135 nəfər), Düzxaraba (328 nəfər), Qayqulu Qazançı (351 nəfər), Üçüncü

Qarakilsə (323 nəfər), Qızılqoç (438 nəfər), Erməni Qızılkilsəsi (255 nəfər), Ciftəli (311 nəfər), Samurlu (165 nəfər), Kiçik Sarıyar (280 nəfər), Kefli (206 nəfər), Korbulaq (294 nəfər) kəndlərində yerləşdirilmişdir (18, 102-106).

Ağbaba mahalında 1897-ci ildə qeydə alınan 77 yaşayış məntəqəsində 24118 nəfər əhali yaşamışdır. Bunlardan 10359 nəfərini azərbaycanlılar, 13497 nəfərini ermənilər təşkil etmişdir. Ermənilər əsasən Arpaçayın bol tərəfinə 1830, 1850, 1875-ci illərdə yerləşdirilmişlər. (18, 18-20).

Məlumdur ki, 1877-1878-ci il rus-türk müharibəsində ruslar Qars sancağı və ona yaxın olan əraziləri (4 qəza, 1 nahiyyə, 280 kənd) işğal etdilər. Bundan sonra, 28 dekabr 1878-ci ildə Qafqaz hərbi dairəsinin baş qərargahına tabe edilən Qars vilayəti (4 dairə, 14 sahə, 238 kənd icması) yaradıldı. Mülki və hərbi işlər ordu komandanlığına tabe edildi. 1881, 1904, 1913-cü illərdə Qars vilayətinin inzibati-ərazi bölgüsündə müəyyən dəyişikliklər aparılsa da, Ağbaba nahiyyə və ya sahə kimi mövcud olmuşdur (49, 63, 67). Yeni inzibati-ərazi bölgüsünə görə Ağbaba süni olaraq iki hissəyə bölüşdürüldü. Belə ki sahəsi 23 kvadrat kilometr alan Arpa gölün və mənbəyini həmin göldən olan Arpa çayın (220 km) yuxarı hövzəsində yerləşən Azərbaycan türklərinin yaşadıqları kəndlər Ağbaba nahiyyəsinə, çayın sol tərəfi isə (Qayı Qulu eli) Aleksandropol (Gümrü) qəzasına daxil



oldu. Beləliklə, süni olaraq Ağbaba iki hissə bölüşdürüldü. Apalayın sol tərəfində olan onlarla kəndə (Qızılqoç və Düzkənd rayonları) hələ 1857-ci ildən ruslar İran və Türkiyədən gəlmə erməniləri yerləşdirmiş, yerli əhalini-türkləri isə müxtəlif yerlərə qaçqın salmışlar. Bu zorakılığın izləri müxtəlif mənbələrdə qalmaqdadır. Məsələn: Hələ, "Əkinçi" qəzeti 1875-ci ildə IX nömrəsində yazırdı ki, Şörəyel adlanan ərazidən qarapapaqları zorla İrana köçürürlər.

Ermənistan dövlət arxivində olan başqa bir sənəddə göstərilir ki, 2 may 1920-ci ildə Şörəyel qubernatoru daşnaq Karo Sasuni 15 nömrəli təliqə ilə, həm də təlaşla daxili işlər nazirliyindən Ağbaba türklərinə divan tutmaq üçün 400 nəfərlik silahlı dəstə göndərilməsini xahiş edir (12, 86).

Əsrlərdən bəri Qars sancağı, Qars paşalığı, rus işğalından sonra (1878-1918) Qars vilayətinə daxil olan Ağbaba mahalı Azərbaycan türklərinin toplu yaşadıqları bölgələrdən biri olmuşdur.

1886-cı ilin siyahıya alınmasına görə Zaqafqaziya ölkəsi Qars vilayətinin Ağbaba nahiyyəsində Azərbaycan türkləri yaşayan kəndlər üç icmada birləşdirilmişlər. Ağbaba nahiyyəsinin mərkəzi Böyük Təpəköy kəndi olmuşdur. Qarsa qədər olan məsafə isə 92 kilometr qeyd edilir. Pristav və nahiyyə rəisi (naçalnik) Böyük Təpəköy kəndində oturarmış. Statistik

hesabatı əks etdirən bu kitab 1893-cü ildə Tiflisdə çap olunmuşdur (67, 161).

Həmin mənbədə Azərbaycan türkləri yaşayan Ağbaba nahiyyəsində kəndlərin təsərrüfatları "tüstü" termini ilə qeyd edilmiş və əhalinin statistik sayı aşağıdakı kimi göstərilmişdir:

***1. Düzkənd kənd icması***

| | *Tüstü* | *Əhali nəfər)* |
|---|---|---|
| 1. Balıqlı | 33 | 205 |
| 2. Göllü | 31 | 204 |
| 3. Düzkənd | 50 | 348 |
| 4. İlanlı | 18 | 137 |
| 5. Qara Namaz | 37 | 285 |
| 6. Öksüz | 10 | 62 |
| 7. Sultanabad | 28 | 171 |
| 8. Təzəkənd | 17 | 129 |
| 9. Böyük Təpəköy | 32 | 199 |
| 10. Kiçik Təpəköy | 25 | 164 |
| 11. Xançallı | 31 | 178 |
| 12. Şiştəpə | 17 | 132 |
| ***Cəmi:*** | ***322*** | ***2214*** |

***2. Qarabulaq kənd icması***

| | *Tüstü* | *Əhali* |
|---|---|---|
| 1. Baxçalı | 21 | 162 |
| 2. Bəzirgan | 31 | 183 |
| 3. Güllücə | 26 | 193 |
| 4. İbiş | 43 | 288 |
| 5. Qarabulaq | 26 | 185 |



| | | |
|---|---|---|
| 6. Qızıl Kilsə | 30 | 210 |
| 7. Mustuqlu | 24 | 150 |
| 8. Ördəkli | 30 | 253 |
| 9. Söyüdlü | 11 | 73 |
| 10. Seldağılan | 30 | 231 |
| 11. Xozukənd | 30 | 222 |
| 12. Ellər Oyuğu | 31 | 232 |
| ***Cəmi:*** | ***302*** | ***2199*** |

***3. Mağaracıq kənd icması***

| | *Tüstü* | *Əhali* |
|---|---|---|
| 1. Amasiya | 33 | 274 |
| 2. Daşkörpü | 37 | 246 |
| 3. Qaraçanta | 47 | 348 |
| 4. Mağaracıq | 40 | 309 |
| 5. Mumuxan | 16 | 127 |
| 6. Sınıx | 18 | 130 |
| 7. Çaxmaq | 30 | 222 |
| 8. Bəzirgan | 56 | 250 |
| ***Cəmi:*** | ***221*** | ***1650*** |

***4. Qars vilayətinin Şörəyel dairəsinə daxil olan və Azərbaycan türkləri yaşayan kəndlər***

| | *Tüstü* | *Əhali* |
|---|---|---|
| 1. Molla Musa | 72 | 462 |
| 2. Bacıoğlu | 50 | 391 |
| 3. Ocaq Qulu | 74 | 557 |
| 4. Qara Kilsə | 64 | 410 |
| 5. Güllübulaq | 84 | 673 |
| 6. Qızıldaş | 47 | 194 |
| 7. Oxçuoğlu | 60 | 420 |

| | | |
|---|---|---|
| 8. Kınık | 48 | 386 |
| 9. Böyük Qımılı | 34 | 259 |
| 10. Kiçik Qımılı | 83 | 590 |
| *Cəmi:* | *616* | *4342* |

Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra Ağbaba yenə də Qars vilayətinin tərkibində qalırdı. Amma Gümrü müqaviləsindən sonra tərəflər Ağbaba kəndlərinin Gümrüyə yaxın olduğunu, əhalinin ticarət və nəqliyyat ehtiyaclarının guya asan həll olunacaqlarını nəzərə alaraq Ağbaba nahiyyəsinin 594, 75 kvadrat kilometr olan ərazisi yeni yaradılan Ermənistana – Aleksandropol qəzasına qatıldı. Halbuki bu bölgənin əhalisi 100% azərbaycanlı idi. Ağbaba, axırkələk, Axsqa və Batum eyni vaxtda Türkiyəyə verildi. Bu başqa siyasət idi. Ağbaba rayonlaşmaya qədər həmin qəzanın tərkibində qaldı. Ağbaba nahiyyəsi Aleksandropol qəzasının tərkibində olduğu vaxt idarəetmədə çalışan millətçi-daşnaq ermənilərin kobud rəhbərliyinə qarşı dəfələrlə xalqın etirazı olmuşdur. 1929-cu ilin noyabrında Qaraçanta kəndində Ağbaba nahiyəsinə daxil olan kəndlərdən gələn nümayəndələrin iştirakı ilə böyük konfrans çağrılır. Konfransda qəza rəisi M.Şişmaniyanın millətçiliyi İrəvandan gələn nümayəndələrin qarşısında kəskin tənqid edilir. Onun işdən çıxarılması məsələsinə baxılır və o, qəza rəisliyindən elə o konfransda qovulur.



Ağbaba nahiyyəsini əhatə edən kəndlər və Şörəyel dairəsinə daxil olan Oxçuoğlu, Güllübulaq kəndləri 1930-cu ildə yeni yaradılan Amasiya rayonu ərazisinə daxil edilmişdir. Qızıldaş, Bəzirgan, Kınık, Böyük Qımılı, Kiçik Qımılı, Qara Kilsə, Qızıldaş kəndləri sərhəd çəkilərkən Türkiyə ərazisinə qatılmışdır. Molla Musa, Ocaq Qulu, Bacıoğlu kəndlərinin də əhalisi Türkiyəyə köç etmiş həmin kəndlərə gəlmə erməniləri yerləşdirərək yeni yaradılan Düzkənd (1935, Axuryan) rayonuna daxil etmişlər.

Qars müqaviləsi bağlanandan sonra (1921), yeni yaradılan "Ermənistan"ın tərkibində həm də ermənilərin tabeliyində qalmaq istəməyən Mumuxan, Sınıq, Tezbahar, Arpa, Böyük Şiştəpə, Kiçik Şiştəpə, Sultanabad, Arpa, Söyüdlü, Mustuqlu, Baxcəli, Seldağılan, Kiçik Təpəköy, Xancalı, Bozqala, Ördəkli, Qönçəli, Təzəköy və s. Ağbaba kəndlərində yaşayan qarapapaqlar sərhədin çəkilməsinə etiraz edərək Türkiyəyə üz tutmuş, bir daha geri qayıtmamışlar. İndi Qars, Ərzurum, Cıldır, Ərdahan, Sarıqamış, İgdir və digər yerlərdə minlərlə ağbabalı yaşayır. Hətta keçmiş kəndlərinin adlarını orada yaşatmaqdadırlar. Sonralar Qızılqoç (1956, Qukasyan, 1990-Aşosk) rayonuna daxil edilən Böyük Şiştəpə, (1946, Medr Sepasar) və Kiçik Şiştəpə (1946, Pokr Sepasar) və Təzəköy (1956, Tazaqyuğ) kəndlərinə İran və Türkiyədən gəlmə erməniləri yerləşdirmişlər. Göstərilən

digər kəndlər isə xaraba qalmaqda idi. Daha doğrusu, digər rayonların erməni kəndlərinin yaylaq yerlərinə çevrilmişdir.

Əraziyə yaxın olan Qızılqoç, Düzkənd, Şörəyel və Axırkələk bölgələrindən Azərbaycan türkləri dəfələrlə erməni terrorunun qurbanı olmuş və ya 1830, 1850, 1878, 1918, 1948, 1988-ci illərdə dəfələrlə bu və ya digər formada deportasıya olunmuşlar. Ağbaba – yəni Amasiya rayonunun azərbaycanlılar yaşayan kəndlərinə ən yaxın ərazi azərbaycanlılar yaşayan Borçalı bölgəsi idi. Bu da 120 kilometrdən çox arada məsafə var idi. Qərbi Azərbaycanın Azərbaycan türkləri yaşayan Pəmbək bölgəsi ilə də 110 km aralı idi.

Daha sonralar, Sovet hakimiyyəti illərində, yəni 50-60-cı illərdə də xarici ölkələrdə yaşayan 100 mindən artıq erməni Ermənistana köçüb gəlmişdi. Daha doğrusu, Suriya, Livan, İraq, Misir, Fələstin və digər yerlərdən şirnikləndirilib Ermənistana gəlsələr də, ancaq sonralar gerçəkliyi görüb reşman oldular. Lakin gec idi, geri getməyə qoymadılar. Biz bu peşmançılığı yaşlı ermənlərdən dəfələrlə eşitmişik.

Bütün qeyd edilənlərdən o nəticəyə gəlmək olar ki, indiki Ermənistanda yaşayan ermənilərin sələflərinin demək olar ki, hamısı vaxtilə Cənubi Azərbaycandan və Türkiyədən, son dövrlərdə isə digər xarici ölkələrdən - əsasən Suriya, Fələstin, Yunanıstan, Livan, Krım, Bolqarıstan, Rumıniya və digər



yerlərdən köçüb gələnlərdən ibarətdir.

1823-cü ilə qədər Qarabağa gətirilən ermənilər sayəsində əyalətdəki ermənilərin ümumi sayı artıb 4366 ailəyə çatmışdır. Ermənilərin Qarabağa köçürülməsi ondan sonra da davam etdirilmişdir. 1825-1826 illərdə Rus-İran müharibəsi ərəfəsində 18000 erməni ailəsi Qarabağa gətirilib (indiki Dağlıq Qarabağa) yerləşdirilmiş və Marağalı, Çanyataq, Yuxarı Çaylı, Aşağı Çaylı və s. kəndləri yaradılmışdır. Digər qaynaq Zəngəzurda Ahlatian, Pirnahot və Şianatağ kəndlərindən başqa, bütün erməni kəndlərinin 1828-1829-cu illərində Qaradağdan, Görməli-Xoy və Salmasdan getmiş olduğunu qeyd etməkdədir.

1828-ci ildə rusların Qars və Şərqi Anadoluya – Bayazidə girməsiylə ermənilər türklərə olan gerçək duyğularını açıqladılar. O qədər irəli getdilər ki, Anadolunun başqa ölkələrini də işğal etməsi üçün rusları təşvik etdilər. Hətta 90 min erməni könüllüsü ruslarla birlikdə türklərə qarşı vuruşdular (33, 19).

18 fevral 1828 –ci ildə Rusiya ilə İran arasında imzalanan Türkmənçay sülh müqaviləsi əsasında 8249 erməni ailəsi Cənubi Qafqaza gətirilib İrəvan bölgəsinə, Qarabağ əyalətinə və Şamaxı qəzasına yerləşdirilmişdir. Ümumiyyətlə, Türkmənçay müqaviləsinin şərtləri əsasında bu müqavilədən sonra, bir neçə ay ərzində İrandan Azərbaycana 40 min erməni ailəsi gətirildi. Sonra isə Rusiya ilə Türkiyə arasında Ədirnə sülh müqaviləsinə (1829)

istinad olaraq 1828-1830-cu illər arasında çarizm Zaqafqaziyaya Türkiyədən 84000 erməni gətirib Yelizavetpol, İrəvan, Tiflis bölgələrinin Borçalı, Axırkələk və Axsqa qəzalarının ən yaxşı münbit və dağətəyi dövlət torpaqlarında yerləşdirirdi. Ermənilər Yelizavetpol quberniyasının bütün sahələrində deyil, bölgənin ancaq Göyçə Göldən başlayan dağlıq bölgələrinə paylaşdırılmışdılar. Ermənilərin yerləşdirilməsi Yelizavetpol bölgəsinin dağlıq bölgəsini, əsasən Qarabağın dağlıq qismini təşkil edirdi.

Yelizavetpol quberniyasının dağlıq bölgəsinə 124000 erməni rəsmən, bir qismi isə qeyri-rəsmi olaraq gətirilmişdir. 1828-1830-cu illərdə Yelizavetpol quberniyasının dağlıq bölgəsinə 200000 erməni köçürülmüşdür. Krım müharibəsi illərində təəssüf ki, Zaqafqaziyaya gətirilən ermənilərin sayı qeydə alınmamışdır. 1877-1879 Türk-Rus müharibəsi illərində Zaqafqaziyaya 85000 erməni gətirilmişdi. Bu müharibədən sonra Zaqafqaziyaya Türkiyədən arası kəsilmədən ermənilərin ailəvi və fərdi köçmələri davam etmişdir. Ən böyük köç isə 1893-1894-cü illərdə olmuşdur. 1894-cü ildə Türkiyədən Zaqafqaziyaya 90000, 1897-ci ildə 10000 erməni gəlmişdir. Artıq 1896-cı ildə Zaqafqaziyaya gələn ermənilərin sayı 900000-ə çatmışdır. 1908-ci ildə Zaqafqaziyaya gələnlərlə birlikdə ermənilərin sayı



1300000-ə çatmışdır ki, bunun da 1000000-unu çarizm xarici ölkələrdən gətirmişdir (54, 65).

Bununla belə, 1974 və 1986-cı illərdə İrəvanda çap olunan 12 cildlik "Ermənistan Sovet Ensiklopediyası"da Ermənilərin Azərbaycanın qədim torpaqlarına gəlmə olduqları barədə xeyli dəlil-sübut vardır. Bunlara diqqət yetirək :

| № | *Yaşayış məntəqəsinin əvvəlki adı* | *Yaşayış məntəqəsinin indiki adı* | *Yaşayış məntəqəsinin yerləşdiyi rayon* | *Xarici ölkələrdən köçürülən ermənilər* | *Səh* |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 1 | Ağkilsə | Kraşen | Düzkənd (Axuryan) | 1820-1825-ci illərdə Türkiyənin Qars və Basin əyalətlərindən | |
| 2 | Arıx Vəli | Lernut | Düzkənd (Axuryan) | 1812-ci ildə Türkiyənin Muş vilayətindən | |
| 3 | Arkameç | Arkameç | Qəmərli (Artaşat) | 1828-ci ildə İranın Səlmas və Xoy vilayətından | |
| 4 | Arkaşat | Arkaşat | Sərdarabad (Oktemberyan) | 1700-cü ildə Türkiyənin İğdır, Alaşkert və Bayazet əyalətlərindən | |
| 5 | Aşağı Qışlaq | Gedaşen | Qəmərli (Artaşat) | 1923-cü ildə İranın Səlmas vilayətlərindən köçürülüb | |
| 6 | Baqraşen | Baqraşen | Düzkənd (Axuryan) | 1830-cu ildə Türkiyənin Basenis | |
| 7 | Cacur | Cacur | Düzkənd (Axuryan) | 1828-1829-cu illərdə İranın Xunus vilayətindən köçürülüb | |
| 8 | Cəfərabad | Gedaşen | Sərdarabad (Oktemberyan) | 1917-1918-ci illərdə İranın Xoy, Türkiyənin Sürməli və Muş vilayətlərindən | |
| 9 | Cilica | Cilica | Allahverdi (Tumanyan) | 1828-1829-cu illərdə Türkiyənin Alaşkert, Ərzurum və Muş vilayətlərindən | |
| 10 | Cələb | Cradzor | Amasiya | 1829-1830-cu illərdə Türkiyənin Basin vilayətlərindən | |
| 11 | Bayandur | Bayandur | Düzkənd (Axuryan) | 1830-1850 Qars, Muş, Basin | |
| 12 | Ağcaqala | Bazmaberd | Talin | 1915-1918 Mosul, Muş, Sasun, Akbik | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 13 | Çlraqlı | Crarat | Düzkənd (Axuryan) | 1828-1829-cu illərdə Türkiyənin Alaşkert vilayətindən | |
| 14 | Yuxarı Qarxun | Crarat | Üçkilsə (Eçmiədzin) | 1918-1920-ci illərdə Türkiyənin Sürməli vilayətindən | |
| 15 | Güllücə | Craşen | Hamamlı (Spitak) | 1828-1829-cu illərdə Türkiyənin Mjuş vilayətindən | |
| 16 | Dərəçiçək | Dzaxkadzor | Axta (Razdan) | 1828-1829. İrandan və Türkiyədən | |
| 17 | Avdibəy | Dzaxkanel | Hamamlı (Spitak) | 1829-cu ildə Türkiyənin Diadin vilayətindən | |
| 18 | Hacı Dursun | Dzaxkasar | Allahverdi (Tumanyan) | 1831-ci ildə Türkiyənin Alaşkert, Qars və Muş vilayətləri | |
| 19 | Haytağ | Haytağ | Üçkilsə (Eçmiədzin) | 1830-cu ildə İranın Urmiya vilayətindən | |
| 20 | Kaftarlı | Panik | Ərtik (Artik) | 1810-cu ildə Türkiyənin Alaşkert vilayətindən köçürülüb | |
| 21 | Keşkənd | Yeğeqnadzor | Dərələyəy (Yeğeqnadzor) | 1829-cu ildə İranın Xoy və Salmas vilayətlərindən 500 erməni köçürülərək indiki Yeğeqnadzor rayonunun Malişka Keşişkənd (Yeğeqnadzor), Başkənd (Vernaşen) Əyar (Akarakadzor), Qotur (Gedap), Şatin, Erdapin (Yeğeqis). Qaraquluğ. Dərətumpkəndlərinə yerləşdirilib | |
| 22 | Kəvər | Kamo | Kəvər (Kamo) | 1830-cu ildə Türkiyənin Bayazet vilayətindən | |
| 23 | Küzəcik | Lancaxbyur | Kəvər (Kamo) | 1828-1829-cu illərdə Türkiyənin Bayazet və Alaşkert vilayətlərindən | |
| 24 | Məsdərə | Məsdara | Talin | 1829-cu ildə Türkiyənin Alaşkert və Muş vilayətlərindən köçürülüb | |
| 25 | İmancalı | Mıxşyan | Qəmərli (Artaşat) | 1828-ci ildə İranın Xoy və Salmas vilayətlərindən | |
| 26 | Mustuqlu | Lancik | Ağin (Ani) | 1840-cı ildə Türkiyənin Alaşkert vilayətindən | |
| 27 | Mülki | Mülki | Abaran | 1829-1830-cu illərdə İrandan | |
| 28 | Saçlı | Noraşen | Abaran | 1829-1830-cu illərdə İrandna | |
| 29 | Cadıqıran | Nor Kyank | Artik | 1828-1829-cu illərdə Türkiyənin Qars və Xunus vilayətlərindən köçürülüb | |



| | | | | | |
|---|---|---|---|---|---|
| 30 | Ostan | Ostan | Qəmərli (Artaşat) | 1828-1829-cu illərdə İranın Xoy və Salmas vilayətlərindən | |
| 31 | Qaraboya | Xınkoyan | Hamamlı (Spitak) | 1827-1828-ci illərdə Türkiyənin Basin və Muş vilayətlərindən | |
| 32 | Qaralar | Aralez | Dəvəli (Ararat) | 1915-ci ildə Türkiyənin Van vilayətindən | |
| 33 | Qarakilsə | Lernahovid | Kalinino | 1869-1870-ci illərdə Türkiyənin Ərzurum və Muş vilayətlərindən | |
| 34 | Qaranlıq | Martuni | Qaranlıq (Martuni) | Ermənistan Rusiyaya birləşdikdən sonra 1828-ci Türkiyənin Alaşkert, Muş, Diadin və İğdır vilayətlərindən 5000 nəfər olmaqla 600 erməni ailəsi indiki Martuni rayonunun ərazisinə | |
| 35 | Quləli | Karmravan | Kəvər (Kamo) | 1831-ci ildə Türkiyənin Bayazet vilayətindən | |
| 36 | Palıdlı | Arpeni | Qızılqoc (Qukasyan) | 1850-1860-cı illərdə Türkiyənin Alaşkert vilayətlərindən köçürülüb | |
| 37 | Göyyoxuş | Saralanc | Artik | 1828-1829-cu illərdə Türkiyənin Qars və Ərzurum vilayətlərindən | |
| 38 | Qotur | Saramedz | Hamamlı (Spitak) | 1828-1829-cu illərdə Türkiyənin Basin vilayətindən köçürülüb | |
| 39 | Samurlu | Sarapat | Qızılqoç (Quqasyon) | 1828-1829-cu illərdə Türkiyənin Basin vilayətindən | |
| 40 | İmirxan | Saratak | Artik | Ermənilər bu kəndə 1828-1829-cu illərdə Türkiyənin Basenis vilayətindən | |
| 41 | Sərçəped | Sarçaped | Kalinino | 1835-1840-ci illərdə Türkiyədən | |
| 42 | Dərəkənd | Baqravan | Ani | Ələşkert, Muş, Bulanıx 1828-1829 | |
| 43 | Ləmbəli | Baqrataşen | Barana (Noembeyran) | 1831. leytundan 11nəfər | |
| 44 | Badaşxan | Badaşxan | Babək | 1828 İranın Səlmas mahalından | |
| 45 | Ellər | Abovyan | Ellər (Abovyan) | 1873. 1960-70 İran | |
| 46 | Yuxarı Agbaş | Abovyan | Qəmərli (Ardaşat) | 1828-1829 Səlmas | |
| 47 | Kərimarx | Sovetakan | Sərdarabad (Oktemberyan) | 1918-1920-ci illərdə İrandna köçürülüb | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 48 | Qulucan | Spandaryan | Ərtik (Artik) | 1828-1829-cu illərdə Türkiyənin Basenis və Taronis vilayətindən | |
| 49 | Alılı | Şağat | Sisyan | 1829-cu ildə İranın Mərəzə, Xoy və Salmas vilayətlərindən | |
| 50 | Şatin | Şatin | Dərə Ələyəz (Yeğeqnadzor) | 1829-cu ildə İranın Salmas vilayətindən | |
| 51 | Tapanlı | Geğasar | Hamamlı (Spitak) | 1826-1827-ci illərdə Türkiyənin Basin vilayətlərindən | |
| 52 | Təzəkənd | Norgyuğ | Ellər (Abovyan) | 1829-1830-cu illərdə İranın Xoy vilayətindən | |
| 53 | Toparlı | Hatsik | Düzkənd (Axuryan) | 1820-ci ildə Türkiyənin Basin, Qars və Muş vilayətindən | |
| 54 | Yaycı | Zovaber | Sevan | Ermənilər bu kəndə 1830-cu ildə İranın Maku vilayətindən köçürülüb | |
| 55 | Yelqovan | Kotayk | Ellər (Abovyan) | 1831-ci ildə Türkiyənin Bayazet və Alçavaziq vilayətlərindən | |
| 56 | Yuxarı Xatunarx | Aknaşen | Üçkilsə (Eçmiədzin) | 1828-ci ildə İranın Xoy və Salmas vilayətindən | |

**Mənbə:** cədvəl 12 cildlik "**Ermənistan Sovet Ensiklopediyası**" (erməni dilində) kitabı (İrəvan, 1974-1986) əsasında (III c., 1977, s 21-22, 263, 502; IV c., 1978, s.152, 485, 584; V c., 1979, s 61, 110-111, 206, 336, 638,675;VI c., 1980, s. 162, 327; VII c., 1981, s.28, 275, 353, 638; VIII c., 1982, s. 65, 76, 116, 352, 359,376, 437, 480, 640; IX c., 1983, s. 478, 514, 529, 537-538; X c.,1984, s.211, 213, 242, 517; XI c., s. 54, 403; XIIc., 1986, s.297, 306, 376) tərtib edilmişdir.

*Göründüyü kimi, göstərilən lüğətlərdə ermənilərin Cənubi Qafqaza haradan və neçənci illərdə gəlmələri haqqında olan məlumatları maraq doğurur. Ermənilərin özlərini Qafqazın*



*yerli xalqı adlandırılmaları, uydurma konsepsiyalarını belə mənbələr əsassız sayır və onların Azərbaycan ərazilərinə gəlmə olduqlarını təsdiq edir.*

Əlbəttə, Ermənilərin Cənubi Qafqaza, eləcə də Qərbi Azərbaycana gəlmə olduqları, həm də böyük bir siyasətin qurbanına çevrildikləri erməni mənbələrində tarixi faktlara uyğun olaraq açıq-aşkar göstərilir. Belə ki, Erməni vandalizmi və erməni saxtakarlığını ifşa edən elə kitablar, elə mənbələr vardır ki, onların müəllifi ermənilərin özüdür. Məsələn, 1986-1990-cı illərdə İrəvan Dövlət Universitetində 4 cildlik "Ermənistan və ona yaxın olan ərazilərin toponimlə lüğəti" kitabının çapı nəzərdə tutulmuşdur. Akopyan T.X., Melik-Baxışyan S.T. və O.X. Barseğyanın müəllifliyi ilə "A" , "B", "D" və "Q" hərflərini əhatə edən I cild (992 səh) 1986-cı ildə nəşr olunmuşdur. Kitabın cildində əks olunan "ona yaxın olan ərazilər" ifadəsində mənfur ermənilərin üstüörtülü şəkildə "Böyük Ermənistan" xülyası nəzərdə tutulmuşdur. Yoxsa nəyə lazım idi ki, azərbaycan və Gürcüstan ərazilərindəki yaşayış məntəqəsi adlarının (oykonimlərin) və relyef adlarının- oronimlərin səhv yozumunu verərək özününküləşdirsinlər. Məsələn, 186-cı səhifədə Ağstafa oykoniminin "Ağa Stepan" kimi erməniləşdirmək nəyə lazımdır. (71, 186). Bu elmi saxtakarlıq deyilmi?

Bundan başqa, həmin lüğətin 735-ci səhifədə göstərilir ki, guya Borçalı toponimi XVIII əsrdə fars Şah Abbas (fikir ver

fars Şah Abbas) borçalı adlı türk tayfalarını ora yerləşdirmiş və toponim həmin tayfanın adını əks etdirir. Buna sözümüz yoxdu. Bəs Şah Abbasın fars olması fikri, əhalinin XVIII əsrdə Borçalıya yerləşdirilməsi qərəzli saxtakarlıq deyil, bəs nədir? Halbuki gürcü mənbələrində belə Borçalı və Baskeçid ərazilərində qıpçaq türklərinin VII əsrdən əvvəl yaşadıqları qeyd olunur. Lüğətə daxil edilən yüzlərlə məqalədə Azərbaycan türkləri yaşayan kəndlərin etnik tərkibi danılır. Bəzən də yaşayanların etnik tərkibi göstərilir, ötəri məlumatlar verilir. Məsələn, erməni kəndlərində doğulan şair, yazıçı, ictimai xadim və s. qeyd edilir, onlar haqqında şişirdilmiş məlumatlar verilir. Ancaq azərbaycanlılar yaşayan kəndlərdə doğulan məşhur adamlar haqqında heç bir məlumat verilmir. Azərbaycanlıların yalnız məşquliyyəti göstərilir. Bir çox halda Azərbaycanlılar yaşayan kəndlərdə guya qədim erməni qəbristanlıqların və qalalarının olduğu qeyd edilir. Saxtakarlıq və təhriflərlə dolu olan lüğətdən daha bir misal çəkək. Məsələn:

Sörəyel vadisində, Gümrü-İrəvan yolunun 20-ci kilometrində-sağ tərəfdə Əşnək kəndinin olduğu və bu kənddə 1831-ci ildən ermənilərin yaşadığı qeyd olunur. Oykonimi ermənilər təhrif edərək "Aşnak" formasında qeyd edirlər. Z.Korkodyan və İ. Şopenin qeydlərində və statistik hesabatlarında həmin kənddə azərbaycanlıların yaşadığı qeyd olunur.



1919-1920-ci ilədək Talin rayonuna aid olan Əşnək kəndində, eləcə də ona yaxın olan ətraf kəndlərdə Azərbaycanlılar yaşamış və daşnak hökumətinin vaxtında müxtəlif yerlərə qaçqın düşmüşlər. Onlardan 20 ailə o vaxt Qars vilayətinə aid olan Ağbabanın, Güllücə, Təpəköy və Çivinli kəndlərində qaçqın kimi yerləşmişlər. 1988-ci ilə qədər qohumluq münasibətələri olan həmin ailələr yuxarıda göstərilən kəndlərdə yaşamışlar. 1980-cı illərdə sinəsi zəngin folklor nümunələri ilə dolu olan Əşnəkli Tükəz xaladan yerli dialekti əks etdirən belə bir bayatı da qeydə almışdım:

*Əşnək, Əşnək budumu?*
*Harxı dolu sudumu?*
*Əşnəyi çox öyüllər.*
*Qız- gəlini budumu?*

Yuxarıda dediyimiz kimi, lüğətin tərtibində şovinist fikirlərə daha çox yer verilir. Kitaba daxil olan yüzlərlə məqalədə "türk yatağanı", "erməni soyqırımı" ifadələri işlədilmişdir. Lüğətdə əsas fikir budur ki, Qərbi Azərbbaycanda azərbaycanlıların avtoxton bir xalq olmalarını inkar etsinlər. Ancaq kitabdakı minlərlə məqalə bunu təkzib edir: ermənilərin haradan, neçənci illərdə, nə vəziyyətdə gəlmələrini və yaxud gətirildikləri dəlil sübutlarla təsdiq olunur. Bəlkə də həmin kitab bu gün çap olunsa idi, erməni müəlliflər "gəlmə" söz və ifadələri

çox işlətməzdilər. Lüğətdə verilən məqalələr erməni alimlərinin etiraflarıdır. Onların gəlmə olduqlarını təsdiq edən etiraflar.

***"Ermənistan və ona yaxın olan ərazilərin toponimlər lüğəti" (İrəvan, 1986, 1000 səhifə, ermənicə) kitabında 1828-ci ildən ta 1950-ci illərədək xarici ölkələrdən Qərbi Azərbaycana köçürülən ermənilər haqqında məlumat***

| № | *Yaşayış məntəqəsinin əvvəlki adı* | *Yaşayış məntəqəsinin ermənilər tərəfindən verilən uydurma adı* | *Yaşayış məntəqəsinin aid olduğu rayon* | *Xarici ölkələrdən köçürülən ermənilər nə vaxt və neçənci illərdə gəlmişlər* | *Səh.* |
|---|---|---|---|---|---|
| 1 | Avan | Avan | Ellər (Abovyan) | 1829-1832. Xoy və Səlmas vilayətlərindən | 356 |
| 2 | Abul | Abul | Qocabəy Gürcüstan | 1829.Ərzurumun kəndlərindən | 14 |
| 3 | Avan | Avan | Əstərək | 1918-1921.Sasun,Van, Bitliş və Muş vilayətlərindən | 356 |
| 4 | Aladağ | Aladağ | Axsqa | 1821. Ərzurumdan | 366 |
| 5 | Ağyar | Akarakdzor | Dərə Ələyəz | 1828-1829.Maku və Səlmas vilayətlərindən | 370 |
| 6 | Aşağı Aza | Aza | Ordubad | 1829. Marağadan | 380 |
| 7 | Alıqulukənd | Azatan | Gorus | 1897. Səlmasdan | 384 |
| 8 | Ağadağ | Azadek | Paşalı (Əzizbəyov) | 1828-1829.Səlmasdan | 371 |
| 9 | Atqız | Atqız | Qafan | 1915,1918. Bitlisdən | |
| 10 | Ağkula | Berkaşat | Ələyəz | 1915-1920.Turkiyədən | 679 |
| 11 | Alagöz (Camışlı) | Araqadz | Ələyəz | 1828-1829. Muş, Ayntap və Bitlisdən | 553 |
| 12 | Aladaban | Alataban | Axırkələk | 1830. Ərzurumdan | 551 |
| 13 | Alapars | Alpars | Axta (Hrazdan) | 1829-1830. Maku, Xoy, Səlmas, Ələşkert, Xozik vilayətlərindən | 552 |
| 14 | Axsqa | Axsqa | Axsqa | 1828.Ərzurumdan (13 min) | 541 |
| 15 | Axırkələk | Axalkalak | Axırkələk | 1829-1830.Ərdahan, Karin,Xinis vilayətlərindən | 542 |
| 16 | Axtala | | | 1887. Səlmasdan | 813 |
| 17 | Ağkənd | Aşotovan | Sisyan | 1828-1829. Xoy və Səlmas vilayətlərindən | 294 |



| | | | | | |
|---|---|---|---|---|---|
| 18 | Ağpara | Akpara | Hrazdan | 1829. Makudan | 375 |
| 19 | Agin | Ani | Ağin (Ani) | 1829-1830. Muş, Ələskert, Basin.1878.Qarsdan | 376 |
| 20 | Ağqala | | Kəvər (Kamo) | 1878 .Bayaziddən | 378 |
| 21 | Amasiya | Amasiya | Amasiya | 1878.Bayazid;1914-1918, Qars və Basendən | 460 |
| 22 | Ayazma | Akkor | Zalqa | 1829-1830.Ərzurum | 460 |
| 23 | Abaran (Kasak) | Kasak | Abaran | 1914-1918. Van, Muş, Ərəşkert, Xoy, Ərzurum vilayətlərindən | 464 |
| 24 | Asinqal | Astvazakal | Ecmiadrin (Üçkilsə) | 1829-1830 Sasun və Muşdan | 443 |
| 25 | Avşar | | (Dəvəli) Ararat | 1914-1918. Van və Çataxdan | 471 |
| 26 | Aragöl | Araqol | Qocabəy (Boqdanovka) | 1878. Bitlisdən | 483 |
| 27 | Arazan | Arazan | Naxçıvan | 1829-1830.İranın Bulaq və Mahabad mahallarından | 480 |
| 28 | Aravka | Aravka | Axırkələk | 1829-1890. Ərzurumun Cinis kəndindən | 481 |
| 29 | Adıyaman | Qarnovit | Talin | 1829-1830. Ərzurumun Cinis kəndindən | 794 |
| 30 | Ara | Ara | Ellər (Abovyan ) | 1829-1830. İranın Capar və Xırs kəndlərindən | 482 |
| 31 | Arqni | Aranzəmin | Əsgəran | 1829-1830.İranın Qaradag vilayətinin kəndlərindən | 795 |
| 32 | Arbat | Arbat | Zəngibasar | 1828-1829.Səlmasdan | 480 |
| 33 | Ağcaarx | Arevik | Hoktemberyan | 1828-1830. Səlmas və Xoy vilayətlərindən | |
| 34 | Aşağı Ağbaş | | Qəmərli (Artasat) | 1829-1830. Səlmas və Xoy vilayətlərindən | 490 |
| 35 | Arxakənd | Avrakan | Axta (Hrazdan) | 1828-1830 .Maku, Xoy, Bitlis, Bayazit vilayətlərindən | 484 |
| 36 | Arinc | Arinc | Şahbuz | 1828-1830. Səlmas və Xoy vilayətlərindən | 484 |
| 37 | Aşağı Alcalı (Qarasaqqal, Mollalı) | Artsvanist | Qaranlıq (Martuni) | 1828-1830.Ərəşkertin Qarsın və Muşun kəndlərindən | 481 |
| 38 | Aşağı Agcaqala | Bazmaberd Nerkin | Talin | 1915-1818. Muş vilayətlərindən | 545 |
| 39 | Atma | Arpaqyuğ | Avaran | 1830. Muş, Ərəşkert vilayətləri | 375 |
| 40 | Axtala | | | 1887. (Yunanlar) Bitlisdən | 473 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 41 | Axura | Axorot | Allahverdi (Tumanyan ) | 1897. Tiflisdən | 474 |
| 42 | Agxac (Cul) | Artavan | Əzizbəyov Dərə Ələyəz | 1829-1830. Səlmas və Xoy vilayətlərindən | 475 |
| 43 | Aşağı Badalı | Aşağı Badalı | Talin | 1873 Bitlis (119kürd) | 490 |
| 44 | Axta (Komur) | Komur | Dərə Ələyəz | 1828. Xoyun kəndlərindən | 842 |
| 45 | Aralıx Kolanı | Qriboedov | Ückilsə (Ecmiadzin) | 1828. Muşun kəndlərindən | 964 |
| 46 | Ağcaqala | Qetaşen | Qəmərli (Artaşat) | 1828-1830. Səlmas və Xoy vilayətinin kəndlərindən | 843 |
| 47 | Ağcaqışlaq | Qetamedz | Nairi | 1915- 1920.Bitlis, Muş, Bulanıq, Van,Malazkert vilayətlərinin kəndlərindən | 843 |
| 48 | Aşağı Adıyaman | Nerkın Qetaşen | Qaranlıq (Martuni) | 1828-1829. Ərəşkertin Torpaqqala kəndindən | 844 |
| 49 | Ağcaqışlaq | Qetap | Zəngibasar | 1918. Sürməlidən | 847 |
| 50 | Alıxan | Qetik | Qızılqıc (Qukasyan) | 1878 .Muş, Basen vilayətlərindən | 848 |
| 51 | Baharcıq | Arayi | Abaran | 1828-1830. Bulanıq, Muş və Ərəskertin kəndlərindən | 388 |
| 52 | Bayburt | Bayburt | Qəmərli (Artaşat) | 1829-1930. Bitlisin kəndlərindən | 587 |
| 53 | Baytar | Baytar | Amasiya | 1897-1918. Qarsın Gülseyran kəndindən | 589 |
| 54 | Baysız | Baysız | Talin | 1897. Türkiyənin müxtəlif yerlərindən (yezdi kürdləri) | 591 |
| 55 | Bayraməli | Bayraməli (Xaraba kənd) | Üçkilsə (Ecmiadzin) | 1873 .Türkiyədən (kürdlər) | 592 |
| 56 | Bəndovan (Aşağı) | 1951-ci ildə ləğv olunub | Amasiya | 1829. Qarsın Teqor kəndindən | 594 |
| 57 | Bəndovan (Yuxarı) | Bəndivan | Amasiya | 1916. Qars vilayətindən | 595 |
| 58 | Başkənd | Başqyuğ | Qızılqoç (Qukasyan) | 1830. Muş vilayətindən | 603 |
| 59 | Basköy | Baskoy | Zalqa (Gürcüstan) | 1830. Ərzurumdan (yunanalar) | 607 |
| 60 | Bavra | Bavra | Axırkələk | 1829. Ərdahan kəndlərindən | 614 |
| 61 | Bəbirli | Bardzrasen | Ani | 1880.Qazarabad; 1915-1920. Muş və Bulanıq ölkəsinin kəndlərindən | 592 |
| 62 | Beş nömrəli savxoz | Araks | Sərdarabad (Hokternberyan) | 1946-1950. Suriya, İran və Gürcüstandan | 209 |



| | | | | | |
|---|---|---|---|---|---|
| 63 | Bitlicə | Bardzraşen | Sisyan | 1828-1829. Xoy və Səlmas vilayətlərindən | 630 |
| 64 | Barsun | Barsum | Şəmkir | 1878. Türkiyənin ucqarlarından | 635 |
| 65 | Bəyli Hüseyn (Hüseynbəyli ) | Beqli | Nor Bayazid | 1878 . Bayaziddən | 650 |
| 66 | Beşdaş | Beşdaş | Zalqa | 1828-1829. Ərzurumun Beşdaş kəndindən | 656 |
| 67 | Berkaşad | Barkaşad | Sərdarabad (Hoktemberyan) | 1929-1928. Yunanıstan və İstanbuldan | 679 |
| 68 | Bunyadlı | Bunyadlı | Xocavənd | 1840. Qaradağ vilayətindən | 694 |
| 69 | Bozalı | Bozal | Axırkələk | 1830. Ərzurumun kəndlərindən | 716 |
| 70 | Bozburun | Bozbur | Talin | 1873.Sivaşdan | 718 |
| 71 | Boğmalı | Boqmal | Gərnibasan | İranın müxtəlif yerlərindən | 726 |
| 72 | Becene (q) | Bjni | Axta (Hrardan) | 1914 .Bayazid vəVan vilayətlərindən | 737 |
| 73 | Babakişi | Buyakan | Nairi | 1829-1831. Bitlis, Muş , Sasun,Xoy və Səlmas vilayətləridən | 747 |
| 74 | Başköy | Akunk | Ellər (Abovyan) | 1830. Səlmas,Xoy, Bayazid vilayətlərinin kəndlərindən | 146 |
| 75 | Babakişi | Agvanadzor | Axta (Hrardan) | 1829. Alaşkert vilayətindən | 159 |
| 76 | Bəykənd (Sultan) .... | Anuşavan | Ərtik | I Dünya müharibəsi illərində, İran, Türkiyə və Suriyadan | 287 |
| 77 | Badamlı | Badamlı | Şahbuz | 1828. Səlmas (10 ailə) | 538 |
| 78 | Bədaşxan | Bədaşxan | Naxçıvan | 1828. Səlmasdan (20 ailə ) | 538 |
| 79 | Badakənd | Badakənd | Şəmkir | 1880.İranın Qaradağ ölkəsindən | 539 |
| 80 | Boz Abdal | Bazum | Quqar | 1878. Səlmasdan | 549 |
| 81 | Böyük Aragöl | Araqol | Boqdanova | 1878. Ərdahandan | 380 |
| 82 | Balahovit | Balovit | Elıər (Abovyan) | Səlmas və Türkiyənin Balovit bölgəsindən | 552 |
| 83 | Balax | Balax | Sisyan | 1828-1829 .Xoy, Səlmas və Bitlisin Balakəsir ölkəsindəki kəndlərindən | 586 |
| 84 | Bayandır | Bayandın | Dürkənd (Axuryan) | 1828. Muş, Basin, Qars vilayətlərindən (ermənı və yunanlar) | 587 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 85 | Buqaşen | Buqaşen | Axırkələk | 1830. Ərzurumun kəndlərindən | 754 |
| 86 | Burnaşen | Burnasen | Axırkələk | 1830. Ərzurumun Örtük kəndindən | 758 |
| 87 | Burnaşen | Berduvan | Zalqa | 1830. Ərzurumdan | 758 |
| 88 | Başkənd | Qarni | Abovyan | 1897. Makudan | 793 |
| 89 | Boqutlu | Arteni | Talin | 1920. Artvindən | 502 |
| 90 | Bnunyant | Bnunyants | Sisıan | 1886. Əhlətdən | 713 |
| 91 | Başkənd | Artsvaşen | Qaraqoyunlu | 1859.Səlmasdan | 463 |
| 92 | Böyük Gilanlar | Qilanlar | Artaşat | 1950. Suriyadan | 862 |
| 93 | Coğaz | Berkavan | İcevan | 1831. Səlmas və Xoydan | 879 |
| 94 | Cobangərək məz | Avşen | Ələyəz (Arakadz) | 1850.Qars və Türkiyənin digər yerlərindən | 367 |
| 95 | Cilovxan | Beniamin | Axuryan | 1897. Bitlisdən | 370 |
| 96 | Cadalı (yuxarı) | Catal | Göycə | 1829. Muşdan | 121 |
| 97 | Ciqdamal | Arevaşad | Hamanlı (Spitak) | 1829. Makunun kəndlərindən | 420 |
| 98 | Cəfərabad | Arqavan | Zəngibasar (Masis) | 1897. Turkiyədən | 403 |
| 99 | Çaykənd | Qetaşen | Göygöl (Xanlar) | 1917-1918. Xoy, Muş, Sürməli vilayətlərindən | 844 |
| 100 | Dərəkənd | Baqravan | Ani | 1828-1829. Muş, Ələşkert, Bulanıq vilayətlərindən | 535 |
| 101 | Düzkənd | Baroj | Talin | 1887. Qars və Diqor vilayətlərindən (Kurdlər) | 633 |
| 102 | Düzkənd | Axuryan | Axuryan | 1878. Muş, Sebastiya, Ərəşkert vilayətlərindən | 126 |
| 103 | Dadaş | Dardeş | Axırkələk | 1829-1830. Ackala Muş və Qarsın kəndlərindən | 288 |
| 104 | Daharlı | Qetk | Düzkənd | 1828-1829. Muş və Qarsın kəndlərindən | 849 |
| 105 | Dəblər | Daıar | Qəmərli (Artaşat ) | 1828-1829. Xoyun kəndlərindən | 990 |
| 106 | Aşağı Zeyvə | Arataşen | Üçkilsə (Ecmiadrin) | 1828-1829 Səlmas və 1915-1916 Xoy Ərəşkert vilayətlərindən | 320 |
| 107 | Dəvəli | Ararat | Ararat | 1828-1829.Səlmas və Maku vilayətlərindən | 205 |
| 108 | Dəylaxlı | Arin | Dərə Ələyəz | 1949. Suriyadan | 443 |
| 109 | Əlibəyli | Atarbeykan | Üçkilsə | 1915-1920.Vandan;1946-İrandan | 51 |
| 110 | Əkənlər | Arevşad | Artik | 1821-1830. Sarıqamış,Van və Ərzurumdan | 428 |



| | | | | | |
|---|---|---|---|---|---|
| 111 | Ərəbkirli | Ərəbkir | Irəvan | 1878. Sürməli, İqdırdən | 376 |
| 112 | Ələyəz | Araqadz | Talin | 1873. Bitlisdən | 377 |
| 113 | Əliqrıx | Astğadroz | Megri | 1829-1830. Van və Ələşkert vilayətlərindən | 345 |
| 114 | Əşnək | Aşnak | Talin | 1914-1920. Sasun kəndlərindən | 294 |
| 115 | Əbdürəhman | | Ani | 1876. İranın müxtəlif yerlərindən | 361 |
| 116 | Evlilər | Ararap | Naxçıvan | 1829. İranın Mahabad və Bulanıq mahalından | 381 |
| 117 | Əkərək | Aqarak | Meğri | 1949. Makudan | 17 |
| 118 | Əkərək | Aqarak | Əstərək | 1915,1916. Bitlis, Van | 18 |
| 119 | Əkərək | Aqarak | Qafan | 1831.Xoy və Səlmas | 18 |
| 120 | Əkərək | Aqarak | Calaloğlu (Stepanavan) | 1831. Səlmasdan | 19 |
| 121 | Ərtik | Artik | Ellər (Abovyan) | 1873.Van; 1915.Qars və Bərkərdən | 825 |
| 122 | Əkərək | Aqarak | Düzkənd | I Dünya müharibəsindən sonra Krım, Yunanıstan və Suriyadan | 19 |
| 123 | Əşnək | Ashak | Talin | 1914,1920.Sasunun kəndlərindən | 294 |
| 124 | Haramoğlu | Aramus | Ellər (Abovyan) | 1828-1829. İranın Xoy və Capanlı bölgələrindən | 358 |
| 125 | Hacıqara | Ayqesad | Üçkilsə (Ecmiadrin) | 1829. Xoy və Səlmas vilayətlərindən | 228 |
| 126 | Hacıqara | Ayqesaq | Sərdərabad (Hoktemberyan) | 1929. Xoy vilayətindən | 228 |
| 127 | Gürcü yolu | Toros | Qızılqoc (Qukasyan) | 1829. Türkiyənin Toros bölgəsindən | 941 |
| 128 | Goran | Quqaran | Hamamlı | 1829. Muşdan | 942 |
| 129 | Cədik | Qoş | Karvansara (İcevan) | 1878. İrandan | 945 |
| 130 | Kiçik Qondara | Pokr Qondara | Qocabəy (Boqdanovka) | 1878. Ərzurumdan | 945 |
| 131 | Ortakənd | Qladzoz | Dərə Ələyəz (İlğeqnadzor) | 1828-1829.Səlmasın Soma kəndindən | 871 |
| 132 | Kərkər | Qarqar | Calaoğlu (Stepanavan ) | 1878. Türkiyədən | 879 |
| 133 | Künbəz | Qunbaz | Avaran | 1829-1830. Türkiyədən | 976 |
| 134 | Kuncqala | Qunc | Ellər (Abovyan) | 1829-1830. Ərzurumun Kunca kəndindən | 978 |
| 135 | Xatunarx | Qay (Aknaşen ) | (Ecmiadzin) Üçkilsə | 1828-1829. Səlmas vilayətindən | 978 |
| 136 | Qarahəmzə | Buratsan | Qəmərli (Artaşat) | 1830. Səlmasdan | 780 |
| 137 | Qarnıyarıq | Atarbeykan | Axta (Hrazdan) | 1831.Türkiyənin Sasun, Muş vilayətlərindən | 52 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 138 | Qarakilsə | Azatan | Düzkənd (Axuryan ) | 1828. Ərəşkert və Qarsın kəndlərindən | 40 |
| 139 | Qarğalı | Ayqerard | Qəmərli (Artaşat) | 1831. Səlmas və Qars kəndlərindən | 226 |
| 140 | Quzuğüdən | Ayqeşat | Sərdarabad (Hoktembeyran) | 1915. Suriya, İran, Muş və Sürməlinin kəndlərindən | 228 |
| 141 | Qulaməli | Ayqeşat | Qəmərli (Artaşat) | 1830.Səlmas və Xoy vilayətlərindən | 228 |
| 142 | Qəzənfər | Araqadz | Abaran | 1840.Iran və Səlmasın kəndlərindən | 377 |
| 143 | Qondara | Qondar | Boqdanovka | 1907. Ərzurumdan | 944 |
| 144 | Qotur | Araqadzotn | Əştərək | 1914,1920. İranın, Xoy və Səlmas vilayətlərindən | 379 |
| 145 | Qaracoran | Araqyuğ | Nairi | 1878,1914,1921. Bayazid, İqdır, Qars vilayətlərindən | 361 |
| 146 | Qarxun | Araks | Üçkilsə (Ecmiadzin) | 1915,1920. Sürməlinin kəndlərindən | 400 |
| 147 | Qaraqaia | Artsvabert | Şəmsəddin (Berd) | 1878. İaranın Qaradağ vilayətindən | 451 |
| 148 | Qoytul | Axunk | Talin | 1830. Qəzvin, Muş, Qars, Xolic vilayətlərinin kəndlərindən | 146 |
| 149 | Qapılı | Qusanqyuğ | Agin (Ani) | 1829. Ələskert, Muş, Bulanıq vilayətini kəndlərindən | 479 |
| 150 | Qışlax | Arevakar | Kəvər (Kamo) | 1829-1830. Bayazid | 453 |
| 151 | Qurdqulu | Armavir | Sərdarabad (Hoktemberyan) | 1897. Xoy, Sürməli, Muş, Ələşkert, Seniya | 467 |
| 152 | Qurumsulu | Bareqamavan | Barana (Noembeyran) | 1831. Sasun vilayətindən | 623 |
| 153 | Qalaca Qalaycı | Berdavan | Barana (Noembeyran) | 1831. Bitlis və Muş vilayətlərindən | 668 |
| 154 | Qaraxallı | Qeqanist | Qafan | 1831. Səlmas vilayəti | 824 |
| 155 | Qotur | Qetap | Dərə Ələyəz (Egeqnadzor) | 1828-1890. Səlmas vilayətindən | 846 |
| 156 | Qasıməli | Qetap | Ərtik | 1828-1830 .Ələşkert, Malazkert və Qars vilayətlərindən | 830 |
| 157 | Qırxbulaq | Akunk | Avaran | 1831. Səlmas, Bayazid və Xoy vilayətlərindən | 146 |
| 158 | Qılıcyataq | Nor Artik | Ərtik | 1897.Qars və Qarin vilayətlərindən | 442 |
| 159 | Qalakənd | Qedahovit | Karvansara (İcevan) | 1878. Səlmas və Xoy vilayətlərindən | 843 |



| | | | | | |
|---|---|---|---|---|---|
| 160 | Golqat Çətindərə | Qeqanist | Ərtik | 1828-1829. Muş, Xınıs və Ələskert vilayətlərindən | 828 |
| 161 | Türk Kümbət Göy Kümbət | Qeqanist | Zəngibasar (Masis) | 1831. İranın ucqarlarından | 825 |
| 162 | Kiçik Sofulu | Qeqi | Qafan | 1878. Xoy və Səlmasdan | 720 |
| 163 | Gədədağ | Qetataq | Sisyan | 1831. Xoy Səlmas | 842 |
| 164 | Göyçəli Başkənd | Qeqarkuni | Kəvər (Kamo) | 1914-1918. Bulanıq, 1831. Muş Ələskert vilayətləri | 826 |
| 165 | Kürdəli | Arşalyus | Üçkilsə (Ecmiadzin) | 1828-1829. Xoydan | 476 |
| 166 | Kiçik Aragol | Araqol | Boqdanovka | 1878. Ərzurumdan | 380 |
| 167 | Kürt | Bardraşen | Qorus | 1866. İranın kəndlərindən | 630 |
| 168 | Kosa Məmməd | Batikyan | Kəvər (Kamo) | 1830. Muş Ələskert Bayazit vilayətləri | 614 |
| 169 | Məlikkənd | Arqvi | Allahverdi (Tumanyan ) | 1878. Türkiyənin kəndlərindən | 412 |
| 170 | Muğancıq | Ayqedror | Qorus | 1888. Səlmasdan | 227 |
| 171 | Mosumlu | Ayberaq | Qəmərli (Artaşat) | 1828-1829. Xoy və Səlmas vilayətlərindən | 228 |
| 172 | Sultanbəy | Sultanbek | Dərə Ələyəz | 1829. Səlmasdan | 632 |
| 173 | Ocaxqulu | Arapi | Düzkənd | 1878. Qars vilayətindən | 321 |
| 174 | Sıcanlı | Avtona | Talin | 1873. Vandan (kürdlər) | 362 |
| 175 | Sobuncu | Araksavan | Qəmərli (Artaşat ) | 1828-1829. Xoy və Salmas vilayətlərindən | 401 |
| 176 | Soyulan (Paşalı) | Əzizbəyov | Əzizbəyov (Yeqenadzor) | 1897. Səlmas və Muş vilayətlərindən | 44 |
| 177 | Təkyə | Barmabyur | Əştərək | 1830. Muş, Xılat və Xoti kəndlərindən | 546 |
| 178 | Samaqar | Qedaqert | Üçkilsə | 1828. Xoyun Samaqar kəndindən | 821 |
| 179 | Titoy Xaraba | Bavro | Qazancı (Qukasya) | 1897. Türkiyənin ucqarlarından | 614 |
| 180 | Təzəkənd (Behbudabad ) | Ayntap | Zəngilan | II Dünya müharibəsindən sonra, İran, Suriya və Yunanıstandan | 235 |
| 181 | Təzəkoy | Tazaqyuğ | Qazancı (Qukasya) | 1920. Sivasdan | 236 |
| 182 | Ağkənd | Aşotavan | Sisyan | 1828-1829. Xoy və Səlmasdan | 295 |
| 183 | Təpədölək | Arevik | Düzkənd (Axuryan ) | 1810-1815.Ələşkert və Basindən | 426 |
| 184 | Türk Qarakilsə | Axurik | Düzkənd (Axuryan ) | 1886. Muş, Sasun və Qarsdan | 125 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 185 | Tapanlı | Qedasar | Hamamlı (Spitak) | 1831. Basenin Asvanca kəndindən | 825 |
| 186 | Talış Əkərəyi | Aqarak | Talin | 1920. Sasun vəTaron vilayətlərindən | 18 |
| 187 | Talış | Aruc | Əştərək | 1897. Bayazidən | 508 |
| 188 | Molla Bayazid | Bambakaşad | Sərdarabad (Hoktemberyan) | 1842. Sürməli, Koxt və Bitlisdən | 581 |
| 189 | Ləmbəli | Baqrataşen | Barana (Noemberyan) | 1878. Səlmas və Xoy vilayətlərindən | 535 |
| 190 | İlançalan | Ardaşavan | Əştərək | 1873. Türkiyədən | 492 |
| 192 | İnəkli | Antarut | Əştərək | 1829-1830. Səlmas, Maku, Xoy və Vandan | 284 |
| 193 | İlxıyabı | Ayaqbats | Düzkənd (Axuryan) | 1830. Basendən | 226 |
| 194 | Uzunoba | Arqavand | Sərdarabad (Hoktemleryan) | 1897. Səlmasdan | 403 |
| 195 | Uğurbəyli | Berçanus | Əştərək | 1829. Xoy və Salmasdan | 678 |
| 196 | Kümbət | Qumbat | Ağbulaq Gürcüstan (Zalqa) | 1828-1830. Ərzurumun Kumbat kəndindən | 633 |
| 197 | Goravan Yenikənd | Oravan | Qəmərli (Ararat) | 1914-1926. Muş, Çatax və vanın kəndlərindən | 947 |
| 198 | Zağalı | Axpradror | Basarkeçər | 1831. Muş vilayətindən | 121 |
| 199 | Zığdamar Ziqdamal | Aratavan | Hamamlı (Spitak) | 1828-1829. Səlmas, Maku vilayəti | 861 |
| 200 | Qondre | Qanza | Qocabəy (Boqdanovka) | 1878. Ərzurum, Ərdahan, Qars və Səlmas vilayətlərindən | 784 |
| 201 | Təpə Toqat | Qarni | Ellər (Abovyan) | 1829. Makunun kəndlərindən | 792 |
| 202 | Baykənd | Qarni | Ellər (Abovyan) | 1829. İranın kəndlərindən | 793 |
| 203 | Kərpicli | Keqadir | Ellər (Abovyan) | 1917-1918. Vanın kəndlərindən | 821 |
| 204 | Gözəldərə | Keqadir | Ələyəz | 1828-1829. Qarsın kəndlərindən | 821 |
| 205 | Şahlıq | Qeğamavan | Sevan | 1829-1830. Makunun Ansuk və Ələskert vilayətlərindən | 823 |
| 206 | Molla Musa | Arevin | Düzkənd (Axuryan) | 1920. Qars vilayətindən | 582 |
| 207 | Molla Göycə | Maralik | Agin (Ani) | 1920. Qarsın kəndəlrindən | 283 |
| 208 | Yuxarı Əkərək | Əkərək | Ordubad | 1828-1829 İrandan | 39 |



| | | | | | |
|---|---|---|---|---|---|
| 209 | Yuxarı Əkərək | Yeqrik | Ağin Ani | 1909. Türkiyənin dağlıq ərazilərindən | 21 |
| 210 | Yuxarı Agcaqala | Bazmabert | Talin | 1915-1918. Mosul, Muş vilayətlərinin kəndlərindən | 545 |
| 211 | Yuxarı Güləsər | Burakan | Qəmərli (Artaşat) | 1831. Səlmasın kəndlərindən | 711 |
| 212 | Yuxarı Türkmanlı | Apara | Üçkilsə (Elmiadrin) | 1915. Sasunun kəndlərindən | 305 |
| 213 | Yeni Armavir | Nor Armavir | Sərdərabad (Hoktunberyan) | 1923. Türkiyənin ucqarlarından | 468 |
| 214 | Yuxarı Adıyaman | Qedaşen (Verin) | Martuni (Qaranlıq) | 1828-1829. Ələşkert vilayətindən | 845 |
| 215 | Yenikcə (Gəncə) | Qondrak | Dərə Ələyəz (Egeqnadzor) | 1829-1831. Xoy, Səlmas vilayətlərindən | 848 |
| 216 | Yuxarı Ağbaş | Abovyan | Qəmərli (Artaşat) | 1828-1829. Xoy və Səlmasdan | 11 |
| 217 | Yuxarı Qanlıca | Vaqramaberd | Düzkənd (Axuryan) | 1840. İqdır Sürməli vilayətlərindən | 841 |
| 218 | Böyük Şiştəpə | Medz Sepatsar | (Qukasyan) Qızılqoç | 1920. Qars və Ərdahan kəndlərindən | 912 |
| 219 | Kiçik Şiştəpə | Pokr Sepatsar | (Qukasyan) Qızılqoç | 1920. Qars və Ərdahan kəndlərindən | 912 |

Qeyd edək ki, İrəvanda parlament binasında öldürülən Q.Dəmirciyanın babası da 1920-ci ildə Qars vilayətindən, Böyük Şiştəpə kəndinə gətirilmişdir. Bəli, yuxarıda göstərilən qeydlər lüğətin ancaq 1 cildindən götürülmüşdür. Həmin lüğətin daha üç cildi əldə edilsə idi, bu gəlmə ermənilərin haradan gəlib Qafqazda Azərbaycan türklərinin yaşadığı yerlərə məskunlaşdırılmaları haqqında daha çox məlumat əldə etmiş olardıq.

Bütün bunlar Rusiya-İran, Rusiya-Osmanlı müharibələrinin acı nəticələridir. Hələ bununla iş bitmir. Bunan

sonra da Azərbaycan türkləri eləcə də Osmanlı türkləri erməni-rus birləşmələrinin dəfələrlə törətdikləri qanlı hadisələrdə soyqırıma məruz qalaraq, yurd-yuvalarını itirəcəklər.

1890-cı illərdənTürkiyənin Sasun, Van, Bitlis, Zeytun vilayətlərinə Avropa dövlətlərində, eləcə də Rusiyada təhsil alan erməni gəncləri "Daşnaksutyun", "Qnçak", "Droşak" partiyalarının ideoloji təhrikləri ilə üsyan etmişlər. Onların çoxu heç Türkiyəni tanımırdılar belə. İngilis hipnozunun təsiri ilə öz yoldaşlarının səylə qanını tökməkdən də çəkinmirdilər. Həmin dövrlərdə Rusiyanın Ərzurumdakı baş konsulu V.Mayevski hadisələri düzgün qiymətləndirərək yazır: "Türkiyənin müxtəlif sahələrində erməni-müsəlman toqquşmaları barədə şəxsən mənə məlum olan şeylər məni o qənaətə gətirib çıxarır ki, hər yerdə qanlı toqquşmalar məhz ermənilərin təşəbbüsü ilə başlanmışdı. Dinc, əliyalın, fağır müsəlmanların necə soyuqqanlıqla öldürüldükləri haqqında məndə əyani sübutlar var (33, 70-72).

Bu gün Türkiyənin Şırnax, Hakari bölgələrində türk əsgərinin qanını tökən kürdlərin babaları həmin erməni üsyanları zamanı, həm də ondan sonrakı dövrlərdə kütləvi şəkildə ermənilər tərəfindən qətl edilmişlər. Erməni qizli təşkilatları öz siyasi təşviqatların sanaqdan keçirmək üçün məhz, həmin rayonları (Sasun, Van, Muş və s.) seçmişdilər. Terror törədən ermənilər və onların quldur dəstələri tez-tez gizlənsələr də, onların əziyyətini



yenə öz xalqları çəkirdi. Bundan sonra də belə olmuşdur. İndi də belədir

Ermənilər hadisələri kütləviləşdirməklə Avropa dövlətlərini bu işə qatmaq istəyirdilər. Qatdılar da.

1890-cı illərdən başlayarq ta 1915-ci elədək Türkiyə və Qafqazda "Daşnaksutyun" partiyasının antitürk ideoloji fəaliyyəti nəticəsində, həm də ingilis hipnozu ilə silahlanmış erməni gənclərinin millətçilik hərəkətləri hər yerdə pislənilirdi. Qafqaz və Türkiyədə səfil-sərgərdan həyat sürən qaçqınların da səbəbkarı erməni millətidir. Onlar Qafqaz və Türkiyədə yaşayan erməni xalqının bədbəxtliyinin əsas mənbələridir (22, 125). Daha sonra V.Mayevski qeyd edirdi ki, "Qnçak", "Daşnaksutyun" kimi partiyaların gələcəkdə mövcud olması gələcəkdə də yeni-yeni bəlalar gətirəcəkdir. O, 01.VII.1915-ci ildə yazırdı ki, "Daşnaksutyun" və onu kimi partiyalar olmasa idi, bədbəxt qaçqınlar da olmazdı. Asiya Türkiyəsinin Van, Bitlis və başqa vilayətlərində yeni fitnəkar qırğınlar da olmazdı (33,125). Sonrakı illərdə V.Mayevskinin irəlicədən gördüyü hadisələr baş verdi. Erməni ideoloqlarının günahı üzündən 100 minlərlə müsəlman və erməni məhv edildi.

XIX əsrin ortalarında Qarabağda erməni və rusların at oynatdığının şahidi olan böyük satirik Q.Zakir "Çıxmadı qurtulaq" satiraslnda erməni-rus işbirliyinin acı nəticələrini

doğru-düzgün təsvir etmişdir:

*Nə gündə yaratdı xudavənd bizi,*
*Bir yana çıxara bilmədik izi.*
*Gahi Arakeli, gahi Sərkisi,*
*Gahı də Semyonu görən canımız.*



# II FƏSİL

# 1905-1907, 1914-1920-Cİ İLLƏRİN QANLI FACİƏLƏRİ

## 2.1. 1905-1907-ci illərdə azərbaycanlıların soyqırımı

1827-1829-cu illərdəki siyasi və hərbi vəziyyətdən öz xeyirlərinə lazımınca istifadə edən ermənilər XIX əsrin axırlarında, XX əsrin əvvəllərində və Birinci dünya müharibəsi ərəfəsində də qarışıqlıqlardan istifadə etdilər. İmperialist dövlətlərin və "Daşnaksutyun"partiyasının təhriki və yardımı ilə Türkiyəyə qarşı terrorçu hərəkətlər etməyə başladılar. Daha sonra onların terrorçu əməlləri Cənubi Qafqazı bürüdü.

Qafqazda yaşayan gürcü və ermənilər müxtəlif partiyalar yaradaraq siyasi mübarizəyə qoşuldular. Rusiyada yaşayan müsəlmanlar, xüsusilə azəri türkləri hələ qəflətdə idilər və iqtişaşlarda carın tərəfini saxlayırdılar.

XX əsrin başlanğıcında Qafqazda yaşayan gürcülər mensevik partiyasına qoşularaq xeyli işlər gördülər. Ermənilərin də "Daşnaksutyun" partiyası onları istiqamətləndirdi, ən əsası birləşdirdi. Ermənilər Amerikaya, gürcülər isə Amsterdama söykənərək qəzetlər, kitablar nəşr etdirərək istiqlal yolunda çalışdılar. Bu dövrlərdə Qafqazda ən çox əzilən Azərbaycan

türkləri idi. Onların məzlum səsinə bütün dünyanın qulaqları tutuldu, səs verən olmadı. Belə bir vaxtda Rusiya ordusunun 1905-ci ildə Yaponiyaya məğlub edilməsi hər yerdə qarışıqlıq yaratdı. Ermənilər yenə bu vəziyyətdən istifadə edərək Qafqazda qiyamlar törətdilər, Osmanlı dövləti əleyhinə hərəkətlər etdilər. "Böyük Ermənistan" yaratmaq uğrunda mübarizəyə girişdilər. "Daşnaksutyun" partiyasının təhriki ilə yeni-yeni terrorçu hərəkətlərə rəvac verdilər. (32, 107-108).

XX əsrin əvvəllərində artıq Azərbaycanda da yetişmiş bir ziyalı dəstəsi meydana çıxmışdı. Onların arasında hər cür peşə sahibləri –yazıçı, jurnalist, hərbiçi, hüquqşünas, bankir, kapital sahibləri, musiqiçi, iqtisadçı, siyasətçi və s. var idi. Onlarda Rusiyada yetişən milli demokratik hərəkatdan bəhrələnmək istəyirdilər. Təsadüfi deyil ki, Qafqazda yaşayan türklərdən Dumada 46 nümayəndə təmsil olunmuşdur (16,107).

Bəzən Dumada çıxış edən Qafqazlı millət vəkillərini, yəni millət vəkili olan türkləri şovinist rus millət vəkilləri təhqir edir, danışmağa qoymur, sözlərini kəsirdilər. Bunlara baxmayaraq, Azərbaycanın qabaqcıl ziyalıları Qafqazda yaşayan türklərin dərd-sərini, arzu və istəklərinin deyə bilirdilər. Məsələr: Peterburqa göndərilən Gəncə millət vəkili İsmayılxan Ziyadxan oğlu Dövlət Dumasında tarixdə yadda qalan bir çıxış etmişdir:

Hörmətli millət vəkilləri!



İcazənizlə Zaqafqaziyanın İrəvan, Gəncə və Bakı vilayətlərində törədilən rəzalətlərin, özbaşınalıq edən dövlət idarəsinin həyata keçirdiyi fitnəkarlıqların kiçik bir tablosunu hüzurunuzda təsvir edim.

Artıq bizim üçün də hərəkət etmək vaxtı çatmış və bundan sonra susmamağı qərara almışıq. Zaqafqaziya bir əsr bundan əvvəl ruslar tərəfindən işğal edilmişdir. Bu əsr ərzində biz müsəlmanlar əsir kimi həyat sürmüşük, təqiblərə məruz qalmışıq, bizə heş bir haqq və hüquq verilməmiş, kölə halına salınmışıq. Sözün əsl mənasında yüz il ərzində biz hökümətin şiddətli hücumlarına və böhtanlarına məruz qalmışıq. Siyasi sosial və iqtisadi sahənin hansına nəzər salsanız, hamısında bizim haqqımızda haqsızlığın hökm sürdüyünün şahidi olacaqsınız.

Hörmətli millət vəkilləri! Hər dəqiqə ölkəmdən qorxulu xəbərlər alıram. Bu dəqiqə İrəvanda silah səsləri eşidilməkdədir. Cənablar, iki ildən bəri qan içində üzən ölkəmizdə cəsədlərin üstündən küçirik. Artıq səbrimiz tükənib. Bizə də acıyın. Biz anaların qucağından alınıb havaya atılan cüdəmər uşaqların havada ikən xəncərlərə keçirildiklərini görmüşük, biz hamilə qadınların qarnına salınan xəncərlərin açdıqı yaralardan uşaq əllərinin sallandığının şahidi olmuşuq. Qoy mətbuat və təbliğat vasitələrilə aramıza nifaq toxumu səpən provokatorlar utansınlar, yanğın və alovlardan xoşlananlar iş başından çəkilsinlər, dəlik-

deşik edilən cəsədlərdən, anaların, uşaqların fəryadının, iniltisindən həzz alanlar rədd olsunlar" (Bu nitq 1906-cı ildə Duma protokollarından götürülmüşdür) (16, 111).

Dünənə kimi uşaqları üçün ana dilində məktəb açmaq imkanı olmayan, qəzet nəşr etdirə bilməyn, seçki hüququ məhdudlaşdırılan və daha bir sıra haqları əlindən alınan bir xalqın birdən-birə nailiyyətlər əldə etməsi çar hökuməti üçün gözlənilməz bir sürpriz oldu.

İnqilaba qədər bütün hüquqlardan məhrum olan türklər artıq nümayəndələrini imperatorluğun daxili işlər nazirliyinin qəbulina göndərib, öz haqlarının, hüquqlarının tanınmasını israrla tələb edirlər. Bu nə deməkdir?...

Buna II Nikolay, saray əyanları, nazirlər, generallar... necə dözürdülər? Necə səbr edirdilər?...

Bu hadisələr Qafqaz müsəlmanlarının apardıqları açıq bir milli azadlıq mübarizəsi idi ... Rus imperiyasının zəiflədiyi bir vaxtda Qafqaz xalqlarını inqilabdan uzaqlaşdırmaq üçün tezliklə tədbir düşünmək lazım idi.

Beləliklə, onlar belə bir tədbirə nail oldular. Çar Qafqazda olan yüksək məmurlarına gizli şəkildə göstəriş verir. 1905-ci ildə erməniləri müsəlmanlara qarşı qırğına sövq etdirir (16, 112).

"Müxtəsər Azərbaycan tarixi" kitabının müəllifi Cahangir Zeynalov da bu münaqişə barədə yazır ki, "Belə bir qarışıq



zamanda Peterburqdan Qafqaza xüsusi surətdə 130 xəfiyyə məmuru göndərərək, türklər ilə ermənilər arasında icra etdiyi propaqanda (təbliğat) ilə biri digəri əleyhinə silah işlətməyə təsviq və əsrlərcə yaxşı keçinən iki milləti biri digərinə qırdırdı. 1905-ci ildə Bakıda bu qırğın başladı. Sonra digər yerlərə də ziyarət eylədi. Rus ordusu ədavəti şiddətləndirmək üçün gah azərbaycanlılara, gah da ermənilərə müavinət göstərdi" (47,107).

Cahangir Zeynaloğlu daha sonra qeyd edir ki, Bakıda fevralın 6-dan başlayan qırğın üç gün davam etdi. 18 oktyabrda Gəncədə, o birisi ilin 18 iyulunda İrəvan, Qazax, Qarabağ və digər yerlərdə qanlı toqquşmalar oldu. Zavallı türkləri müxtəlif səbəblərdən əsgəri elmlərdən və müasir silahlardan mərhum etdilər, amma daşnaklar 50 ildən bəri topladıqları silah və pulla bu toqquşmalarda çox işlər gördülər.

Buna baxmayaraq türklər nəhayətdə qalib gəlib, erməniləri hər yerdə məğlub etdilər. (47,107)

1905-1907-ci illərdə erməni daşnak dəstələri azərbaycanlılara qarşı törətdikləri qanlı aksiyalar nəticəsində yüzlərlə yaşayış məntəqəsi, şəhər evləri, karvansara, bazar və dükanlar yerlə yeksan edilmiş, minlərlə günahsız azərbaycanlılar qətlə yetirilmişlər.

1905-ci ilin 2-10 fevralında Bakıda terror törədən ermənilər bir çox yerlərdə qətl-qarət törədib dükanları və evləri yandırdılar.

Şəhərin Bazar, Qubernski, Quba meydanı, Bolsaya, Morskaya, Suraxanski, Krasnovodsk, Voronsovski və s. küçələrində Türkiyədən gələn daşnak könüllüləri və onlara qoşulan ermənilər qətl-qarət törədib dükanları və evləri yandırdılar (40, 49).

Bunlara baxmayaraq yenə irəlidə olan müsəlman varlıları ermənilərlə barışıq etdilər. Həmin ərəfədə müsəlmanlar erməniləri müdafiə etməsəydilər, minlərlə erməni ölə bilərdi. Fevralın səkkizi gecəsi Bakı şəhəri cəhənnəmə çevrilib bir tərəfdən bombaların partlaması, digər tərəfdən uca və ali imarətlərin yanıb vulkanlara bənzəməsi, bir tərəfdən neft zavodlarının budkaların yanğısmdan səmaya qalxan alovlar insanı çaşdırıb coşdururdu (40, 15).

M.S.Ordubadi bu barədə yazır: "Müharibə fevralın 6-dan 10-a qədər tam şiddətlə davam etdiyindən erməni və müsəlmandan tələfat min nəfər olmasa da, mal və zəruri əmlaka dəyən zərər milyonları keçməkdə idi". (40, 17).

İkinci dəfə ermənilər avqustun 20-dən 25-ə qədər Bakı şəhərində və ətraf kəndlərdə bir çox cinayətlər törətdilər. Səhərin ən böyük dükan və anbarlarını qarət etdilər, günahsız və silahsız müszlmanlar qətl edildilər.1905-ci ilin sentyabrında Bakıya gələn Vorontsov-Donskoy rəhbərliyi ilə 14 sentyabrda yenə də ermənilərlə sülh imzalanır (40,69), əgər buna sülh müqaviləsi demək mümkünsə.



1905-ci ilin may ayında Naxçıvanda və ətraf kəndlər (Cəhri, Tumbul və s.) gülləyə tutulmuş və kənd yandırılmışdır. Azərbaycanlılar İrəvan vitse Qubernatoru Baranova şikayət edirlər ki, ermənilərdən silahları yığsınlar.

O, cavabında deyir ki, "Onlar sizə atəş açanda, siz də tutub onların tapançalarını alın". Belə əhəmiyyətsiz cavabı eşidən azərbaycanlılar deyirlər: "Cənab qubernator, bəs buraya nə üçün təşrif gətiribsiniz?" (40, 20).

Azğın ermənilər 26 noyabr 1905-ci ildə iğtişaş törədib Naxçıvan bazarını yandırdılar. Üç gün (27-30 noyabr) davam edən bu yanğında 85 dükan, 75 anbar və məscid yandırılmışdır. Noyabrın 29-da isə şəhərin o biri başında varlı müsəlmanların evini yandırıb Cəhri kəndini da talan etmişlər. Naxçıvana gələn general-qubernatora kazak və ermənilərin azğınlığı barədə şikayət etsələr də, yenə də ölçü götürülməmişdir (40, 22).

1905-1906-cı illərdə erməni terrorçuları İrəvan və onun dövrəsində olan Azərbaycan türkləri yaşayan kəndlərdə də qətl-qəraət törədiblər. Tarixçi Nazim Mustafayevin araşdırmalarına əsasən 1905-ci ildə erməni quldurları 4 dəfə qırğın törədiblər. Birinci dəfə 20-22 fevral (1905), ikinci dəfə 23-26 mart, üçüncü dəfə 18 sentyabrda. Dördüncü dəfə isə 1906-cı ilin 27 mayında və 8-9 iyunda baş vermişdir (Xalq qəzeti; 21.01.2015). Əlbəttə bu toqquşmalarda şəhərdə Azərbaycanlılar çox olduğu üçün

ermənilərə lazımı cavab verilmişdir. Mir Möhsün Nəvvab qeyd edir ki, 1904-cü ildə İrəvandan gələn ermənilər Bakıda ixtişaş törətmiş, karxana sahibi olan Ağa Rəzini və cavan bir oğlanı qətlə yetirmişlər. Müəllif qeyd edir ki, irəvan erməniləri çox kinli, ədavətli, təkəbbürlü, xudpəsənd və xəmirləri fitnə-fəsadla yoğrulmuş adamlardır. Hansı vilayətdə ki bunlar tapılır, mütləq orda bir ədavət və iğtişaş olacaq. Qafqaz vilayətində nə qədər iğtişaş və münaqişələr baş verirdisə, onların birinci səbəbkarı İrəvan erməniləri olurdu. (37, 15-16).

1897-ci ilin siyahıyaalınmasında İrəvan quberniyasındakı 1301 kənddən 959-da türklər, 342-də İran və Türkiyədən gəlmə ermənilər yaşayırdılar. İrəvan qəzasında mövcud olan 221 kənddən 161-də türklər, 55-də gəlmə ermənilər, 15 kənddə isə qarışıq yaşamışlar.

İrəvan şəhərində fitnə-fəsad törədən ermənilər yenə də Naxçıvana da hücum edirlər, onların silahlı olmalarına baxmayaraq, naxçıvanlılar onlara qalib gəlirlər (32, 22).

1905-ci ilin 3 iyununda Üçkilsə qəzasının Abaran mahalında, Şörəgəl, Pəmbək bölgələrində və Gümrü yaşayış məntəqəsində qaçqın kimi məskunlaşmış ermənilər Uşu kəndini, daha sonra 8-9 iyunda isə Təkyə, Pərpi, Nazrəvan, Kiçikkənd, Kötüklü, Qoşabulaq, Əngirəs kəndləri dağıdılır. Buna baxmayaraq bu bərabər olmayan döyüşdə azərbaycanlılar 180



nəfər erməni quldurunu məhv edirlər (34, 35; 17, 107).

Mənbədə göstərilir ki, Əştərək rayonunun Təkyə kəndindəki böyük məscidi və Axund Məhəmmədəli Mirzə Əbdülhüseyn Qazızadənin 100 cildlik Quran və müqəddəs kitablarını süngüyə keçirib yandırıblar (23, 35).

Erməni quldurları azərbaycanlılar yaşadığı Sisyan kəndinə hücum edərək 20 nəfər günahsız insanı qətlə yetirirlər. Qüvvələr bərabər olmasa da, azərbaycanlılar şücaət göstərdilər (32, 95).

Bu məğlubiyyətin əvəzini çıxmaq istəyən ermənilər quldur Stepan Stepanyanın başçılığı ilə qəflətən Vagudi kəndinə hücum edirlər. Azərbaycanlılar bu döyüşdə də ermənilərin başçısı Stepanı və daha 400 nəfər qulduru məhv edirlər. Stepanın cibində "Qafqaz ermənilərinin qubernatoru" yazılmış vəsiqə və çoxlu əskinas varmış (32, 95).

Deyilənə görə, Qarabağdakı Xankəndinin "Stepanakert" adlandırılması həmin gorbagor Stepanla əlaqəlidir.

1906-cı ilin iyul ayının 29-da Qafan bölgəsinin Mədən bazarını dağıtdıqdan sonra ermənilər Karxana kəndinə hücum etmişlər. Hər tərəfdən kəndi atəşə tutmuşlar. Silahsız kənd camaatı beş min tüfəngdən açılan atəşin altında öz doğma yurdlarını tərk etməyə məcbur olmuşlar. Ermənilər qaçıb xilas olmağa cəhd göstərən kənd sakinlərini də əsir alır, ya da yerindəcə qətlə yetirirdilər. Qana susamış ermənilər kəndi

dağıtmaqla kifayətlənməyərək qaçıb pünhan bir yerdə sığınacaq tapmış 30-dək qadını vəhşicəsinə qətlə yetirmişlər. Dəhşətli burasıdır ki, zavallı qadınların tapılıb öldürülməsinə səbəb Pakizə adlı ismətli bir qadının Firuzə adlı məsum körpəsi olmuşdur. Ətrafa yayılan ardı-arası kəsilmək bilməyən atəş səslərindən dəhşətə gələn yazıq körpənin ağlamaq səsi eşidilməsin deyə anası onu bərk-bərk bağrına basıbmış, boğulmaqdan xilas olmaq üçün qəflətən anasının sinəsindən dartınıb başını qaldıran körpənin naləsini eşidən ermənilər azğıncasına hücum çəkərək bu qadınları qanlarına qəltan etmişlər.

Elə həmin gün ermənilər Xələc, Saldaşlı, İncəvar, Daşnov kəndlərini dağıdıb viran qoymuş, əhaliyə divan tutmuşlar. Qaçıb xilas olanlar Qatar kəndinə pənah gətirmişlər (40, 120-121).

Lakin avqust ayının 1-də dişinədək silahlanmış ermənilər hər tərəfdən Qatar kəndini mühasirəyə alıb atəşə tutmuşlar. Kəndin camaatına divan tutan ermənilərə rus zabitlərinin əhsən deməsi indiki hadisələri – Qarabağın dağlıq bölgəsində baş verən döyüşləri xatırladır.

Kənd camaatının başına yağdırılan güllələrdən dəhşətə gələn bir ləzgi strajnik rus zabiti Saxarova yaxınlaşıb həyəcanla yalvarır ki, o, yaxındakı rus qoşunlarını köməyə çağırsın. Bu faciəli səhnəni razılıq hissi ilə seyr edən Saxarov ona əsla məhəl qoymadan sevinclə deyir: Görmürsən, ermənilər necə canalıcı



güllə atırlar. (40, 121).

Ermənilər hər tərəfdən kəndi mühasirəyə alsalar da, onların qüvvəsindən xəbərdar olmadıqlarından cürət edib kəndə yaxınlaşa bilməmişlər. Buna görə də onların qüvvəsini öyrənmək üçün Saxarovun razılığı ilə 50 nəfər kazakı və bir uryadniki kəndə göndərmişlər. Kazaklar kəndə girərkən onların əksəriyyətinin silahlı olduğunu görüb "siz evlərinizdə rahat oturunuz, ermənilərin güllələrinə qətiyyən cavab verməyiniz, əlbəttə, hökumət özü sonradan onları tənbeh edib cəzalandıracaqdır" – deməklə onları aldatmışdılar. Bu əslində ruslar tərəfindən ustalıqla qurulmuş növbəti təhlükəli tələ idi (32, 121).

Qatar kəndi hər tərəfdən erməni kəndləri ilə əhatə olunduğundan kəndin əhalisi heç bir yerdən kömək gözləmirdi. Döyüşlər isə davam edirdi. Ermənilərdən 8 min silahlı bu vuruşlarda iştirak edirdi. Doqquz gün şiddətli vuruşmaların davam etməsinə baxmayaraq ermənilər kəndi ala bilmədilər. Çarəsizlikdən qatarlılar kənddən 30-35 km cənubda olan Zəngilana qasidlə xəbər göndərib kəndin bu çətin günündə onlara kömək göstərmələrini xahiş etmişdilər. Lakin zəngilanlılar yetərincə silahı və döyüşçü qüvvəsi olmadığı üçün kömək edə bilməmişlər. "Bizdən sizə kömək olmayacaq, başınıza çarə qılın" cavabını aldıqdan sonra onların son ümidləri də puça çıxmışdır (17, 139).

Belə bir fakt da məlumdur ki, qatarlıların məğlubiyyətində Məlik Azaryantsın mis mədənlərində işləyən bir qrup iranlı fəhlənin də xəyanətinin rolu olmuşdur. Bir gün onların "ya Əli" – deyə-deyə kəndə neft, dinamit daşıdıqlarını görən qatarlılar elə bildilər ki, bu müsəlmanlar onlara sursat gətirirlər. Demə, bu mürvətsizlər ermənilərin tapşırıqlarını yerinə yetirirlərmiş. Kəndə daxil olan kimi neft töküb evləri yandırmış, dinamitlə partlatmışlar (40, 123).

Qatar kəndi dağıdılıb büs-bütün yandırılsa da, camaat ordan çıxmamışdır. Ermənilər axşama yaxın kəndə bombalar da atmışlar. Lakin xalqı kənddən çıxara bilməmişlər. Yalnız axşamın ala qaranlığında ermənilər gedəndən sonra burda qalmağın mümkün olmadığını görən kənd əhli 10 km şimalda olan Azərbaycanlı Girətağ kəndinə qaçmışlar (40, 121).

Erməni millətçiləri 750 tüstüdən [evdən] 3500 nəfərdən ibarət əhalisi olan Qatar kəndini dağıtdıqdan sonra Oxçu çayı sahilində yerləşən azərbaycanlı kəndlərini viran edərək Zəngəzur qəzasının açarı hesab edilən Oxçu, Şabadin, Aralıq, Pirdavdan və Atqız kəndlərini qarət etmiş, əhaliyə divan tutmuşlar.

Yerli daşnaklar Aleksandropol [Gümrü], İrəvan, Abaran və Şoragəl qəzalarından güclü hərbi kömək aldıqdan sonra avqust ayının əvvəllərində Oxçu kəndinin yaxınlığındakı Papışlı və Kürdükan erməni kəndlərində cəmləşmişdilər. Avqustun 9-da ən



müasir silahlarla silahlanmış bu dəstələr hücuma keçərək yuxarıda adları çəkilən kəndlərin beşini də xarabalığa çevirdilər. Cəlladlar qocalara, uşaqlara, qadınlara məhəl qoymadan əhalinin bir hissəsini qılıncdan keçirmişlər. Oxçu-Şabadin azərbaycanlıları qüvvələrin bərabər olmasına baxmayaraq Gecəlan kəndində erməniləri məğlub edirlər. Sonra avqustun 13-də erməni daşnak qaniçənlərin qətlindən xilas olmuş bu kəndlərin qaçqın əhalisi Pirdavdan kəndinin yuxarı səmtində qiblə ilə üzbəüz olan Saqqarsuya qaçıb oradakı daşların arxasını sığınacaq etmişlər (40, 139).

Saqqarsuda erməni millətçiləri bəşəriyyət tarixində misli görünməmiş elə bir vəhşilik törətmişlər ki, bu faşizmi, azərbaycanlılara tutulan divanı, bu tarixi faktı, soyqırımı oxucuya çatdırmaq üçün dəhşətli səhnəni ədibin öz sözləri ilə veririk: "Ağlaşma səsi daşların təpəsindən ermənilərin sığınacaqlarında – cəngərlərində əks-səda verirdi. Kəndin ağsaqqalı Molla Həsən Əfəndi də öz ailəsilə Saqqarsuya qaçmışdı. Kənddə ancaq qaçmağa halı olmayan və sahibləri evdə olmayıb, yaxud qocalıqdan gözləri tutulmuş qadın tayfaları qalmışdır ki, sübh olan kimi onların hamısı ermənilər tərəfindən qətl edilmişdir. 62 nəfər qadın və uşaq həlak olmuşdur".

M.S.Ordubadi Saqqarsuda ermənilərin qanlı olayları belə təsvir edir: "Saqqarsuda sığınmış müsəlman camaatının başı

üstündən sübh çağı bir dəstə "ya Əli, ya Əli" fəryadlarıyla müsəlmanlara sarı gəldiyindən avam və çaşmış müsəlmanlar "bu gələn qoşun islam qoşunudur" deyə güman edib ağlaya-ağlaya onların qarşısına çıxırlar. Gələn dəstə isə ermənilər imiş, müsəlmanları qırmağa başlayırlar. Bu vaxtda dörd islam göylərində də qırğın baş verdiyindən Saqqarsuyun başına qədər fəryad, nalə sədasının müsibətli şəkildə əks etdiyini qaçıb Ordubada gəlmiş kənd əhli olduğu kimi nağıl edirdi. Saqqarsuda sığınaq etmiş camaat qırılıb, qaçıb qurtarandan sonra Molla Həsən Əfəndi bir çox qadınla "Quran" əlində ermənilərin qabağına çıxıb, "Quran" xatirinə rəhm etməyi istəyib ağlasalar da, "Quran"ı, bəlkə heç "İncili" də tanımayan qansızlar hamısını vəhşiliklə öldürürlər. Molla Həsən Əfəndinin yanından götürdükləri bir neçə müqəddəs kitabı və "Quran"ları odlayıb məşəl kimi süngülərin ucuna taxmışlar. Sağ qalan əhali qarlı dağ yolu ilə, çır-çılpaq Ordubada və mahalın kəndlərinə pənah aparmışdılar. Ordubad camaatı isə son dərəcə qonaqpərvər olduğundan, xüsusən başları belə müsibət çəkmiş bu adamlara xüsusi qayğı göstərdi. (40, 15)

Oxçu-Şabadin fəlakət qurbanlarının Ordubad şəhərinə ağlaya-ağlaya pənah gətirməsi şəhər camaatına çox qəmli təsir göstərdi. Camaatın istirahəti üçün xüsusi yerlər, evlər ayrılır, müsibət qurbanlarına qalmaları üçün otaqlar verilir. Ən əvvəl



yaralılar üçün cərrah və dava hazırlayıb, müalicəsinə başlanır. Onlara imkan daxilində əmanət olaraq evlərdən ev əşyaları da verilir. Xudavəndi-aləmin qüdrətindən sərvəti və dövləti bol olan bu kiçik şəhərdə bir günün içində onların əsas ehtiyaclarına əncam verilib, ancaq sonra dağlarda qalan camaatın halına yetişmək, şəhərə gətirmək və yaralıları dağda bağlayıb huşa gətirəndən sonra şəhərə endirmək, ölənləri dəfn etmək üçün müxtəlif tədbirlər görülür, şəhər və mahal camaatından mükəmməl bir dəstə təşkil edilib cərrahi işlər üçün kifayət qədər dərman, azuqə və yaralı daşımaq üçün minik heyvanları hazırlayıb, ölənləri dəfn etməkdən ötrü kəfən və sair ləvazimat, bir neçə çadır tədarük edib 1906-cı il avqust ayının 16-da axşam üstü dəstələr dağlara doğru hərəkət etdilər (40, 152).

Ordubadlıların Qafan dərəsində birinci səfəri 1906-cı il avqustun 17-də məhz qanlı-qadalı Saqqarsuya olmuşdur. Havanın pisliyinə baxmayaraq dəstə bir neçə bələdçi ilə ətrafı öyrənməyə başlayır. Saqqarsuyun ətrafında bir qan çalası göründüyündən o tərəfə gedirlər. Soyuğun şiddətliyindən qan çalası buz bağlamışdı. Bununla belə, daşın bir tərəfindən damcı-damcı qan sızırdı. Bu halı gördükdə camaat heyrət içində qaldı. Daşın arasında 62 nəfər qadın və uşaq cənazəsi bir-birinin üstə qalaq-qalaq tökülmüşdü. Camaat qadınların bu halını görüb çox ağladı. Az sonra cəsədlərin arasından bir sızıltı eşidildi. Diqqətlə baxdıqda iki qıçlarından

yaralanıb bihuş düşmüş bir qadının həyat ilə ölüm arasında ağır mübarizə apardığını gördülər. Zavallı qadın çadra gətiriləndən sonra huşa gəldi. Qadının ağlayaraq söylədiyinə görə ermənilər deyir ki, bizim Qafqazda müsəlmanlarla müharibəmiz vardır. Fəqət, bu müharibələr sünni camaatıyla olmayıb, şiələr ilədir. Ancaq, siz sünni camaatının başına gətirilən əziyyətlər Osmanlı sultanının ermənilərin başına gətirdiyi müsibətlər əvəzinə edilir. Bu, qırğının cümləsini Osmanlı tərəfindən bilməlisiniz! Siz qadınlara nə qədər cəfalar edilsə, Osmanlıda Sasun, Zeytun, Van diyarlarında hökumət cəfasından müsəlmanların əsarəti altına düşüb islam məzhəbini qəbul edən erməni xanımlarının yarısına edilən qədər belə olmayıbdır.

Həmin qadın yaranın şiddətli olduğundan şəhərə yox, Pəzməri adlanan islam göyünə göndərildi (32, 13).

Avqust ayının 18-də sübh namazından sonra erməni dəhşətindən qaçan dəstə sığındığı meşəyə girir. Bir az getdikdən sonra 25 yaşlarında bir qadın və bir cavan oğlan cənazəsi görünür. Bələdçinin rəvayətinə görə, onlar ər və arvad imiş, bir yerdə doğranmışlar. Buradan keçərək dəstə Molla Həsən Əfəndinin şəhadətgahına yaxınlaşır. Onun bədəni, canamazı və s. müqəddəs əşyaları yandırılmışdı. Həsən Əfəndinin qətl yerindən bir az şimala doğru bir palaz parçası göründü. Bu, camaatın hamısını ağlatdı. Zira, palazı kənara çəkən kimi 15 nəfər üzlərində çiçək,



yəni abilə əlaməti sönməmiş körpə cocuqların kəsilmiş başları və bir para bir-birinə qarışmış bədənləri göründü. Cənub səmtdə həddən artıq arvad-uşaq bədənləri tökülmüşdü. Küləyin şiddətindən yüksək təpələrdə olan qar yığılıb cənazələrin üstünə tökülmüşdü. Amma, yenə bədənlərində son nəfəsi olan qətl olunmuş bacıların qətrələnən məzlum qanlarından qarlar uzaqdan bahar lalələri kimi qızarıb insanı özünə cəlb edirdi. Onları dəfn etmək üçün daş-torpaq mümkün olmadığından, meşənin yarpaqları və budaqları ilə dəfn edildilər.

Pirdavdan kəndində tüstülənən bir imarətdə cavan bir oğlan bədəni var idi. Cəsədin baş tərəfində parça-parça olunmuş bir qoca arvad bədəni var idi. Bələdçilərin dediklərinə görə, bu cavan oğlan müharibə vaxtı yaralandığından anası onu qoyub getməmiş, buna görə onu da oğlunun yanında doğramışdılar (40, 153).

16 sentyabr 1906-cı ildə ordubadlıların köməyi ilə Oxçu dərəsində yaşayan azərbaycanlılar ermənilərin Panus və Girdəkan kəndlərində toplaşan erməni quldurlarını məğlub edirlər. Daşnak ermənilər bir daha ağır itki verərək Oxçu dərəsində yaşayan azərbaycanlılara dəyib dolaşmırdılar (40, 140). Qərbi Azərbaycanın başqa mahallarında da erməni vəhşiliyi davam edirdi.

1905-1907-ci illərdə Dərə Ələyəzdə də ermənilər 100-dən çox kəndi dağıdıb xarabazara çevirmiş, yerli əhalini işgəncələrlə

məhv etmişlər. Ermənilər əhalini vahiməyə salmaq üçün birinci növbədə azərbaycanlılar yaşadığı böyük kəndləri yandırır, başçıları, el ağsaqqalarını igid və qorxmaz adamları hiylə ilə ələ keçirib xalqın qarşısında işgəncə ilə öldürürdülər. Məsələn, 1905-ci ildə ermənilər çoxlu qüvvə və silah toplayıb Dərə Ələyəzdə qəflətən 100-dən çox evi, 1000-dən artıq əhalisi olan Hors kəndinə hücum edirlər. Neçə günlük qanlı döyüşlərdən sonra kənddəki bütün evlərə od vurub yandırırlar. Yaşlı adamlar danışırdı ki, Hors kəndindən qalxan alov ətraf kəndlərdən görünürdü. Ermənilər pusquda durub kənd əhalisinin köməyinə gələnləri də qətlə yetiridilər. Məsələn, Hosdun kəndinin sakini Məşədi Məmmədxan kişi öz atlı dəstəsi ilə Hors kəndində yaşayan qohumlarının köməyinə gedir. Hors kəndi ilə Sallı kəndi arasında Əriklik düzü deyilən yerdə pusquda duran ermənilərlə üz-üzə gəlir. Xeyli vuruşmadan sonra hiylə işlədib Məşəd Məmmədxan kişini əsir alır və belinə qaynar samovar bağlayıb işgəncə ilə öldürürlər. 1905-ci ildəki erməni-müsəlman davasında böyük şücaətlər göstərən Gülüdüz kənd sakini, ağsaqqal Abbas bəyin Göyçəli Aşıq Nəcəfin də belinə samovar bağlayıb işgəncə ilə öldürmüşlər. Vedinin Şahablı kənd sakini, məşhur Aşıq Cəlili (Şahablı Cəlili) daha dəhşətlə öldürmüşlər. Əvvəlcə belinə samovar bağlayıb oxumağa məcbur etmiş, sonra da samovar qarışıq kərmə qalağına hörüb yandırmışlar (42, 31).



Əgər 1833-cü ildə Dərə Ələyəz mahalının yalnız 2 kəndində (Arpa, Xaçik) ermənilər məskunlaşdırılmış və 3 kəndində (Qoytul, Azadeq, Martiros) ermənilərlə azərbaycanlılar birgə yaşamağa məcbur edilmişdilərsə, 1886-cı ildə bu 2 rəqəm 23-ə çatdırılmışdır. Azərbaycanlılar ermənilərlə birgə yaşadıqları kəndlərdən çıxarılmış və ermənilər zorla azərbaycanlılar yaşadığı kəndlərə yerləşdirilmişlər. Bu sənəddə 99 azərbaycanlı kəndindən 23-də (Kələkulux, Tərətum, Həsənkənd, Erdəpin, Quşçu, Əyər, Baş kənd, Keşişkənd (Keşkəndu), Qoytul, Məlişkə, Orta kənd, Yengicə, Knişik (Keneşik), Xaçik, Aynəzir, Arpa, Rind, Yelpin, Azadek, Martiros (Mərdulus) Paşalı, Por, Seylan kəndlərində) yalnız ermənilərin yaşadığı görtərilir. Halbuki, bu kəndlərin hamısı azərbaycanlılara məxsus olmuş və onlar əsrlər boyu bu kəndlərdə yaşamış və sonralar öz doğma yuvalarından sıxışdırılıb çıxarılmışlar. Bu müddətdə azərbaycanlılara məxsus olan Herher, Kindivaz, Daşaltı kəndlərinə də erməniləri zorla doldurmuşlar ki, bu kəndlərdən də gələcəkdə azərbaycanlıları çıxarsınlar.

Əgər 1833-cü ildə Dərə Ələyəzdəki erməni ailələrinin (tüstünün) sayı 142 idisə, 1886-cı ildə bu ailələrin sayı 10 dəfədən də çox artaraq 1486 olmuş, erməni əhalisinin sayı 13487 nəfərə çatmış və 1905-ci ilə qədər bu rəqəm daha da çoxalmışdır (38, 30).

Faktlardan göründüyü kimi, çar Rusiyasının hümayədarlığı sayəsində 1805-1905-ci illərdə ermənilər Dərə Ələyəz mahalındakı azərbaycanlıları tədricən öz yurd-yuvalarından qovmuş və onlara qarşı törətmişlər.

Cənab Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" verdiyi fərmanda deyilir: "1813-cü illərdə və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi". Erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə geniş miqyaslı qanlı aksiyalar həyata keçirdilər.

Doğrudan da, tarix təkrar olunur. Ermənilərin son dövrlərdə də azərbaycanlılara qarşı yönəltdikləri terrorçuluq hərəkətləri müharibə ararmaq metodları, qətl-qəraət eynilə əsrin əvvəllərindəki ssenarilərlə üst-üstə düşür: Müxtəlif işgəncələrlə yerli xalqa əzab-əziyyət ver, torpaqlarından qov, torpağa sahib ol.



Qafqazda erməni-müsəlman qırğınına son qoymaq və barışıq yaatmaq üçün Tiflisdə - canısin sarayında 20 fevraldan 7 martadək (1906) hər iki xalqın nümayəndələrinin iştirakı ilə (28 erməni, 29 müsəlman) barışıq konfransı keçirilir. Konfransa Tiflis, Yelizavetpol (Gəncə) və İrəvan qubernatorları, 2 qazı, 2 yepiskop iştirak edirdi. Adilxan İrəvanski, Abbasqulu bəy Hacıbəylinski, Şahzadə Şahqulu Mirzə İrəvan nümayəndələri kimi konfransda təmsil olunurdular. Bəzi mənbələrdə bu konfransa "qurultay"da deyilir. Konfransda Daşnaksutyun partiyasının nümayəndələrindən A.Xatisov, S.Taqionosov əsassız müddəalarla çıxış edir, erməni quldurlarının terrorçu hərəkətlərindən yan keçir, daha çox höküməti günahlandırırdılar. Onlar, ortaya bir "koç" məsələsi salaraq aranda yaşayan azərbaycanlıların yay aylarında yaylağa getmələrini qadağan etməklə həm də azərbaycanlıların yaylaq yerinə sahib olmaq istəyirdilər. Azərbaycan nümayəndələrindən Ə.Ağayev, Ə.Topçubaşov, Ə.Ziyadxanov, İ.Hacıyev və digərləri erməni quldurlarının törətdikləri terrorçu hərəkətlərini, qırğınlarda günahkar olduqlarını faktlarla deyərək pisləyir. Türkiyə və Qafqazda günahsız qanların tökülməsində "Daşnaksutyun" partiyasını günahlandırır və həmin partiyanın buraxılmasını təkidlə təklif edirdilər (16, 91-95).

C.İ.Qlinka həmin konfransa münasibətini belə bildirir: "Ümumiyyətlə, sülhsevər tendensiyalar "Daşnaksutyun" partiyasına xas deyil. Hər hansı bir işdə onun mövcud olmamasını aşkar etmək olar. Bütün hallarda isə o, həmişə müdafiədə yox, hücumda olub (33-111).

Əlbəttə 1905-ci ildə rus rəhbərliyi tərəfindən müdafiə və təşkil edilən daşnak terrorçularına cavab olaraq Azərbaycan türklərini müdafiə etmək məqsədilə Bakıda Əhməd bəy Ağaoğlunun təşəbbüsü ilə "Difai" (ərəbcə "müdafiəçi") adlı bir təşkilat yaradılır. Bu təşkilat Azərbaycan türklərini erməni qırğınından qorumaq üçün yaradılmışdır. Əmiraslan bəy Hacinski, Nəsib bəy Yusifbəyli, Ələkbər Xasməmmədli, Ələkbər Rəfibəyli, Həsən Ağaoğlu, Şeyxülislam Molla Məmməd Pişnamazzadə, Mirzə Cavad, Mehmandaroğlu və digər ziyalılar təşkilatda təmsil olunmuşdular. "Difai" təşkilatının 16 mart 1912-ci ildə nəşr etdirdiyi bəyannamədə deyilirdi: "Firqəmizin başlıca məqsədi ayrı-ayrı millətlərə mənsub Qafqaz xalqları arasında səmimi qardaşlıq və birlik yaratmaqdır. Daşnak firqəsi əmin olsun ki, biz heç bir zaman öz millətimizin xarabazarlığı və külü üzərində erməni millətinin səadət və xoşgüzəranlıq qurmasına imkan verməyəcəyik" (16, 121).



"Difai" firqəsinin Qarabağ, Bakı, Naxçıvan, Gəncə, Şirvan, Ordubad bölgələrində şöbələri təsis olunmuşdur. Bu təşkilatın çox böyük tarixi əhəmiyyəti olmuşdur.

Müsəlmanlara qarşı törədilən erməni basqınlarına köməklik göstərən xainlər, yüksək vəzifəli məmurlar barədə qəti tədbir görülməsi də "Difai" təşkilatının mücadilə formalarından biri idi. Məsələn, Şuşada azərbaycanlılara qarşı ermənilərin törədikləri qırğınlara göz yuman və köməklik göstərən rus generalı Qoloşakov Tiflisdə Qarabağlı Hüseyn adlı bir "Difai"çi tərəfindən öldürülmüşdür. Gəncə qubernatorunun müşaviri Krasinski, Gəncə polis idarısinin rəisi Bannikov, şuşalı "dəli sudya" deyilən hərbi prokuror Lunyakin, Tərtər polisinin rəisi Feliginski, Gəncə cəzaevinin imamı Molla Atakişi (polisə xəfiyyəlik etdiyi üçün) və digərlərinin aqibətləri ölümlə nəticələnmişdir. (16, 124)

1907-ci ildə də erməni terrorçuları dinc durmurdular. 1905-ci ildə erməni terrorçularının Naxçıvandakı hərəkətlərini dayandırmaq üçün Qafqazın canişini o vaxt General Maqsud Əlixanov –Avarskini ora göndərmişdi. O həm də general Hüseyn Naxçıvanskinin bacısının əri idi. Ona görə də "Daşnaksutyun" partiyası onun haqqında ölüm hökmü çıxarmışdı. Beləliklə, 3 iyul 2007-ci ildə ikinci Qafqaz diviziyasının komandiri, general-

leytenant M.Əlixanov – Avarski Gümrüdə erməni terrorçuları – Dro və Kamo tərəfindən qətlə yetirilmişdi.

1905-1907-ci illərdəki qanlı hadisələr onu göstərirdi ki, Bakı, İrəvan, Tiflis, Şuşa, Zəngəzur, Qazax və digər yerlərdə törədilən toqquşmalarda vəzifələrdə olan müxtəlif millimənşəli məmurlar və rus kazakları toqquşmalarda ya seyriçi mövqe tutur, ya da xristian kimi ermənilərin "Böyük Ermənistan" yaratmaq xülyalarına köməklik göstərmişlər. Gözləri önündə baş verən soyqırımına göz yummuşlar.

### 2.2. 1914-1920-ci illərdə azərbaycanlıların deportasiyası və soyqırımı

5 avqust 1914-cü ildə Fransanın Marsel şəhərində Türkiyə vətəndaşı olan ermənilər könüllü olaraq rus ordusuna daxil olmaq üçün qərar çıxarırlar. Hələ bundan əvvəl ermənilərin Tiflis bürosu da onların döyüşən rus ordusuna könüllü daxil olmaları üçün səfərbərlik elan etmişdir. Bundan sonra Şərqi Anadoluda türk birliklərində hərbi qulluqda olan ermənilər fərarilik edib öz silahları ilə döyüşən rus ordusuna və erməni terror dəstələrinə qoşuldular (52, 201).

Umuiyyətlə, I Dünya müharibəsi başlayanda Türkiyə vətəndaşı olan ermənilər də terrorçuluq hərəkətlərinə qərar verib,



türklərə qarşı müharibəyə başladılar. Əslində, Osmanlı dövləti heç bir millətə qarşı ayrıseçkilik etməmişdir. Öz vətəndaşlarına eyni münasibət bəsləmişdir. Belə ki, Osmanlı dövlətində 29 paşa, 22 nazir, 33 millət vəkili, 7 böyük elçi, 11 baş konsul, 11 universitet müəllimi, 41 yüksək rütbəli məmur erməni millətindən olmuşdur. Hətta onların arasında xarici işlər, maliyyə, ticarət və rabitə naziri də vardır (48,13).

22 iyul 1914-cü ildə "Gənc türklər"in fəallarından olan hərbi naziri Ənvər paşa hökümət üzvlərini xəbərdar etmədən alman səfirinə Osmanlı imperiyasının Almaniya ilə bir ittifaqa çıxış edəcəyini bildirir. 2 noyabr 1914-cü ildə Rusiya Osmanlı imperiyasına müharibə elan edəndən sonra Türkiyənin şərq vilayətində yaşayan ermənilər türk hakimiyyətinə qarşı üsyan etdilər. İngiltərə hököməti Suriya, Mesopatomiya və İran ərazisindən Türkiyə ermənilərinə 1000 tüfəng ötürülmüşdür. (32, 05) Bu yolla Antantanın etibarını qazanıb işğal edilmiş türk torpaqlarında monoetnik erməni dövləti yaratmaq arzusunda idilər. Rusiya xidmət orqanlarının əli ilə hər cür silahla təchiz edilmiş 10 mindən çox erməni quldur dəstələri türk kişilərinin kütləvi şəkildə orduya səfərbər olunmasindan istifadə edərək Türkiyənin şəhər və kəndlərində müdafiəsiz qalmış qoca qadın və uşaqları hər yerdə müxtəlif işgəncələrlə qətlə yetirirdilər. Onlar körpüləri, yolları və kommunikasiya xətlərini partladaraq arxa

cəphədə faktiki olaraq rus ordusunun hərbi hissələri kimi fəaliyyət göstərirdilər. 1915-ci ilin martında "Daşnaksutyun" partiyasının təhriki ilə Van vilayətində yaşayan ermənilər üsyan etdilər. Van şəhərini ələ keçirərək 3000 türkü, günahsız qoca, qadın və uşaqları qətlə yetirdilər. Əlbətdə onların arasında azərbaycanlılar da çox olmuşdur. Bu ərəfədə İstanbulda terror törədən 245 nəfər erməni quldura həbs edildi. Onlara müxtəlif cəzalar verildi. Erməni müəlliflər əsas faktları gizlədərək yazırlar ki, guya erməni millətindm olan əsgərlər fəhlə batalyonlarına göndərildikləri üçün 24.VI.1915-ci ildə etiraz etmiş və türk ordusu tərəfindən məhv edilmişdilər (56, 7). Əlbəttə bu tam iftira və böhtandır. İndi mənfur ermənilər həmin günü "soyqırım qünü" kimi qeyd edirlər. Bundan başqa, Bitlis, Muş, Ərzurum, Trabzon və başqa vilayətlərində də ermənilər çoxsaylı qətliamlar törətdilər. Bir çox mənbələrdə türklərin soyqırımına məruz qalmasma aid məlumatlar vardır. C. və K. Makkartin tədqiqatlarına görə XX əsrin əvvəlində baş verən qanlı hadisələrdə 1,5 milyon müsəlman qətlə yetirilib (51,168). Digər Amerika tarixçisi Stenforda görə 1914-cü ilə Trabzon, Sivaş, Ərzurum, Ərzincan, Van və Bitlisdən 600 000 türk qaçqın düşmüşdür. Erməni quldurları həmin vilayətlərdə nə qadınlara, nə qocalara, nə də uşaqlara aman verməmişdir (18,160). Onlar deyirdilər ki, Anadoluda ya "Ermənistan", ya da "Məzarıstan"



olmalıdı. Ermənilərin satqınlığı üzündən 90 min türk əsgəri Sarıqamışa meşələrində soyuqdan donaraq şəhid oldular. (65)

Anadolu-Osmanlı dövləti erməniləri hərbi əməliyyat meydanlarından uzaqlaşdırmaq üçün o vaxt imperiyanın tərkibində olan Suriya və ona yaxın olan ərazilərə köçürməklə bağlı çətin qərar (Təhcir qanunu) qəbul etmək məcburiyyətində qaldı. Deportasiya türk ordusunun nəzarəti ilə həyata keçirilirdi ki, hər bir ailəyə dağ çəkən ermənilərə qarşı qısasçılıq zəminində toqquşmalar baş verməsin. Amma bəzən erməni canilərini tanıyanlar heç bir şeyə baxmadan onları qətlə yetirirdilər.

Türk tədqiqatçılarl bu köçürmələrdə xəstəlik və aclıqdan, eləcə də quldur dəstələrinin və rus ordusunun tərkibində döyüşlərdə ölən ermənulərin 130 min olduğunu qeyd edir. "Erməni genosidi" mifini hazırlayan erməni tədqiqatçıları, üzdəniraq erməni tarixşiləri tarixi təhrif edərək 800 mindən çox, bəzən 2 milyona yaxın erməninin öldüyünü iddia edirlər. Mənbələr göstərir ki, həmin dövrdə heç Anadoluda bir o qədər erməni olmayıb. 1915-ci ilin məlumatına görə Anadoluda 800 erməni yaşamışdır (30). Heç bir əsas olmadan onlar bü siyahıya bü və ya digər səbəblərdən ölən digər millət və xalqları, müharibə meydanında, əməliyyatlar zamanı ölən müxtəlif millətlərin nümayəndələrini də əlavə edirlər (48,170).

Əlbəttə, Birinci dünya müharibəsinin elə başlanğıcında Pəmbək, Ağbaba, Şörəyel, İqdır, Qars, Çıldır və digər bölgələrdə

yaşayan 100 minlərlə Azərbaycanlı müharibə meydanına çevrilən bu ərazilərdən qaçqın düşdülər və ya vəhşicəsinə qətlə yetirildilər. İndi Azərbaycanda elə bir ailə tapmarsan ki, ermənilərin çəkdikləri dağı görməsin.

1920-ci ilin sentyabrında daşnak Ermənistanı Türkiyəyə qarşı müharibə elan etdi. Lakin Qafqaz cəbhəsinin komandiri Kazım Qara Bəkir Paşa tez bir vaxtda 1878-ci il sərhəddinə qədər, Gümrü də daxil olmaqla keçmiş sərhədləri bərpa etdi. Erməniləri Sevr müqaviləsindən imtina etməyə məcbur oldular və Gümrü (1920) müqaviləsi ilə barış istədilər. (48, 50)

Osmanlı dövlətinin Antanta ilə bağlanmış Sevr (Fransa) müqaviləsinin (10.VIII.1920) şərtlərinə görə Türkiyənin Şərqi Anadolu hissəsində erməni və kürd dövləti yaradılmalı idi. Lakin Mustafa Kamal Atatürkün yaratdığı Milli Mücadilə tərəfdarları Lozanna şəhərində Osmanlı Türkiyəsinin imzaladığı Sevr müqaviləsini tanımadı və həmin müqaviləni Osmanlı Türkiyəsinin imzaladığını qeyd etdi. Antanta dövlətləri və ermənilər bu sərt məntiqi diplomatiyanın qarşısında məğlub olaraq uydurma "erməni soyqırımı" məsələsini ortaya atdılar.

Türkiyədən torpaq qoparmağın mümkün olmadığını görən ermənilər Qafqazda özlərinə yer axtarmağa başladılar. Xüsusilə bolşevik cildinə girmiş ermənilərin daha çox cəmləşdiyi Bakı şəhərini hədəf seçdilər.



1917-ci ildə çar hökuməti devrildikdən sonra Almaniya və Avstriya, eləcə də Qafqaz cəbhəsində döyüşən minlərlə erməni əsgər və zabitləri Bakı, qismən də Tiflisdə cəmləşirdilər. Özləri ilə silah sursat da gətirirdilər. Bir çox yerlərdə - məsələn, Gümrüdə rus ordusunun böyük arsenalına ermənilər sahib olmuşdular. Erməni generallarının rəhbərlik etdiyi bütöv polkları var idi. Bildiyimiz kimi, çar hökuməti dövründə azərbaycanlıları əsgər aparmır, onlara silah etibar etmirdilər. Az-az zadəgan uşaqları hərbi qulluğa cəlb edilirdilər. Əvvəllər erməni bandalarını keşişlər istiqamətləndirirdisə, indi onları V.Lenin, S.Şaumyan, A.Mikoyan kimi arxaları və himayədarları var idi.

Rusiyadakı 1917-ci il fevral inqilabından sonra ermənilər müvəqqəti hökumətin başçısı Kerenskinin yanına nümayəndə göndərərək pərakəndə, quldur-erməni dəstələrinin əvəzinə, nizami ordu yaratmaq arzusunda olduqlarının bildirirlər. O, razılaşaraq onlara silah və paltar verəcəyinə də söz verir. Beləliklə, Qərbi Azərbaycan (indiki Ermənistan) və Naxçıvan ərazisində yaşayan azərbaycanlıları qarət və qətl etmək üçün 35 min nəfərlik korpus yaradılır. T.Nazaryan korpusun komandiri, Dro Qanyan korpus komandirinin müavini təyin edilir. Korpus 3 diviziyaya bölünür. Diviziyaların hansı bölgələrdə "əməliyyat aparmaları", yəni qırğın, qətl və qarət törətmələri də müəyyən edilir.

1. General Andranik Qzanyan – Naxçıvan Zəngəzur və Qarabağın dağlıq bölgələrində.
2. General Arisyan və Dro Qanyan –İrəvan, İrəvanətrafı, Zəngibasar, Üçkilsə (Eçmiadrin), Qurdqulu, Vedibasar, Qəmərli və Dərə Ələyəz bölgələrində
3. Polkovnik Sulikov (Sulikyan) Göqçə qolu ətrafı bölgələrdə.

Sonrakı hadisələr onu göstərdi ki, göstərilən plan əsasında ermənilər hərəkət etmiş "Böyük Ermənistan" yaratmaq məqsədilə azərbaycanlılar yaşayan kəndləri yandırıb, talan etmiş, əhali soyğırıma məruz qalmışdı (32, 85-86).

Quldurbaşı Andranik 1911-1912-ci illərdə, I Balkan savaşlarında bolqar zabiti kimi vuruşmuşdur. Hətta Milan Demyanovdan medal da almışdır (20, 90). Andranik Ozanyan (heyf bu soyada) 1915-ci ildə I könüllü erməni diviziyası təşkil edərək Qafqaz ordusunun tərkibində vuruşmuş, hər yerdə türk qanı tökmüşdür. 14.VII.1918-ci ildə Qafqazın fövqəladə komissarı S.Şaumyan ona teleqram vuraraq rus hökumətinə tabe olmağı və Bakıya tələsən I Türk islam ordusunun qabağını kəsməyi təklif edirdi (56, 598). Amma onun buna cürəti çatmadı.

1918-ci il mart ayının 31-dən başlayaraq Bakı, Quba, Göyçay, İrəvan, Zəngəzur, Gəncə, Göyçay və digər yerlərdə guya bolşeviklərə qarşı çıxdıqlarına görə bolşevik cildinə girmiş



daşnak ermənilər azərbaycanlılara divan tutmuşlar.

Erməni mənbələrində S.Şaumyanın rəhbərlik etdiyi Bakı kommunasının Qafqazın müxtəlif yerlərində azərbaycanlılara qarşı yönəldilmiş soyqırımını "əksinqilabçılara qarşı mübarizə" adlandırılır (59, 283).

Rusiyadakı inqilab ermənilərin təşkilatlanmasına şərait yaratdı. Ş.Şaumyan V.İ.Leninin razılığı ilə daşnak-bolşevik fəallarını Azərbaycanlılara qarşı yönəldilmiş soyqırımı dövlət siyasətinə çevirdi. 1918-ci ilin mart, aprel aylarında onun rəhbərliyi ilə Bakıda və digər şəhərlərdə soyqırımı aparılmışdır. Şaumyan oktyabr çevrilişindən sonra cəbhədən geri qayıdan erməni könüllülərini Bakıda saxlayır və Mantasovun zavodunda qərargah yaradaraq onları Azərbaycanın müxtəlif rayonlarına "əksinqilabçılara qarşı mübarizə" adı altında göndərirdi. Bütöv Azərbaycanı erməniləşdirmək istəyən Şaumyan musavatçıların Azərbaycanın müxtariyyəti məsələsini lağa qoyur və Əmirxanovun redaktoru olduğu "Бакинский рабочий" qəzetində deyirdi: "Azərbaycanın muxtar olmasını arzulayan musavatçılar son nəticədə xarabazara sahib olacaqlar" (9, 82; 16, 227).

Rusiya fəhlə-kəndli hökuməti xalq komissarları sovetin "Türkiyə–Ermənistan" (bu da uydurma addır) haqqında 29.XII.1917-ci ildə dekret qəbul etmişdir. Həmin dekret Sovetin III ümumittifaq qurultayında təsdiq olunmuşdur Bu dekretdə

Qafqaz fövqalədə işlər üzrə komissarı S.Şaumyana vəsadət verirdi ki, "Türkiyə Ermənistanında hər cür qayda-qanunun yaradılması, Türkiyə-Ermənistan sərhəddinin müəyyən edilməsi, demokratik yolla orada vəkillər şurası yaradılması, türk qoşunlarının oradan çıxarılmasını təmin etsin və s." (56, 492). Dekreti V.Lenin, İ.Stalin, V.Bonc-Brieviç və N.Qorbunov imzalamışlar.

Tarixçi Hüseyn Bayqara Qafqazda törədilən qanlı qırğınlar haqqında belə yazır: "Bu zülmləri azəri xalqına çəkdirən Lenin və Stalin tərəfindən əlinə 13 nömrəli dekret verilən Qafqaz və Türkiyədə bir "Ermənistan" yaratmaq tapşırığını alan Şaumyan və yoldaşları idi" (16, 227).

Erməni millətçiləri Anadoluda – Qars, Ərzurum, Ərdahan, İydır vilayətləri sərhəddində Erməni muxtar dövləti yaratmaq arzusunda idilər. Lakin Rus imperiyasının müharibədə uduzması Kazım Qarabəkirin Qafqaz cəbhəsindəki uğuru erməni millətçilərinin fikirlərini alt-üst etdi (31, 102). Belə bir vaxtda S.Şaumyanın Qafqaza Fövqalədə komissar göndərilməsi də ermənilər üçün göydəndüşmə olmuşdu (38, 280). Yetmiş faizi ermənilərdən ibarət olan Bakı kommunasını tabeliyində 18 min silahlı vardı. Onların çoxu cəbhədən qayıdan silahlı ermənilər idi. Bakı şəhərində 3 gün ərzində (30-31 yanvar, 1 aprel) 30 min nəfər azərbaycanlı qətlə yetirilmişdir. Bundan başqa, Şamaxı, Quba,



Göyçay və Kürdəmir, Muğan, Lənkəran, Gəncə 50 mindən çox insan vəhşicəsinə öldürülmüş, kənd və qəsəbələr xaraba qalmışdı. Şamaxı qəzasının 58 kəndində Quba qəzasında 112, Qarabağda 157, Zəngəzur qəzasında 115, İrəvan qəzasında 211 kənd yerlə yeksan edilmişdir (9, 95).

İrəvan vilayətinin bütün kəndləri Andranik, Dro və digər daşnak sərkərdələri tərəfindən yer ilə yeksan edilərək əhalisi də məhv edildi. Irəvan hadisəsi "Zaqafqaziya seyminin 5,7,19,20 fevral tarixləri iclaslarında böyük qurultulara səbəb olmaqla İrəvana heyətlər göndərildi. Bu heyətlər İrəvan vilayətində 211 türk köyünün təxrib və 100 minə qədər əhalisinin məhv edildiyini isbat etdilər. (47,111).

Tarixçi C.Zeynalov qeyd edir ki, Gəncəyə pənah gətirən qaçqınlara Seym 15 milyon manat yardım etməyi nəzərdə tutsa da, cəmi 3 milyon manat verildi. Bu vəsait də küçədə və qoltuqda qalan biçarələr ehtiyaclarını ödəmədi. Beləcə, İrəvan vilayətində olan müsəlman və türklər məhv edildilər. Çarizm zamanında vilayətdə yaşayan 300 min türkdən indi heç 3 min belə qalmamışdır. (16, 111)

Erməni daşnak hökumətinin vaxtında da soyqırım aparılmışdır. 17 may 1919-cu ildə "Azərbaycan" qəzeti yazırdı ki, Göyçənin Kəvər (Yeni Bəyazid) ərazisində müsəlman kəndləri yandırılmışdır. Burada aprel ayında 84 müsəlman kəndi

yandırılmışdır. Daşkənd, Qoşabulaq, Sarıyaqub, Baş Şorca, Ayaq Şorca, Ağkilsə, Zod, Quluağalı, Böyük Qaraqoyunlu, Kiçik Qaraqoyunlu, Canəhməd, İnəkdağ, Qara İman, Kəsəmən, Başkənd, Şişqaya, Kiçik Mərzə, Zərzibil, Qəribqaya və s. kəndlərdən 15 min əhali var-dövlətlərini qoyub qaçmışdır. Ermənilər kəndləri talan edirdilər. Qarət edilmiş əmlak bir neçə milyon və milyardlar qədərdir (25, 271, 274).

9 noyabr 1918-ci ildə "Qruziya" qəzeti yazırdı: "20 oktyabr 1918-ci ildə Zəngəzurun Ərəmiş, Bəhrili, Qonakilsə, Dulus, Pulkənd, Arıxlı, Şıxlar, Şəki, Yaqublu, Qızılcıq, Vağudi, Sisyan, Kürdlər, Abdallar dağıdılmış insanları məhv edilmişdir" (25, 129, 130).

Həmin ərəfədə Andranikin dəstəsi Zəngəzurun daha 30 kəndini xarabalığa çevirərək əmlaklarını da talamışlar. "Sisian" kitabında 1918-119-cu illərdə Zəngəzuru Andranik, Dro, Nijde kimi daşnak rəhbərləri təriflənir, sovet hökumətitinin ideologiyasına uyğun olaraq erməni daşnak hökuməti (1918-1920) pislənir. Bunun hansına inanaq (70, 87-89).

Maxaçkalada məsciddə yerləşmiş cənubi Azərbaycan mühacirərindən də 750 nəfəri S.Lalayan və Ruben Ağamolyanın rəhbərliyi ilə güllələnmişlər. Erməni qətlyamının qurbanları günahsız kişi və qadınlar, qoca və uşaqlar xəstə və kimsəsizlər olmuşdur.



1918-ci ilin payızında Azərbaycan Xalq Cümhuriyyətinin yaratdığı Fövqəladə Tədqiqat Komissiyasının məlumatına görə Cavanşir qəzasında 12 kənd, Cəbrayıl qəzasında 12 kənd, Zənəzur qəzasında 115 kənd tamam dağıdılmış. 10068 nəfər müxtəlif üsullarla qətlə yetirilmişlər. Bununla bərabər, Azərbaycan kəndlərini soyub talayan, amansız işgəncələrlə azərbaycanlıları qətlə yetirmiş erməni quldur dəstələri üzvlərinin adları və familiyaları da həmin məlumatda qeyd edilmişdir. Quldurluq edən ermənilərin arasında keşiş, hərbçi, icma rəhbəri, keçmiş pristav və digər peşə sahibləri çoxluq təşkil edirdi (5, №3).

Azərbaycan Respublikasının Dövlət arxivindəki bir sənəddə Şamaxının 50 kəndində öldürülən günahsız insanların siyahısı verilir. Onlardan 300 kişi, 200 qadın, 800 uşaq olubdur. Ərəbqədim, Quşçu, Qaravəlli, Təkəli, Bağırlı, Hacılı, Dilman, Kəlva, Tarcan, Müdcü Sündü, Ağsu, Bəklə, Mərəzə kəndlərində aparılan soyqırım daha dəhşətli olmuşdur.

1918-ci ilin 15 sentyabrında Nuru paşanın rəhbərliyi ilə Bakıya gələn türk qoşunları Azərbaycanı xilas etdi. Quba rayonunda ermənilər daha rəzil hərəkət edərək elə Qubanın özündə 105 evi yandırmış şəhərin varlı tacir və din adamlarını güllələmiş, evlərini talamışlar. Quba mahalında ermənilər 122 kəndi dağıdıb xaraba qoymuşlar. Dəvəçi, Siyəzən Rəhimli, Sarvan,

İlxıçı, Avaran, Əmsar, Nügədi, Rustov, Alpanda çox insan qətl edilmişdir. Əlixanlı, Ərəb Əlməmmədli, Qulanlar, Tura və daha 10 kənd hələ də o dövrün canlı arxivi kimi xaraba qalır (9, 86).

"Türkiyə karvanı" kitabında üzdəniraq müəlif Y.İliçov riyakar mövqe tutaraq yazır: "Ənvər paşanın qoşunları Ərzurumu, Sarıqamışı, Ərdəhanı, Qarsı, Batumu zəbt etdi. Onlar payızda Bakıya soxuldular, şəhəri talan etdilər, camaata divan tutdular – 35 min adam qırdılar". Belə bir kitabın Azərbaycan dilinə tərcümə edilməsinə adamın heyfi gəlir (32,93). Yalan və qərəz göz qabağındadır.

Ermənilər hələ əsrin əvvəllərindən Avropa dövlətlərinin diasporunun təsiri ilə quya ermənilərin soyqırıma məruz qalmasını az da olsa, iddia edirdilər. 1965-ci ildə I dünya müharibəsindən 40 il keçəndən sonra ermənilər hakimiyyət boşluğundan istifadə edərək şovinist kitablar yazır, kinolar çəkirdilər. Bundan sonra iddia etdilər ki, guya ki, ermənilərə qarşı türklər soyqırımı törətmişlər. Əlbəttə bu soyqırımı ermənilərə yox, azərbaycanlılara və türklərə qarşı olmuşdur. 1915-ci ildə erməniləri sərhəd-cəbhə bölgəsindən Osmanlı imperiyasının başqa yerlərinə köçürmələr olmuşdur. Bu da ondan irəli gəlmişdir ki, Türkiyə vətəndaşı olan ermənilər rus-türk müharibələrində hər vaxt rusları dəstəkləmiş, onlara əsgər, minik, ərzaq vermiş və yeri



gəldikcə müharibənin gedişində türklərə xəyanət etmişlər (58, 44,45, 48). Onlara arxadan xəyanətkarcasına zərbə vurmuşlar.

Aşağıda qeyd olunan cədvələ diqqət yetirsək, azərbaycanlıların ermənilər tərəfindən deportasiya və soyqırımına məruz qalmaları statistik rəqəmlərlə açıq-aydın görünür. "Kavkazskiy kalendar"da (1908) da bu qeydlər vardır.

1918-ci ildə İrəvan quberniyasında dağıdılmış və boşaldılmış azərbaycanlı yaşayış məntəqələrinin siyahısı belədir:

| S/s | Qəzanın, milis sahələrinin və kəndlərinin adları | Təsərrüfatların sayı | Əhalinin sayı |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| | **İrəvan qəzası** ***I milis sahəsi*** | | |
| 1. | Damagirməz | 70 | 387 |
| 2. | Zar | 170 | 706 |
| 3. | Kamal | 100 | 625 |
| 4. | Küzəcik | 24 | 119 |
| 5. | Məngüs | 90 | 426 |
| 6. | Oxçavert | 115 | 493 |
| 7. | Tutiyə | 40 | 208 |
| 8. | Kərpicli | 32 | 188 |
| 9. | Tatar-Koxtu | 20 | 79 |
| 10. | Əliqırıx | 37 | 202 |
| | ***II milis sahəsi*** | | |
| 11. | Ağhamzalı | 143 | 843 |
| 12. | Cəbəcili | 63 | 355 |
| 13. | Xarratlı | 62 | 496 |
| 14. | Uluxanlı | 500 | 3173 |

| | | | |
|---|---|---|---|
| 15. | Qaradağlı | 62 | 496 |
| 16. | Sarcalar | 64 | 638 |
| 17. | Reyhanlı | 56 | 442 |
| 18. | Həbilkəndi | 34 | 256 |
| | ***III milis sahəsi*** | | |
| 19. | Sabınçı | 35 | 202 |
| 20. | Qəmərli | 151 | 870 |
| 21. | Torpaqqala | 56 | 415 |
| 22. | Qaraqoyunlu | 67 | 432 |
| 23. | Düyün | 92 | 432 |
| 24. | Buzovand | 28 | 96 |
| 25. | Qarahamzalı | 160 | 815 |
| 26. | Alpava | 28 | 206 |
| 27. | Doqquz | 36 | 210 |
| 28. | İpəkli | 37 | 185 |
| 29. | Ağbaş | 19 | 132 |
| 30. | Novruzlu | 16 | 231 |
| 31. | Yamancalı | 107 | 763 |
| | ***IV milis sahəsi*** | | |
| 32. | Sədərək | 500 | 4117 |
| | *Cəmi qəza üzrə* | 3015 | 19005 |
| | **Sürməli qəzası** | | |
| | ***I milis sahəsi*** | | |
| 33. | Əligöyçək | 69 | 467 |
| 34. | Yuxarı Bəndəmurad | 13 | 107 |
| 35. | Aşağı Bəndəmurad | 12 | 232 |
| 36. | Kündə | 16 | 249 |
| 37. | Daşlıca | 17 | 171 |
| 38. | Asma | 35 | 147 |
| 39. | Qaragüney | 53 | 637 |
| 40. | Göyçək | 18 | 336 |
| 41. | Qızıl Qala | 18 | 109 |



| | | | |
|---|---|---|---|
| 42. | Qarahasar | 24 | 266 |
| 43. | Siçanlı | 18 | 109 |
| 44. | Arxacı | 193 | 2021 |
| 45. | İydir Mava | 262 | 1672 |
| 46. | Mələkli | 361 | 2100 |
| 47. | Sultanabad | 26 | 190 |
| 48. | Ağaməhəmməd | 130 | 620 |
| 49. | Ağaverdi | 42 | 206 |
| 50. | Ərəbkirli | 83 | 344 |
| 51. | Qasımcan | 80 | 363 |
| 52. | Quzukənd | 46 | 236 |
| 53. | Qazançı | 121 | 583 |
| 54. | Kiti | 165 | 751 |
| 55. | Güllük | 101 | 760 |
| 56. | Oba | 120 | 720 |
| 57. | Sarıçoban | 63 | 338 |
| 58. | Yuxarı Çarıxçı | 42 | 222 |
| 59. | Aşağı Çarıxçı | 15 | 144 |
| 60. | Yaycı | 226 | 1500 |
| 61. | Amarət | 40 | 254 |
| 62. | Xaraba Əlican | 145 | 832 |
| 63. | Hüseynkəndi | 79 | 550 |
| 64. | Zülfüqar | 82 | 515 |
| 65. | Qızıl Zakir | 49 | 299 |
| 66. | Qazı Qışlağı | 90 | 406 |
| 67. | Mürşüdəli Qışlağı | 6 | 41 |
| 68. | Nəcəfəli | 11 | 127 |
| | ***II milis sahəsi*** | | |
| 69. | Həsənxan | 110 | 618 |
| 70. | Göyçəli | 80 | 600 |
| 71. | Cənnətabad | 240 | 2090 |
| 72. | Dizə | 300 | 1823 |
| 73. | Qaraqoyunlu | 28 | 139 |

| | | | |
|---|---|---|---|
| 74. | Kirəcbağ | 35 | 250 |
| 75. | Oğuzlu | 20 | 123 |
| 76. | Səfərqulu | 28 | 197 |
| 77. | Toxanşahlı Bayat | 63 | 658 |
| 78. | Toxanşahlı Qacar | 178 | 1076 |
| 79. | Xaraba Əlican | 42 | 239 |
| 80. | Şirəçi | 70 | 575 |
| | ***III milis sahəsi*** | | |
| 81. | İncə | 120 | 887 |
| 82. | Sürməli | 80 | 790 |
| 83. | Pirli | 92 | 870 |
| 84. | Osmangöy | 20 | 115 |
| 85. | Söyüdlü | 50 | 219 |
| 86. | Yuxarı Qatırlı | 46 | 528 |
| 87. | Cüvənli | 25 | 226 |
| 88. | Turabi | 70 | 337 |
| 89. | Mirzəxan | 21 | 208 |
| 90. | Suki | 39 | 356 |
| 91. | Pirsax | 56 | 523 |
| 92. | Əkərək | 72 | 658 |
| 93. | Qamışlı | 35 | 630 |
| 94. | Aşağı Qatırlı | 21 | 267 |
| 95. | Çinçavad | 12 | 202 |
| 96. | Kahin | 35 | 529 |
| 97. | Ağdaş | 46 | 210 |
| 98. | Ağabəy | 27 | 251 |
| 99. | Dəmirçixan | 83 | 812 |
| 100. | Qaracaviran | 53 | 779 |
| 101. | Yağlı | 31 | 588 |
| 102. | Əlikosa | 50 | 750 |
| 103. | Siçanlı | 50 | 673 |
| 104. | Daşlıca | 47 | 420 |
| 105. | Quru Ağac | 40 | 426 |



| | | | |
|---|---|---|---|
| 106. | Muça | 100 | 879 |
| 107. | Ərgov | 93 | 843 |
| | *Cəmi qəza üzrə* | 5493 | 41347 |
| 108. | Molla Dursun | 35 | 320 |
| 109. | Hacılar | 29 | 248 |
| 110. | Girampa | 26 | 130 |
| 111. | Ayarlı | 70 | 353 |
| 112. | Ağca Qala | 72 | 420 |
| 113. | Aramlı | 30 | 162 |
| 114. | Zeyvə | 108 | 622 |
| 115. | Kolanlı | 159 | 768 |
| 116. | Qarğabazar | 129 | 688 |
| 117. | Səfiabad | 29 | 243 |
| 118. | Gözlü Qəmərli | 89 | 411 |
| 119. | Qaraqoyunlu | 74 | 472 |
| 120. | Ayrağlı | 39 | 370 |
| 121. | Batrınc | 75 | 526 |
| 122. | İkinci Ayranlı | 35 | 215 |
| 123. | Tossuz | 83 | 420 |
| 124. | Çobankərə | 388 | 2417 |
| | ***II milis sahəsi*** | | |
| 125. | Kiçik kənd | 32 | 370 |
| 126. | Persi | 42 | 323 |
| 127. | Təkiyə | 145 | 725 |
| 128. | Parpı | 173 | 1006 |
| 129. | Haxıs | 74 | 35 |
| 130. | Zeynalbulağı | 45 | 295 |
| 131. | Gödəkli | 24 | 242 |
| 132. | Üşü | 190 | 1380 |
| 133. | Nəziravan | 68 | 553 |
| 134. | Ayğırsaq | 25 | 209 |
| 135. | Qoşabulaq | 18 | 211 |
| 136. | Göytül | 27 | 208 |

| | | | |
|---|---|---|---|
| 137. | Qaraceyran | 65 | 395 |
| 138. | Kürdəli | 27 | 135 |
| 139. | Hamamlı | 82 | 208 |
| 140. | Tülnəbi | 52 | 379 |
| 141. | Əkərək | 99 | 629 |
| 142. | Ərgov | 70 | 280 |
| | ***III milis sahəsi*** | | |
| 143. | Yuxarı Qarxın | 213 | 1153 |
| 144. | Aşağı Qarxın | 120 | 625 |
| 145. | Şorkənd | 62 | 408 |
| 146. | Türkmənli | 54 | 510 |
| 147. | Molla Bədəl | 52 | 335 |
| 148. | Ağcaarx | 110 | 720 |
| 149. | Kərim arxı | 353 | 1700 |
| 150. | Armudlu | 42 | 309 |
| 151. | İydəli | 143 | 880 |
| 152 | Canfəda | 218 | 1318 |
| 153 | Yuxarı Qulubəyli | 42 | 286 |
| 154. | Aşağı Qulubəyli | 40 | 518 |
| 155. | Saatlı | 43 | 247 |
| 156. | Qamışlı | 24 | 247 |
| 157. | Meteqala | 19 | 364 |
| 158. | Qatırabad | 30 | 195 |
| 159. | Rəncbər | 66 | 226 |
| 160. | Peziki | 32 | 264 |
| 161. | Xocayar | 27 | 236 |
| | ***IV milis sahəsi*** | | |
| 162. | Pirtikan | 64 | 496 |
| 163. | Pirmələk | 82 | 261 |
| 164. | Şeyx Hacı | 38 | 410 |
| 165. | Karvansaray | 85 | 210 |
| 166. | Əşnək | 145 | 677 |



| | | | |
|---|---|---|---|
| 167. | Aralıx | 62 | 358 |
| 168. | Quldərviş | 48 | 357 |
| 169. | Talın | 59 | 430 |
| 170. | Mehriban | 140 | 533 |
| 171. | İrind | 45 | 239 |
| 172. | Yuxarı Qarğaqovmaz | 70 | 384 |
| 173. | Aşağı Qarğaqovmaz | 42 | 253 |
| 174. | Aşağı Ağacaqala | 115 | 315 |
| 175. | Sabunçu | 32 | 165 |
| 176. | Ahaqçı | 44 | 327 |
| 177. | Yuxarı Qalaqut | 18 | 50 |
| 178. | Aşağı Qalaqut | 17 | 95 |
| 179. | Qaraqala | 18 | 108 |
| 180. | Qəzbin | 21 | 100 |
| 181. | Susuz | 18 | 90 |
| 182. | Knık | 19 | 91 |
| 183. | Mustafato | 60 | 289 |
| 184. | Bozbur (kürd) | 32 | 165 |
| 185. | Aylanlı | 100 | 300 |
| 186. | Seyranqışlağı | 15 | 83 |
| 187. | İlanqışlaq | 12 | 58 |
| 188. | Ucan | 90 | 300 |
| 189. | Bayramlı | 12 | 82 |
| 190. | Qədim Bəşir (kürd) | 32 | 165 |
| 191. | Yuxarı Ağcaqala | 100 | 308 |
| | *Cəmi qəza üzrə* | 5979 | 35784 |
| | ***Yeni-Bayazid qəzası*** ***I milis sahəsi*** | | |
| 192. | Ərzəkənd | 80 | 593 |
| | ***II milis sahəsi*** | | |
| 193. | Ağzıbir | 116 | 755 |
| 194. | Bığlı | 112 | 658 |

| | | | |
|---|---|---|---|
| 195. | Ağtala | 62 | 424 |
| 196. | Əyrivəng | 96 | 706 |
| 197. | Hacı Muğan | 130 | 1034 |
| 198. | Rəhmankənd | 72 | 779 |
| *Cəmi qəza üzrə* | | 668 | 4649 |
| *Cəmi quberniya üzrə* | | 15155 | 100626 |

1919-cu ilin son iki ayında isə daşnak hökumətinin İrəvan quberniyasında darmadağın etdikləri müsəlman kəndlərinin siyahısı belədir:

***I. Üçkilsə (Eçmiədzin) qəzasında***

| | | |
|---|---|---|
| 1. Hacılar | 22. Yuxarı Qarğaqovmaz | 43. Persi |
| 2. Molla Dursun | 23. Aşağı Qarğaqovmaz | 44. Parpı |
| 3. Törə | 24. Əşnək | 45. Zeynalbulağı |
| 4. Qaraqoyunlu | 25. Mehriban | 46. Zeyvə |
| 5. Ağcaqala | 26. Şeyx Hacı | 47. Birinci Qulubəy |
| 6. Kolanlı | 27. İrind | 48. İkinci Qulubəy |
| 7. Qəmərli | 28. Talın | 49. Ağcaarx |
| 8. Ayarlı | 29. Pirmələk | 50. Kərimarxı |
| 9. Batrınc | 30. Pirtikan | 51. Canfəda |
| 10. Ucan | 31. Ahaqçı | 52. İydəli |
| 11. Kəvi | 32. Aralıq | 53. Armudlu |
| 12. Avan | 33. Quldərviş | 54. Molla Bədəl |
| 13. Qaracalar | 34. Göytül | 55. Buzovand |
| 14. Maqda | 35. Ərgov | 56. Türkmənli |
| 15. Dian | 36. Qoşabulaq | 57. Kolanlı |
| 16. Talış Əkərək | 37. Gödəkli | 58. Səfiabad |
| 17. Bağçacıq | 38. Ayğırsaq | 59. Qəmərli |
| 18. Karvansara | 39. Üşü | 60. Qarğabazar |
| 19. Yaşıl | 40. Kiçikkənd | 61. Yuxarı Qarxın |
| 20. Yuxarı Ağcaqala | 41. Nəziravan | 62. Aşağı Qarxın |
| 21. Aşağı Ağcaqala | 42. Persi | |



***II. Sürməli qəzasında***

| | |
|---|---|
| 1. Yaycı | 18. İkinci Arxacı |
| 2. Oba | 19. Üçüncü Arxacı |
| 3. Güllük | 20. Qaraqoyunlu |
| 4. Ağməhəmməd | 21. Zülfüqar |
| 5. Qasımcan | 22. Hüseynkəndi |
| 6. Ərəbkirli | 23. Səfər Qulu |
| 7. Quzukənd | 24. Cənnətabad |
| 8. Sarıçoban | 25. Aşağı Dizə |
| 9. Ağaverdi | 26. Yuxarı Dizə |
| 10. Sürməli | 27. Həsənxan |
| 11. Qazançı | 28. Kirəşbağ |
| 12. Nəcəfəli | 29. Oğuzlu |
| 13. Amarət | 30.Qızıl Zakir |
| 14. Mələkli | 31. Qurbanlı |
| 15. İydir Mava | 32. Dərəkəndi |
| 16. Sultanabad | 33. Pərni |
| 17. Birinci Arxacı | 34. Təpəbaşı |

***III. İrəvan qəzasında***

Zəngibasardan başqa, bütün kəndlər (yəni 32 kənd) dağıdılmışdır (23, 376,391).

1918-ci ilin yazınadək Cənubi Azərbaycanda erməni və

aysorilər xristian Antanta dövlətlərinin, ABŞ və xristian missionerlərinin təhriki ilə Xoy, Səlmas, Zəncan, Miyanə, Urmiyə şəhərlərini və onların arasındakı kəndləri yandırıb talan etdilər.

Bu barədə Məhbub Dadaşpurun "Kazim xan Quşcu" kitabında geniş məlumat verilir. 1918-ci ilin fevral və mart aylarında erməni və aysori terrorçuları Məlik Simon və Smitkonun rəhbərliyi ilə Urmiya, Səlmas və Xoy şəhərlərində, eləcə də ətraf kəndlərdə azərbaycanlılara qarşı açıq-aşkar soyqırım aparmış, 100 mindən çox adam məhv olmuşdur. (32, 31,33). Kazim xan Quşcu bir xalq qəhrəmanı kimi erməni-rus-aysori birliklərinə qarşı fəal mübarizə aparmışdır. 1923-cü ilin dekabrında Kazımdaş qalasının müdafiəsində bomba partlayışından həlak olmuşdur (22, 152).

Ermənilər Urmiyə bölgəsində də 150 min, Xoy bölgəsində isə 50 min azərbaycanlını qətlə yetirdilər, kəndləri viran edib xaraba qoydular. Bu qətliamların çoxu Novruz bayramı ərəfəsində olmuşdur.

İran tarixçilərindən Ə.Dehqani və Ə.Kəsrəvinin ermənilərin törətdikləri qətlyamlar haqqında qeydləri vardır. Seyid Əhməd Kəsrəvi "On səkkiz illik Azərbaycan tarixi" kitabında yazır: "Onlar Osmanlı ordusunun yaxınlığını görüb şəhəri tərk etdilər. Bu dəhşətli hadisələrdə ermənilərlə assurlar 10



min nəfərdən çox Azərbaycanlı öldürdülər. Ağa Petrosun başçılığı ilə keçirilən qanlı iğtişaşlarda Səlmasda bircə abad kənd belə qalmadı (32, 95).

Quldur Məlik Simonun (Marsimon) öldürülməsindən sonra onun yerinə keçən quldurbaşı Petros Cənubi Azərbaycan müsəlmanlarının soyqırıma məruz qoyan erməni və aysori quldurlarına rəhbərlik edirdi. Birinci dünya müharibəsi dövründə rus generalı Çernozubovun ordusunda xidmət etmiş, sonralar Rusiyanın Urmiyada konsulluq attaşesi işəmişdir. İngiltərə, Fransa və Amerikanın himayədarlığı ilə hətta Lozanna konfransına "general Petros" adı ilə qatılmışdır. O, konfransda Urmiya və Səlmas bölgələrində aysorilərin dövlətini yaratmaq təklifini irəli sürsə də, orada münasib qərar qəbul edilməmişdirş (16, 159).

Ə.Dehqani də 17 mart 1918-ci ildə Urmiya şəhərində erməni daşnakların və çiloların (aysorilərin) on min azərbaycanlını qətlə yetirdiklərinin şahidi olduğunu qeyd edir (32, 95).

Başqa bir məlumatda göstərilir ki, erməni və aysori terrorçularına himayəlik edən, Xoy çəhərini erməni şəhəri etmək istəyən daşnak Andranik 8 min erməni qulduru ilə Qafqazdan Xoya yürüş edir və azərbaycanlılrın güclü müqavimətləri ilə qarşılaşaraq məğlub olur. (16, 158).

Mənbələrdə göstərilir ki, Xoydan qovulan Andranik və onun quldurları Culfa yolu ilə Naxçıvana gəlir. Nehrəmdə azərbaycanlıların gərgin müqaviməti ilə rastlaşır. O ozünü Sovet Rusiyasının səlahiyyətli nümayəndəsi kimi göstərir və Naxçıvanda sovt hakimiyyətinin qurulmasını elan edir. Daha sonra yerli əhalidən silahların yığılması haqqında əmr verir (27, 19). Amma naxçıvanlılar onun fitnəkar bir quldurbaşı olduğunu yaxşı tanıyırdılar. Ona görə də onun dəstəsinə qarşı ölüm-dirim savaşına qatıldılar.

1918-ci ilin iyununda Türk ordusu Cənubi Azərbaycana Urmiya, Xoy və Səlmas şəhərlərinə gəlir və xalqı erməni qırğınından xilas edir. Rusiya ərazisinə daxil olmayan Urmiya bölgəsində 150 min, Xoy bölgəsində 50 min, Şərqi Anadolu (Türkiyə) bölgəsində 200 min azəri türkü, bütövlükdə 400 min azəri türkü erməni mauzerçiləri tərəfindən qətlə yetirilmişlər. Bu da tarixdə ağ ləkədir. Özünü I Dünya savaşında bitərəf elan etmiş İran dövlətinin suveren hüquqları pozulmuş, azərbaycanlılara qarşı soyqırım törədilmişdir. Bir vətəndaş kimi onların haqqı tapdalanmışdır. (32, 94-95)

Rus mətbuatında hər vaxt qərəzli şəkildə qeyd edilir ki, Azərbaycanda etnik təmizləmə aparılır. Ancaq Qərbi Azərbaycanda zaman-zaman etnik təmizləmə apararaq etnik Ermənistan yaradan ermənilərə heç kəs irad tutmur.



Rus dövlətinin müstəmləkəçilik və türklərə düşmən münasibəti nəticəsində 1801, 1828, 1854, 1878, 1914-cü illərdə rus-türk müharibələrinin meydanına çevrilmiş Qafqazda ən çox əziyyət çəkən Azərbaycan türkləri olmuşdur. Cənubi Qafqazı işğal edən rus çarları çalışırdılar ki, Qafqazın etnik tərkibini dəyişdirsinlər. Yəni Azərbaycan türkləri tarixən yaşamış ərazilərə digər millətləri, ən çox erməniləri yerləşdirsin. Rus mənbələrində göstərilir ki, rus çarları XIX əsrin sonu, XX əsrin əvvəllərində Qafqaza polyak, çex, latış, yunan, moldavan, erməni, eston, aysor və digər millətləri yerləşdirərək Qafqazın etnik tərkibini dəyişdirməyə başladılar. Həmin mənbələrdə gəlmələrin sayının 1.148 min olduğu göstərilir (38, 64, 65). Həmin müharibələr və erməni terrorları nəticəsində minlərlə kənd və şəhərlərimiz dağıdılmış, 100 minlərlə azərbaycanlı həlak olmuşdur. Qafqaz müharibələrinə çar hökuməti Loris Melikov, Mədətov, Nazarbekov, Lazarev, Behbutov kimi qaniçən erməniləri komandir təyin edirdi ki, onlar İran və Türkiyənin ucqarlarından gəlmə erməniləri Azərbaycan torpaqlarında asanlıqla yerləşdirsinlər. Tarix kitablarında "sülh müqaviləsi" kimi tanınan bədnam "Gülüstan" (1813), "Türkmənçay" (1828) və "Ədirnə" (1829) müqavilələri ilə Azərbaycan türklərinin faciələri başlanmışdır. Məhz bu müqavilələrin hamısı bütöv Azərbaycanı

parçaladı. Qaçqınlıq və köçkünlüyü yaratdı.O müqavilələrin ağrılarını hələ də çəkirik.

1918-ci ilin Novruz bayramı ərəfəsində də Azərbaycandan torpaq qoparmaq, özlərinin dövlətini yaratmaq məqsədilə ermənilər İrəvan, Zəngəzur, Göyçə, Gümrü, Bakı, Şamaxı, Quba və Gəncədə onlara havadarlıq edən rusların köməyi ilə 100 minlərlə azərbaycanlını qətlə yetirmiş, yaşayış məntəqələrini viran qoyaraq əmlaklarını talamışlar. Maddi mədəniyyət abidələrini isə məhv etmişlər.

1918-1920-ci illərdə erməni cəlladları və şovinist daşnaklar rus silahı ilə silahlanaraq yüzlərlə azərbaycanlı kəndini yerlə yeksan etmiş və minlərlə soydaşımız erməni vəhşətinin qurbanı olmuşdur. Soyqırıma məruz qalanlar tamamilə silahsız insanlar idi. Ən dəhşətlisi isə budur ki, bu vəhşətdə erməni cəlladları üçün nə yaş məhdudiyyəti nə də cinsi fərdlərin heç bir əhəmiyyəti yox idi. Öldürmək üçün onlara sadəcə türk olmaqları yetərli idi. Qərbi Azərbaycanın müxtəlif bölgələrində yaşamış informatorların söylədikləri bir neçə kəndin faciəsinə diqqət yetirək.

Bu faciələrdən biri də Qərbi Azərbaycanda – İrəvan qubemiyasının, Abaran qəzasının Arıx Vəli icmasına daxil olan Gözəldərə kəndində olmuşdur. Ələyəz dağının yamacında, Gözəldərə çayının dərədən çıxdığı düzən bir yerdə yerləşən Gözəldərə kəndi 1918-ci iln Novruz bayramında erməni



daşnakları tərəfindən xarabazarlığa çevrilmişdir. 1893-cü ildə Tiflisdə çap olunan "Свод статистических данных о населении Закавказского края, Ереваиской губернии - 1886" statistik kitabında Abaran qəzasının Gözəldərə kəndində 506 nəfər azərbaycanlının (kitabda tatar yazılıb) yaşadığı qeyd olunur (67, 215).

1916-cı ildə Gözəldərə kəndində anadan olmuş Əhmədxan Məhəmmədəli oğlunun dediklərindən: – Atam Məhəmmədəli Kərbəlayı Xudaverdi oğlunun dediyinə görə 1918-ci ilin Novruz bayramı ərəfəsində, əvvəl kəndin kattası Nəsrulla kişi kənd adamlarına xəbərdarlıq edir ki, ehtiyatlı olun, ermənilərin kəndə hücumu gözlənilir. Beləliklə, bayrama 2 gün qalmış kəndin cavan qız-gəlinləri və ərgən oğlanlarını Ələyəzin zirvəsinə doğru olan mağaralarda gizlədirlər. Kəndin axundu Mir Ələkbər ağa kənddə qalan qoca-qoltuq, kiçikyaşlı uşaqları və xəstələri böyük kənd məscidinə yerləşdirmiş, ora xeyli miqdarda ərzaq və su da qoydurmuşdur. Seyid Mir Ələkbər ağa və ağsaqqallar elə düşündülər ki, kafir ermənilər Allahın evinə toxunmazlar. Axşam tərəfi kənd meydanına – məscidin yanına gələn erməni atlıları ilk əvvəl məscidin həyətinə girirlər. Mir Ələkbər ağa onları qarşılayır və deyir ki, ay kafir erməni, məsciddəkilər xəstə, əlsiz-ayaqsız və silahsız adamlardır, onlardan nə istəyirsiniz? Çıxın gedin! Daşnak başçısı əlində mauzer axundu itələyib məscidin içərisinə salır,

haray-həşir qopsa da, kafir ona baxmır, tez məscidin böyük qapısını örtür və əsgərlərinə əmr edir ki, qapının arxasına daş yığsınlar. Əsgərlər məscidin ətrafındakı hasardan böyük daşları gətirib qapını açılmaz edirlər. Daha sonra 3-4 daşnak əsgəri məscidin üstünə çıxıb 5-6 yerdən iri deşiklər açırlar. Sonra isə yaxınlıqdakı ot tayasından ot-küləş götürüb od vurur və deşikdən içəri tökürlər. İçəridə tüstüdən boğulan və facia ilə yananların ah-naləsi ərşə dirənir. Babam Məmmədəli Kərbalayı Xudaverdi oğlu (1888, Gözəldərə – 1969, Təpəköy), Hüseyn Bağıroğlu (1880 – Gözəldərə, 1982 – Təpəköy), Qəhrəman Qoca oğlu (1878 – Gözəldərə, 1964 – Təpəköy), Dilbər Qəhrəman qızı (1889 – Gözəldərə, 1972 – Təpəköy), Dursun Rüstəm qızı (1910 – Gözəldərə, 1982 – Təpəköy), atam Bayramov Əhmədxan Məmmədalı oğlu (1916 – Gözəldərə, 1990 – Sumqayıt), Məmmədvəli Qurbanov (1911 – Gözəldərə, 2000 – Gəncə), Elləz İsmayılov (1925 – Gözəldərə, 2012 – Bakı) və s. informatorlardan bu faciəni dəfələrlə eşitmişəm. Onların söylədiklərinə görə, Gözəldərədəki məsciddə 200 nəfər yandırılmışdır. Onlardan yalnız bir-iki nəfər sağ qalmışdır. Onu da qeyd edək ki, orada yandırılan yaxın adamlarının adlarını babam nəvə-nəticələrinə qoymuşdur. Məsələn, bu sətirlərin müəllifinin, qardaşlarımın, bacılarımın, əmimoğlu və əmim qızlarının adları həmin Gözəldərə faciəsində həlak olanların adlarıdır. Digər ailələr də



həmin faciədə həlak olanların adlarını uşaqlara verərək yaşadırlar. Bununla onlar təsəlli tapırdılar. Bundan sonrakı qaçqınlığı heç düşünmürdülər.

Ermənilər kəndin evlərini gəzərək mal-qoyunu, at-öküzü, arabaları, xalı-xalçanı, yataq dəstlərini, hətta qışda ev şəraitində kötükdə olan arıları çırparaq balını, quyulardakı taxılı və s. qarət edib arabalara yükləyir, daha sonra isə evlərə od vururlar ki, qırğından qalan gözəldərəlilər geri qayıtmasınlar. Bir neçə gündən sonra geri qayıdanları ermənilər əsir götürürlər. Onları İrəvana aparıb orada xan nəslindən olan Alı xana verir və erməni əsirləri ilə dəyişirlər. Deyilənə görə, xan nəslindən olan Alı xan onları və digər qaçqınları Göy məscidin həyətindəki hücrələrdə yerləşdirtdirir, onlara gündəlik çörək norması da verirmiş. Bir gün qaçqınlarla görüşən Alı xan gözəldərəlilərin başçıları olan Molla Qafardan soruşur ki, kişi, deyirlər, bolşeviklər gəlir, onların gəlməyinə razısanmı? Bolşevik və menşevikin hələ nə olduğunu bilməyən Molla Qafar elə bilir ki, gələnlər Alı xanın adamlarıdır? Ona görə də ona xoş gəlsin deyə üzünü Alı xana tutub deyir: - Allah! Allah! Keşkəm tez gələlər. Onun cavabı Alı xanı razı salmır və çıxıb gedir. Səhəri gün qaçqınlara çörək norması verilmir. İşin nə yerdə olduğunu ailə başçıları anlayırlar.

Beləliklə, Gözəldərə kəndindən qaçqın düşmüş tombullu, qaraçıq, çəmənli, dadaşlı, postalçılar, pirilər, seyidlər, lahışlı

tayfalarından qalan adamlar gah İrəvan kəndlərini dolanır, gah da İydır və Qars tərəflərə keçir, sərgərdan həyat keçirirlər. Bir qismi isə Borcalı kəndlərinə – Başkeçidin Boğazkəsən kəndinə sığınırlar. 1922-ci ildə yenidən Gözəldərəyə qayıdırlar ki, keçmiş evlərini bina etsinlər. Ermənilər kəndə Türkiyədən gəlmiş qaba və kobud olan yezidi kürdlərini də yerləşdirirlər. Onlarla yola getməyin çox çətin olduğunu, erməni hakimiyyətinin daha çox yezdiləri müdafiə etdiklərini görüb 1926-cı ildə iqlimi Gözəldərə ilə eyni olan Ağbabaya gəlirlər. 1917-1923-cü illərdə mübahisəli olan bu ərazi Qars və Gümrü müqaviləsinə əsasən sərhəd cızılarkən yeni yaradılmış "Ermənistan"a qatılır. Etiraz əlaməti olaraq Ağbabada yaşayan qarapapaqlar hələ 1922-ci ildən Türkiyəyə üz tutmuş, onlarla kənd boş qalmışdır. Mustuqlu, Oxçoğlu, Bacoğlu kəndlərində, Başkeçidin Boğazkəsən kəndində yaşayan gözəldərəlilər qohumluq münasibətinə görə bir yerə yığılmağa başlayırlar. Ağbabanın Böyük Təpəköy və Xırda Təpəköy və Oxçoğlu kəndlərindəki boş qalmış evlərdə yerləşirlər. Böyük Təpəköy 1918-ci ilədək 3 icmadan ibarət olan Ağbaba nahiyyəsinin mərkəzi olmuşdur. 23 kənddən ibarət olan Ağbaba nahiyyəsinin pristavı bu kənddə oturarmış (67, 211). Bir-birindən Arpa çayı ilə ayrılan bu kəndlərin təsərrüfatlarını 1950-ci ildə birləşdirərək 1 kənd etmişlər.



Təpəköydə olan 4-5 nəfər varlı, qaçqın gözəldərəlilərin kənddə qalan boş evlərə yerləşməsinə mane olur. Mübahisə uzun çəkir. Nəhayət, 1930-cu ildə rayon yaradılarkən onun ilk icrakomu Salmanov qaçqınlara kənddə torpaq sahəsi verir, onları həmişəlik Təpəköydə yerləşdirir və kənd varlılarından bu barədə qol kağızı da alır. Kolxoz quruluşu, müharibə və s. işlərdə fəal olan gözəldərəlilər taleyin hökmünə boyun əyərək Təpəköydə (Amasiya rayonu) məskunlaşırlar. Lakin Gözəldərədə doğulan yaşlı adamlar Gözəldərə deyə-deyə dünyalarını dəyişdilər. İmkan düşəndə isə Ağbabadan 70-80 km aralı olan Gözəldərə kəndinin xarabalıqlarını (Artik rayonu) ziyarət edər, orada gözyaşı tökər və günahsız ölənləri xatırlayardılar. 1940-cı ildən ləğv edilmiş kəndi, Gözəldərə sahəsini Gümrü (1990-cı ilədək Leninakan) qarnizonuna atəşgah və hərbi yay düşərgəsi etmişlər.

1988-ci ilədək Təpəköydə 70 ailəni birləşdirən gözəldərəlilər daxil olmaqla 150 ailə yaşayırdı. Kəndin yarısını tombullu, qaracuq, dadaşlı, pirilər, postalçılar, çəmənli, seyidlər tayfaları təşkil edirdi. O ailələrin hamısına birlikdə gözəldərəlilər deyirdilər. Gözəldərəli Qənbər Bayramov 30 il sovet sədri, Elləz İsmayılov 25 il kolxoz sədri, Kərim Rəsulov 20 il məktəb direktoru, Salman Rəsulov 6 il sovet sədri işləyərək xeyli quruculuq işləri aparmışlar. Belə ki, ikimərtəbəli məktəb binası, klub, kitabxana, 25 çarpayılıq xəstəxana, rabitə şöbəsi, radio

qovşağı, əmanət kassası, baytarlıq məntəqəsi, hamam və s. obyektlər onların və kənd adamlarının bacarıq və səyləri sayəsində yaradılmışdır. Bunlardan başqa, yaraşıqlı fərdi evlər, ictimai binalar, sovxozun təsərrüfat kompleksi və s. kənd adamlarının əməyinin nəticəsi idi.

Bütün bunlar kafir ermənilərə qaldı. 1988-1989-cu illərdə yenidən Gözəldərəlilər Qərbi Azərbaycanın digər kənd və qəsəbələrində yaşayanalar kimi qaçqın düşdülər. İndi onlar Bakı, Gəncə və Sumqayıt şəhərlərində, Göygöl, Şamaxı, Abşeron və digər rayon və kəndlərdə yaşayırlar. 1918-ci ildə qaçqın düşən Gözəldərəlilərin bir qismi də o vaxt Naxçıvan və Qars vilayətində məskunlaşmışlar. Mənbələrdə bu kəndin faciəsi Xatın və Xocalı faciəsi ilə müqayisə edilir (32, 98).

1918-1920-ci illərdə ermənilərin Dərə Ələyəz mahalında törətdikləri qanlı cinayətlərdən bir neçəsinə diqqət yetirək: Axta kəndindən olub, hazırda Şahbuz rayonunun Gömur kəndində yaşayan 111 yaşlı Murtuzayev Əbdüləzim Kamal oğlu 1919-cu ili belə xatırlayır: "Biz kənd camaatı erməni həmləsindən canımızı qurtarmaq üçün kənddən çıxıb Kəllə qayada, oba yerində qalırdıq. Bütün əhalini Dərə Ələyəzdən çıxarmağı qarşısına məqsəd qoyan düşmən oba yerini də bizə çox gördü. Ermənilər kəndimizi oda qalayandan sonra üstümüzə gəldilər. Böyük qırğın oldu, 50-dən çox adam öldürüldü, onlarla adam



yaralandı. Cəlladlar çala qazıb 19 nəfəri diri-diri bir qəbirə dolduraraq üstünü torpaqladılar. Kənd camaatı ətraf kəndlərdən olan azərbaycanlılara qoşulub Naxçıvan, Pirkeş, Vayxır və Cəhriyə dağıldılar (26,67). Dərə Ələyəzin Qayalı kəndində olub, 1918-ci il hadisələrinin iştirakçısı olan və hazırda Yevlax şəhərində yaşayan, 1903-cü il təvəllüdlü Bağırov Məhəmməd Sadiq oğlunun dediklərindən: "Erməni quldurları kəndimizdə tayı-bərabəri olmayan vəhşiliklər törətdilər. Onlar kəndə girən kimi evlərə, ot tayalarına od vurdular, həyətlərdə itləri güllələdilər, mal-qaranı öldürdülər, malı-mülkü talan etdilər. Kənddə olan 5 sürü qoyunu, 2 sürü qaramalı sürüb apardılar. Çobanlardan Ellaz oğlu Abdullanı da güllələdilər.

Kənddəki qırğından xəbərsiz olan və dəyirmanda dən üyütməkdən gələn Çaykəndli Əli Molla Əlverdi oğlu və onun oğlu Məzahim ermənilər tərəfindən tutulur. Ermənilər yolda oğlunu atasmm gözləri qarşısında işgəncə ilə öldürürlər. Özünü isə Herher kəndinə aparırlar. Burada onu bir erməni "axçısı" (qızı) daşnaklardan alaraq işgəncə verməyi öz boynuna götürür. Onu həyətdə ağaca bağlayaraq hər gün işgəncə verir... Qocaya işgəncə verdikdən sonra onu öldürür və sürüyüb dərəyə atdırır.

1988-ci ildə Dərə Ələyəzin Gamur kəndindən Naxçıvanın Gomur kəndinə qaçqın düşmüş 105 yaşlı Lala Xalıqverdi qızı deyir: "1918-ci ildə erməni cəlladları uzun hörüklü türk

qadınlarının saçını dibindən qırxaraq atları hörükləmək üçün çatı, çidar hörürdülər, özlərini isə çılpaq soyundurub kəndbəkənd gəzdirirdilər". (42, 68)

Dərə Ələyəzin Köçbək kəndindən olan, 1905-ci ildən 1988-ci ilə qədər doğma kəndindən dörd dəfə qaçqın düşən, 1988-ci ildə Şuşaya pənah gətirən, oradan da didərgin düşən, Bərdədə İnternat məktəbinin dar bir sinif otağında müvəqqəti sığınacaq tapan 105 yaşlı Ağalar Ağalarovun dediklərindən "Ermənilər kəndimizi üç tərəfdən – Pənikin yalından, Qısır dağından və Ağ yarğan tərəfdən topa tutdular, sonra isə kəndə doldular. Məqsədləri bizi son nəfərimizə qədər qırmaq idi. Yaxşı ki, Bazarçayın malakanları qaçmaq üçün bizə yol verdilər. Kənd camaatından xeyli insan tələfatı oldu. Kənddə qalan say-seçmə oğulları – Xanları, Qafarı, daha 15 nəfəri dama qatıb diri-diri yandırdılar. Neçə qadının, qız uşağının namusuna sataşdılar. Lalə, Pərnisə adlı qadınları əsir apardılar. Ermənilər kənddə qalan 7 yaşlı Dilşad adlı qızı alovlanan ot tayasına atdılar. Yazıq çığıra-çığıra yanıb külə döndü" (42, 67).

Dərə Ələyəzin Cırlanlı kəndindən olan və hazırda Yevlax şəhərində yaşayan 92 yaşlı Şahbazov Bayram Ağaverdi oğlu 1919-cu ilin əwəllərində gördüklərini belə nəql edir: "Ermənilər hücum edərkən kəndi tərk etməyən atam Ağaverdi Şahbaz oğlunu və Əmrah Vəli oğlunu əsir tutub Quşçubilək kəndinə gətirirlər.



Atam yaxşı çarıq tikdiyindən onu öldürmürlər. O, erməni əsgərlərinə çarıq tikir. Bir gün ermənilər onu məcbur edirlər ki, həmkəndlisi Əmrahın dərisini soyub çarıq tiksin. Atam buna razılaşmır. Bundan hiddətlənən qansızlar Əmrahı diri-diri soyaraq öldürürlər. Atamı isə ağaca bağlayaraq sol ayağının altını xəncərlə doğrayır və dərisini soymağa başlayırlar. Bir azdan Arsen adlı erməni komandiri cəlladları dayandırır ki, bu bizə hələ lazımdır. Beləcə atama "rəhm" edirlər. Sonradan təsadüf nəticəsində atam əsirlikdən qaçır. O, ölənə qədər aldığı yaradan ayağını çəkərdi".

Köçbəy kənd sakini ağbirçək ana Alıyeva Gülyetər Sayıl qızı deyir: "Biz şaxtalı payız günü ayaqyalın, başıaçıq, ac-susuz Üçtəpəni aşıb Minkəndə, Xındırıstana, Quzannıya, Abdal-Gülablıya, oradan da Bərdənin Hacallı kəndinə gələrək Nadir bəyin himayəsinə sığındıq. İki il yarım burada qaçqın həyatı keçirdikdən sonra yenidən Vətənə döndük" (38, 37).

Dərə Ələyəzin Amağu kənd sakini, 90 yaşlı Əsgər Dünyamalıyev 1978-ci ildə Mehdiabad sovxozunda yaşadığı zaman böyük bir məclisdə şahidi və iştirakçısı olduğu bir hadisəni danışaraq belə nəql etmişdi: "1918-ci ildə Andranikin və onun silahdaşları Yapon və Nijdenin dəstələri Dərə Ələyəzdə strateji cəhətdən çox əhəmiyyətli yerdə, Şərurdan Dərə Ələyəzə gələn dağ yolunun üstündəki yüksəklikdə yerləşən Qurdqulaq və

Amağı kəndlərini ələ keçirmək istəyirdilər. Şiddətli döyüşlər başladı. Yapon və Nijdenin dəstələri xeyli itki verib geri çəkildilər. Bundan sonra onlar hiyləyə əl atdılar. Axşam çağı erməni tərəfdən bir dəstə adam əllərində ağ bayraq Qurdqulaqda qaravul çəkən azərbaycanlılara yaxınlaşır və kənardan qışqırarlar ki, "Biz Amağu, Qurdqulaq və başqa kəndlərdən köməyə gələn camaatın ağsaqqalları ilə sülh məqsədilə danışıq aparmaq istəyirik". Azərbaycanlı gözətçilər aldanıb bunları yaxına buraxır. Ermənilər qəflətən hücum edib bunları tərkisilah edir və qabaqlarına qatıb əllərində ağ bayraq Amağu kəndinə yaxınlaşırlar. Camaat çaş-baş qalıb bunlara güllə atmırlar. Bunların arxasında silahlı erməni dəstələri kəndi mühasirəyə alır, qadınları, qocaları, uşaqları böyük bir evə, məscidə qatır, kişilərin isə əl-qolunu bağlayıb kəndin altındakı uçurumun başına toplayırlar. Cani dəstələri cəsarətli qadınların döşünü kəsir, qolu bağlı kişiləri isə bir-bir uçurumun başından itələyib aşağı salırlar.

Bu zaman Amağu kəndindən olan Tanrıverdi adlı bir kişi (hal-hazırda Sumqayıtdakı maşın bazarının sahibi, biznesmen Hacı Sabirin babası) cibində olan balaca bıçaqla əli bağlanan kəndiri kəsir və hiss etdirmədən kənd adamlarını itələyib uçurumdan aşağı salan iki erməniyə yaxınlaşır. Bir göz qırpımında bunları itələyib uçurumun başından aşağı salır və dərə aşağı qaçmağa başlayır. Bu hadisə zamanı ermənilər 300-dən



artıq azərbaycanlını qayadan töküb öldürmüş, neçə-neçə qadının döşünü kəsmiş, körpə uşaqları nizəyə taxmış, baş-bilənləri işgəncə ilə məhv etmiş, qocaları, qadınları, uşaqları məscidə doldurub yandırmışlar. Tək-tək adamlar ölümün pəncəsindən qurtara bilmişdir.

1918-ci ilin yayında, taxıl biçimi vaxtı ermənilər Dərə Ələyəzdəki bütün azərbaycanlı kəndlərinə qəflətən hücum edib, əhalinin çoxunu güllələmiş, sağ qalanları isə kəndlərindən qovmuşlar.

Azərbaycanlılar yaşayan Horbadıq kəndində həmin qanlı faciələrin canlı şahidi olmuş, ölümün pəncəsindən özünü güclə qurtararaq, 90 ildən artıq ömür sürən Gülüdüzlü Hacıməhəmmədin qızı Tuyğun arvad deyirdi ki, "1918-ci ilin yayında, taxıl biçimi dövründə ermənilər Horbadıq kəndinə hücum edib camaatın çoxunu qırdı. Bu zaman kənd camaatının az bir hissəsi qaçıb meşədə, çınqıllıqlarda gizləndi, bir hissəsi isə azərbaycanlılar yaşayan digər kəndlərə tərəf qaçdılar.

Tuyğun arvadın əri qlava Ağayar xəstə olduğu üçün qaça bilmir. Tuyğun isə ərini tək qoyub qaçmır, onun yanında qalır. Ermənilər gecə gəlib qlava Ağayarı tutur və ər-arvadı öldürmək üçün bir quyunun yanına gətirirlər. Tuyğun gizlə- . diyi bıçağı ərinə verir və yavaşca deyir ki, erməniləri vur qaçaq. Azərbaycan dilini bilən erməni bunu eşidir və Ağayarı dərhal tüfənglə vurur.

Tuyğun arvad qaçıb kolun dibində gizlənir və sinə-sinə buradan uzaqlaşır. Ağayarı doğram-doğram edib quyuya tökürlər. Tuyğun arvadı isə tapa bilmirlər.

Yollara yaxşı bələd olan Tuyğun arvad buradan aralanır, ayaqyalın, başıaçıq gecə gəlib Ələyəz kəndinə çatır. Səhər qaranlığında ermənilərin səsini eşidib çınqılhğda daşın oyuğuna girir (38, 35-37).

Azərbaycanlılar o zaman ermənilərə nısbətən az silaha malik olsalar da, onlar ermənilərə qarşı çox mərdliklə, cəsarətlə vuruşmuşlar. Yaşlı adamlar danışırdılar ki, Andranikin dəstələrini Cul kəndinin 5 yüz cəngavəri dəfələrlə məğlubiyyətə uğratmışdır. Ələyəz, Hosdun, Hors, Cul, Amağu kəndlərində, Salsal qalası uğrundakı vuruşmalarda azerbaycanlılar daşnak dəstələrini dəfələrlə qaçmağa məcbur etmişlər.

1918-ci ildə Dərə Ələyəz mahalında azərbaycanlıların sağ qalanları Azərbaycanın ayrı-ayrı yerlərinə həmçinin İrana və Türkiyəyə qaçıb getmiş və bunların böyük bir hissəsi Dərə Ələyəzə bir daha qayıtmamış, getdikləri yerlərdə məskunlaşmışlar.

Erməni-müsəlman davasında Dərə Ələyəz mahalından qaçanların əksəriyyəti isə Gəncəbasara, Qarabağa, Şərura, Naxçıvana, Laçına, Kəlbəcərə üz tutumuşlar.



Azərbaycan tarixinə və gələcək nəslə lazım olan belə bir faktı da çatdırmaq istəyirəm: qaçaqaçda Dərə Ələyəzdən köçənlərin əksəriyyəti Xocalıda, Ağdamın Qərvənd, Ağdərənin Umudlu, Goranboyun Xoylu, Dəliməmmədli, Şadılı, Şəm- kirin Qaracəmirli, Seyfəli, Dəlilər, Naxçıvanın Gültəpə, Şıxmahmud kəndlərin- də, Şahbuz rayonunda, Sərurun Danzik, Çağazur, Kərki, Künnüt, Dizə, Yaycı, Oğlanqala, Mahmudkənd, Cəlilkənd, Zeyvədudənkə, Sədərək, Siyaqud, Kosa- can, Daşarx, Xanlıqlar, Püsyan, Yenkicə kəndlərində, Kəlbəcər, Laçın, Yevlax, Qazax, Tərtər, Xanlar, Tovuz, Gədəbəy, Daşkəsən rayonlarının bir çox kəndlərində, Dağlıq Qarabağın əksər kəndlərində, Gəncə səhərində məskunlaşmışlar və bunların az bir hissəsi 1921-ci ildən sonra Dərə Ələyəzə qayıtmışdır (38, 39).

Yeni Bayazit 5-ci sahəsinin müsəlman əhalisi müvəkkili İsmayıl Sultanovun Gəncə qəzası naçalnikinin adına göndərdiyi məlumatda yazırdı:

"Bu ilin 13 aprel tarixindən başlayaraq Ararat respublikasının qoşunları Göyçə rayonunun, Yeni Bayazit qəzasının dinc müsəlman əhalisinə qarşı hücuma keçmişdir. Məqsədləri Göyçə gölünün şərq və şimal hissəsini burada yaşayan müsəlmanlardan təmizləmək idi.

Hal-hazırda 60.000 əhalisi olan 22 kənd dağıdılmış, yandırılmış, əhalisi isə qırılmışdır. Bədbəxt müsəlman əhalisi

Göyçə müsəlmanlarını qırmağı qarşısına məqsəd qoymuş və bunu yerinə yetirən erməni qoşunlarının atəşləri ilə rəhmsizcəsinə məhv olur. Erməni hökumətinin və ermənilərin keçmiş qoşunlarına və təbəəliyində olan müsəlman vətəndaşlarına qarşı belə vəhşilikləri gördükdə adam dəhşətə gəlir. Erməni qoşunları əllərinə düşən müsəlmanları heç vəchlə sağ buraxmır, ağlagəlməz işgəncələrlə onlara zülm edir, bəzi qadınları və yeniyetmə qızları çaxmaq şərtilə, qadınları, uşaqları, qocaları və gəncləri öldürürlər, əhalinin malı, dövləti acgöz erməni qoşunları tərəfindən ələ keçirilib, öz aralarında bərabər bölüşdürülür, sağ qalanlar isə qoşunlar tərəfindən təqib edilir, çox az miqdarda Gəncə qəzasının beşinci sahəsinin kənarlarına axışıb gəlirlər. Qalan 17 kəndin sakinləri isə Cavanşir qəzasının dağlıq hissəsinə qaçır, daha doğrusu 7-8 kəndin sakinləri erməni qoşunları tərəfindən təqib olunan Gəncə qəzasının 5-ci sahəsinin qarlı zirvələrində, dərələrdə gizlənirlər, qarın altında qalıb kütləvi şəkildə məhv olurlar. Ararat respublikasının Göyçə rayonunda müsəlman qalmayıb. Hal-hazırda Yeni Bayazit qəzasında 84 müsəlman kəndi dağıdılmışdır. Onlardan 22-si aprel ayının 13-20 tarixlərində dağıdılmışdır. Bunlar: Daşkənd, Qoşubulaq, Sarıyaqub, Baş Şorca, Ayaq Şorca, Ağkilsə, Zod, B.Qaraqoyunlu, K.Qaraqoyunlu, Zərzübil, Çayəhmədli, İnəkdağ, Qara İman, Kəsəmən, Baş Kənd, Kiçik Məzrə, Şişqaya, Baş Hacı, Şişqaya,



Zaqalı, Hüseynqulu ağalı, Qalatası kəndləridir. 15 mindən artıq evi olan bu kəndlərin sakinləri bütün malı, dövləti başlı-başına buraxıb qaçmışlar. Bütün bu mal dövlət hal-hazırda ermənilərə qalıb: qarət edilmiş əmlak bir neçə milyon və hətta milyardlar qədərdir (25, 274).

Yeni Bazayid qəzasının Daşkənd sakinləri Məşədi Qasım Hacı Kərim oğlu və Böyükəli Hacı Mirzə Ələkbər oğlu da Azərbaycan Daxili işlər Nazirliyinə 23 yanvar 1919-cu ildə yazdığı ərizə məlumatda yuxarıda adları qeyd olunan kəndlə rin hər birində 5-6 gün dayanan erməni əsgərlərinin kəndi talan edib sonra o biri kəndlərdə vandalizmi törətmələri qeyd olunur. Onların məlumatında Özbəkli, Alçalı, Qamışlı, Yarpızlı, Qanlı, Kərkibaş, Çaxırlı, Kefli, Böyük Məzrə kəndlərinin təmamilə ermənilər tərəfindən yandırıldığı da göstərilir. (26-35)

1918-1920-ci illərdə Ermənistanda siyasi durum olduqca ağırlaşdı. Belə ki. Azərbaycan xalqının qəddar düşməni, qulağıkəsik Andronikin qoşunları açıq surətdə Azərbaycan xalqına qarşı terrora keçdi. 1918-1919-cu illərdə Andranikin qoşunları İrəvan quberniyasında yaşayan azərbaycanlılara qarşı qəti hücuma keçdilər. Polkovnik Sulikovun rəhbərliyi altında daşnak hökümətinin qoşunları Basarkeçər rayonunun ərazisi istiqamətində hərəkət etdi. Daşnak hökumətinin polkovniki Sulikov öz çirkin əməllərinin qurbanı oldu. Belə ki, 1919-cu il

fevralın 28-də Sulikovun rəhbərliyi altında erməni ordusu Basarkeçər rayonunun Zod kəndinə daxil oldu. O, kəndə daxil olarkən camaatdan 750 pud taxıl və 100 sentner ot tələb etdi. Lakin camaat qaniçən polkovnikə bildirdi ki, bu miqdarda ərzağı vermək imkanına malik deyillər. Sulikov rədd cavabı aldıqdan sonra kənd camaatının xeyli hissəsini qılıncdan keçirdi. Bu dəhşətli hadisədən sonra kənd camaatının səbr kəsası tükəndi. Onlar başda polkovnik Sulikov olmaqla 4 nəfər zabiti, 15 nəfər isə erməni əsgərini öldürdülər. Bu hadisədən sonra daşnak ordusunun yerli əhaliyə qarşı vəhşiliyi daha da şiddətləndi. Basarkeçər talanına aid ermənilər arasında belə bir deyim də yaranmışdır: "Basarkeçəri talani ce ha" (Basarkeçərin talanı deyil ha).

Daşnak dəstələrinin tutduqları türk kəndləri canlı insanlardan "təmizlənib", eybəcər hala salınmış qurbanları ilə birlikdə xarabalığa çevrilmişdir. Yeni Bazayiddən olan daşnak "qəhrəmanlarından" biri Bahram 1920-ci ildə öz "qocaqlığını" belə təsvir etmişdir:

"Mən Basarkeçərdə yeni heç nəyi nəzərə almadan türk əhalisini qırdım – deyə daşnak "başkəsəni" lovğalanırdı. Lakin bəzən gülləyə hayfım gəlirdi. Bu itlərə qarşı ən yaxşı üsul odur ki, döyüşdən sonra salamat qalanların hamısını su quyusuna doldurub, üstündən ağır daşları tökəsən ki, onlardan əsər-əlamət



qalmasın. Mən elə də etdim: bütün kişiləri, qadınları və uşaqları öldürüb doldurdum quyuya və üstünü də daşla doldurdum..." (32, 85).

Zəngəzur qəzasının Gorus bölgəsində yaşayan azərbaycanlılar dəfələrlə erməni daşnakların vandalizmini görərək tərki vətən olmuşlar. Qaniçən Andranik 1918-ci ildə qəza mərkəzi Gorusu özünə qərargəh edərək "Zəngəzur respublikası" elan edir və İrəvan hökumətini də tanımırdı. Orada erməni milli şurası yaradaraq quldurluq edirdi. Ən əsası da o idi ki, Qarabağla Naxçıvan arasında olan müsəlman kəndlərini yandırır, əhalinin də qaçanı qaçır, qaçmayanı da erməni mauzerçilərinin gülləsinə tuş gəlirdi. Ona görə də 1919-cu ilin yanvarında Gorusətrafı kəndlərdən 40 min nəfər azərbaycanlı qaçqın düşərək Cəbrayıl, Şuşa, Cavanşir qəzalarına səpələnmişlər (25, 161). Andranikin Zəngəzurda törətdiyi qırğınlara Bakı ermənilərindən Arşaq *Sirinyan* və *Nikolay Osipov Zəngəzur erməni milli şurasına* 1 milyon manat pul köməklik göstərməsi "Azərbaycan" qəzetinin 14 yanvar 1919-cu il 23-cu sayında qeyd olunmuşdur.

Qarabağ general-qubernatorunun 21 yanvar 1919-cu il 100 saylı teleqramında da Gorus yaxınlığındakı Əluquluuşağı, Şurnuxu, Şamsız, Seyidli, Məzrə, Eyvazlı, Şahverdilər, Məsimli kəndlərini Zəngəzur erməniləri top atəşinə tutaraq yerlə-yeksan etməsi, əhalinin soyqırıma məruz qalması göstərilir (25, 162).

Onun nəticəsidir ki, 1918-1920-ci illərdən Gorusda 40-dan çox Azərbaycanlı kəndi dağıdılmış və hələ də xaraba olaraq qalırdı. 1920-ci ildən, daşnak hökuməti yıxıldıqdan sonra Ağbulaq, Surnux, Qurdqalaq kəndlərinə azərbaycanlılar qayıtmış, ta 1988-ci ilin deportasisına qədər orada yaşamışlar.

Zəngəzur qəza rəisinin Gəncə qubernatoruna göndərdiyi 655 (26.XI.1918) və 745 (15.XII. 1918) saylı məlumatlarında göstərilirdi ki, Andranikin başçılığı ilə erməni quldurları Meqri dərəsində olan 30-dan çox kəndi də talan edib yandırmışdılar (25, 167, 168).

Erməni bölmələri Megri dərəsində 70 tüstu (ev) olan Lehvaz , 75 tüstu olan Tey, 30 tüstu olan Mülk, 10 tüstu olan Gül, 5 tüstu olan Bənövşə, 25 tüstu olan Tağamir, 100 tüstu olan Lök, 60 tüstu olan Maralzəmi kəndlərinin əhalisindən 200 nəfəri öldürülmüş, kəndi talan etmiş və evlərə od vurmuşlar. Əliyanlı və Dərəli icmasma daxil olan kəndləri də viran etmişlər (25, 169).

1920-ci illərdə müxtəlif yerlərə qaçqın düşmüş və sağ qalmış azərbaycanlılar qismən geri qayıtdılar. Ev-eşiklərini nizama saldılar. Bənövşə, Düz, Gül, Mərzəğat, Mülk Tağamir, Tugut, Tey kəndləri 1918-ci ildən xaraba olaraq qaldı.

1930-cu illərdə erməni hokuməti azərbaycanlıları yerindən oynatmaq üçün hər bir rayonda "kəndləri böyütmək" adı ilə yenə də bir qarışıqlıq yaratdı. Bu dəfə Meqri rayonunun Bəhavər,



Əmrahdaşı, Əkərək, Əynazur, Buğakar kəndlərinin əhalisi yenə də pərən-pərən oldu. Azərbaycanlılar yaşayan Lök, Əldərə, Lehvaz, Maralzəmi, Nüvədi kəndində yaşayan azərbaycanhlar 1988-89-cu illərdə yenə də qaçqın oldular. Müxtəlif yerlərə pərən-pərən oldular.

Əştərək rayonuna daxil olan Hamamlı kəndinin adamları da faciə dolu həyat yaşamışlar. İrəvan şəhərindən cəmi 20 km məsafədə yerləşən Əştərək şəhəri həm də 56 kəndi əhatə edən rayon mərkəzinin adıdır. Əştərək toponimi qıpçaqların üçdaraq (üçuclu nizə) damğa adından törənmiş etnooykonimdir. Qıpcaq türklərinin izi rayon ərazisindəki kəndi (Qıpçaq kəndi), qala (Qıpçaq qaiası) və düz adlarında (Qıpçaq düzü) qalmaqda idi.

1829-1830-cu illərdə daha sonra 1877-ci illərdən başlayaraq İran və Türkiyədən gələn erməniləri rayon ərazisinə yerləşdirməklə ermənilərin sayını artırdılar. Beləliklə, 1914-1916-cı illərdə azərbaycanlıların sayı ermənilərlə bərabər – 15 min olmuşdur.

Əştərək rayonu Hamamlı kəndində anadan olmuş və 1948-ci ilədək orada yaşamış prof. Cəfər Cəfərovun dediklərindən: 1918-1920-ci illərdə Əştərək regionunda yaşayan 15 mın əhalidən bir nəfər də qalmamışdı. Qırılan qırılmış, qalanları da dədə-baba yurdlarından didərgin düşmüşdülər. 1918-ci ildə və sonrakı illərdə bu regionun bütün kəndlərinin və burada yaşayan

əhalinin faciəli taleyindən ətraflı bəhs etmək imkan xaricində olduğuna görə mən bunu regionun Hamamlı kəndinin nümunəsində göstərməyə çalışacağam. 1918-ci il qırğını haqqında yaşlılardan, xüsusilə atamdan eşitdiklərim bunlardır: 1918-ci il qış ayları imiş. Xəbər gəlir ki, Haxıs kəndinin əhalisini ermənilər qılıncdan keçirdilər. Bizim kəndə də xəbər çatır ki, ermənilər qar əriyəndə, yaz açılan kimi gəlib sizi də qıracaqlar, başınızın çarəsini qılın. Kənddə qış çox sərt keçərdi, elə vaxt olurdu ki, iki metrə qədər qar yağırdı. Kənddən kənara gediş-gəliş çox çətinləşirdi. Belə bir dövrdə bu cür qara xəbərin gəlməsi kənd camaatını çox çətin vəziyyətə salır. Qərara gəlirlər ki, hər gecə kənd əhalisi qarı ayaqları ilə tapdalamaqla qar az olan aran istiqamətində, yəni Zəngibasara, xüsusilə Çobankərə və Mehmandar kəndləri tərəfə özlərinə yol bassınlar. Belə də edirlər. Novruza bir neçə gün qalmış gecə hər kəs imkan daxilində əşyalarını, yüngül var-yoxlarını atlara, ulaqlara, inəklərə, öküzlərə yükləyərək axşamdan yola düşürlər. Hətta deyilənə görə, həddən artıq qoca kişi və qadınları götürmək mümkün olmur. Bir erməni kəndinin yanından keçəndə bir neçə nəfər köçdən geriyə qalır. Bu vaxt uzaqdan erməni səsləri eşidilir. Qaçqınlar yaxında olan bir kahada gizlənirlər. Körpə bir uşaq ağlayır, anası nə qədər çalışırsa, onu sakitləşdirə bilmir. Bunun təhlükəli olduğunu görən ana uşağı boğub öldürür. Ermənilər



ötəndən sonra köçün arxasınca hərəkət edirlər. Köç karvanı Qır adlanan çöllə hərəkət edərək, dan yeri söküləndə İrəvanla Üçkilsə arasındakı yola çıxırlar. Elə bu vaxt İrəvandan Üçkilsəyə gedən üç erməni ilə rastlaşırlar. Tədbirli adamlar başa düşürlər ki, bunlar ermənilərə xəbər verəcəklər və belə qərara gəlirlər ki, sürəti artırsınlar. Bir xeyli gedəndən sonra Üçkilsə istiqamətindən bir dəstə erməni atlısını köçə yaxınlaşdığını görürlər. kənd camaatında silah yox imiş, olan silahları da ermənilər bunlarla rastlaşarkən şübhələnməsinlər deyə gizlədibləmiş. Yalnız Kolay ləqəbli Üsub adlı bir kişi osmanlı beşatılanını özündə saxlayıbmış. Ermənilər köçün qabağına keçir və onları geri – Üçkilsəyə doğru qayıtmağa məcbur etdikdə Üsub kişi tez bir daşın arxasına keçir və ermənilərin köçün qabağından çəkilmələrini tələb edir. Hətta ermənilərin başı üzərindən bir neçə güllə də atır. Usub kişinin igidliyi nəticəsində köç Zəngibasarın Çobankərə və Mehmandar bölgəsinə gəlib çatır. Bir müddət bu kənddə qaçqın vəziyyətində qalırlar. Sonra ermənilər güclü ordu və silahla bu kəndə də hücum edirlər. Bizim camaat zəngibasarlılarla birlikdə Arazı keçmək üçün çayın kənarına gəlirlər. Yaz ağzı imiş, Araz aşıb-daşırmış, adlamaq çox çətin imiş. Körpü də ensiz imiş. Ermənilər arxadan hücum etdikcə əhalinin bir qismi çaya tökülüb qərq olur. Arazı salamat keçənlər əvvəlcə Türkiyənin ərazisinə adlayırlar. Sonra qaçqınlar Türkiyəni tərk etməli olurlar. Ağrı dağını dolanaraq

İran ərazisinə keçirlər İranda da onların güzəranı xoş keçmir. Hansı xanın torpağına ayaq basırlarmış, xanın adamları onlardan ağır rüsum tələb edirmişlər, əllərində qalanları da onlar alırmış. Həm belə ağır zülmün, həm də aclıq və xəstəliyin nəticəsində ölən ölür, qalan əhali Cənubi Azərbaycanın Ərəblər kəndinə gəlirlər. Bir neçə il burada qalırlar. Onlarla insan həmin kənddə rəhmətə gedir və orada dəfn olunurlar. Ermənistanda Sovet hökuməti qurulduqdan sonra, 1922-ci ildə 600 nəfərdən cəmi 46 nəfər öz yurdlarına qayıdır. Lakin 1948-ci ildə kənd əhalisi yenidən öz el-obasından məcburən köçürülmənin əzab-əziyyətinə düçar olacaqlarını düşünmürdülər. Düşmən isə öz mənfur və məkrli siyasətini davam etdirmək üçün gizli planlar cızır, etnik təmizləmə, soyqırım, terror, vandalizm üçün yeni zəmin hazırlayırdı ki, biz bunun acı nəticələrini XX əsrin sonlarına doğru bir daha yaşadıq və şahidi olduq.

Əlbəttə öz el-obasının, ulu babalarının ruhunu tərk edib Şərqi Azərbaycana üz tutanlar bəlkə də bu hərəkətlərinə haqq qazandırmağa günahı özlərindən uzaqlaşdırmağa çalışacaqlar, başqa qüvvələrin – rusların, ermənilərin üstünə atacaqlar. Onların, o cümlədən bizlərin bu hərəkətlərinin nə dərəcədə haqlı olduğunu müəyyənləşdirmək üçün bir az irəli, yəni qədim oğuz yurdu olan Qərbi Azərbaycanın regionlarından biri olan Əştərək mahalının tarixinə nəzər salaq. Tarixi qaynaqların verdiyi



məlumata xalqın həyatını, onun mənşəyini, soykökünü özündə əks etdirən yaşayış məskənlərinin adlarına əsaslandıqda aydın olur ki, Əştərək qədimdən oğuzların məskəni olmuşdur. Rayonda olan 56 kənddən azı 40-da azərbaycanlılar yaşamış, adları da türk mənşəli olmuşdur. Etnik təmizləmə və "türksüz Ermənistan" uğrunda mübarizə həmişə ermənilərin əsas məqsədi olmuşdur. Bu planın həyata keçirilməsinə hələ XV-XVI əsrlərdən başlanmışdır. Onlar əvvəllər bu ərazidə yaşayan azərbaycanlıların bir neçə yaşayış məskənini və mülklərini satın almaq yolu ilə Üçkilsə ətrafında toplaşdılar. Sonra da öz xəyanətkar planlarını həyata keçirdilər (29, 82-83).

Bəli, bu hələ bir neçə kəndin faciəsi və qanla yazılmış tariximizdir. Hər bir uydurmadan, bər-bəzəkdən uzaq olan tarixdir. Qarabağımızda və işğal olunan rayonlarımızda da XX əsrin əvvəllərində erməni daşnakları yüzlərlə belə facia törədərək soyqırımı apardılar. Bütün bunlar bizi daha sıx birləşməyə və tarixi düşmənlərimiz olan kafir ermənilərə qarşı mübarizəyə səsləyir.

Sonra bunu da xüsusi qeyd etməyi özümə borc bilirəm ki, Azərbaycan Respublikasının prezidenti, cənab H.Əliyevin 1998-ci il mart ayının 26-da "Azərbaycanlıların soyqırımı haqqında" verdiyi fərman çox böyük tarixi əhəmiyyətə malikdir. Nəhayət ki, 28 may 1918-ci ildə tarixi həqiqət – xalqımızın başına gətirilən

faciələrə dövlət səviyyəsində qiymət verilməyə başlanmışdır. Bu işlə biz ziyalılar daim məşğul olmalı, məkrli düşmənlərimizin əməllərini ifşa etməliyik.

1917-ci ilin fevralında çarizmin devrilməsi müstəmləkə sisteminin dağılmasına gətirib çatdırdı. Bolşeviklər müvəqqəti hökuməti də devirdilər. 1918-ci ildə azərbaycanlılar milli azadlığa qovuşa bilməsinlər, deyə yenidən qanlı erməni-müsəlman qırğınları törədildi. Nəhayət, müsəlman şərqində ilk demokratik cümhuriyyət, ilk Azərbaycan hökuməti yarandı. Amma ərazilərimizin çoxu, eləcə də qədim İrəvan şəhəri müstəqilliyə qurban getdi.

İrəvan quberniyasının azərbaycanlıları yeni yaradılan Ermənistan daşnak hökumətinin 2 illik hakimiyyəti dövründə daha sərt, daha amansız qırğınlara, sözün əsl mənasında, soyqırımına məruz qaldılar. Azı 60 min azərbaycanlı qanına qəltan edildi. Məsələn, 1920-ci ilin aprelində İrəvəndan, azərbaycan səfirliyindın pasport alıb Gəncəyə getmək istəyən Azərbaycan türklərindən 500 nəfəri Gümrü yaxınlığındakı bir stansiyada qatarlardan endirilərək güllələnmişdilər (26, №1-2(3)). Bu hadisəni 1988-ci ilədək Gümrü şəhəri yaxınlığındakı kəndlərdə yaşayan yaşlı azərbaycanlılar da danışırdılar.

1921-ci ildə C.Əlibəyov, H.salmanov, Ə.İmanov, Rza Axundov "Qırmızı partizan" – bölməsində daşnaklara qarşı



vuruşmuşlar. Abbasqulu bəy Şadlinskinin "Qırmızı taboru" Qəmərli, Zəngəzur, Naxçıvan, Vedi və s. bölgələrdə daşnak quldurlarını darmadağın etmişdir (46, 21)

Xristianlaşdırma, etnik təmizləmə siyasətində yeni həlledici dövr başlandı. Ağrıdağ vadisi, Çuxursədd bəylərbəyi, İrəvan xanlığı, İrəvan quberniyasının, Ermənistanın indiki ərazisinin qədim, avtoxton sakinləri olmuş azərbaycanlılara qarşı 1828-ci ildən əsası qoyulmuş etnik təmizləmə siyasəti, məhz, bu dövrdə - XX əsrin son onilliyində başa çatdırıldı. Etnik təmizləmə, xristianlaşdırma, erməniləşdirmə prosesinin nəticəsi haqqında daha dolğun təsəvvür əldə etmək üçün Ermənistan ərazisindəki rayonların kəndləri üzrə əhalinin sayını göstərən cədvəli nəzərdən keçirmək kifayət edər:

Qərbi Azərbaycanda 1873-1990-cı illərdə azərbaycanlılar yaşamış kəndlərin və əhalinin siyahısı belədir:

| № | Kəndlər (rayonlar üzrə) | 1873 | 1886 | 1905 | 1914 | 1990 |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| | ***Axta rayonu*** | | | | | |
| 1 | Ağverən | 243 | 302 | 416 | 762 | 0 |
| 2 | Arzakənd | 239 | 312 | 593 | 786 | 0 |
| 3 | Alapars | - | - | - | - | 0 |
| 4 | Bicni | 526 | 556 | 826 | 1176 | 0 |
| 5 | Qabaxlı | 94 | 138 | 181 | 431 | 0 |
| 6 | Qaraqalı | 140 | 227 | 290 | 413 | 0 |

| № | Kəndlər (rayonlar üzrə) | 1873 | 1886 | 1905 | 1914 | 1990 |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 7 | Qorux güney | 115 | 148 | 239 | 327 | 0 |
| 8 | Qorçulu | 170 | 257 | 300 | 440 | 0 |
| 9 | Dədəqışlaq | 196 | 278 | 428 | 541 | 0 |
| 10 | Dəllər | 227 | 267 | 385 | 594 | 0 |
| 11 | Kabar Alı | - | - | - | - | 0 |
| 12 | Gümüş | 295 | 341 | 439 | 796 | 0 |
| 13 | Ozanlar | 179 | 229 | 537 | 416 | 0 |
| 14 | Paşakəndi | 268 | 436 | 673 | 908 | 0 |
| 15 | Sərincan | - | - | - | - | 0 |
| 16 | Solak | - | - | - | - | 0 |
| 17 | Tezxarab | 45 | - | 45 | - | 0 |
| 18 | Təkyəli | 335 | 465 | 641 | 807 | 0 |
| 19 | Üpəşik | 225 | 313 | 425 | 73 | 0 |
| 20 | Çopur Alı | - | - | - | - | 0 |
| | ***Sevani*** | | | | | |
| 21 | Bığlı H.S. | 356 | 505 | 658 | 846 | 0 |
| 22 | Zeynalağalı | - | - | - | - | 0 |
| 23 | Rəhman kəndi | 224 | 314 | 497 | 654 | 0 |
| 24 | Çiçəkli | - | - | - | - | 0 |
| | ***Nor-Bayazit*** | | | | | |
| 25 | Ağqala | 191 | 253 | 424 | 507 | 0 |
| 26 | Ağzıbir | 380 | 557 | 755 | 1065 | 0 |
| 27 | Ayrıvəng | 326 | 326 | 708 | 896 | 0 |
| 28 | Başkənd-Göyçə | 191 | 243 | 339 | 349 | 0 |
| 29 | Qızılcıq | - | - | - | - | 0 |
| 30 | Hacı Muxan | 437 | 610 | 1034 | 719 | 0 |
| | ***Martuni (Gəvər)*** | | | | | |
| 31 | Alıçalı Y. | 371 | 505 | 838 | 921 | 0 |
| 32 | Alıçalı A. | - | - | - | - | 0 |
| 33 | Yanıx | 194 | 245 | 361 | 730 | 0 |



| № | Kəndlər (rayonlar üzrə) | 1873 | 1886 | 1905 | 1914 | 1990 |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 34 | Karvansaray | - | - | 341 | 441 | 0 |
| 35 | Mədinə | 208 | 296 | 429 | 752 | 0 |
| 36 | Siçanlı | - | - | 499 | 532 | 0 |
| 37 | Xartluq | 144 | 162 | 260 | 282 | 0 |
| 38 | Çamırlı | 244 | 329 | 491 | 632 | 0 |
| | ***Basarkeçər*** | | | | | |
| 39 | Ağkilsə | 261 | 321 | 173 | 515 | 0 |
| 40 | Ağyoxuş | - | - | - | - | 0 |
| 41 | Babacan | 107 | 173 | 254 | 265 | 0 |
| 42 | Basarkeçər | - | - | - | - | 0 |
| 43 | Qayabaşı | 131 | 181 | 219 | 240 | 0 |
| 44 | Qanlı All. | 244 | 317 | 445 | 476 | 0 |
| 45 | Qaraqoyun Kiçik | | | 253 | | 0 |
| 46 | Qaraqoyun Böyük | 408 | 591 | 505 | 493 | 0 |
| 47 | Qaraiman | 418 | 569 | 1033 | 746 | 0 |
| 48 | Qızıl bulaq | 770 | 1020 | 1349 | 1653 | 0 |
| 49 | Qızıl vənk | 429 | 469 | 735 | 812 | 0 |
| 50 | Qızıl xaraba-2 | 515 | 717 | 917 | 1018 | 0 |
| 51 | Qızıl xaraba-1 | 188 | 136 | 215 | 421 | 0 |
| 52 | Qırx bulaq | | | | | 0 |
| 53 | Qoşa bulaq-1 | 316 | 419 | 596 | 672 | 0 |
| 54 | Qoşa bulaq-2 | | | 262 | | 0 |
| 55 | Daşkənd | 560 | 816 | 816 | 1389 | 0 |
| 56 | Dərə | | | | | 0 |
| 57 | Zərzibil | 462 | 653 | 953 | 841 | 0 |
| 58 | Zod | 905 | 1088 | 1717 | 1988 | 0 |
| 59 | İnəkdağı | 317 | 469 | 520 | 674 | 0 |
| 60 | Yarpızlı | 398 | 465 | 719 | 515 | 0 |
| 61 | Kəsəmən | 379 | 492 | 713 | 966 | 0 |
| 62 | Kərkibaş | 183 | 255 | 306 | 377 | 0 |

| № | Kəndlər (rayonlar üzrə) | 1873 | 1886 | 1905 | 1914 | 1990 |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 63 | Göysu | | | 233 | 360 | 0 |
| 64 | Məzrə K. | 685 | 978 | 1658 | 1373 | 0 |
| 65 | Məzrə B. | 956 | 1379 | 1842 | 1970 | 0 |
| 66 | Pəmbək. Quşçu D | 166 | 237 | 353 | 392 | 0 |
| 67 | Satanağac | 132 | 214 | 343 | 639 | 0 |
| 68 | Sarıyaqub | 394 | 416 | 585 | 675 | 0 |
| 69 | Subatan | 190 | 263 | 368 | 429 | 0 |
| 70 | Sultan Əli qışl. | 245 | 348 | 422 | 523 | 0 |
| 71 | Tatul qışlağı | - | - | - | - | 0 |
| 72 | Tüskülü | | | 440 | 490 | 0 |
| 73 | Hüseynqulu Ağalı | 638 | 760 | 778 | 1207 | 0 |
| 74 | Şişqaya | 592 | 905 | 1041 | 1088 | 0 |
| 75 | Şorça Aşağı | 411 | 524 | 721 | 910 | 0 |
| 76 | Şorça Yuxarı | 123 | 158 | 248 | 283 | 0 |
| | ***Üçkilsə*** | | | | | |
| 77 | Abdurrəhman | 47 | - | - | - | 0 |
| 78 | Ağavnatun | - | - | - | - | 0 |
| 79 | Ağcaqala | 38 | 6 | 18 | - | 0 |
| 80 | Ayarlı | 265 | 252 | 353 | 361 | 0 |
| 81 | Aralıx Kolanı | 676 | 701 | 768 | 887 | 0 |
| 82 | Aramlı-Haramlı | 46 | 63 | 84 | 102 | 0 |
| 83 | Vərməzyar | - | - | - | - | 0 |
| 84 | Qarğabazar | 574 | 602 | 688 | 618 | 0 |
| 85 | Qarxun Yuxarı | 967 | 991 | 1153 | 1304 | 0 |
| 86 | Qarxun Aşağı | 369 | 420 | 568 | 595 | 0 |
| 87 | Qrampa | 120 | 112 | 160 | 340 | 0 |
| 88 | Qulubəyli Aş | 298 | 421 | 518 | 436 | 0 |
| 89 | Qulubəyli Yux. | 338 | 397 | 197 | 201 | 0 |
| 90 | Kəmərli. Qəm. | 295 | 347 | 414 | 352 | 0 |
| 91 | Zeyvə Türki | 492 | 516 | 550 | 383 | 0 |



| № | Kəndlər (rayonlar üzrə) | 1873 | 1886 | 1905 | 1914 | 1990 |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 92 | İskəndərabad | - | 87 | 113 | 201 | 0 |
| 93 | Yasaxlı | - | - | - | - | 0 |
| 94 | Kürəkəndli | - | - | 470 | 556 | 0 |
| 95 | Mirzə Hüseyn | - | - | - | - | 0 |
| 96 | Molla Dursun | 124 | 134 | 154 | 185 | 0 |
| 97 | Şamağar | | | | | 0 |
| 98 | Toss | 249 | 330 | 420 | 534 | 0 |
| 99 | Türkmənli | 262 | 360 | 510 | 535 | 0 |
| 100 | Xaraba kolanı | 236 | 324 | 360 | 516 | 0 |
| 101 | Xatunarx Aş. | | | | | 0 |
| 102 | Hacı Qara | | 18 | | | 0 |
| 103 | Hacılar | 112 | 144 | 220 | 218 | 0 |
| | ***Aparan*** | | | | | |
| 104 | Babakişi | 268 | 435 | 483 | 573 | 0 |
| 105 | Damagirməz | 254 | 353 | 378 | 474 | 0 |
| 106 | Düzkənd | 379 | 449 | 713 | 872 | 0 |
| 107 | Kirəşli | 464 | 744 | 961 | 1169 | 0 |
| 108 | Gözəldərə Türk | 313 | 509 | 732 | 849 | 0 |
| 109 | Ağca arx | 508 | 669 | 720 | 747 | 0 |
| 110 | Armutlu | 178 | 218 | 309 | 258 | 0 |
| 111 | Assar | 110 | 114 | 113 | 134 | 0 |
| 112 | Bədəl. Molla B. | 300 | 312 | 335 | 341 | 0 |
| 113 | İydəli | 562 | 629 | 880 | 743 | 0 |
| 114 | Kərimarx | 1215 | 1357 | 1700 | 1747 | 0 |
| 115 | Səfiabad | 190 | 145 | 203 | 234 | 0 |
| 116 | Xacə Yaralı | 176 | 207 | 236 | 212 | 0 |
| 117 | Xeyirbəyli | 342 | 379 | 414 | 414 | 0 |
| 118 | Hacı Bayram | 347 | | 436 | 815 | 0 |
| 119 | Canfidə | 999 | 1165 | 1172 | 1318 | 0 |
| 120 | Şahvarid | 72 | 116 | 96 | 138 | 0 |

| № | Kəndlər (rayonlar üzrə) | 1873 | 1886 | 1905 | 1914 | 1990 |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| | ***Əştərək*** | | | | | |
| 121 | Avan | 321 | 268 | 300 | 301 | 0 |
| 122 | Aylanlı | 196 | 236 | 115 | 215 | 0 |
| 123 | Aylıxaraba | | | | 100 | 0 |
| 124 | Akarak | 388 | 536 | 629 | 720 | 0 |
| 125 | Angersak | 133 | 140 | 309 | 214 | 0 |
| 126 | Axis-Haxs | 182 | 302 | 365 | 920 | 0 |
| 127 | Aşirabad-Əşir | 136 | 155 | 180 | 281 | 0 |
| 128 | Qaracalar | 272 | 272 | 360 | 360 | 0 |
| 129 | Qaracörən | 233 | 275 | 395 | 494 | 0 |
| 130 | Qızıl Tamur | | | | | 0 |
| 131 | Qızılxaraba | | | 55 | 57 | 0 |
| 132 | Qoytul | 203 | 273 | 210 | 21 | 0 |
| 133 | Qoş | 211 | 283 | 220 | 220 | 0 |
| 134 | Qoşabulaq | 101 | 152 | 211 | 203 | 0 |
| 135 | Dığır | | | | - | 0 |
| 136 | Yaqublu | | | 200 | 213 | 0 |
| 137 | Karvansaray | 136 | | 140 | 140 | 0 |
| 138 | Kələşan | 207 | 192 | 363 | 417 | 0 |
| 139 | Kəlaşkənd | 188 | 363 | 373 | 473 | 0 |
| 140 | Kiçik kənd | 166 | 235 | 316 | 382 | 0 |
| 141 | Kotanlı | 79 | 133 | 175 | 203 | 0 |
| 142 | Kürdalı | 132 | 102 | 135 | 260 | 0 |
| 143 | Göl | - | - | - | - | 0 |
| 144 | Maqda | 195 | 226 | 268 | 268 | 0 |
| 145 | Nəzrivan | 331 | 548 | 558 | 613 | 0 |
| 146 | Orqov-Erqov | 237 | 237 | 280 | 271 | 0 |
| 147 | Parbi | 145 | 140 | 177 | 177 | 0 |
| 148 | Patrinc | 327 | 449 | 526 | 640 | 0 |
| 149 | Persi | 225 | 229 | 323 | 338 | 0 |



| № | Kəndlər (rayonlar üzrə) | 1873 | 1886 | 1905 | 1914 | 1990 |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 150 | Sağmosavan | 100 | 141 | 220 | 248 | 0 |
| 151 | Talış | 370 | | 452 | 452 | 0 |
| 152 | Tğit | 217 | 241 | 410 | 488 | 0 |
| 153 | Təkiyə | 398 | 582 | 725 | 599 | 0 |
| 154 | Tuli Nəbi | 227 | 321 | 379 | 406 | 0 |
| 155 | Uşi | 909 | 1105 | 1360 | 1359 | 0 |
| 156 | Uçan | 235 | 264 | 300 | 300 | 0 |
| 157 | Hamamlı | 340 | 353 | 600 | 611 | 0 |
| 158 | Cadqran | 367 | 413 | 667 | 807 | 0 |
| | ***Talin*** | | | | | |
| 159 | Ağcaqala Aş. | 398 | 502 | 513 | 315 | 0 |
| 160 | Ağcaqala Yu. | 354 | 408 | 306 | 406 | 0 |
| 161 | Aralıx | 172 | 162 | 193 | 193 | 0 |
| 162 | Aşnak | 363 | 464 | 477 | 677 | 0 |
| 163 | Baxçaçılıq | 82 | 93 | 101 | 101 | 0 |
| 164 | Başsız | | | | | 0 |
| 165 | Qaraqovmaz Y. | 265 | 356 | 394 | 394 | 0 |
| 166 | Qaraqovmaz A. | | | 235 | 235 | 0 |
| 167 | Quldərviş | 190 | 243 | 327 | 327 | 0 |
| 168 | Dian | 216 | 242 | 272 | 272 | 0 |
| 169 | Əhəkçi-Ağa kiç | 160 | 257 | 313 | 313 | 0 |
| 170 | İrind | 179 | 322 | 239 | 239 | 0 |
| 171 | Yaşıl | 235 | 227 | 255 | 255 | 0 |
| 172 | Məstərə | - | - | - | - | 0 |
| 173 | Mehriban | 410 | 598 | 493 | 493 | 0 |
| 174 | Pirmələk | 91 | | 164 | 164 | 0 |
| 175 | Pirtikan | 65 | 1112 | 153 | 153 | 0 |
| 176 | Talin türk | 248 | 253 | 376 | 376 | 0 |
| 177 | Xaraba Əkərək | 301 | 367 | 284 | 284 | 0 |
| 178 | Şeyx Hacı | 233 | 245 | 337 | 337 | 0 |

| № | Kəndlər (rayonlar üzrə) | 1873 | 1886 | 1905 | 1914 | 1990 |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| | ***Zəngibasar*** | | | | | |
| 179 | Ağhamzalı | 301 | 273 | 457 | 740 | 0 |
| 180 | Ağcaqışlaq | | | 130 | | 0 |
| 181 | Ağcaqışlaq | 184 | 138 | 186 | 780 | 0 |
| 182 | Azadaşen | | | 754 | 1123 | 0 |
| 183 | Arbat | 497 | 538 | 832 | 89 | 0 |
| 184 | Qaraqışlaq | 735 | 751 | 59 | 81 | 0 |
| 185 | Qaratəpə | 109 | 32 | 63 | 1068 | 0 |
| 186 | Qulucan | | | 1131 | 375 | 0 |
| 187 | Donuzyeyən | 915 | 1012 | 215 | 920 | 0 |
| 188 | İlxı qoruğu | 242 | 345 | 75 | 280 | 0 |
| 189 | Yengicə | 189 | 199 | 252 | 121 | 0 |
| 190 | Göykümbət | 166 | 200 | 72 | 81 | 0 |
| 191 | Məmmədabad | 34 | 33 | 66 | 1252 | 0 |
| 192 | Muxtarabad | | | 1430 | 995 | 0 |
| 193 | Necili A. | 1183 | 1147 | 933 | 599 | 0 |
| 194 | Necili Y. | 540 | 654 | 405 | 431 | 0 |
| 195 | Reyhanlı | 277 | 308 | 226 | 223 | 0 |
| 196 | Rəncbər | 179 | 230 | 135 | 1910 | 0 |
| 197 | Rəhimabad | 197 | 113 | 1465 | 62 | 0 |
| 198 | Sarvanlar Ulya | 970 | 1029 | 95 | 811 | 0 |
| 199 | Sarvanlar xar. | 48 | 44 | 638 | 705 | 0 |
| 200 | Sarçalar | 359 | 440 | 410 | 3200 | 0 |
| 201 | Seyid kənd | 345 | 346 | 3171 | 1335 | 0 |
| 202 | Uluxanlı | 2968 | 3062 | 992 | 571 | 0 |
| 203 | Xaçaparax | 716 | 753 | 373 | 1149 | 0 |
| 204 | Xərrətli | 303 | 245 | 1079 | 376 | 0 |
| 205 | Hacı Elləz | 1095 | 1073 | 253 | 376 | 0 |
| 206 | Habil kənd | 183 | 222 | | | 0 |
| 207 | Çarbax yux. | 201 | - | | | 0 |



| № | Kəndlər (rayonlar üzrə) | 1873 | 1886 | 1905 | 1914 | 1990 |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 208 | Çobankənd | 2337 | 2487 | 2411 | 3089 | 0 |
| 209 | Cəbəçili | 252 | 254 | 355 | 375 | 0 |
| 210 | Şinqavit yux. | | | 347 | 386 | |
| 211 | Şöllü-Dəmirçi B. | - | - | - | - | |
| 212 | Şöllü-Dəmirçi K. | 1370 | 1318 | 1432 | 2216 | 0 |
| 213 | Şöllü Mehmandar | 1553 | 1432 | 1455 | 1632 | 0 |
| 214 | Kalinin qəs. | - | - | - | - | 0 |
| | ***Axta*** | | | | | |
| 215 | Ağazor | 14 | 15 | 16 | - | 0 |
| 216 | Arzni-Ərzin | 96 | 197 | 216 | 300 | 0 |
| 217 | Artiz | 221 | 267 | 292 | 480 | 0 |
| 218 | Bozkosa | 99 | 141 | 154 | 225 | 0 |
| 219 | Qayaxaraba | - | - | 106 | 174 | 0 |
| 220 | Qaraqala-2 | 403 | 510 | 759 | 860 | 0 |
| 221 | Qızqala | 449 | 210 | 297 | 345 | 0 |
| 222 | Quylu | 164 | 226 | 334 | 396 | 0 |
| 223 | Qurbağalı | 118 | | 203 | 415 | 0 |
| 224 | Daş Abdallar | 52 | 112 | 131 | | 0 |
| 225 | Dəvəxarabası | 161 | 305 | 416 | 475 | 0 |
| 226 | Dəlləkli | 20 | 317 | 396 | 445 | 0 |
| 227 | Əkərək | 114 | 153 | 170 | | 0 |
| 228 | Zar | 490 | 1134 | 697 | 1337 | 0 |
| 229 | Ketran | 16 | 215 | 236 | 352 | 0 |
| 230 | Kənkan | 548 | 772 | 939 | 1144 | 0 |
| 231 | Kəmal | 295 | 565 | 621 | 780 | 0 |
| 232 | Kərpiçli | 14 | 172 | 188 | 290 | 0 |
| 233 | Körpüqulağı | | | 215 | 470 | 0 |
| 234 | Güzəcik | 100 | 109 | 119 | 138 | 0 |
| 235 | Goxt Tatar | 38 | 74 | 81 | 169 | 0 |
| 236 | Göykisə | 293 | 333 | 365 | 495 | 0 |

| № | Kəndlər (rayonlar üzrə) | 1873 | 1886 | 1905 | 1914 | 1990 |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 237 | Güllücə | 273 | 397 | 516 | 846 | 0 |
| 238 | Məngiz-Mənküs | 316 | 385 | 420 | 639 | 0 |
| 239 | Nurus | 373 | 416 | 457 | 512 | 0 |
| 240 | Oxçaberd | 180 | 143 | 156 | 298 | 0 |
| 241 | Tərəkəmələr | 32 | 46 | 50 | 83 | 0 |
| 242 | Tutiya | 280 | 449 | 493 | 554 | 0 |
| 243 | Üçtəpə | | | 127 | 187 | 0 |
| 244 | Çobangörükməz | 24 | 22 | 88 | 97 | 0 |
| 245 | Civriş | 43 | 31 | 34 | | 0 |
| | ***Qəmərli*** | | | | | |
| 246 | Ağbaş y. | 91 | 89 | 132 | 173 | 0 |
| 247 | Ayaslı | 55 | 55 | 21 | 32 | 0 |
| 248 | Alim Əhməd | | | 990 | | 0 |
| 249 | Alıqırx | 110 | 175 | 202 | 253 | 0 |
| 250 | Alpava | 97 | 121 | 186 | 305 | 0 |
| 251 | Arzalar | | | | | 0 |
| 252 | Bayburt | 143 | 183 | 201 | 284 | 0 |
| 253 | Başnalı | 85 | 56 | 68 | 71 | 0 |
| 254 | Becazlı | 22 | 19 | | | 0 |
| 255 | Bozovand Axund | 210 | 254 | 322 | 385 | 0 |
| 256 | Bitlicə | | | | 198 | 0 |
| 257 | Qaraqoyunlu | 355 | 474 | 432 | 439 | 0 |
| 258 | Qaradağlı | 331 | | 496 | 481 | 0 |
| 259 | Qarahəmzəli | 168 | 228 | 244 | 301 | 0 |
| 260 | Qafarlı | 515 | 435 | 540 | | 0 |
| 261 | Qəmərli | 563 | 668 | 870 | 835 | 0 |
| 262 | Darğalı | 22 | | 29 | 29 | 0 |
| 263 | Dvin | 99 | | | | 0 |
| 264 | Dəllər B. | 115 | 124 | | | 0 |
| 265 | Doqquz | 159 | 178 | 191 | 182 | 0 |



| № | Kəndlər (rayonlar üzrə) | 1873 | 1886 | 1905 | 1914 | 1990 |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 266 | İmanşahlı | 17 | 12 | 7 | | 0 |
| 267 | Yamancalı | 214 | 199 | 272 | 240 | 0 |
| 268 | Yappa | | | 55 | 104 | 0 |
| 269 | Yuva | 186 | 161 | 12 | | 0 |
| 270 | Körpüqulacı | 143 | 200 | 215 | 470 | 0 |
| 271 | Gilanlar B. | 146 | 194 | 212 | 389 | 0 |
| 272 | Gilanlar K. | 96 | 167 | 183 | 198 | 0 |
| 273 | Gölaysor | 24 | 333 | 366 | 604 | 0 |
| 274 | Məsimli | 360 | 357 | 448 | 549 | 0 |
| 275 | Muğamlı | 388 | 383 | 373 | 811 | 0 |
| 276 | Novruzlu A. | 115 | 158 | 231 | 243 | 0 |
| 277 | Oğurbəyli | 104 | 113 | 124 | 107 | 0 |
| 278 | Sabunçu | 931 | 1050 | 1379 | 674 | 0 |
| 279 | Qəpəbaşı Meh. | | | | | 0 |
| 280 | Torpaxqala | 240 | 268 | 415 | 296 | 0 |
| 281 | Həsənli | 539 | 503 | 501 | 6085 | 0 |
| 282 | Çatma | 41 | 57 | 51 | 178 | 0 |
| 283 | Çinaxanlı | 155 | 533 | 712 | 686 | 0 |
| 284 | Çikdamlı | 155 | 160 | 722 | 686 | 0 |
| 285 | Cənnətli | 173 | 189 | 184 | 228 | 0 |
| 286 | Şiran | | | 80 | 185 | 0 |
| | ***Vedi*** | | | | | |
| 287 | Avşar | 886 | 1159 | 1094 | 1107 | 0 |
| 288 | Ağaslı | 112 | 208 | 208 | 211 | 0 |
| 289 | Ağkilsə | 111 | 152 | 563 | 574 | 0 |
| 290 | Alиməhməd qışl. | 607 | 691 | | 1003 | 0 |
| 291 | Alımərdan | 52 | 57 | | 221 | 0 |
| 292 | Alımamed | | | 441 | | 0 |
| 293 | Armik Y. | 412 | 445 | | 159 | 0 |
| 294 | Armık A. | 312 | 110 | 156 | | 0 |

| № | Kəndlər (rayonlar üzrə) | 1873 | 1886 | 1905 | 1914 | 1990 |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 295 | Asni | 79 | 72 | 165 | 168 | 0 |
| 296 | Aşirzalad | | | | | 0 |
| 297 | Baxçacıq | 263 | | 618 | 568 | 0 |
| 298 | Vedi Böyük | 1743 | 2110 | 2387 | 2664 | 0 |
| 299 | Vedi Kiçik | 639 | 599 | 960 | 976 | 0 |
| 300 | Qalabidi | 155 | 221 | 242 | 399 | 0 |
| 301 | Qarabağlar A. | 756 | 936 | 1803 | 1750 | 0 |
| 302 | Qarabağlar Y. | 135 | 175 | 420 | 426 | 0 |
| 303 | Qaralar | 443 | 387 | 257 | 256 | 0 |
| 304 | Qaratorpaq | 138 | | 398 | 400 | 0 |
| 305 | Qaraxaç | 324 | 498 | 430 | 430 | 0 |
| 306 | Qədirli | 324 | 497 | 827 | 839 | 0 |
| 307 | Daşlı | 147 | 135 | 227 | 239 | 0 |
| 308 | Daşnov | | | | | 0 |
| 309 | Dəvəli | 207 | 263 | 259 | 263 | 0 |
| 310 | Dəhnəz | 59 | 71 | 306 | 310 | 0 |
| 311 | Əlirzalar | 57 | 95 | 103 | 161 | 0 |
| 312 | Zimmi | 184 | 231 | 259 | 263 | 0 |
| 313 | İmirzik | 188 | 232 | 254 | 328 | 0 |
| 314 | İnqala | | | | | 0 |
| 315 | İpəkli | 117 | 70 | 185 | 93 | 0 |
| 316 | Yəllicə | 197 | 197 | 215 | 377 | 0 |
| 317 | Yengicə | 189 | 199 | 470 | 475 | 0 |
| 318 | Yeranos | 133 | 164 | 180 | 256 | 0 |
| 319 | Ketuz | 191 | 226 | 149 | | 0 |
| 320 | Küsüz | 151 | 203 | 792 | 805 | 0 |
| 321 | Koravan | 244 | 325 | 614 | 646 | 0 |
| 322 | Gölcığın | 160 | 210 | 559 | 166 | 0 |
| 323 | Məngük | 200 | 259 | 163 | 88 | 0 |
| 324 | Molla Əhməd | 28 | 34 | 51 | 161 | 0 |



| № | Kəndlər (rayonlar üzrə) | 1873 | 1886 | 1905 | 1914 | 1990 |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 325 | Sarıxanlı | 288 | 338 | 160 | 377 | 0 |
| 326 | Seyid Kotanlı | 156 | 191 | 228 | 255 | 0 |
| 327 | Taytan | 166 | 177 | 262 | 219 | 0 |
| 328 | Xaraba Kotanlı | 64 | 105 | 174 | 975 | 0 |
| 329 | Xəlisə | 864 | 960 | 957 | | 0 |
| 330 | Xnut-Hnut | 114 | 143 | 315 | 318 | 0 |
| 331 | Xosrov | 155 | 182 | 199 | 388 | 0 |
| 332 | Hand-And | 106 | 158 | 273 | 297 | 0 |
| 333 | Xaxs | 242 | 186 | 928 | | 0 |
| 334 | Çanaxçı yux. | 276 | 341 | 355 | 375 | 0 |
| 335 | Cadqran | 212 | 285 | 188 | 191 | 0 |
| 336 | Camışbasan | 94 | 120 | 166 | 168 | 0 |
| 337 | Cəfərli Güngüt | 277 | 341 | 400 | 402 | 0 |
| 338 | Cığın Qaraqoyun | 376 | 464 | 551 | 561 | 0 |
| 339 | Cirmanis K. | 545 | 633 | 728 | 740 | 0 |
| 340 | Şahablı | 437 | 606 | 827 | 840 | 0 |
| 341 | Şəhriyar | | | | | 0 |
| 342 | Şidli | 806 | 823 | 777 | 790 | 0 |
| 343 | Şirazlı | 150 | 234 | 229 | 237 | 0 |
| 344 | Şıxiar | 649 | 714 | 802 | 815 | 0 |
| 345 | Şuqayıb | | 109 | 90 | 200 | 0 |
| | ***Keşkənd (Dərə Ələyəz)*** | | | | | |
| 346 | Ağdərə | | | | | 0 |
| 347 | Ağkənd | 498 | 546 | 918 | 816 | 0 |
| 348 | Ağgilisə | 65 | 99 | 110 | 110 | 0 |
| 349 | Ayar | | | | | 0 |
| 350 | Aysası | 219 | 313 | 412 | 412 | 0 |
| 351 | Almalı | 172 | 231 | 315 | 315 | 0 |
| 352 | Alxanpəyəsi | 54 | 66 | 175 | 175 | 0 |
| 353 | Amağu | 198 | 240 | 350 | 350 | 0 |

| № | Kəndlər (rayonlar üzrə) | 1873 | 1886 | 1905 | 1914 | 1990 |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 354 | Ardaras | 219 | 304 | 353 | 507 | 0 |
| 355 | Arkyaz-Ərkəz | 348 | 479 | 745 | | 0 |
| 356 | Bülbülolan | 163 | 2052 | 398 | 378 | 0 |
| 357 | Vardanes | 106 | 126 | 176 | 176 | 0 |
| 358 | Qabaxlı | 168 | 429 | 614 | 614 | 0 |
| 359 | Qalasar | 108 | 154 | 154 | 154 | 0 |
| 360 | Qaraqaya | 141 | 214 | 177 | 177 | 0 |
| 361 | Qışlaq Abbas | 437 | | 300 | 300 | 0 |
| 362 | Qovuşuq | 158 | 190 | 172 | 172 | 0 |
| 363 | Qozluca | 342 | 549 | 647 | 592 | 0 |
| 364 | Qoturvan | 142 | 201 | 126 | 126 | 0 |
| 365 | Qurbankəsilən | 163 | 227 | 427 | 427 | 0 |
| 366 | Qurdqulaq | 336 | 379 | 690 | 690 | 0 |
| 367 | Ertic | 167 | 234 | | | 0 |
| 368 | Ələyəz | 223 | 356 | 524 | 524 | 0 |
| 369 | Karavank | 187 | 206 | 514 | 414 | 0 |
| 370 | Kömürlü | 95 | 147 | 205 | 205 | 0 |
| 371 | Genalı | 95 | 125 | 285 | 285 | 0 |
| 372 | Güllüdüz A. | 115 | 217 | 151 | 151 | 0 |
| 373 | Güllüdüz Y. | | | | | 0 |
| 374 | Güneyvaz | 40 | 75 | 124 | 124 | 0 |
| 375 | Malişka | | | | | 0 |
| 376 | Moz | 80 | 86 | 161 | 161 | 0 |
| 377 | Novlar | 71 | 100 | 285 | 285 | 0 |
| 378 | Novlu | 157 | 216 | 398 | 121 | 0 |
| 379 | Sallı | 422 | 560 | 624 | 624 | 0 |
| 380 | Heşin | 174 | 272 | 237 | 237 | 0 |
| 381 | Horbateğ | 263 | 342 | 592 | 592 | 0 |
| 382 | Hors | 649 | 904 | 571 | 971 | 0 |
| 383 | Horstun | 61 | 94 | 125 | 125 | 0 |



| № | Kəndlər (rayonlar üzrə) | 1873 | 1886 | 1905 | 1914 | 1990 |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 384 | Çivə | 294 | 431 | 562 | 562 | 0 |
| 385 | Canı | 86 | 168 | 160 | 160 | 0 |
| 386 | Şahgəldi | 80 | 114 | 133 | | 0 |
| 387 | Şorça | 31 | 56 | 76 | 76 | 0 |
| | ***Əzizbəyov*** | | | | | |
| 388 | Ağcakənd | 106 | 139 | 213 | 312 | 0 |
| 389 | Arinc | 129 | 152 | 264 | 264 | 0 |
| 390 | Ağıllı | 23 | 39 | 36 | 36 | 0 |
| 391 | Axta | 290 | 304 | 458 | 458 | 0 |
| 392 | Bilək | 244 | 234 | 536 | 536 | 0 |
| 393 | Bulaxlar | 68 | 92 | 130 | 132 | 0 |
| 394 | Qabaxlı | 201 | 270 | 235 | 235 | 0 |
| 395 | Qayalı | 130 | 174 | 240 | 240 | 0 |
| 396 | Qaralar | 84 | 101 | 108 | 108 | 0 |
| 397 | Qısırxaraba | | | 105 | 152 | 0 |
| 398 | Qılınclı | 52 | 68 | 97 | 115 | 0 |
| 399 | Qndevaz | 98 | 127 | 218 | 210 | 0 |
| 400 | Daylaxlı Tatar | 87 | 184 | 50 | | 0 |
| 401 | Dəmirçilər | 82 | 68 | 96 | 96 | 0 |
| 402 | Dərəkənd | | | 105 | 105 | 0 |
| 403 | Zeytə | 224 | 261 | 580 | 580 | 0 |
| 404 | Zirək | 169 | 218 | 394 | 394 | 0 |
| 405 | İstisu | 114 | 117 | 211 | 114 | 0 |
| 406 | İtqran | 257 | | 490 | 535 | 0 |
| 407 | Kotanlı | 256 | 392 | 611 | 611 | 0 |
| 408 | Köçbək | 226 | 312 | 425 | 425 | 0 |
| 409 | Gabut | 116 | 113 | 140 | 140 | 0 |
| 410 | Gendərə | 152 | 217 | 503 | 503 | 0 |
| 411 | Gomur | 285 | 293 | 365 | 365 | 0 |
| 412 | Göy Abbas | 132 | 165 | 223 | 223 | 0 |

| № | Kəndlər (rayonlar üzrə) | 1873 | 1886 | 1905 | 1914 | 1990 |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 413 | Göyərçin | 48 | 92 | 60 | 60 | 0 |
| 414 | Gümüşxana | 145 | 136 | 360 | 360 | 0 |
| 415 | Leyliköçən | 139 | 153 | 384 | 384 | 0 |
| 416 | Martiros | | | | | 0 |
| 417 | Məmmərzə | 67 | 52 | 104 | 141 | 0 |
| 418 | Mərətüz | 166 | 220 | 248 | 248 | 0 |
| 419 | Oğbin | 104 | | 371 | 401 | 0 |
| 420 | Por | | | | | 0 |
| 421 | Söylən | | | | | 0 |
| 422 | Tarp | 192 | 86 | 220 | 223 | 0 |
| 423 | Terp | 243 | 215 | 384 | 369 | 0 |
| 424 | Her-her | 645 | 656 | 1014 | 1114 | 0 |
| 425 | Çaykənd | 110 | 78 | 129 | 129 | 0 |
| 426 | Çıraqlı | 21 | 20 | 41 | 41 | 0 |
| 427 | Cağatay | 70 | 86 | 94 | 94 | 0 |
| 428 | Ceyranlı | 91 | 84 | 123 | 123 | 0 |
| 429 | Cermuk | | | | | 0 |
| 430 | Cul | 708 | 899 | 1222 | 1222 | 0 |
| | ***Qafan*** | | | | | |
| 431 | Avşarlı | | | | | 0 |
| 432 | Almalıx | | | | 465 | 0 |
| 433 | Atqız | | 120 | 198 | 36 | 0 |
| 434 | Arxusti | | | 24 | 2 | 0 |
| 435 | Acıbac | | 220 | | | 0 |
| 436 | Acılı | | 153 | 340 | 10 | 0 |
| 437 | Açaxlı | | | | | 0 |
| 438 | Babayağublu | | 145 | 190 | 179 | 0 |
| 439 | Baydaq | | 68 | 193 | | 0 |
| 440 | Baydaş | | | 100 | 230 | 0 |
| 441 | Baynakar | | | | 93 | 0 |



| № | Kəndlər (rayonlar üzrə) | 1873 | 1886 | 1905 | 1914 | 1990 |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 442 | Barabatum | | | 445 | 179 | 0 |
| 443 | Baharlı | | 138 | 132 | | 0 |
| 444 | Baharlı | | 432 | 455 | 970 | 0 |
| 445 | Burçalı | | | | 93 | 0 |
| 446 | Qarabaş | | | | | 0 |
| 447 | Qaratqa | | 332 | | | 0 |
| 448 | Qaraçimən | | 225 | 376 | 216 | 0 |
| 449 | Qafan | | | | | 0 |
| 450 | Qovşud | | | | 320 | 0 |
| 451 | Qomaran | | | | 138 | 0 |
| 452 | Quşçulu | | 221 | | 93 | 0 |
| 453 | Daşbaş | | | | | 0 |
| 454 | Daşnov | | 31 | 47 | 39 | 0 |
| 455 | Dəlləkli | | | 336 | 276 | 0 |
| 456 | Dovrus | | 184 | 268 | 297 | 0 |
| 457 | İncivar | | 92 | 140 | 89 | 0 |
| 458 | Yeməzli A. | | | 130 | 89 | 0 |
| 459 | Yeməzli Y. | | 244 | 246 | 899 | 0 |
| 460 | Kavart | | | 580 | 153 | 0 |
| 461 | Katar | | | 382 | 139 | 0 |
| 462 | Kecalan | | | | | 0 |
| 463 | Kefaşan | | | | | 0 |
| 464 | Kirs | | 130 | | | 0 |
| 465 | Kurut | | | | | 0 |
| 466 | Geği | | 254 | 970 | | 0 |
| 467 | Girətağ Y. | | 537 | 666 | | 0 |
| 468 | Girətağ A. | | | 289 | | 0 |
| 469 | Gərd | | 60 | | | 0 |
| 470 | Gödəkli Y. | | | | | 0 |
| 471 | Gödəkli A. | | 206 | | | 0 |

| № | Kəndlər (rayonlar üzrə) | 1873 | 1886 | 1905 | 1914 | 1990 |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 472 | Mahmudlu | | 404 | 5960 | | 0 |
| 473 | Mollalı | | 637 | 270 | 456 | |
| 474 | Muçes Novruzlu | | | 303 | 377 | 0 |
| 475 | Müsəlman | | 34 | | | 0 |
| 476 | Oxçu | | 1122 | 1709 | 200 | 0 |
| 477 | Oxtar A. | | 338 | 454 | 353 | 0 |
| 478 | Pəyəhan | | | | | 0 |
| 479 | Pir Davudan | | 223 | 291 | 360 | 0 |
| 480 | Pirili | | 258 | 467 | 520 | 0 |
| 481 | Sançərəvaz | | | | | 0 |
| 482 | Seyidlər | | 178 | 425 | 75 | 0 |
| 483 | Siznək | | | | | 0 |
| 484 | Siznək | | | 414 | 390 | 0 |
| 485 | Sirkates | | | 95 | 317 | 0 |
| 486 | Sünik-Sümüklü | | | | | 0 |
| 487 | Tecadin | | | 123 | | 0 |
| 488 | Turablı | | 308 | 510 | 300 | 0 |
| 489 | Xələc-2 | | | | | 0 |
| 490 | Çobanlı | | 96 | | 156 | 0 |
| 491 | Çullu | | 110 | 85 | 110 | 0 |
| 492 | Cibili | | | 90 | 160 | 0 |
| 493 | Craxor | | 18 | | | 0 |
| 494 | Şabadin Yegnik | | 261 | 317 | 275 | 0 |
| 495 | Şabadin Oxçu | | 582 | | | 0 |
| 496 | Şəhərcik | | 371 | 395 | 180 | 0 |
| 497 | Şirvanşahlı | | 68 | 125 | 98 | 0 |
| 498 | Şotanlı | | | | | 0 |
| | ***Sisyan*** | | | | | |
| 499 | Ağudi | | 903 | 1345 | 1070 | 0 |
| 500 | Alışar | | 138 | | 214 | 0 |



| № | Kəndlər (rayonlar üzrə) | 1873 | 1886 | 1905 | 1914 | 1990 |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 501 | Aravus. Ərəfsə | | 254 | 440 | 300 | 0 |
| 502 | Aravis | | 150 | 270 | 616 | 0 |
| 503 | Baharlı | | 55 | - | 49 | 0 |
| 504 | Vağudi | | 926 | 395 | 870 | 0 |
| 505 | Qıvrax | | 69 | | | 0 |
| 506 | Qızılcığ | | 287 | 450 | 441 | 0 |
| 507 | Darabas | | 453 | 440 | 1128 | 0 |
| 508 | Dəstəgerd | | | 510 | 450 | 0 |
| 509 | Dulus | | 176 | - | - | 0 |
| 510 | Ərikli-2 | | 126 | 126 | 124 | 0 |
| 511 | Ərikli-1 | | 106 | 150 | 325 | 0 |
| 512 | Zabalzadur | | 64 | 143 | 120 | 0 |
| 513 | İrimiş | | 150 | 270 | 616 | 0 |
| 514 | Gedatağ | | | 415 | 415 | 0 |
| 515 | Lor | | | 455 | 414 | 0 |
| 516 | Məlikli | | 209 | 282 | 249 | 0 |
| 517 | Murğuz | | 138 | | 190 | 0 |
| 518 | Pusək | | 332 | | 310 | 0 |
| 519 | Pulkənd | | 122 | 193 | 282 | 0 |
| 520 | Sisyan | | 633 | 850 | 1300 | 0 |
| 521 | Sofulu | | | 970 | | 0 |
| 522 | Urut-Rut | | 211 | 435 | | 0 |
| 523 | Hortagiz | | 495 | | 409 | 0 |
| 524 | Comartlı | | 244 | 410 | 770 | 0 |
| 525 | Şamb | | | 495 | 405 | 0 |
| 526 | Şəki | | 657 | 1605 | 440 | 0 |
| 527 | Şıxlar | | 306 | 590 | 1584 | 0 |
| 528 | Şukər | | 218 | 280 | 585 | 0 |
| | ***Gorus rayonu*** | | | | | |
| 529 | Ağbulaq | | | | | 0 |

| № | Kəndlər (rayonlar üzrə) | 1873 | 1886 | 1905 | 1914 | 1990 |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 530 | Allar | | | | | 0 |
| 531 | Bağırbəyli | | 869 | 836 | | 0 |
| 532 | Bayandur | | | 803 | 409 | 0 |
| 533 | Binayeri | | 68 | 108 | 166 | 0 |
| 534 | Qurdqulaq | | | 54 | | 0 |
| 535 | Kosalar | | 144 | 358 | 55 | 0 |
| 536 | Kürdlər | | | 123 | 215 | 0 |
| 537 | Paşaraçur | | | | | 0 |
| 538 | Şamsız | | | 22 | 186 | 0 |
| 539 | Şurnux | | | 117 | 104 | 0 |
| 540 | Maeshri | | | | | 0 |
| 541 | Aqaraq | | | | | 0 |
| 542 | Aldərə | | 1077 | 1505 | 1987 | 0 |
| 543 | Amrakar | | | | | 0 |
| 544 | Arevik Nor | | | | | 0 |
| 545 | Buğakar | | | 194 | 96 | 0 |
| 546 | Vartanadzor-1 | | 480 | 951 | | 0 |
| 547 | Vartanadzor-2 | | 174 | 439 | 1053 | 0 |
| 548 | Vahravar | | | 258 | | 0 |
| 549 | Ernadzor | | 204 | | | 0 |
| 550 | Lehvaz | | 375 | 525 | 836 | 0 |
| 551 | Maralzəmi | | | | | 0 |
| | ***Mehri*** | | | | | |
| 552 | Mərzigit | | 301 | 766 | 751 | 0 |
| 553 | Mülk | | | 96 | 78 | 0 |
| 554 | Nüvədi | | 1083 | 771 | 1072 | 0 |
| 555 | Tağamur | | 129 | 194 | 225 | 0 |
| 556 | Teğut | | 199 | | | 0 |
| 557 | Tey (Acılı) | | 174 | 425 | | 0 |
| | ***Kirovakan*** | | | | | |



| № | Kəndlər (rayonlar üzrə) | 1873 | 1886 | 1905 | 1914 | 1990 |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 558 | Arçüt | 357 | 477 | 868 | 759 | 0 |
| 559 | Vardanlı | | | 217 | 786 | 0 |
| 560 | Qarakilsə B. | - | | | | 0 |
| 561 | Kilisə Y. | | | | | 0 |
| 562 | Kilisə A. | | | | | 0 |
| 563 | Mollaqışlaq | | | | 167 | 0 |
| 564 | Xancığaz | 295 | 345 | 523 | 650 | 0 |
| 565 | Haydarlı | 158 | 175 | | 461 | 0 |
| 566 | Hallavar | 625 | 664 | 1062 | 1283 | 0 |
| | ***Spitak r-nu (Hamamlı)*** | | | | | |
| 567 | Ağbulaq | | 198 | 500 | | 0 |
| 568 | Qızıl Örən | | 212 | 250 | 273 | 0 |
| 569 | Qursalı | | 545 | 824 | 999 | 0 |
| 570 | Saral | | 654 | 951 | 1111 | 0 |
| | ***Kalinino*** | | | | | |
| 571 | Qaraqala Y. | | 183 | 205 | 265 | 0 |
| 572 | Qara İsa | | | | | 0 |
| 573 | Qızıldaş | | | 135 | 265 | 0 |
| 574 | Dəmirçilər | | | 420 | 105 | 0 |
| 575 | Evli | | | 100 | 127 | 0 |
| 576 | İlməzli | 165 | 212 | 295 | 469 | 0 |
| 577 | Sariyar | 445 | | 105 | 97 | 0 |
| 578 | Soyuqbulaq | 539 | 159 | 230 | 125 | 0 |
| 579 | Cücəkənd | | 205 | 210 | 468 | 0 |
| 580 | Şağarda | | | | | 0 |
| | ***Tumanyan r-nu (Allauhverdi)*** | | | | | |
| 581 | Alaverdi | | | | | 0 |
| 582 | Ayrum B. | | | | | 0 |
| 583 | Ayrum K. | | | 390 | 381 | 0 |
| 584 | Axtala | | | | | 0 |

| № | Kəndlər (rayonlar üzrə) | 1873 | 1886 | 1905 | 1914 | 1990 |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 585 | Axtala A. | | | | | 0 |
| 586 | Axtala Y. | | | | | 0 |
| 587 | Körpülü A. | | | | | 0 |
| 588 | Şamlıq | | | | | 0 |
| | ***Noyemberyan r-nu (Barana)*** | | | | | |
| 589 | Ayrum | | | | | 0 |
| 590 | Körpülü Y. | | | 440 | 427 | 0 |
| 591 | Ləmbərli | | | 400 | 493 | 0 |
| | ***İcevan r-nu (Karvansara)*** | | | | | |
| 592 | Ağkilsə | | | 79 | | 0 |
| 593 | Adatəpə | | | | | 0 |
| 594 | Dəlican | | | | | 0 |
| 595 | Göyərçin | | | | | 0 |
| 596 | Mürteyil | | | | | 0 |
| 597 | Polad Ayruyum | | | 657 | 381 | 0 |
| 598 | Salah | | | 39 | 64 | 0 |
| 599 | Haqqıxlı | | | 463 | | 0 |
| | ***Krasnoselo r-nu (Cəmbərək)*** | | | | | |
| 600 | Ağbulaq | 422 | 575 | 940 | 1134 | 0 |
| 601 | Ada təpə | 129 | | | | 0 |
| 602 | Alaçıqqaya | | | | 166 | 0 |
| 603 | Ardanış | 389 | 602 | 1000 | 1209 | 0 |
| 604 | Bıriabad | | | | | 0 |
| 605 | Qaraqaya | | | 228 | 265 | 0 |
| 606 | Əmirxeyir | | | | | 0 |
| 607 | Yanıxpəyə | | | | | 0 |
| 608 | Gölkənd | | | 885 | 1866 | 0 |
| 609 | Nadejdino | | | | | 0 |
| 610 | Toxluca | 466 | 681 | 1193 | 1373 | 0 |
| 611 | Çaykənd | | | 409 | 677 | 0 |



| № | Kəndlər (rayonlar üzrə) | 1873 | 1886 | 1905 | 1914 | 1990 |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 612 | Çivixli | - | - | - | - | 0 |
| 613 | Cil | 289 | 587 | 975 | 1035 | 0 |
| | ***Ağbaba (Amasiya)*** | | | | | |
| 614 | Amasiya | | 274 | 502 | 564 | 0 |
| 615 | Baytar | | | | | 0 |
| 616 | Balıxlı | | 205 | 372 | 474 | 0 |
| 617 | Baxçalı | | 162 | 277 | 236 | 0 |
| 618 | Bozqala | | | 139 | 159 | 0 |
| 619 | Qarabulaq | | 185 | 296 | 382 | 0 |
| 620 | Qaranamaz | | 285 | 459 | 541 | 0 |
| 621 | Qaraçanta | | 348 | 665 | 729 | 0 |
| 622 | Qızılbaş | | 394 | 547 | 147 | 0 |
| 623 | Qızılkilisə | | 210 | 230 | 339 | 0 |
| 624 | Qonçalı | | 253 | 330 | 531 | 0 |
| 625 | Quzukənd | | 222 | 372 | 455 | 0 |
| 626 | Daşkörpü | | 246 | 396 | 431 | 0 |
| 627 | Düzkənd | | 348 | 638 | 722 | 0 |
| 628 | Elləroyucu | | 232 | 286 | 437 | 0 |
| 629 | İbiş | | 288 | 460 | 568 | 0 |
| 630 | İlanlı | | 137 | 250 | 453 | 0 |
| 631 | Göllü | 204 | 313 | 403 | 403 | 0 |
| 632 | Güllübulaq | 673 | 1020 | 137 | 137 | 0 |
| 633 | Güllücə | 193 | 324 | 378 | 378 | 0 |
| 634 | Mağaracıq | 309 | 480 | 539 | 539 | 0 |
| 635 | Mumuxan | 127 | 144 | 229 | 229 | 0 |
| 636 | Musluxlu | 150 | 253 | 317 | 317 | 0 |
| 637 | Oxçoğlu | 551 | 854 | 980 | 980 | 0 |
| 638 | Öksüz | 62 | 138 | 176 | 176 | 0 |
| 639 | Ördəkli | 253 | 330 | 531 | 531 | 0 |
| 640 | Seldağılan | 231 | 418 | 414 | 414 | 0 |

| № | Kəndlər (rayonlar üzrə) | 1873 | 1886 | 1905 | 1914 | 1990 |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 641 | Sınıx | 130 | 104 | 201 | 201 | 0 |
| 642 | Söyüdlü | 73 | 80 | 158 | 158 | 0 |
| 643 | Sultanabad | 171 | 262 | 384 | 384 | 0 |
| 644 | Təzəkənd | 129 | 154 | 253 | 253 | 0 |
| 645 | Böyük Təpəgöy | 199 | 278 | 357 | 357 | 0 |
| 646 | Kiçik Təpəgöy | 164 | 140 | 209 | 209 | 0 |
| 647 | Xançallı | 178 | 290 | 392 | 392 | 0 |
| 648 | Çaxmax | 222 | 360 | 405 | 405 | 0 |
| 649 | Çivinli | | | | 253 | 0 |
| 650 | Şiştəpə | 132 | 151 | 253 | 253 | 0 |

Görkəmli tarixçi İsrafil Məmmədovun kitabından götürülən bu cədvəldən göründüyü kimi, 1990-cı ildə Qərbi Azərbaycanda azərbaycanlılar yaşayan bir dənə də yaşayış məntəqəsi qalmamışdır (35, 235-254). Göstərilən kəndlər elə-belə boş qalmayıb. Bu minlərlə faciəmizin acı nəticəsidir.

Aborigen əhalinin öz dədə-baba torpaqlarından silah gücünə zorla sıxışdırılıb çıxarılmasına dair təkzibedilməz faktları təkrar-təkrar xatırlatmaq istərdik. Rusiya-İran müharibəsində (1826-1828) İrəvan xanlığı ərazisində azərbaycanlılar yaşayan 420 kənd yerlə yeksan edilib. Müharibənin sonunda (1828) burada qalan kəndlərdən 254-də azərbaycanlılar, 38-də ermənilər, 25-də isə azərbaycanlılarla ermənilər qarışıq yaşayırdılar. 1828-ci ildən 1872-ci ilədək ermənilər daha 146 kənddən azərbaycanlıları sıxışdırıb çıxartdılar. Bu kəndlər azlıq edilmiş kimi, ermənilər 15



kəndin də azərbaycanlılardan "təmizlənməsinə" nail oldular. 1826-1872-ci illərdə azərbaycanlıların ata-baba kəndlərindən 420-si dağıdıldı, 161-i də ermənilər tərəfindən zəbt edildi. Bu hesabla cəmi 46 il ərzində İrəvan quberniyası ərazisində etnik təmizləmə siyasəti nəticəsində 581 kənd azərbaycanlılardan təmizlənmiş və ermənulər yerləşdirilmişdir.

İrəvan xanlığı zəbt edilərək Rusiyaya qatılandan sonra cəmi iki il (1828-1829) ərzində qonşu ölkələrdən planlı qaydada köçürülüb gətirilən ermənilər burada azərbaycanlılara məxsus 208 kəndə sahib oldular. Azərbaycanlıların sıxışdırılıb etnik ata-baba torpaqlarından çıxarılmasına dair faktlar ərazi baxımından da çox şey deyir. İrəvan quberniyasının ərazisi 23194,79 kv.verst, yəni 26397,06 kv.kilometr, Qars vilayəti (18739,46 kv.km) ilə birlikdə 45136,52 kv.km. olmuşdur. İrəvan xanlığından Ermənistan sovet respublikasına keçən ərazi 1380600 hektara yaxın idi. Diqqət yetirin: 1828-ci ildə ermənilərin payına bu torpaq sahələrinin cəmi 3,37 faizi, yəni 46515 hektarı düşürdü. Azərbaycanlılara çatan torpaqlar isə 1334085 hektar, yəni ümumi ərazinin 96,63 faizi qədər idi. Lakin 1828-ci ildən 1873-cü ilə qədər azərbaycanlıların torpaq payından 408 min hektarı, 1918-1920-ci illərdə isə 633 min hektarı (təqribən 75 faizi) ermənilərə verilmişdi (18, 235-254).

1828-1829-cu illərindən başlayan rus-türk, rus-İran müharibələrinin acı nəticələrinə baxmayaraq, XX əsrin

əvvəllərində indiki Ermənistan ərazisində azərbaycanlılar yenə də üstünlük təşkil etmişdir və bu üstünlük 1918-1920-ci illərə qədər saxlanılmışdır. Hətta daşnak hökumətinin vaxtında belə İrəvanda azərbaycanlılar yaşamışlar.

1831-ci ildən başlayaraq indiki Ermənistan ərazisinin əhalisi müntəzəm formada siyahıya alınmışdır. Bu siyahıyaalmada erməni məkrliyi, Rusiyanın müstəmləkəçilik siyasəti tam aydın şəkildə özünü göstərir.

Irəvan şəhəri mərkəz kimi (1918-ci ildən sonra indiki Ermənistanın paytaxtı olmuşdur) XIX əsrin əvvəllərində əhalinin etnik tərkibi baxımından diqqəti xüsusilə cəlb edir.

1831-ci ildə İrəvan şəhərində 11920 nəfər yaşamışdır ki, onların 7331 nəfərini azərbaycanlılar, 4484 nəfərini ermənilər təşkil etmişdir (85, 94).

1873-cü ildə artıq İrəvan şəhərində demoqrafik vəziyyətin ermənilərin xeyrinə dəyişdiyini əhalinin siyahıya alınmasından aydın görürük. 1873-cü ildə indiki Ermənistanda əhalinin siyahıya alınması keçirilmişdir. Bu vaxt İrəvanda 11938 nəfər əhali yaşamışdır. Bu əhalinin 5805 nəfərini azərbaycanlılar, 5959 nəfərini ermənilər təşkil etmişdir (85, 94).

1886-cı ildə İrəvan şəhərində 14738 nəfər yaşamışdır. Azərbaycanlılar 7228 nəfər, ermənilər 7142 nəfər olmuşdur (85, 94). 1897-ci ildə İrəvanda 290006 nəfər əhali yaşamışdır. Bu əhalinin 12516 nəfəri azərbaycanlılardan, 12529 nəfərini



ermənilərdən ibarət idi.

XIX əsrin əvvəllərində, yəni 1828-ci ildə İrəvanda 2369 nəfər erməni, 7331 nəfər azərbaycanlı yaşamışdısa, əsrin sonunda demoqrafik fərq böyük dərəcədə dəqişmiş. Ermənilərin sayı şəhərdə 12529 nəfərə çatmışdır. 69 il ərzində İran və Türkiyədən 10 mindən çox erməni köçürülüb, İrəvan şəhərində yerləşdirilmişdir.

Müstəmləkəçilik siyasətində şovinizm meyli bütövlükdə Qafqaz xalqlarına qarşı mili ədavəti əlverişli silaha çevirmişdi. Bu tarixi hadisələr folklorumuzda da əks olunmuşdur. Məsələn:

1918-ci ildə erməni daşnakları tərəfindən kürəyinə qaynar samivar bağlaqıb işgəncə ilə öldürülən Göyçəli Aşıq Nəcəfin ölüm ayağında onunla qazamatda birgə olan Kəblə Rəhimə söylədiyi bir qoşması dillər əzbəri olmuşdur:

*Kəblə Rəhim soylə Aşıq Əsədə,*
*Mənim əhvalımı bilsin ağlasın.*
*Arif məclisində, alim yanında,*
*Həmişə yadına salsın ağlasın.*

*Daşnaq qış eylədi bahar yazımı,*
*Eşidən ağlayar xoş avazımı.*
*Sinəsi sədəfli telli sazımı,*
*Əsədə deginən çalsın ağlasın.*

Ağbabanın Güllübulaq kəndində yaşamış Aşıq Nəsib də tarixən Qarsa bağlı olan ərazilərin sovet dövründə Ermənistana verilməsinə öz etirazını belə bildirmişdir:

*Daha yolum düşməz o gözəl Qarsa,*
*Xeyrimi-şərimi qanıb ağlaram.*
*Əl-əldən üzüldü, kəsildi ara,*
*Quş kimi yollara qonub ağlaram.*

Birinci dünya müharibəsi illərində - Qars Milli Şurasının üzvü Ağbabalı Hacı Abbas oğlu Məhəmmədin 700 nəfərlik süvari qoşunu Ağbaba və Çıldır bölgələrini ermənilərdən müdafiə etmişdir. Onun sayəsində Arpaçayın hövzəsində yerləşən Azərbaycan kəndlərinə erməni quldurları girə bilməmişlər. Onun 700 nəfərlik qoşunu Gümrü müqaviləsindən sonra Xalid bəyin komandan olduğu 9-cu diviziyanın 15-ci süvari alayına birləşdirilmiş və I Dünya müharibəsinin sonunadək cəbhələrdə vuruşmuşdur.

Aşıq Nəsib bu hadisələri "Vətən" müxəmməsində belə nəzmə çəkmişdir:

*Kalvayı Məhəmməd ağa*
*Gördü düşüb dara Vətən;*
*Kömək yoxdu, arxa yoxdu*
*Qalıb baxtı qara Vətən.*



*Xəlil Paşanı çağırdı*
*Almasın bir yara Vətən.*
*Pul verdi o, silah aldı,*
*Yurd qalmasın sara Vətən.*

Qars (13.X.1921) və Gümrü müqavilələri bağlanıldıqdan sonra Ağbabadakı Seldağılan, Bağçalı, Mustuqlu, Qönçəli, Mumuxan, Mökür, Terbahar, Arpa Sultanabad, Kiçik Təpəköy, Bozqala, Xancallı, Özdəkli, Söyüdlü kəndlərinin, eləcə də digər kəndlərin əhalisi sərhədin çəkilməsinə etiraz edərək Türkiyəyə – Qars və Çıldır tərəflərə üz tutmuş, bir daha geri qayıtmamışlar. Daha sonra Sultanabad (1935, Şurabad), Təpəköy, Qönçəli kəndlərinə başqa yerlərdən gələn azərbaycanlı qaçqınlar məskunlaşmışlar. Digər kəndlər xarabalığa çevrilmiş və başqa erməni rayonlarının yaylaq yeri verilmişdir.

Türkiyəyə toplu halda qaçqın düşmüş ağbabalılar həmin kəndlərin adlarını Qars, Cıldır, İğdır və sərhədə yaxın olan digər yerlərdə indi də yaşadırlar. Onlar da orada həsrətdolu bir həyat keçirirlər.

Onu da qeyd etməliyik ki, 1904-1906-cı illərdə ermənilərin Bakı, İrəvan, Şuşa, Qarabağ, Tiflis, Gəncə və s. yerlərdə törətdikləri terrorçu hərəkətlər M.S.Ordubadinin "Qanlı illər" və Mir Möhsün Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" kitablarında doğru-düzgün əks olunmuşdur. Bu böyük

şəxsiyyətlər informasiya vasitələrinin olmadığı bir dövrdə əsil bir ziyalı kimi azərbaycansünaslığa qiymətsiz xidmət göstərmişlər. Belə şəxsiyyətlər ölmürlər, həmişə yaşayacaqlar.

Çox-çox təəsssüf olsun ki, ermənilər azərbaycanlılar və türklərə qarşı uydurma kinolar çəkəndə, kitablar yaradanda Azərbaycan gəncliyi M.S.Ordubadinin "Qanlı illər" və Mir Möhsüm Nəvvabın "Erməni-müsəlman davası" kitablarından xəbərsiz olmuşlar. 1990-cı ildən sonra həmin kitablar işıq üzü görmüşdür.



# III FƏSİL.
# KÖÇÜRMƏ SİYASƏTİ VƏ ONUN ACI NƏTİCƏLƏRİ

Ermənistanda azərbaycanlılara qarşı 1918-1920-ci illərdə kütləvi soyqırım və 1930-1938-ci illərdə represiya aksiyası həyata keçirilməsinə baxmayaraq, Ermənistanın Türkiyə və İran sərhədləri, eləcə də Azərbaycan və Gürcüstan sərhədləri boyunca yenə də əsasən azərbaycanlılar yaşayırdılar. İrəvan şəhərinin ətraf rayonları ən münbit torpaqlar hesab edilirdi və həmin rayonlarda da azərbaycanlılar əksəriyyət təşkil edirdilər. Ermənistanın hər bir rayonunda qurub yaratdılan kolxoz və sovxozlar və digər ictimai müəssisələr azərbaycanlıların gərgin əməyi nəticəsində başa gəlmişdir.

Hər bir yaradılan kolxoz və sovxozlar, suvarma sistemləri, meliorasiya edilmiş əkin sahələri maşın-traktor parkları və s. azərbaycanlıların – onların dədə-babalarının təsərrüfatı, mülkü və mülkiyyəti əsasında yaradılmışdır. Ermənistana İran və Türkiyədən, eləcə də başqa ölkələrdən köçürülən ermənilərin nə mülkləri var idi ki, kolxoz və ya sovxoz yaratsınlar. Tikilib yaradılan yüzlərlə klub-kitabxana, mədəniyyət evləri məktəb və uşaq bağçaları, ictimai binalar və s. azərbaycanlıların vəsaitləri hesabına yaradılmışdır.

Rus-alman savaşından sonra Ermənistan rəhbərlərinin

qarşısanda duran başlıca vəzifə İrəvan ətrafında və Türkiyə ilə sərhəd boyu münbit torpaqlarda yaşayan azərbaycanlıları həmin ərazilərdən köçürməyə nail olmaqdan ibarət idi. Bunun üçün isə ilk növbədə Moskvanın razılığı alınmalı idi. Xaricdə yaşayan ermənilərin Ermənistanda yaşamaq arzusunda olduqlarını, lakin onları yerləşdirmək üçün ərazilərin azlıq təşkil etdiyini Stalinin nəzərinə çatdırmaq lazım gəlirdi. Çıxış yolunu isə Qərbi Azərbaycanda yaşayan türklərin Azərbaycanın aran rayonlarına köçürülməsində görürdülər. Ermənilər bilirdilər ki, təmiz dağ havasında yaşayanlar isti iqlimə dözməyəcək və məhv olacaqlar.

Rus – alman müharibəsi sona çatdığı vaxt ermənulər yenə də qarışıqlıqdan istifadə edərək yenidən Azərbaycana qarşşı ərazi iddiasında oldular. Buna gücləri çatmadıqda xaricdə yaşayan ermənilərin Ermənistana köçürülməsi haqqında məsələ qaldırdılar.

Xaricdə yaşayan ermənilərin Ermənistana köçürülməsi barədə onlar ilk dəfə 1943-cü ildə Tehran konfransı zamanı Sovetlər birliyi rəhbəri ilə razılıq əldə etmişdilər. Konfransın gedişində zirək erməni diasporunun nümayəndələri SSRİ Xarici işlər naziri V.Molotovla əlaqə yaratmış, onların Ermənistana köçürülməsi üçün Sovet rəhbərliyinin razılıq verməsini xahiş etmişdilər. V.Molotov İ.Stalinlə danışıqdan sonra onların köçürülməsinə razı olduqlarını bildirmişdi (7,135).



1945-ci ildə Ermənistan KP MK-nın birinci katibi Q.Harutyunov yenidən Qarabağın Ermənistana birləşdirilməsi məsələsini qaldırır. O məsələ müsbət həll olunarsa, onda Qarabağın keçmiş mərkəzi və 1920-ci ildə dağıdılmış Şuşanın bərpası haqqında təkliflər hazırlayaraq Mərkəzi hökumətə təqdim edəcəyini bildirir. Stalin həmin məktubu K.Malenkova, o da M.Bağırova göndərir. Bağırov cavab verir ki, etiraz etmir, lakin o şərtlə ki, Ermənistan, Gürcüstan və Dağıstanın əsasən azərbaycanlılar yaşayan və tarixən Azərbaycanın tarixi-etnik əraziləri onun özünə qaytarılsın. Beləliklə, məsələnin arzu olunmaz istiqamət alacağını hiss edən Moskva onun üstündən keçməli olur. Bundan sonra Ermənistan rəhbərləri öz taktikasını dəyişir. Xaricdən gətiriləcək erməniləri yerləşdirmək bəhanəsi ilə oradan azərbaycanlıların deportasiya edilməsinə nail olmağa çalışır (25, 51; 7, 134-135).

Ermənilər erməni kilsəsinin köməyi ilə müəyyən bir fürsət düşdükdə ondan öz xeyirlərinə yararlanmışlar. Birinci və ikinci dünya müharibəsi illərində də belə olmuşdur. Faktlara diqqət edək:

1943-cü ilin 28 noyabrından 1 dekabrınadək Tehranda Amerika, Böyük Britaniya və Sovetlər birliyinin rəhbərləri, diplomatik nümayəndələr, qərargah rəislərinin səviyyəsində konfrans keçirilmişdir. Konfransda II cəbhənin açılması

məsələsinə baxılsa da, digər müxtəlif məsələlərə də (Yaponiyaya qarşı müharibə, Polşanın sərhəddinin müəyyənləşməsi, Kalininqradın Sovetlər birliyinin sərhəddinə qatılması və s.) nəzər yetirilmişdir. Həmin ərəfədə A.Mikoyanın təhriki ilə İranda yaşayan erməni icmasmm rəhbərliyi səfirlikdə İ.Stalinlə görüşür və Sovetlər birliyinə köçmək arzusunda olduqlarını bildirirlər.

Ermənistan KP MK-nm birinci katibi Q.Harutyunov "vəziyyətdən yeganə çıxış yolunu" Ermənistandan yüz min əhalinin Azərbaycana köçürülməsində görür və İ.Stalindən buna razılıq verməsini xahiş edir. Ermənistan hökuməti köçürüləcək yaşayış məntəqələrinin siyahısmı əvvəlcədən hazırlamışdı. Bu siyahıya ilk növbədə İrəvan şəhəri və ona yaxın Əştərək, Zəngibasar, Eçmiədzin, Hoktemberyan, Artaşat (Qəmərli) Qarabağlar, Vedi, Yeğeqnadzor, Hrazdan (Axta), Əzizbəyov və s. rayonlar daxil edilmişdi. Ona görə ki, həmin rayonlarda azərbaycanlılar toplu yaşayırdılar. Ermənilərin niyyəti bu topluluğu dağıtmaq məqsədi güdürdü.

Ermənistan rəhbərləri Stalini başa salmışdılar ki, köçürülən azərbaycanlıları Azərbaycanın pambıq yetişdirilən rayonlarında, Muğan-Mil düzənliyində yerləşdirmək iqtisadi cəhətdən sərfəlidir. Çünki 1945-ci ildə SSRİ Nazirlər Soveti Kür-Araz ovalığının yenidən qurulması haqda qərar qəbul etmişdi. Mingəçevir SES-in tikintisi başlamış, su anbarı və suvarma



kanallar tikilməkdə idi.

Beləliklə, 23.XII.1947-ci ildə SSRİ Nazirlər Sovetinin 4083 nömrəli, 10 mart 1948-ci ildə isə 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı yönəldilmiş növbəti tarixi cinayət aktı hesab olunur. Bu qərarlar əsasında 150 mindən çox azərbaycanlı Qərbi Azərbaycandan – dədə-baba yurdlarından kütləvi suratdə və zorakılıqla "köçürmə" adı ilə sürgün olunmuşlar (7, 135).

1945-ci ilin noyabrında Ermənistan hökumətinin vəsatətini əsas götürərək Sovetlər birliyi hökuməti xaricdə yaşayan ermənilərin Sovet Ermənistanına köçürülməsi işinin təşkili haqqında qərar verir. Ermənistan hökuməti yanında ölkəyə gətiriləcək ermənilərin qəbulu və yerləşdirilməsi üzrə xüsusi komitə yaradılır və ermənilərin köçürülməsi nəzərdə tutulan ölkələrə respublika hökuməti öz nümayəndələrini göndərir. Artıq 1946-cı ilin əvvəlində 130 min erməni Ermənistana köçmək arzusunda olduğunu bildirir. (Əslində bu şişirdilmiş rəqəmdir). "Qnçak" və "Ramkavar" partiyaları və Ümumerməni Xeyriyyə İttifaqı köçürülmənin təşkili üçün 1 milyon dollar xərcləyir. Erməni diasporasının iştirakı ilə təkcə 1946-cı ildə Suriya, Yunanıstan, Livan, İran, Bolqarıstan və Rummiyadan 50,9 min nəfər, 1947-ci ildə Fələstin, Suriya, Fransa, ABŞ, Yunanıstan, Misir, İran və Livandan 35,4 min nəfər erməni qəbul edilib Ermənistanda yerləşdirilmişdi. 1948-ci ildə yenə də Suriya,

Liviya, Fransa, Bolqarıstan, Rumıniya və Misirdən 10 min nəfər erməni gətirilmişdir. Erməni mənbələrində 1946-1948-ci illərdə xarici dövlətlərdən gətirilən ermənilərin sayı 100 min nəfər göstərilir (59, 364-366).

1948-ci il yanvarın 9-da "Sovet Ermənistanı" qəzeti baş məqaləsində yazırdı: "Bolşeviklər Partiyası, Sovet hökuməti və şəxsən Stalin yoldaşın qayğısı sayəsində öz doğma yurdundan uzun illər boyu didərgin düşərək yad ellərdə səfilliklə həyat keçirən 90 minə qədər erməni öz "doğma vətəni"nə - Sovet Ermənistanına qayıtmaq imkanı tapmışdır... "Vətənə" qayıdan ermənilər böyük şadlıq və misli görünməmiş ruh yüksəkliyi ilə onlar üçün yeni olan həyata qoşulurlar".

Erməni mənbələrində xaricdən gətirilən ermənilərlə bağlı yazılarda "vətənə qayıtmaq" ifadəsi çox işlənir. Bu ifadələr düşünülmüş halda nəzərə catdırılır ki, guya Qərbi Azərbaycan ermənilərin vətəni olmuş, indi də geri qayıdırlar. Halbuki, Qərbi Azərbaycanda XIX əsrin əvvəllərinədək heç ermənimənşəli toponim də olmamışdır. Qərbi Azərbaycanda avtoxton bir xalq olan azərbaycanlıların deportasiyası və məhv edilməsi – soyqırımı hesabına "Ermənistan" yaradılmışdır.

Erməni tarixşünaslığında düşünülmüş halda, Qərbi Azərbaycana gətirilən erməniləri repatriant da adlandırırlar (59, 360). Amma onlar repatriant deyillər. Yaşadıqları yerə sürgündən



geri qaytarılan insanlara repatriant deyilir. Qərbi Azərbaycana gətirilib yerləşdirilən ermənilərdən hec birinin nə atası, nə də ulu babaları Qərbi Azərbaycanda yaşamamışlar. Onlar Cənubi Qafqaz üçün gəlmə xalqdırlar. Krım türkləri, çeçen, inquş, kabardin, balkar və digər xalqların Orta Asiya sürgünündən vətəninə geri qaytarılan insanları repatriant adlandırılması düzgündür. Çünki onlar öz qədim dədə-baba yurdlarına repatriasiya olunmuşlar.

"Erməni xalqının tarixi" (1980) kitabında 1946-1948-ci illərdə xaricdən gətirilən ermənilərin yerləşdirilməsi, onların vəziyyətinin yaxşılaşdırılması haqqında geniş məlumatlar verilir. Amma azərbaycanlıların həmin illərdə "köşürmə" adlı deportasiyalarından 1 sətir belə yoxdur (59, 364). Düzgün olaraq M.Musayev bu deportasiyanı "İkiqat repressiya" adlandırır (25, 201).

Sovet hökuməti Ermənistana gətirilən erməniləri aclıq və dilənçiliyinin girdabından xilas etmiş, onlara yeni həyat şəraiti yaratmışdır. "Millətlər atası" Stalinin sayəsində ordan-burdan gələn yersiz ermənilərə "yeni həyat", Qafqazın köklü sakinləri olan azərbaycanlılara isə sürgünlər, didərginlik və deportasiya qismət olurdu.

Ermənistan rəhbərləri "köçürülmə"lərin 1946-cı ilə nisbətən 1947-ci ildə azalmasının səbəbini onunla izah edirdilər

ki, xaricdən gələn ermənilər əsasən şəhər sakinləridir, onları dağlıq rayonlarda yerləşdirmək mümkün deyil, köçürülənlər isə yalnız İrəvan və onun ətraf rayonlarında məskunlaşmaq istəyirlər. Ermənistan rəhbərliyi xaricdən gələn erməniləri qəsdən, günlərlə dəmiryol stansiyalarında saxlatdırır, onların arasında təbliğat aparırdılar ki, əgər İrəvanda və onun ətraf rayonlarında yerləşdirilməsələr, geriyə - xaricə qayıtmaq haqqında Moskvaya teleqramlar vursunlar. Onlar bütün bunların Sovet hökumətinin xarici ölkələrdə nüfuzuna təsir edəcəyini İ.Stalinin nəzərinə xüsusilə çatdırırdılar. Digər tərəfdən, xaricdən Ermənistana köçmək arzusunda olan 150 min ermənininin siyahısı hər gün Moskvaya təqdim edilirdi (26, 367).

Qərbi Azərbaycandan azərbaycanlıların zorla Azərbaycanın Aran rayonlarına köçürülməsinə razılıq verən, isti iqlim şəraiti və baxımsızlıq nəticəsində on minlərlə adamın tələf olmasında müqəssir hesab edilən Azərbaycan KP MK-nın birinci katibi Mircəfər Bağırovun məhkəməsi zamanı o, həmin prosesi belə şərh etmişdi ki, 1947-ci ilin sonunda İ.Stalinin köməkçisi Poskrebışev ona zəng edib Stalinin onu çağırdığını söyləyir. O, Moskvaya gedir və Stalinin qəbul otağında Q.Harutyunovla rastlaşır. Birlikdə Stalinin kabinetinə daxil olurlar. Stalin müqəddiməsiz-filansız deyir:

– Bağırov, bilirsən də ermənilər xaricdən Ermənistana



gəlirlər. Harutyunovun da torpağı yoxdur. Sən öz azərbaycanlılarını oradan götür, onları Muğanda, Mildə yerləşdirərsən.

M.C.Bağırov deyir ki, yoldaş Stalin, bu asan məsələ deyil. İcazə verin qayıdım, Bakıda yoldaşlarla da məsləhətləşim. Məsələni yoluna qoymağı götür-qoy edək.

Stalin onun bu cavabında əsəbləşir və deyir:

– Deyildi, əməl et! Qurtardı!

M.C.Bağırovun Bakıya qayıtmasından bir qədər sonra, yəni dekabrın 27-də SSRİ Nazirlər Soveti "Ermənistan SSR-dən kolxozçuların və başqa əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 saylı qərar qəbul edir (9, 115).

Mərhum tarixçi, Milli Məclisin sabiq üzvü, rəhmətlik Zakir Sərdarov azərbaycanlıların Ermənistandan köçürülməsinə dair geniş araşdırmaları vardır. O yazır:

... Sənədlər, araşdımalar sübut edir ki, Azərbaycan xalqına qarşı yeridilən bu cinayətkar siyasətin hazırlanmasında, həyata keçirilməsində M.C.Bağırov yaxından iştirak etmiş, təslimçilik mövgeyi tutmuşdur. Stalin-Molotov-Arutunyan-Mikoyan-Bağırov beşliyi azərbaycanlıların min illər boyu yaşadıqları tarixi etnik torpaqlardan – indi "Ermənistan" adlanan Qərbi Azərbaycandan qovulması üçün bir neçə variant hazırlanmışdı.

Lakin beynəlxalq ictimaiyyəti aldatmaq, səs-küyə düşməmək üçün ən səmərəli olan "könüllü surətdə" variantını tətbiq etmişdir. Hətta M.C.Bağırov bu tarixi cinayətdə, faciədə əli olmadığını sübut etmək, özünü tarixin mühakiməsindən xilas etmək, ucuz siyasi imic toplamaq üçün bildirirmiş ki, guya SSRİ Nazirlər Soveti azərbaycanlıların Ermənistandan Qazaxıstana köçürülməsini nəzərdə tutubmuş. Amma o, buna imkan verməmiş, əhalinin Qazaxıstana deyil, Azərbaycana köçürülməsini rəsmi Moskvanın razılığı olmadan həll etmişdir. Təmamilə yalandır. Bunu SSRİ Nazirlər Sovetinin sözügedən: "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" (23dekabr 1947-ci il tarixli 4083 saylı) və "Ermənistan SSR-dən azərbaycanlı kolxozşuların və başqa əhalinin azərbaycan SSR-in Kür-Araz ovalığın köçürülməsi tədbirləri haqqında" (10 mart 1948-ci il tarixli 754 caylı) qərarlarının adları sübut edir.

SSRİ Nazirlər Sovetinin bu cinayətkar qərarlarında Ermənistandan azərbaycanlıların köçürülməsi 3 mərhələyə bölünür və hər mərhələdə nə qədər adamın köçürülməsi də dəqiq göstərilir: 1948-ci ildə 10 min nəfər, 1949-cu ildə 40 min nəfər və 1950-ci ildə 50 min nəfər. Cəmi 100 000 nəfər: "könüllülük prinsipinə əsasən" azərbaycana köçürülməsi idi (7, 135-136).



Ədalət naminə qeyd etmək lazımdır ki, sənədlər, məktublar, yazışmalar göstərir ki, respublikamızın o vaxtkı rəhbərliyindən yalnız Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyev bu məsələyə milli mənafe baxımından yanaşmış, burbaşa olmasa da, dolayısı ilə aərbaycanlıların kütləvi sürətdə köçürülməsinin əleyhinə olmuşdur.

Sovet hökümətinin 23 dekabr 1947-ci il tarixli qərarının icrası ilə əlaqədar Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyevin SSRİ Nazirlər Soveti Sədrinin müavini V.M.Molotova göndərdiyi məktubda Qərbi Azərbaycandan gələn azərbaycanlılarınm yaşayış üçün daha əlverişli olan rayonlara köçürülməsinə icazə verilməsini xahiş edirdi. Bunun üçün T.Quliyev təbii şəraiti, iqtisadi potensialı, ən başlıcası işçi qüvvəsinə ciddi ehtiyacı olan 3 qrup rayon təklif edirdi:

1. Kür-Araz ovalığının qərb rayonları, o cümlədən Qasım İsmayılov (Goranboy), Xanlar (Göygöl), Tovuz, Ağstafa və Qazax.
2. Bakı şəhərinin meyvə-tərəvəzlə daha yaxşı təmin etmək üçün Xaçmaz, Dəvəçi, Xudat, Qusar və meyvəçilik üzrə İttifaq əhəmiyyətli Quba rayonları.
3. Köçürülənlərin tarixən yaşadıqları yerlərin təbii şəraitinə və iqliminə uyğun, işçi qüvvəsinə ciddi ehtiyac duyulan və respublikanın əsas kartof istehsalı bazası sayılan Kədəbəy,

əkinçilik və heyvandarlığın inkişafı üçün əlverişli perspektivi olan Zakatala, Qax, Nuxa, Vartaşen (Oğuz) və Qutkaşen (Qəbələ) rayonları.

Təəsüf ki, Moskva Azərbaycsnın rəhbərliyinin xahişinə məhəl qoymadı, onun daxili işinə kobudcasına müdaxilə etdi.

Bu qərarlar Qərbi Azərbaycanda yaşayan Azərbaycan türkləri üçün qəfil və gözlənilməz olur. Dekabrın 23-də qəbul edilən qərarın özü də tələsik hazırlandığından giriş və izahat verilməmişdi. Azərbaycan SSR Nazirlər Soveti 1948-ci il fevralın 2-də müvafiq qərar qəbul edir (17, 4).

Dediyimiz kimi, SSRİ Nazirlər Soveti 23dekabr 1947-ci ildə verilmiş 4083 saylı qərara əlavə olaraq "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında 10 mart 1948-ci ildə 754 saylı daha bir kəskin qərar qəbul edir. Bu qərarın hazırlanmasında SSRİ Nazirlər Sovetində fəal fiqurlardan biri olan, daşnaq kimi doğulan, bolşevik kimi yaşayan və satqın kimi ölən A.İ.Mikoyan yaxından iştirak etmişdir.

Bundan sonra Azərbaycanda Köçürmə İdarəsi, Ermənistanda isə köçürmə komissiyası təşkil edilir.

Sovetlər birliyi Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixi qərarının 11-ci bəndində göstərilirdi ki, Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin



Azərbaycan SSR-in Kür-Araz ovahğına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililəri və yaşayış evlərini xaricdən Ermənistana gələn erməniləri yerləşdirmək üçün istifadə etsinlər (34, 49).

Azərbaycan SSR Nazirlər Sovetinin 1948-ci il 2 fevral tarixli qərarına əsasən 1948-ci ildə Ermənistandan köçürüləcək 10 min nəfər əhalini qəbul etmək və yerləşdirmək planlaşdırılmışdı. Qərarda Salyan, Saatlı, Sabirabad, Əli-Bayramlı, Puşkin, Biləsuvar, Ağcabədi və Xıllı rayon icraiyyə komitələrinə tapşırılmışdı ki, 1948-ci il fevrahn 15-dək köçürülənlərin yerləşdiriləcəyi kolxozlarda olan boş yaşayış evlərinin təmiri və bərpası üçün tikinti briqadaları yaratmaq, onları lazımi nəqliyyat vasitəsilə təmin etmək, yaşayış evlərinin bir hissəsini köçürülənlərə vermək istəyən kolxozçularla köçürülmə ilə əlaqədar geniş izahar işləri aparmaq lazımdır. Müharibədən sonrakı dövrlərdə Azərbaycan Respublikasında yaşayan əhalinin də vəziyyəti agır idi. Buna baxmayaraq kəndlilər yaşayış evlərinin bir hissisini köçkünlərə verirdilər.

Qərarın icra edilməsinin məcburiliyi ona gətirib çıxarmışdı ki, mülayim iqlim şəraitinə, bulaq suyuna, dağ havasma adət etmiş əhalinin xeyli hissəsi Kür-Araz ovalığında ictimai binalarda şəraiti olmayan yerlərdə yaşadıqlarına görə yatalaqdan, qızdırmadan, malyariyadan və digər yoluxucu xəstəliklərdən

məhv olurdular. Tikinti işləri gecikdirilir, vəsait və texnika çatışmırdı.

Ümumiyyətlə, 1948-ci il noyabrın 1-nə qədər 1799 təsərrüfat, 7747 nəfəri köçürülmüş, üstəlik 429 ailə (2834 nəfər) köçürülməsi nəzərdə tutulan və tutulmayan rayonlardan müxtəlif təzyiqlərə məruz qaldıqları üçün pərakəndə halda Azərbaycana köçmüşdülər (7, 136). Həmin ilin dekabrında 129 təsərrüfatda birləşən 462 nəfər də köçür. Onlardan 65 ailə Noyemberyan rayonunun Körpülü kəndinin, 64 ailə isə İrəvan şəhərinin sakinləri olmuşlar. Ümumiyyətlə, rəsmi məlumatla 1948-ci ildə Ermənistandan Azərbaycana 6298 ailə (24631 nəfər) köçürülmüşdür.

Rus-alman savaşında Qərbi Azərbaycandan 10 minlərlə azərbaycanlı iştirak etmiş, faşizmə qarşı vuruşmuşlar. Çox təəssüf ki, müharibədə həlak olan 10 minlərlə insanın adı heç yerdə xatırlanmır. Müharibədən minlərlə insan geri qayıtmamış, qayıdanlar da bir az nəfəslərini dərməmiş, həyatını qaydaya salmamış "köçürmə"yə məruz qaldılar. Köçürülmə çox ağır şəraitdə aparılırdı. Qərbi Azərbaycanda yüksək vəzifələrdə işləmiş Həbib Həsənov köçürülmənin əzab əziyyəti haqqında "Silinməz izlər, sağalmaz yaralar" (1997) kitabında belə yazır: "Köçkünlərin İmişli, Saatlı, Ucar, Ağdaş, Xanlar rayonlarına gedib çatması ən azı 10-15 gün çəkirdi. Mal-qara qızdırma



xəstəliyinə tutulub tələf olurdu. Qocalar və uşaqlar arasında ölüm halları baş verirdi. Köçkün vaqonlarında doğulan uşaqlara valideyinləri Köçxanım və Köçəri adı verirdilər. Köçəri qədim zamanların Köçxanım isə Sovet dövrünün töhvəsi idi. Amasya, Barana (Noemberyan), Qafan, Sisyan, Əzizbəyov, Dərə Ələyəz (Mikoyan) və başqa rayonlardan yola salınanlar da bu kimi çətinliklər və acınacaqlı vəziyyətlə üzləşirdilər".

Doğrudan da, Köçəri, Köçxanım, Köçbəy adlarını daşıyan insanların çoxu həmin illərdə doğulanlardır.

Köçürülən əhalinin yerləşdirilməsində də çətinlik yaranırdı. Azərbaycanlıların deportasiya tarixinin araşdırıcılarından biri olan A.Paşayev yaranmış vəziyyəti belə izah edir: "Ümumiyyətlə, 1949-cu ildə Ermənistan SSR-dən azərbaycanlı əhali kütləvi şəkildə Kür-Araz ovalığındakı Zərdab, Əli-Bayramlı (Şirvan), Kürdəmir, Göyçay, Mirbəşir, (Tərtər) Salyan, Sabirabad, Yevlax rayonlarına köçürülür. Yaşayış evləri və ictimai binaların, içməli suyun olmaması həmin rayonların rəhbərlərinin məcbur edirdi ki, bütün vasitələrdən istifadə edərək köçürülənləri qəbul etməkdən imtina etsinlər. Sənədlərdən aydın olur ki, Ermənistan SSR-dən gəlmiş eşalonlar günlərlə dəmiryol stansiyalarında dayanır, yalnız yuxarıdan təzyiq olanda məcbur olurdular ki, köçürülənləri qəbul etsinlər (8).

1949-cu ilin sentyabrın 21-də vəziyyətin dözülməz

olduğunu nəzərə alaraq Azərbaycan SSR Nazirlər Soveti SSRİ Nazirlər Sovetinə müraciət edir ki, həmin il üçün köçürülmə planını 10 min nəfərə endirsin. 1949-cu ilin oktyabr ayına olan məlumata görə 983 təsərrüfat (4000 min nəfər) köçürülmüş, 1500 təsərrüfatı birləşdirən 6000 min nəfərə isə köçürülmə biletləri verilmişdi. Hətta Ermənistanda benzin çatışmadığından köçürmə planını yerinə yetirmək məqsədilə Azərbaycan öz yanacaq fondundan əhalini dəmiryol stansiyalarına gətirmək üçün 60 min ton benzin ayırır. Ümumiyyətlə, 1949-cu ildə Ermənistandan Saatlı, Xaldan, Beyləqan, Zərdab, Əli-Bayramlı, Kürdəmir, Göyçay, Mirbəşir, Salyan, İmişli, Sabirabad və Yevlax rayonlarında yerləşdirilir 15276 adam köçürülmüşdür (7, 137).

Azərbaycan SSR Nazirlər Soveti 1950-ci ildə 2419 ailənin (14361 nəfər) köçürülməsi üçün qərar qəbul etsə də, həmin il 65 min nəfər köçürülür. 1948-1950-ci illərdə Ermənistan SSR-dən köçürülmüş ailələrdən yalnız 4878-ni yaşayış evləri ilə təmin etmək mümkün olur. Bir çox ailələr tövlələrdə və digər uyğunsuz binalar da yerləşdirildikləri min xəstəlikdən qızdırmadan əzab əziyyət çəkirdilər.

Ona görə də köçürülən əhalinin 40-45 faizi geri Qərbi Azərbaycana qayıda bilmişdir (34,50).

1951-ci ilin əvvəlindən başlayaraq köçürülən əhalinin bir hissəsi məcbur olub Ermənistana – boşaldılmış kəndlərə geri



qayıdırlar. Geri qayıtmanın kütləvi şəkil alacağından ehtiyat edən Ermənistan rəhbərliyi böyük hay-küy qaldırır, onları qəbul etməkdən imtina edir. Əslində isə xaricdən gələn erməniləri yerləşdirmək adı altında köçürülən kəndlər əsasən boş qalırdı. Xaricdən gələnlərin cüzi hissəsi kənd rayonlarına gedirdilər. Hər cür yağlı vədlərlə gətirilən ermənilərin əksəriyyəti özlərini aldadılmış hesab edir, sosial inkişaf baxımından bərbad vəziyyətdə olan azərbaycanlı kəndlərinə ayaq qoymaq istəmirdilər. Ermənilər kütləvi surətdə gəldikləri ölkələrə qayıtmağa can atırdılar.

1952-1953-cü illərdə Ermənistandan aha 3155 ailə (1376 nəfər) deportasiya edilir (7, 138). Lakin geri qayıdanlar da get-gedə çoxalırdı. Mənbələrdə göstərilir ki, 1954-1956-cı illərdə də 1316 ailə (5876 nəfər) Ermənistandan deportasiya olunmuşdur (7, 138).

Tarixçi Nazim Mustafayev mənbələrə söykənərək yazır: "1951-ci ildə Ermənistandan 1500 ailənin Kür-Araz ovalığına köçürülməsi planlaşdırılır. Onlardan 400 ailə İrəvan şəhərinin sakinləri nəzərdə tutulurdu. 1952-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin köçürmə planı haqqında qəbul etdiyi qərarda 1200 təsərrüfatın köçürülməsi nəzərdə tutulur və ilin axırında bu plan 124, 6 faiz yerinə yetirilir. Həmin illərdə eyni zamanda qeyri-rəsmi surətdə Ermənistandan Azərbaycana mindən çox ailə

köçüb gəlmişdi. 1948-1953-cü illərdə Ermənistandan 144654 nəfər doğma ev-eşiyindən zorla köçürülür. 1953-cü ildə İ.Stalinin ölümündən sonra köçürmə dayandırılır və əhalinin geriyə qayıtma prosesi sürətlənir (9,118). Bu köçürmə azərbaycanlılara qarşı yönəldilmiş deportasiya aktı və soyqırım kimi qiymətləndirməlidir. Çünki, uyğun olmayan iqlim və məişət şəraiti minlərlə insanın xüsusilə, uşaq və qocaların ölümünə səbəb oldu. Aran rayonunu köçürülən elə bir ailə olmadı ki, onun heç olmasa 1 uşağı qızdırmadan vəfat etməsin. Elə bir ailə olmadı ki, onun qocasaylı atası və ya da anası tələf olmasın.

Qərbi Azərbaycandan azərbaycanlıların deportasiyası ilə yanaşı, yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi, təhsil, klub-kitabxana və mədəniyyət ocaqlarının bağlanması, rayonların birləşdirilməsi əməliyyatı aparılırdı. Təkcə 1947-1953-cü illərdə tez-tələsik azərbaycanlılar köçürüləndən dərhal sonra 60-dan artıq yaşayış məntəqəsinin adları dəyişdirilmişdir. Ermənistan SSR Ali Sovetinin 19 sentyabr 1950-ci il fərmanı ilə bir əsrlik tarixi olan dəmiryol stansiyalarının adları dəyişdirilmişdir: Kolagirən – Tumanyan, Hamamlı – Spitak, Ortakilsə - Maisyan, Tomardaş – Vardakar, Arpaçay – Axuryan, Buğdaşen – Baqravan, Qaraqula – Gedap, Ələyəz – Araqats, Boğudlu – Arteni, Qaraburun – Qarmraşen, Qamışlı – Sovetaşen, Uluxanlı – Masis, İmancalı – Mxçyan, Qəmərli – Artaşat, Şirazlı – Ayqavan



və s.

1951-ci il martın 19-da verilən fərmanla Dilican rayonu İcevanla, Əzizbəyov rayonu Mikoyan (Keşkənd) rayonu ilə, Ələyəz rayonu Abaranla, Qarabağlar rayonu Vedi ilə, Qukasyan rayonu Amasiya rayonu ilə birləşdirilmişdi. Burada ermənilərin əsas məqsədi bu idi ki, azərbycanlıların toplu yaşadıqları bölgələrdə ermənilərin sayını çoxaltsınlar. Çoxaltdılar da. Ermənilər kadr məsələlərini həll etdikdən sonra, yəni azərbaycanlı kadrlar vəzifədən uzaqlaşdırıldıqdan sonra bəzi rayonları sonralar yenidən ayırmışdılar (28, 13).

Ermənistandan zorakı köçürülmə aksiyasını həyata keçirdikdən sonra azərbaycanlıların azalmasını əsas götürərək rayon və respublika səviyyəli azərbaycanlı kadrları ermənilərlə əvəz etməyə başladılar: Qarabağlar, Vedi, Zəngibasar, Krasnoselo rayonlarının partiya komitələrinin birinci katibləri, digər 10 rayonda isə ikinci və üçüncü katibləri, digər 10 rayonda isə ikinci və üçüncü katiblər dəyişdirilərək yerinə ermənilər təyin edilirdilər.

Sonralar isə Ermənistan KP MK-nın təşkilat məsələləri üzrə katibi Məmməd İsgəndərov, kənd təsərrüfatı şöbəsinin müdir müavini Rəhim Allahverdiyev, MK-nın məsul təşkilatçısı Cümşüd Sultanov, kənd təsərrüfatı nazirinin müavini Hüseyn Məmmədov, Ermənistan SSR Ali Sovetinin sədr müavini Mirzə

Bəşirov tutduqları vəzifələrdən azad edildilər. Məsul vəzifələrdə işləmiş azərbaycanlıların Azərbaycana axmı sürətləndi.

Bütün bunlarla yanaşı, 13 rayonda Azərbaycan dilində çıxan qəzetlərdən 9-nun nəşri və Azərbaycan dilində kitab nəşri tamamilə dayandırılır. Azərbaycan teatr sənətinə görkəmli sənətkarlar bəxş edən İrəvan teatrı köçürmə illərinin hər cür təzyiq və sıxıntılarına baxmayaraq 1948-1949-cu illərdə "Məşədi İbad", "Leyli və Məcnun", "Eşq və intiqam", "Şah İsmayıl" kimi əsərləri tamaşaya qoymuşdu. Bütün bunlara baxmayaraq teatr Basarkeçər rayonunun tamamilə ermənilər yaşayan mərkəzinə köçürüldü ().

Ermənistanda ali təhsilli azərbaycanlı kadrların çoxalmasına imkan verməmək məqsədilə ilk növbədə X.Abovyan adına İrəvan Pedaqoji İnstitutunun Azərbaycan dilində olan fakültələri – dil-ədəbiyyat, tarix, coğrafiya, fizika-riyaziyyat fakültələri, Ermənistan dövlət Qiyabi Pedaqoji İnstitutunun eyniadlı fakültələri bağlanaraq Bakıdakı müvafiq institutlara köçürüldü. Azərbaycan elminə görkəmli xadimlər bəxş etmiş İrəvan Azərbaycanlı Pedaqoji Texnikumu bağlanaraq Xanlar rayonuna köçürüldü. Texnikumun arxivi belə Xanlara gətirilmədi. Xanlar rayon partiya komitəsinin erməni millərindən olan daşnak birinci katibinin təkidi ilə texnikum bağladıldı və beləliklə daha bir maarif məbədimiz erməni siyasətinin qurbanı



oldu. Yaxşı olmazdımı, gözəl maarifçilik ənənəsi olan həmin texnikum bu günlərədək fəaliyyət göstərəydi. Bir qədər əvvəl, yəni müharibə illərində Leninakanda (Gümrüdə) fəaliyyət göstərən və Zaqafqaziyada yeganə olan Süd Sənaye Texnikumunun azərbaycanlı şöbəsi də bağlanmışdı.

Ermənistan rəhbərləri xaricdən gələn erməniləri yerləşdirmək bəhanəsi adı altında Naxçıvanla Ermənistan arasındakı ərazilərdə xeyli miqdarda erməni əhalisinin yerləşdirilməsinə nail oldular. Şəhədboyu dəhlizi daha da daraltdılar. İrəvan şəhərinin əhatəsindən köçürülən azərbaycanlıların əvəzinə erməniləri məskunlaşdırdılar. Köçürülmə nəticəsində İrəvan ətrafındakı Əştərək, Qarabağlar, Qəmərli, Vedi, Zəngibasar, Sərdarabad (Hoktemberyan), Eçmiədzin rayonlarının və Arpa-Sevan (Göyçə) xətti ətrafında yerləşən rayonların müsəlmanlar yaşayan münbit torpaqları ermənilərin əlinə keçdi. Türkiyə ilə sərhəd boyunda yerləşən Vedi, Zəngibasar, Sərdarabad (Hoktemberyan) rayonlarının azərbaycanlı əhalisini köçürməklə ermənilər özləri üçün "etibarlı sərhəd zolağını" təmin etdilər. Amasiya rayonu bir tərəfdən Türkiyə, digər tərəfdən Gürcüstanın ermənilər yaşayan Qocabəy (Boqdanovka) və Axılkələk rayonları arasında yerləşdiyindən, Ermənistan rəhbərliyi həmin rayonu da köçürmək qərarına gəlmişdi. "Ermənistanın Sibiri" adlandırılan Amasiya rayonunun Qarabulaq, Qızılkənd, Şurabad və Daşkörpü

kəndləri Azərbaycanın aran rayonlarına köçürülmüşdü. Lakin sonralar Amasiyadan köçürülmə prosesi dayandırılmışdı. Çünki köçürülən kəndlərdə kənardan heç bir erməni gəlib məskunlaşmaq istəmədiyindən, kəndlər boş qalırdı. Bu isə iqtisadi cəhətdən Ermənistan hökumətinə əl vermirdi. Çünki Ermənistanın heyvandarlıq məhsulları ilə təmin edilməsində Amasiya rayonunun xüsusi yeri var idi. Hələ 30-cu illərdə Amasiya rayonunun əhalisi Türkiyəyə köçüb getmiş Sultanabad, Mumuxam, Qonçalı, Sınıq, Qarabulaq kəndlərində gəlmə ermənilərı işlə təmin etmək üçün dövlət təsərrüfatları (sovxoz) yaratdılar, yaşayış evləri tikdilər. Amma ermənilər tez bir vaxtda özləri üçün daha əlverişli yerlərə köçüb getdilər. Tarixçi N.Mustafayev yazır: "Əgər 1948-1953-cü illərdə Ermənistandan 150 minə yaxın əhali deportasiya edilərək Azərbaycana köçürülməsəydi və bu köçürülmə ilə yanaşı mədəni-maarif ocaqları bağlanmasaydı, rəhbər kadrlar sıxışdırılıb çıxarılmasaydı, azərbaycanlı əhalinin təbii artımı nəticəsində 80-ci illərin sonunda Ermənistanda azərbaycanlıların sayı ermənilərin sayına yaxınlaşacaqdı. Bu təhlükəni Ermənistan rəhbərləri əvvəlcədən hiss edir və vaxtında "tədbir" görürdülər" (9, 121).

Ermənistandan azərbaycanlı əhalinin köçürülməsi ilə əlaqədar o dövr Ermənistan mətbuatı, o cümlədən "Sovet



Ermənistanı" qəzeti heç bir iz buraxmamışdır. 1948-1953-cü illərdə "Sovet Ermənistanı" qəzetinin səhifələrində yalnız onu müşahidə etmək olur ki, kəndlərdə əhalinin milli tərkibi tədricən dəyişir, müsəlman kəndləri erməni kəndlərinə çevrilir. Həmin qəzet erməni hökumətinə tabe olduğu üçün əlbəttə azərbaycanlıların xeyrinə heç bir şey yaza bilməzdi.

Araşdırmalar göstərir ki, 1948-1953-cü illərdə azərbaycanlıların indiki Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından deportasiya haqqında Sovet hökumətinin qərarı artıqlaması ilə yerinə yetirilmişdir. Həmin qərarla Ermənistanın 23 rayonundan 100 min azərbaycanlı əhalinin könüllü köçürülməsi nəzərdə tutulmuşdusa da, əslində qərarın icrası zorakı təzyiqlər vasitəsi ilə həyata keçirilmiş, 24 rayondan və İrəvan şəhərindən (200 yaşayış məntəqəsindən) 150 minə yaxın azərbaycanlı deportasiya edilmişdi (7, 138).

Qeyd edək ki, 1930-cu illərdən başlayaraq Qərbi Azərbaycan ərazisində yaşayan adlı-şanlı kişilər, varlı adamlar, ziyalı və din adamları bir bəhanə ilə "xalq düşməni", "qolçamaq" bəzən də "pantürkist" adı ilə, Türkiyə və ya İranda qohumlarının olması səbəbindən də sürgün olunmuşlar. Bəzən də bolşevik cildinı girmiş rəhbər ermənilər 19180-1920-ci illərdəki hadisələrdə qoçaqlıq göstərmiş kişiləri bəlləyir və bir bəhanə ilə həbs edib, ailəsi ilə sürgünə göndərirdilər. Bir neçə kənddən

sürgün olunan ailə başçılarının siyahısına diqqət yetirək

**1937-1950-ci illərdə repressiyaya məruz qalmış ailələr.**

**a) Amasiya rayonunun Təpəköy kəndindən:**

1. Bayram Namaz oğlu
2. Təmraz Teymur oğlu
3. Əsgər Kazım oğlu
4. Yusif Musayev
5. Rüstəm Musayev
6. Musa Musayev
7. Nəbi Musayev
8. Bəşir Məşədi Həsən oğlu
9. Cəlal Məşədi Həsən oğlu
10. Teymur Məşədi Həsən oğlu
11. Musayev Camal Süleyman oğlu
12. Aşıq Abbasqulu Əmir oğlu
13. İbrahimov Eyub
14. Mikayıl Şiviloğlu
15. Xanşoban İbrahim oğlu Əsgərov
16. Bayramov Əhmədxan Məhəmmədəli oğlu
17. Rəsulov Moğbil Hüseyn oğlu
18. Yusifov Allahverdi Rəhim oğlu
19. Kazımov Həmzə Abdulla oğlu
20. Dərviş Səfər oğlu



21. Xanəhməd İsgəndər oğlu
22. İbrahim Əsgər oğlu
23. Həsən Lələ oğlu
24. Hüseyn Lələ oğlu
25. Mirzə Lələ oğlu (44. 1994, №21 (201)).

**b) Amasiya Rayonunun Cultanabad (Şurabad) kəndindən:**

1. Alıyev Əsgər Vəli oğlu
2. Alıyev Göyüş Osman oğlu
3. Alıyev Hümmət Nəbi oğlu
4. İbrahimov Binnət Emin oğlu
5. İbrahimov Ziyəddin Emin oğlu
6. İbrahimov Emin
7. Alıyeva Nəzafət Dursun qızı
8. Musayev Dursun Alı oğlu
9. Musayev Osman Alı oğlu
10. Musayev Novruz Alı oğlu
11. Musayev Nəbi Alı oğlu
12. İbrahimov Allahverdi
13. Babayev Kazım
14. Vəliyev Yusif Əsgər oğlu
15. Abdulla Bayram oğlu

16. İsa Bayram oğlu

17. Qurban Aşır oğlu

18. Molla Həsən

19. Paşa Nəbi oğlu

20. Vəliyev Camal Əsgər oğlu (44. 1994, №21 (201)).

**c) Amasiya rayonunun Güllücə kəndindən**:

1. Allahverdiyev İbrahim Allahverdi oğlu
2. Qəhrəmanov Müseyib Vəli oğlu
3. Qəhrəmanov Mustafa Bəli oğlu
4. Qurbanov Əmrah
5. Qocayev Əsgər İsmayıl oğlu
6. Elləzov Əli Həsən oğlu
7. Elləzov Mədəd Həsən oğlu
8. Elləzov Ələkbər
9. Ələkbərov Ələkbər
10. Ələkbərov İbrahimxəlil
11. İsgəndərov Həsən
12. Məmədov Hüseyn
13. Hüseynov Həbib
14. Xəlilov Cəlil Qafar oğlu
15. Ramazanov Pza Haqverdi oğlu
16. Cannatov Əli
17. Cabbarov Alı



**ç) Qarabağlar Rayonunun Kotuz kəndindən**

1. Həsənalı Cüleyman oğlu
2. Əziz Hümbət oğlu

**d) Vedi mahalından Şidli kəndindən**

1. Muxtar Məhərrəm oğlu
2. Həsən Cəmand oğlu
3. Həsən Hüseyn oğlu
4. Həsən Nəsrulla oğlu
5. Bağır
6. Muxtar
7. Hüseyn Oruc oğlu
8. Əli Həsən oğlu
9. Kəblaxudaverdi Hacı oğlu
10. Əmir Allahverdiyev
11. Əsəd Nəcəf oğlu
12. Əziz Rüstəm oğlu
13. Cəlal Abbasqulu oğlu
14. Rəfi Rəfiyev
15. Həmid Başkəndli

**e) Zəngibasar rayonunun Sarvanlar kəndindən**

1. Hüseynov Qurban Ağalı oğlu
2. Rzayev Məmmədəli Məmmədtağı oğlu
3. Əliyev Qara

4. Hüseynov Kaba İbrahim oğlu
5. MəhərrəmovMərdan
6. Vəliyev Şeyx-Məhəmməd

**ə) Amasiya rayonunun Oxçoğlu kəndindən**

1. Məmmədov Qəmbər Kərbəlayı Hüseynalı oğlu
2. Quliyev Muxtar Ramazan oğlu
3. Musayev Əhməd Zülfüqar oğlu
4. Vəliyev Yusif Məhərrəm oğlu
5. Həsənov İbrahim Rəsul oğlu
6. Həsənov Müslüm İbrahim oğlu
7. Həsənov İsrafil İbrahim oğlu
8. Vəliyev Bəli Alı oğlu
9. Novruzov Nəcəfqulu İsmayıl oğlu
10. Əliyev Rzaqulu Teymur oğlu
11. Əliyev Teymur Əmi oğlu
12. Vəliyev Müseyib Rəcəb oğlu
13. Əsgərov Həsən Əsgər oğlu
14. Nəcəfov İsmayıl Hüseyn oğlu
15. QurbanovRzaqulu Camal oğlu
16. Qurbanov Nuhu Məhərrəm oğlu
17. Musayev İmran Hüseyn oğlu
18. Cabbarov Əli Məmməd oğlu
19. Daşdamirov Paşa Əli oğlu



20. Əliyev Mürsəl Paşa oğlu
21. Əliyev Əziz Paşa oğlu
22. Həsənov Dadaş Həsən oğlu
23. Musayev Cənnət Müsa oğlu
24. Yusifov Məhərrəm İsmayıl oğlu
25. Yusifov Muxtar Məhərrəm oğlu
26. Yusifov Müştaba Məhərrəm oğlu
27. Yusifov Mustafa Məhərrəm oğlu
28. Yusifov İsmayıl
29. Yusifov Ələsgər İsmayıl oğlu
30. Yusifov Kərəm İsmayıl oğlu
31. Yusifov Nurəli İsmayıl oğlu
32. Əliyev Məhərrəm Əli oğlu (44. 1994, №20 (200)).

**f) Barana rayonu Yuxarı Körpülü kəndindən**

1. Adıgözəlov İsa Cəbrayıl oğlu
2. Adıgözəlov Musa Mustafa oğlu
3. Adıgözəlov Cahangir Cabrayıl oğlu
4. Alıyev Bayram Alı oğlu
5. Alıyev Musa Süleyman oğlu
6. İbrahimov Əsgər Kazım oğlu (44. 1994, №20 (200)).

**g) Amasiya rayonunun Mağaracıq kəndindən**

1. Axundov Ələsgər Əli oğlu
2. Əli Baba oğlu

3. Ələsgər Ələsgər oğlu
4. Ələkbər Cüleyman oğlu
5. Hüseynov Əsgər Əli oğlu
6. İsmayılov Həsən Hüseyn oğlu
7. İsmayılov Məhəmməd Hüseyn oğlu
8. Qurbanov Ələkbər Həsən oğlu
9. Məhəmməd İsgəndər oğlu
10. Mirələkbər İbrahim oğlu
11. Mirabdulla Ələkbər oğlu
12. Məmmədov Müzəffər Mahmud oğlu
13. Axundov Cəfər Abdulla oğlu
14. Axundov Əsəd Abdulla oğlu
15. Abdulla Məhəmməd oğlu
16. Axundov Əsəd Abdulla oğlu
17. Abdulla Məhəmməd oğlu
18. İsmayılov Muxtar Hüseyn oğlu (30. 1994, №13-14 (194)).

**ğ) Meqri rayonunun Lehvaz kəndindən**

1. Kələntərov Xanlar Rüstəm oğlu
2. Kələntərova Minbəyim Cavad qızı
3. Kələntərov Kələntər Xanlar oğlu
4. Kələntərov İbrahim Xanlar oğlu (44. 1994, №13-14 (194)).



Göstərilən siyahılarda 10 müxtəlif kənddən olan 150 nəfər sürgün edilən ailə başçısının adı və soyadları verilmişdir. Bu siyahılar onu göstərir ki, o dövrdə Qərbi Azərbaycanda olan təqribən 500 kənddən 7500 azərbaycan ailəsi sürgün olunmuşdur. Deportasiya əsasən ailə ilə birlikdə aparılırdı. Hər bir ailə üzvlərini 5-6 nəfər hesab etsək, deməli 25-30 min azərbaycanlı günahsız olaraq erməni NKVD işçilərinin qərəzli və yalan məlumatlarına əsasən Qazağıstan, Qırğızıstan, Özbəkistan və Sibirə sürgün eilmiş, Stalin repressiya maşınının məngənəsində əzilmişlər. Oralarda ölən ölmüş, sağ qalanlar isə hələ də oralarda yaşayırlar. Ağır iqlim şəraiti orada da onları məhv etdi. Bu deportasiya da azərbaycanlılara qarşı yönəldilmiş soyqırım idi.

Azərbaycan respublikasında da 1930-cu illərdə 40 mindən çox adam "xalq düşməni" və "qolçomaq" adı ilə sürgün olunmuşlar.

Qərbi Azərbaycanda – Ağbaba, Göyçə, Zəngəzur, Şörəyel, Ağrı bölgəsi və digər tarixi torpaqlarımızddan Azərbaycan türklərinin "köçürülmə" adı ilə deportasiya olunmalarının bu yaxınlarda 67 ili tamam olacaq. Lakin təəssüflər olsun ki, rus-erməni iş birliyi nəticəsində indi monoetnik erməni ölkəsinə çevrilən "Ermənistan" ərazisində tarixən yaşamış Azərbaycan türklərinin sayını azaltmaq məqsədi güdən bu tarixi faciə, məkrli erməni siyasəti tarix və ədəbiyyat kitablarımızda, hətta

Azərbaycan Ensiklopediyasında belə öz əksini tapmamış, bəzi kitablarda "könüllü köçürmə" adı ilə qeyd olunmuşdur. Halbuki bu köçürülmə erməni şovinistrlərinə qarşı bir ittiham sənədi, azərbaycanlıların tarixi faciəsi kimi qiymətləndirilməsi, antiinsani akt kimi gələcək nəsillərin qan yaddaşma çevrilməlidir.

Bu deportasiyanın tarixi daha qədimlərə gedib çıxır. 1828, 1854, 1878, 1914, 1918-ci illərdə Rus-Türk, Rus-İran müharibələrinin döyüş meydanına çevrilən bu ərazilərdən milyondan çox azərbaycanlı zorakılığa məruz qalaraq ən yaxın ərazilərə - İran, Türkiyə, Gürcüstan və Şimali Azərbaycana qaçqın salınmışlar. Erməni və rus hərbi sənədlərində bu qaçqınlığın izləri vardır. Məsələn, A.Poğosyan "Qars vilayətinin Rusiyaya birləşdirilməsi" kitabında göstərir ki, 1879-1880-cı illərdə 50 mindən çox türk Arpaçayın sol sahilindən Türkiyənin içərilərinə doğru köç etmişlər. Həmin ildə "Qafqaz" qəzeti bu köçün səbəbini ruslara arxalanan ermənilərin zorakılığında görürdü (65, 121). Belə faktlar istənilən qədərdir. Folklorumuzda da bunların izi qalmışdır.

Yuxarıda göstərilən müharibələr zamanı rus çarı Araz və Arpa çayı boyu olan cəbhələrə Ter-Kukasov, Melikov, V.Behbudov, Mədətov, Nazarbekov kimi şovinist erməni hərbiçilərini göndərmiş, onlar da minlərlə erməni könüllüsünü ətraflarına toplamışlar. 1854-cü ildəki rus-türk müharibəsi



nəticəsində minlərlə azərbaycanlı ailəsinin Arpaçayı keçərək Türkiyənin içərilərinə doğru köçüb getmələrini ürək ağrısı ilə Şörəyelin Karxana kəndində yaşamış el şairi Əfkari belə təsvir etmişdir:

*Arpaçaydan əsgər olan çəkildi,*
*Urus topu atdı, göylər söküldü.*
*Behbutov baxmadı çörəyə-duza,*
*Vay-şivən yetişdi gəlinə, qıza.*

*Erməni bir yandan, kazak bir yandan,*
*Çayır-çəmənlərimiz doldu al qandan.*
*Əfkari deyər, bu paşalar netdilər,*
*Neçə min xanələr köçüb getdilər.*

Şerdən göründüyü kimi, erməni əsilli rus generalı V.Behbudovun ordusu Arpaçayı boyu yaşayan əhaliyə divan tutmuş, onlar da məcbur olaraq Arpaçayın sağ sahilinə - Türkiyəyə üz tutmuşlar. Qeyd edək ki, əsli Qarabağdan olan Behbudovlar bir neçə nəsil çar hökümətinə xidmət etmiş. Qərbi Azərbaycanı azərbaycanlılardan məqsədli şəkildə təmizləməklə məşğul olmuşlar.

Yuxarıda göstərildiyi kimi, 30-cu illərdə də xəlvəti olaraq azərbaycanlılar üçün yaxın olan Türkiyə və İrana köç edənlər çox olmuşdu. Lakin bir çox halda bütöv ailə sərhədçilər tərəfindən elə

sərhəddəcə güllələnirdi. Məsələn: 1931-ci ildə Təpəköylü Qızyetər oğlu, qızı və əri İsgəndərlə gecə Türkiyəyə keçmək istəyərkən kənddən xeyli aralı Qızyetəri və qızını sərhədçilər atın üstündə güllələyirlər, əri İskəndər isə oğlu ilə Qarsa tərəf keçir. Qızyetərlə qızını kəfənləyir və vurulduğu yerdə dəfn edirlər. Çünki sərhədçilər meyitləri kəndə gətirməyi qoymamışlar. Sonralar qohumları hər ikisinə başdaşı düzəldirlər. O vaxtdan 15 hektarlıq əkin yerinə "Qızyetərölən" deyirdilər. Qəbir daşları 1988-ci ilədək qalırdı. Sərhəddə güllənən insanları digərlərinə görk olsun deyə yaşı və cinsindən asılı olmayaraq həmin yerdə dəfn edilirdilər. Onların arasında uşaq qəbirləri də çox idi. Bəzən Borçalı, Qazax, Ağbaba, Şörəyel və digər yerlərdən sərhədin Tayaqaya adlanan hissəsindən Türkiyəyə köçmək istəyən insanlar kütləvi şəkildə güllələnmişlər. Sərhədin bir neçə yerində belə qəbiristanlıqlar mövcud idi.

Yuxarıda qeyd etmişdik ki, 1948-1953-cü illərdə köçürülmə adı ilə həyata keçirilən deportasiyanın acı nəticələrini Ağbabanın dörd kəndi də görmüşdür.

Deportasiya zamanı Ağbabanın Sultanabad, Daşkörpü Qarabulaq, Qızılkilsə kəndlərinin əhalisinin köçürülməsi də nəzərdə tutulmuşdur. Qeyd edək ki, Sultanabad kəndin köklü sakinləri sərhədə çəkilərkən 1920-ci ildə hamılıqca Türkiyəyə getmiş, bir daha geri qayıtmamışlar. 45-50 ailədən ibarət olan Sultanabad



kəndinin yeni əhalisi 20-ci illərdə qaçqın kimi boş qalmış kəndə yerləşmişlər. Onların çoxunun Axıska türkləri ilə qohumluğu var idi. Sultanabada yerləşmiş qaçqınlar 1948-ci ilin may ayında Göyçay rayonunun Alpout kəndinə köçürüldü. Halbuki həmin kəndin əhalisi 1937-ci ildə Qazaxıstana köçürülmüş, müharibə dövründəki boşluqdan istifadə edərək yavaş-yavaş doğma yurdlarına -- Sultanabada qayıtmışdılar.

Bir neçə il Alpout kəndində yaşayan sultanabadlılar buranın iqlim şəraitinə dözməyərək ağır xəstəliklərə tutulur, hətta onlarla uşaq və qoca qızdırma xəstəliyindən tələf olur. Stalinin ölümündən sonra isə bir neçə ailə çox çətinliklə geri qayıda bilir. Lakin 1949-cu ildə Arpaçayın qabağında bənd tikilərək Arpagölün sahəsi genişləndirilmiş və onun nəticəsində suyun səviyyəsi qalxaraq Sultanabad kəndi və qədim qəbiristanlıq su altında qalmışdır. Buna baxmayaraq geri qayıdan əhali gölün qırağında qazma evlər tikib müvəqqəti yaşamağa başlayırlar. 1957-ci ilədək, demək olar ki, kəndin bütün əhalisi geri qayıdır. Daha yaxın qohumluq əlaqələri yaratdıqları, həm də ailə başçılarını itirdikləri üçün cəmi 4-5 ailə Alpoutda qalır və onlar indi də orda yaşamaqdadırlar.

1958-ci ildən sonra sultanabadlılar yeni tipli evlər tikərək gölün qırağında gözəl bir qəsəbə yaratdılar. 200 hektardan çox sahəyə meşə zolağı saldılar. Kəndin əkin və biçənək sahələri

başqa kolxozlara paylandığı üçün geri qaytarılmadı. Ona görə də Şurabad kəndinin əhalisi müxtəlif yerlərdə işləyirdilər. Uzun şikayətdən sonra 1978-ci ildə kəndin statusu özünə qaytarıldı. Lakin kəndin torpaqları qaytarılmadı. 1988-ci ildə burada 60 ailəni birləşdirən 319 nəfər yaşayırdı. 1988-ci ilin qışında həmin kəndin əhalisi yenidən erməni terroruna məruz qalaraq Azərbaycana pənah gətirməyə məcbur oldular. Əksəriyyəti Bakı, Gəncə, Sumqayıt şəhərlərində məskunlaşdılar.

Düzdür, 1935-ci ildə Sultanabad kəndinin adı dəyişdirilib Şura hökümətinin şərəfinə Şurabad qoyulmuşdur. Lakin Şura hökumətinin vaxtmda 3 dəfə köçürülmələrə məruz qalan kənd abad yox, bərbad olmuşdur.

Rayon mərkəzinə yaxın olan Daşkörpü kəndinin əhalisi də deportasiyasının acısını görmüş, bir çox əziz adamlarını itirmişlər.

1948-ci ilin yazında Azərbaycana köçürülən Daşkörpü kəndinin sakinləri bir ay Ucar stansiyasında qalır. Bir çoxları mal-qarasını gətirsə də, lakin həmin mal-qara da istiliyə dözmür və tələf olurdu. Nəhayət, daşkörpülülər də iqlimə dözməyərək çox əzab-əziyyətlə geri dönürlər. Ancaq evlərinə ermənilər yerləşdirildiyindən onlar öz evlərinə buraxılmırlar. Boş qalan uçuq-sökük evlərdə yerləşməyə məcbur olurlar. Boş qalan uçuq-sökük evlərin hər birinə 5-6 ailə yerləşərək işin axır nəticəsini



gözləyir, bir təhər öz ailələrini dolandırırlar. Uzun müddət onları pasport qeydiyyatına götürməsələr də, lakin onlar bütün çətinlikləri dəf edib gözəl evlər tikirlər. Yaraşıqlı bir kənd salınır. Ermənilər isə bir-bir yaxınlıqdakı Gümrü şəhərinə və ya rayon mərkəzinə köçüb gedirlər. Erməni xəyanəti nəticəsində Daşkörpü kəndinin adı da inzibati ərazi vahidi kimi ləğv edildi. Belə ki, Ağbaba kəndlərindən çox aşağıda – Arpaçayın aşağı axarında yerləşən Qızılqoç (Qukasyan) rayonunun kəndlərində yaşayan ermənilər 20% yüksəklik pulu alırdılar, lakin o rayondan 20 km yuxarıda olan dağ kəndlərində yaşayan azərbaycanlılara o pulu vermirdilər. Uzun şikayətdən sonra İrəvandan Ağbabaya komissiya gəldi ki, yüksəkliyi ölçsün. Ölçdülər də. Yenə dedilər ki, yüksəkliyin səviyyəsi çatmır. Belə olduqda Təpəköy kənd orta məktəbinin dərs hissə müdiri, rəhmətlik Paşa müəllim hirslənərək erməni mühəndisinə ermənicə "anqraget" (savadsız) deyir və onu başa salır ki, necə olur ki, Arpa çayının yuxarı hövzəsində yaşayan azərbaycanlılar 20% yüksəklik pulu almır, amma çayın aşağı hövzəsində yaşayan ermənilər həmin pulu alır. Halbuki çay buradan başaşağı axır. Ermənilər fakt qarşısında məğlub olur və yüksəklik pulunun alınması təsdiq olunur.

Dəniz səviyyəsindən 2000 metr yüksəklikdə olduğu üçün yuxarı dağ kəndlərində yaşayan azərbaycanlı fəhlələr və müəllimlər 20% yüksəklik pulu almalı olsalar da, rayon

mərkəzində yaşayan ermənilərin də həmin yüksəklik pulunu almadıqlarını bildirirdilər. Halbuki rayon mərkəzi yuxarı dağ kəndlərindən 500 m. aşağıda yerləşirdi. Xalqın haqlı şikayətinə cavab olara məkrli ermənilər rayon mərkəzi (Amasiya kəndi) ilə Döşkörpü kəndinin arasında olan dağ yamacında bir-iki obyekt tikib, guya kəndi rayon mərkəzinə birləşdirdilər. Halbuki bu birləşməyə coğrafi ərazi-relyef imkan vermirdi. Əsas məqsəd o idi ki, həmin kəndin adı ləğv edilsin. Kənddən 500-600 metr aşağıda olan rayon mərkəzində yaşayan ermənilər ləğv edilmiş Daşkörpü kəndinin səviyyəsinə görə yüksəklik pulu alsınlar. Elə də edirlər: rayonun inzibati-ərazi bölgüsündə dəyişiklik edib daha bir yaşayış məntəqəsinin adı ləğv olundu – xəritədən silindi. 1988-ci ildə rayon mərkəzinin bir məhəlləsi sayılan sabiq Daşkörpü kəndində 125 ailəni birləşdirən 680 nəfər azərbaycanlı əhali 1989-cu ilin qışında yenidən qaçqınlığa məruz qalır. Həmin əhali indi Bakı və Sumqayıt şəhərlərində qismən də Gəncədə yaşayırlar (17, 54,55).

Arpa gölünün sahilində yerləşən və bir-birinə söykək olan Qarabulaq və Qızılkilsə kəndlərinin əhalisi də deportasiyaya məruz qalmışlar. Hər iki kəndin əhalisi 1948-ci ilin yazında Göyçay rayonunun kəndlərinə köçürülmüşlər. Bu kəndlərin də əhalisi 1952-ci ildən başlayaraq az-az geri qayıtmışlar. Həmin illərdə Qarabulaq və Şurabad kəndinə də Qars vilayətindən gəlmə



bir neçə erməni ailəsi köçürülmüş, Qızılkilsə kəndi isə xarabaya çevrilmişdir. Torpaqları isə erməni kəndlərinə yaylaq yeri verilmişdir. Naəlac qalan qızılkilsəlilər qarabulaqlılarla birlikdə Qarabulaq kəndində və digər kəndlərdə yaşamağa başlamışlar. 1989-cu ilin qışında 57 ailəni birləşdirən Qarabulaq kəndinin sakinləri (297 nəfər) erməni terrorunun nəticəsi olaraq öz dədə-baba yurdlarından qaçqın düşdülər. 1991-ci ildən kəndin adını ermənilər Şağik edərək orada yaşayırlar.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənablarının 1948-1953-cu illərdə azərbaycanlıların Ermənistan ərazisindən "köçürülmə" adı ilə deportasiyasının ağır nəticələrinin araşdırılması, ona hüquqi və siyasi qiymət verilməsi barədə qəbul etdiyi fərman geniş müzakirələrə, tarixi araşdırmalara imkan yaradı.

1998-ci ildə Prezidentin məlum sərəncamı ilə əlaqədar olaraq ADPU-da elmi konfrans keçirildi. Həmin konfransa "könüllü köçürülmə"nin canlı şahidi olmuş, maddi və mənəvi əziyyət çəkmiş insanlar dəvət olunmuşdur. Onların söylədikləri konfrans iştiralçılarını çox həyəcanlandırdı. Bu deportasiyanı törədən insanlar lənətləndi Bu sətirlərin müəllifi də ərəfədə dəfələrlə Sumqayıt, Bakı və Gəncə şəhərlərində yaşayan, qaçqın və "köçkün"lüyü bir neçə dəfə görmüş Güləndam Rəhim qızı (Sultanabad kəndinin sabiq sakini), Durar Ələkhərov (Daşkörpü

kəndinin sabiq sakini, Dahar Osman oğlu (Qızılkilsə kəndinin sabiq sakini), Eminov Mürsəl (Qarabulaq kəndinin sakini) və digərləri ilə görüşüb söhbət etmişdir. Onlar köçürülmə günlərini bir daha yada saldılar. Köçürülmə ərəfəsində və geri qayıtdıqları zaman ağır əzab-əziyyətllərə düçar olduqlarını, öz ata-baba mülkləri hesabına birinci dəfə yaratdıqları kolxozların 1948-ci ildə, ikinci dəfə yaratdıqları kolxoz və sovxozların isə 1988-ci ildə ermənilərə qaldığını, bütün tikililərin, iri komplekslərin, maşın-traktor parklarının və ictimai binaların azərbaycanlıların gərgin əməyi sayəsində yaradıldığını qeyd etdilər.

Daşkörpü kəndinin sabiq sakini, 1948-ci ildə deportasiyanın şahidi olmuş Əhmədov Məmməd Qurban oğlunun dediklərindən:

1949-cu ilin yaz aylarında bildirdilər ki, Daşkörpü kəndini Zərdab rayonuna köçürürlər. Ona görə kənd camaatı, atam Əzizov Qurbanı Zərdab rayonuna göndərir ki, yer bəyənsin. Atam oradan teleqram vurur ki, heç kəs yerindən tərpənməsin, buranın iqlimi dözülməzdir. Uşaqlar qızdırmadan ölə bilərlər.

Köçürülmə ilə məşğul olan ermənilər teleqramı gizlədərək xalqa bildirirlər ki, Qurban kişi deyib ki, tez gəlsinlər. Məskunlaşmaq üçün yaxşı kənd veriblər. Köçkünləri tələsik yük vaqonlarına doldurub Ucar stansiyasına yola salırlar. Kənd adamlarını Ucar stansiyasında qarşılayan atam və kənd adamları



Zərdaba getməkdən imtina edirlər. Bir ay stansiyada vaqonlarda qaldıqdan sonra nəhayət, Göyçayın Çərəkə və Çərəzə kəndlərinə köçməyimizə icazə verdilər. Yaşayış üçün yararlı olmayan qamış daxmalarda iki il birtəhər yaşadıq. Qızdırma çoxlarının körpə uşaqlarını əlindən aldı. Gətirilən mal-qara da qızdırma xəstəliyinə tutularaq ölürdü. İsti iqlimə dözə bilməyən xalq Mir Cəfər Bağırova müraciət edərək heç olmasa, dağətəyi rayonlarda yaşamalarına icazə verilməsini xahiş edirdilər. Lakin icazə verilmədi. Belə olduqda adamlar bütün müqavimətləri qıraraq geriyə, Daşkörpü kəndinə bir-bir, ailə-ailə qayıtdılar. Öz yurd-yuvamızı yenidən qaydaya saldıq. Qocaların torpağı öpdüklərini də gördüm. Lakin bu iki il daşkörpülülərə çox baha başa gəldi. Bir çoxları valideynlərini və körpə uşaqlarını vaxtsız itirmişdilər. Böyük bir köçlə gedərək şələ-mitillə geri qayıtmalarına baxmayaraq buna da şükür edirdilər. Çünki öz ulularının dəfn olduğu qəbiristanlığı görüb kövrəlir və üzlərini torpağa sürtürdülər (12,44).

Çivinli kəndinin sabiq sakini Hacı Abuzər Məşədi Həsən oğlunun dediklərindən:

– Əslən Ağbabanın Çivinli kəndindənəm. Babam Məşədi Həsən Ağbabanın sayılıb-seçilən varlı kişilərindən olmuşdu. Türkiyədə qohumlarımız olduğuna və atam Məhəmmədin türk ordusunda xidmət etdiyinə görə sərhəd çəkilərkən bizi Dilican

qəzasının Polad kəndinə sürgün etdilər. Sərhəddən 100 km uzaqda yaşamaq hüququ verdilər. Ailəmiz 25-30 nəfərdən ibarət idi. 1929-cu ildə babam Tiflisdə Beriyanın qəbulunda olmuş və çox çətinliklə geriyə, Çivinli kəndinə qayıtmağa razılıq almışdır. Ermənilər atam Məhəmmədin vaxtı ilə türk ordusunda xidmət etdiyini bəhanə gətirərək 1929-cu ildə yaşlı babam Məşədi Həsəni tutub Gümrüyə – Leninakan şəhərinə apardılar və NKVD-nin qalasında güllələdilər. 1939-cu ildə ailəmiz qolçomaq kimi yenidən Qazaxıstana sürgün edildi. Müharibədən sonra geri qayıtdıq. Lakin 1951-ci ildən Qazaxıstanın Çimkənd vilayətinə yenidən sürgün edildik. Ağbabadan birdəfəlik köçürüldük. Amma ürəyimiz həmişə Ağbaba ilə döyünmüşdür. Ona görə də mənim oğlum Hacı Elman Ağbabalı Sumqayıtda "Ağbaba" adlı Polimer materialları zavodu tikdirmiş və Xızı rayonunda ağbabalı qaçqınlar üçün Məşədi Həsən adlı kənd saldırmışdır. İndi kənddə yaşayanların hamısı bir neçə dəfə Ağbabadan deportasiya olunanlardır. Mən Məşədi Həsən kəndində yaşayan və bir neçə dəfə deportasiya olunan bir şəxs kimi mərhum Prezidentimiz Heydər Əliyev cənablarına minnətdarlığımı bildirirəm. Ona görə ki, bu tarixi faciəni bir daha yada saldı və bu işin araşdırılması üçün xüsusi fərman verib dövlət komissiyası yaratdı. Gec də olsa, mənəvi cəhətdən rahatlandıq (12,46).

Əştərək rayonunun Hamamlı kəndinin faciəsi haqqında



prof.Cəfər Cəfərovun dediklərindən:

30-40-cı illərin repressiya dövrünü, 1941-45-ci illərin ağır müharibə şəraitini keçirərək bir balaca nəfəs almaq imkanı yarandıqda kəndimiz indi də 1948-53-cü illərin deportasiyasina məruz qaldı. Mən bu dövrün canlı şahidi olmuşam. 1947-ci ildə eşitdik ki, Ermənistanda yaşayan azərbaycanlıları Azərbaycana köçürmək istəyirlər və bu işə başlayıblar. 1949-cu ildə köçürmə komissiyasının üzvləri Seyidova və İsmayılov Ermənistan dövlət nümayəndəsi ilə birlikdə bizim –Əştərək rayonunun Hamamlı kəndinə gəldilər. Əhalini kolxoz idarəsinə toplayıb iclas keçirdilər. O iclasda mən də iştirak edirdim. Gələn nümayəndələr xaricdən Ermənistana gətirilən ermənilərin yerləşdirilməsi ilə əlaqədar olaraq Ermənistanda yaşayan azərbaycanlıların Azərbaycana köçürülməsi barədə Sov.İKP MK-nın və Nazirlər Sovetinin qərarını oxudular sonra təbliğat apararaq qeyd etdilər ki, Azərbaycanda kənd təsərrüfatı sahəsində işçi qüvvəsi çatışmır. Bu işdə sizə böyükköməklik göstəriləcək: köç pulu, inək pulu, ev tikmək üçün kredit veriləcək. Sizin üçün xüsusi şərait yaradılacaq. Bu işdə Azərbaycan nümayəndələri xüsusi canfəşanlıq göstərirdilər. Kəndin kasıb təbəqəsi dərhal öz razılığını bildirdi. Bu işdə 1949-cu ilin ağır keçməsi, quraqlıq nəticəsində məhsulun qıt olması da xeyli kömək etdi. Nisbətən imkanlı təbəqə buna kəskin etiraz edəndə nümayəndələr

bildirdilər ki, bu iş könüllü olsa da, əvvəl-axır dövlət qərarı həyata keçiriləcəkdir. Nəhayət, 1949-cu ilin dekabrında köç sənədləri, haqq-hesabı hazırlandı və kənd əhalisinə paylandı. Onu qeyd edim ki, ermənilər söz qoymuşdular ki, azərbaycanlılardan heç nə satın almasınlar. Ona görə də kənd camaatı evlərini və başqa tikililərini sökərək ancaq taxta materialını yanacaq kimi dəyər dəyməzə satdılar. Mal-qaranı, qoyun-keçini, toyuq-cücəni, dolu arı yeşiklərini su qiymətinə ermənilərə payladılar. Noyabr ayında kəndə yük maşınları gəldi. Ailələri İrəvan dəmiryol vağzalına daşıdılar. Bir neçə gün vağzalda qaldıqdan sonra 2-3 ailəyə bir yük vaqonu verdilər. Bizim kəndlə birlikdə rayonumuzun Cadqıran və Pərni kəndlərinin camaatını da bir eşelona yüklədilər. Bizim kəndi Salyan, o biri kəndləri Mirbəşir rayonuna köçürdülər.

Köçkünlər üçün Marışlı kəndi nəzərdə tutulmuşdur. Bizi ayrı-ayrı ailələrə, evlərə paylaşdırdılar. O dövrdə Salyanda da vəziyyət yaxşı deyildi. Kənd əhalisi çox kasıb dolanırdı. Elə ailə vardı ki, gündəlik çörək tapmırdı. Ilk gündən kəndin havası, suyu, şəraiti bizim camaata xoş gəlmədi. Noyabr ayı olmasına baxmayaraq, ağcaqanadın əlindən yatmaq olmurdu. Göz yaşı kimi duru bulaq suyu içən adamlar Kürün bulanıq suyunu üzlərinə belə gətirə bilmirdilər. Həmin bulaq sularının həsrətini çəkirdilər. Birdən-birə dağ şəraitindən buraya düşən adamların



əksəriyyəti qalıb necə yaşamaq barədə yox, buradan necə qaçmaq haqda düşünür, plan qururdular. O zaman Salyan körpüsünə xüsusi qarovul dəstəsi qoyulmuşdu ki, köçüb qaçmaq istəyənlərə imkan verilməsin. Bu vəziyyətlə qarşılaşan köçkünlər çətinliklə gətirdikləri ağır-yüngül əşyalarının qalanlarını da burada dəyər-dəyməzinə sataraq yalnız canlarını götürüb əksər hissəsi Qasım İsmayılov rayonunun Dəliməmmədli qəsəbəsinə, bir neçə ev Tərtərə, Ağcabədiyə, Şəkiyə və başqa yerlərə qaçdılar. Biz də Qasım İsmayılov rayonunun Bəşirabad kəndinə köçdük, sonra Dəliməmmədliyə gəldik. Bir il burada yaşadıq, qismən özümüzə babat şərait yaratmışdıq ki, Mircəfər Bağırov öz təyinat yerindən başqa yerə köçüb qaçanların hamısının geri qaytarılması haqqında xüsusi qərar verdi və bizim camaatı yerindən zorla Salyana qaytardılar. Hətta bəzi fəalları cəzalandırdılar da. Stalinin ölümündən, Bağırovun həbsindən sonra kənd əhalisinin bir qismi yenidən Qasım İsmayılovun Dəliməmmədli qəsəbəsinə, Mirbəşir rayonunun Köçərli kəndinə köçdülər. İndi də adları çəkilən kəndlərdə yaşayırlar. Bizim ailənin qaçqın, didərgin və köçkünlük marşrutu belə olmuşdur. **1905-ci il**: Hamamlı – Zəngibasar – Hamamlı; **1918-ci il** : Hamamlı –Zəngibasar – Türkiyə – İran – Naxçıvan – Hamamlı; **1949-cü il**: Hamamlı – Salyan – Qasım İsmayılov (Bəşirabad – Dəliməmmədli) – Salyan. **1953-cü il** Salyan – Quba – keçmiş Şaumyan rayonu (Xarxaput

kəndi) –Tərtər ( Köçərli)

Bu tarixi məlumatdan aydın olur ki, Qərbi Azərbaycan – qədim Oğuz elində yaşayan azərbaycanlıların başına gətirilən faciənin əsas səbəbkarı yenə də ermənilərdir. Onlara havadarlıq edən çar Rusiyası və Sovet hokuməti olmuşdur. Biz azərbaycanlilarrın birinci bədbəxtliyi ondadır ki, belə bir iyrənc varlığa qonşu olmuşuq. Ikinci bədbəxtliyimiz ondadır ki, biz belə vəhşilərlə qonşu ola-ola özümüzü qorumaq barədə düşünməmişik. "Həmişə yola gedə bilərik" fəlsəfəsi ilə arxayın yaşamışıq. Bu məkrli millət də addım-addım bizim dədə baba torpaqlarımızı zəbt etmiş, zaman-zaman başımıza faciələr gətirmiş, ev eşiyimizdən, yurd-yuvamızdan didərgin salmışdır. Bəs bu soyqırım deyil, bəs nədir? (21).

1989-cu ildə Sovet hökuməti 40-cı illərdə deportasiyaya məruz qalmış xalqların hüquqlarının bərpası haqqında qərar qəbul etsə də 1948-1953-cü illərdə Ermənistandan deportasiya edilmiş azərbaycanlılar həmin xalqların siyahısına daxil edilmədi. Ümummilli liderimiz H.Əliyevin 18 dekabr 1997-ci il tarixli fərmanı həmin illərdə xalqımıza qarşı həyata keçirilmiş tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi, onun beynəlxalq ictimaiyyətin nəzərinə çatdırılması üçün zəmin yaratmışdır.

Ümumiyyətlə, yurd-yuvasından didərgin düşən insanlar Prezidentin bu tarixi fərmanını ürəkdən bəyənir və ümidvar



olduqlarını bildirirlər ki, ermənilərin bu tarixi ədalətsizlikləri bütün dünya xalqlarına çatdırılacaq, deportasiyaya hüquqi və siyasi qiymət veriləcəkdir. Bu deportasiya soyqırım kimi qiymətləndirilməlisir.

Qərbi Azərbaycandan (Ermənistan) Azərbaycan türklərinin deportasiya olunmaları, soyqırıma məruz qalmaları XIX əsrin əvvəllərindən başlamışdır. Bu deportasiya və soyqırımlar rus çarlarının, daha sonra Sovetlər birliyi rəhbərliyinin şərq siyasəti ilə və türk xalqlarına düşmən münasibətləri olmuşdur. Belə ki, Qafqazda, eləcə də Türkiyədə erməni-türk münaqişələrinin əsası Avropa ölkələrində və Rusiyada hazırlanırdı. Bu münaqişələrdə Azərbaycan türkləri daha çox faciələrlə qarşılaşmış, erməni və rus işbirliyi nəticəsində öz dədə-baba yurdlarından dəfələrlə qaçqın düşmüş, İran Türkiyə, Şimali Azərbaycan və Rusiyanın müxtəlif yerlərinə qaçqın düşmüşlər. 100 minlərlə insan məhv edilmişdir. Dəfələrlə Rusiya-Osmanlı və Rusiya-İran müharibələrinin meydanına çevrilən Qərbi Azərbaycanda kəndlər boşaldılmış, İran, Türkiyə, Krım və digər yerlərdən zaman-zaman erməniləri gətirib yerləşdirmişlər ki, Rusiya ilə İran, Rusiya ilə Türkiyə arasında tompon bölgə "Erməni vilayəti", daha sonra "Ermənistan cümhuriyyəti" yaratsınlar və yaratdılar da. Amma bu respublika hələ ki, müstəqil deyil, sərhədlərini belə rus əsgəri qoruyur.

Erməni müəllif Zaven Korkodyan 1932-ci ildə İrəvanda çap etdirdiyi "Sovet Ermənistanının əhalisi 100 ildə – 1831-1931" adlı statistik kitabında real faktlara söykənərək göstərir ki, Qərbi azərbaycanda olmuş 2310 yaşayış məntəqəsindən 2000-də azərbaycanlılar yaşamışlar (77, 205,206).

1948-1953-cü illərdə indiki Ermənistandan deportasiyaya məruz qalmış azərbaycanlı yaşayış kəndlərinin siyahısını göstərmək bu cəhətdən maraqlı olar.

1948-1953-illərdə indiki Ermənistan ərazisindən Azərbaycanın aran rayonlarına – Yevlax, Zərdab, Salyan, İmişli, Biləsuvar, Şirvan (Əli-Bayramlı), Mingəçevir, Ucar, Hacıqabul və s. digər aran rayonlarına köçürülən azərbaycanlı kəndlərinin siyahısı belədir (9, 217-220):

| ***Qarakilsə rayonundan*** | | ***Əştərək rayonundan*** |
|---|---|---|
| Ağkənd, Alılı, Məzrə, Vağudi, Şəki, Qalauq, Təzəkənd, Əngələvil | | Talış, Təkityə, Ucan, Hamamlı, Cadıqıran, İnəkli, Tulunəbi |
| ***Zəngibasar rayonundan*** | ***Vedi rayonundan*** | ***Qəmərli rayonundan*** |
| Qulucan, Sarvanlar | Əlməmməd – xaraba qalıb | Məsimli (Haygepat – 1949) |
| Sarıcalar, Çobamkərə | Avşar | Cənnətli (Zovaşen –1940) |
| Reyhanlı | Aşağı Ərmik – xaraba qalıb | Axund Bozavand (Bertik – 1935) |
| Şura kəndi, Mehmandan | Yuxarı Ərmik– xaraba qalıb | Doxquz (Kanaçut – 1945) |
| Həbilkənd (Kalinin qəs.) | Kiçik Vedi | Torpaxqala (Xnaberd – 1949 |



| | | |
|---|---|---|
| Seyid kəndi | Böyük Vedi (Vedi – 1946) | Göl Aysoru |
| Ağcaqışlaq (Gedapnya-1978) | Goravan (Yenikənd - 1968) | Qəmərli (Artşat - 1945) |
| Rəhimabad | Daşdı (Daştakar - 1968) | Qaradağlı (Tsaxkaşen– 1945) |
| Cəfərabad | Taytan (Vanaşen – 1978) | Qaraqoyunlu – xaraba qalıb |
| Göykümbət (Qexanist-1949) | Şıxlar (Lusarat – 1968) | Yamancalı (Desxut –1967) |
| Həsənli | Xalisa (Norakert – 1991) | Novruzlu – xaraba qalıb |
| Arbat | Qaralar (Aralez – 1978) | Çiləxanlı |
| Hacıelyəz (İpəkli, Darakert-1978) | Yengicə (Sisavan – 1991) (Haygeşad – 1950) | Sabınçı (Araksavan–1978) |
| Şöllü (Daştavan-1978) | Şidli (Yexeqnavan – 1991) | İmanşahlı (Mxçyan –1935) |
| Uluxanlı (Zəngibasar-1937, Masis-1950) - qismən | Şirazlı (Voskepan – 1991) | Qarahamzalı (Burastan - 1978) |
| Xaraba Kolanlı (Şorakənd) | Ağkilsə - xaraba qalıb. | Darğalı (Anastasavan – 1949, Haygezard – 1957) |
| Dəmirçi (Şöllü) | ***Ellər (Abovyan) rayonundan*** | Dəllər (Dalar – 1935) |
| Ağhamzalı (Marmaraşen-1967) | Dəlləkli (Zovaşen – 1948) Muradtəpə, Ağadərəsi | Çatmadaş – xaraba qalıb |
| Cəbəcili (Crahovit -1960) | Qaraqala (Sevaberd – 1948) | Muğamlı (Hovtaşen – 1945) |
| Xərrətli (Arevabyur-1978) | Quyulu, Yelqovqn, Tutuyə | Muxtarabad--xaraba qalıb. |

| | | |
|---|---|---|
| Yuxarı Çarbax | Nurnus, Ellər, Başkənd, Avdallar | Yuxarı Ağbaş (Abovyan-1949) |
| Çobankərə | Qoxt, Ərtiz, Qaraqala | ***Gorus rayonundan*** |
| ***Ağbaba (Amasiya) rayonundan*** | Kankan (Hatis – 1978), Təzəköy, Cadıqıran | Şurnuxu |
| Daşkörpü | Göykilsə (Kaputan – 1935) | Ağbulaq |
| Şurabad (Sultanabad) | Zar, Sahab, Kərpicli | Qurdqulaq |
| Qızılkənd – xaraba qalıb | ***Allahverdi (Tumanyan) rayonundan*** | Şahverdilər (Başaracur) |
| Qarabulaq (Şoğiq – 1991) | Böyük Ayrım (qismən)-1950 | Şamsız |

| | | |
|---|---|---|
| ***Qarabağlar rayonundan*** (1951-ci il martın 19-da ləğv edilərək ərazisi əsasən Vedi və Qəmərli rayonlarına birləşdirilib) | ***Axta (Rəzdan) rayonundan*** | ***Qurduqulu (Oktemberyan) rayonundan*** |
| Əzizkənd – xaraba qalıb. | Ağverən | İydəli (Pşatavan - 1947) |
| Əliqırıx – xaraba qalıb. | Təkəlik (Ardavaz – 1991) | Xeyirbəyli (Yervandaşad–1967) |
| Əlimərdan – xaraba qalıb | Qorçulu | Hacıbayram (Baxçalar – 1935, Baqaran – 1968) |
| Baxçacıq – xaraba qalıb | Qaraqala – xaraba qalıb | Şahvarid (Uşakert – 1968) |
| Bayburd – xaraba qalıb | Qabaxlı | Kərimarxı (Sovetakan–1935) |



| | | |
|---|---|---|
| Böyük Gilanlar–xaraba qalıb. | Paşakənd (Marmarik–1935) | Quzugüdən |
| Dəhnəz – xaraba qalıb | Üşəlik | ***Əzizbəyov (Vayk) rayonundan*** |
| Gölcığın – xaraba qalıb | Bjni | Arınc – xaraba qalıb, Qılışdı |
| Daşnov – xaraba qalıb | Dədəqışlaq (Axundov – 1939) | Bulaxlı – xaraba qalıb, Daşaltı |
| Zimmi – xaraba qalıb. | Misxana (Hankavan – 1949) | Zeytə (Zadea - 1991), Haxılı |
| İmirzik – xaraba qalıb | ***Kəvər (Nor-Bəyazed-Kamo) rayonundan.*** | Zirək – xaraba qalıb |
| İnqala – xaraba qalıb | Ağzıbir (Lcap – 1945), Qalalı, Dəliqardaş, Kosaməmməd | Tarp, Qalakəndi |
| Haxıs – xaraba qalıb. | Hacı Muxan (Tsovazard- 1978), Kəvər, Küzəcik | Terp (Saravan – 1960), Göy, Abbas, Qurdqulax |
| Hand – xaraba qalıb. | Ördəkli (Lcaşen – 1946 | İstisu (Cermuk)Qaralar |
| Hortun – xaraba qalıb. | Güzəcik (Lancaxpyur –1950) | Herher |
| Qaladibi – xaraba qalıb | Başkənd (Qexarkunik –1946) | Qabaxlı, Cırlancı |
| Qaraqoyunlu–xaraba qalıb | Ağqala, Kərimkənd | Məmmədrza xaraba qalıb |
| Məngüs – xaraba qalıb | ***Dərə-Ələyəz (Keşişkənd, Mikoyan – Yeğeqnadzor) rayonundan*** | Çaykənd (Qetik – 1991), Cıraxlı |

| | | |
|---|---|---|
| Yellicə - xaraba qalıb | Ağkənd (Ağncadzor - 1968) | Cul (Hartavan - 1950) |
| Yeranos (Heyrams) – xaraba qalıb. | Almalı – xaraba qalıb | Köçbəy (Yeğedzor – 1991), Mərədüz, Dəmirçilər |
| Şahablı – xaraba qalıb. | Ardaraz – xaraba qalıb | Leyliqaçan, Dərəkənd |
| Şuğayıb – xaraba qalıb | Qışlaq – xaraba qalıb | Qayalı – xaraba qalıb |
| Çimənkənd (Aşağı Qarabağ-lar – Urtsadzor 1978) | Qovuşuq (Yermon – 1991) | Vartenik, Göyərçin, Daylaxlı, Bilək, Gümuşxana |
| Cəfərli – xaraba qalıb. | Qurdqulaq (Boloraberd -1946) | ***Martuni (Aşağı Qaranlıq) rayonundan*** |
| Seyid Kotanlı–xaraba qalıb | Heşin, Yenkicə | Karvansara |

| | | |
|---|---|---|
| Kotuz – xaraba qalıb | Horbadıx | Mollalı |
| Kolanlı – xaraba qalıb. | Çivə | Mədinə |
| Küsüz – xaraba qalıb. | Hors | Qızılxaraba |
| ***Dilican rayonundan*** | Sallı | Aşağı Alçalı (Artsvanist-1968) |
| Ağkilsə | Yelpin | Qaranlıq (Gexhovit – 1968) |
| Murteyil | Qozluca | ***Eçmiədzin (Üçkilsə) rayonundan*** |
| Polad (Xaçardzap –1991) | ***Kirovakan (Qarakilsə) rayonundan*** | Aşağı qarxın |
| Göyərçin | Yuxarı Kzilsə | Yuxarı Qarxın (Crarat – 1946) |
| Avanqard kolxozu | Aşağı Kilsə – xaraba qalıb | Qarğabazar (Haykaşen – 1965) |
| Salah (Hankavanik–1991) | Mollaqışlaq | Molla Dursun (Şaumyan) |



| | | |
|---|---|---|
| | Haydarlı | Yuxarı Kolanlı (Qriboyedov-1978) |

| ***Basarkeçər (Vardenis) rayonundan*** | ***Barana (Noyemberyan) rayonundan*** | ***Beriya rayonundan*** |
|---|---|---|
| Zod (Sotk – 1991) –qismən | Ləmbəli (Bağrataşen) | Aşağı Koxa |
| Yuxarı Zağalı (Axpradzor-1978) | ***Abaran rayonundan*** | ***Hamamlı (Spitak) rayonundan*** |
| Çaxırlı (Sovetakert –1978) | Kirəşli | Saral (qismən) |
| Qanlı | | |
| Qızılvəng Yarpızlı Kərkibaş | | |

1894-1896-cı illərdə olan erməni-türk münaqişələri, antitürk münasibətlərində öz əksini tapdı. Bu münasibətlər 1905, 1914, 1918, 1920-ci illərdə Qafqazın müxtəlif yerlərində azərbaycanlıların soyqırımı ilə nəticələnmişdir. Daha sonra 1948-1950, 1988 və 1990-cı illərdə də azərbaycanlılar deportasiya və soyqırıma məruz qaldılar.

25.10.1945-ci ildə SSRİ Xalq Komissarları Soveti 5 illik plana uyğun olaraq Kür-Araz ovalığında 104 min hektar sahənin becərilməsi haqqında qərar imzaladı. Bu qərara əsasən guya çoxlu işçi qüvvəsinin olması lazım bilinirdi. Ona görə də 23 dekabr 1947-ci ildə SSRİ Nazirlər Sovetinin 4083 saylı qərarı ilə 10 mart

1948-ci ildə isə Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan Kür-Araz ovalığının köçürülməsi haqqında 754 saylı qərar verdi. Bu qərarlar Azərbaycan xalqına qarşı yönəldilmiş tarixi cinayət idi. Çox təəssüf ki, 1948-1953-cü illərdə 200 kənddən 150 mindən çox azərbaycanlı iqlim şəraiti o vaxtlar pis olan Beyləqan, Zərdab, Göyçay, Ucar və digər rayonlara köçürülmüşlər. Yük vaqonlarında aylarla qalmalı olurdular. Yevlax dəmiryol stansiyasında kəndlərdən gələn sədrlər onları bölüşdürürdülər. Bu antiinsani bir hadisə idi. Bir nəsil – qocalar və kiçikyaşlılar qızdırmadan məhv olurdular. Kəndlərdə onlar bilmədikləri işlə məşğul olurdular. Orada öyrəndikləri əmək vərdişləri burasda yox idi. Qalmışdılar məəttəl.

Azərbaycana köçürülən əhali həmin dövrdə Qarabağa yerləşdirilsə idi, Qarabağ ermənilərinin muxtariyyatı ləğv olunaraq, bugünkü bəlaları da çəkməzdik.

Görkəmli tarixçi Ataxan Paşayev o vaxt köçürülmələrin Qarabağa yerləşdirilməməsinin planlı bir iş olduğunu arxiv sənədləri ilə belə izah edir: "1949-1953-cü illərdə Ermənistan SSR-dən köçürülən bir nəfər də azərbaycanlı Dağlıq Qarabağ ərazisinə buraxılmamış, əksinə "daxili köçürmə" adı ilə 1949-cü ildə Dağlıq Qarabağdan 132 azərbaycanlı ailəsi (549 əfər) Azərbaycan SSR-in Xanlar rayonuna köçürülmüşdür. Beləliklə



də, "Böyük Ermənistan" üçün ərazilərin boşaldılması işi planlı sürətdə davam etdirilmişdir" (8).

Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ümumilli liderimiz H.Əliyevin fərmanına qədər (18.XII.1997) 50 il ərzində lazımınca araşdırılmamışdır. Bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməmişdir. Beynəlxalq ictimaiyyətə çatdırılmamış və tarix dərsliklərində də əks olunmamışdır.

Əlbəttə, prezidentin bu tarixi fərmanından (1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlardan kütləvi surətdə deportasiyası haqqında) sonra yaradılmış dövlət komissiyası xeyli iş gördü. Geniş tədqiqat işləri aparıldı. Kitablar çap olundu. Erməni və rus işbirliyinin azərbaycanlılara qarşı yönəldilmiş bu mənfur siyasət dünya birliyinə çatdırıldı. Amma bu yenə də azdır. Ermənilərin başımıza gətirdikləri faciələrə dərsliklərdə daha geniş yer verilməlidir. Cənubi Qafqazın kiçikmasştablı xəritəsi əski toponim, hidronim və oronimlər əsasında tərtib olunması vacib məsələlərdən biri olmahdar.

## IV FƏSİL

## 1988-ci İLDƏN BAŞLAYAN ERMƏNİ TERRORU VƏ VANDALİZMİNİN SONUNCU MƏRHƏLƏSİ

Erməni şovinizmi 1964-cü ildən başlayaraq daha da qüvvətləndi. Hakimiyyətdə olan boşluqdan istifadə edərək uydurma erməni soyqırımına aid kitablar yazıldı, kino-filmlər çəkilməyə başladı. Ermənilər üzdə isə deyirdilər ki, biz azərbaycanlılarla dostuq, bu yazılan kitablar, çəkilən kino-filmlər türklərə aiddir. Onlar 1965-ci ildə guya 1915-ci ildə olmuş soyqırımın 50, qaniçən, cəllad Andranik Ozanyanın 100 iliiyini təntənə ilə qeyd etdilər. Moskvanın buna məhəl qoymadıqlarını görərək hər il aprelin 24-də mərasimlər keçirilirdi. Sərdarabad (Hoktemberyan) ərazisində soyqırım abidəsi ucaldaraq ermənilər milli münasibətləri daha da qızışdırdılar. İndi Ermənistana gələn hər bir qonağı məcbur edirlər ki, Sərdarabada gedib, o üzdəniraq abidəni ziyarət etsin, erməni uydurmalarına qulaq assın. Buna görə ora gedib-gəlməyə nəqliyyat vasitəsi də verirdilər.

966-cı ildə şovnist ermənilər millətçilyi qızışdırmaq məqsədilə "Osmanlı imperiyasında erməni soyqırımı" adlı kitab çap etdirdilər. 1982-ci ildə həmin kitab rusca təkrar (670 səh.) nəşr olundu. Azərbaycanlılar yaşayan kəndlərin kitabxanasına da bir nüsxə verdilər. Bununla da antitürk, antiazərbaycan meylləri



özün göstərdi.

Milli ayrıseçkiliyin nəticəsi olaraq 60-cı illərdə də Qərbi Azərbaycandan xeyli ailə Azərbaycana köçməyə məcbur oldu. Universitetlərdə memar, hüquqşünas, əmtəəşünas, həkim, mühəndis, energetik, iqtisadçı və s. ixtisası alan gənclər işlə təmin olunmur, öz rayonlarında həmin ixtisaslara ehtiyac olsa belə, başqa rayonlardan erməni millətinin nümayəndələrini gətirib iş verirdilər. Yalnız qismən müəllim və kənd təsərrüfatı işçiləri işlə təmin olunardı.

1961-ci ilin oktyabrinda Ermənistan Kommunist Partiyasının XXII qurultayında yenə də xarici ölkələrdən ermənilərin gətirilməsi barədə məsələ qaldırılır və hazırlıq işləri aparılır. Xaricdə yaşayan ermənlərlə iş üzrə komitə yaradılır. 1962-1973-cü illərdə yenə də Kipr, Misir, Livan, ABŞ, Türkiyə, İran, Uruqvay, Argentina və digər yerlərdən erməni diasporasının köməkliyi ilə 26 min ermənin gətirilməsi erməni mənbələrində qeyd edilir (59, 417). Xarici ölkələrdən gətirilən erməniləri əsasən şəhər və rayon mərkəzlərində yerləşdirildikləri üçün Qərbi Azərbaycanın şəhər və rayon mərkəzlərində yaşayan azərbaycanlıların get-gedə sayı azalmağa başladı.

Sero Xanzadyan, Zori Balayan, Kevorq Emin, C.Zoryan, Q.Karapetyan kimi yazıçılar tarixi səpgidə yazdıqları uydurma hekayə, povest və romanları erməni gənclərinin beyinlərini türk

düşmənçiliyi ideyası ilə doldurur, televiziyada isə şovinist tamaşa və verilişlər hazırlayır, kino-filmlər çəkirdilər. Türkiyəyə qarşı yönəldilmiş bu düşmənçilik ideologiyası Sovetlər birliyi rəhbərliyinin, eləcə də dövlətin siyasəti idi. Olmayan soyqırımını kütləviləşdirmək üçün Ermənistan rəhbərliyi hər bir iş görürdü.

Bütün əsərlərində erməni gənclərində türklərə qarşı nifrət yaratmağa çalışan, düşmənçilik toxumu səpən Sero Xanzadyan qatı bir millətçi kimi azərbaycanlılara da nifrət edirdi. O, uşaqlar üçün yazdığı "Yeddi vadi ölkəsi" kitabında göstərir ki, guya sinif rəhbəri Antonyan məktəbliləri İrəvandan Ermənistanın müxtəlif yerlərinə səyahətə aparır. Gorusa gəldikdə başlayır tarix uydurmağa: "1699-cu ildə İsrail Ori Gorusda erməni məliklərinin konqresini çağırır. Ermənilərin taleyini həll etmək üçün konfrans I Pyotra müraciət edir. Guya Pyotr onun təklifini bəyənir və İrana səfir təyin edir" (61, 37-35) Calaloğluna (Stepanavan) gəldikdə işə sinif rəhbəri S.Şaumyanı xalq qəhrəmanı kimi qiymətləndirir: "Sovet hakimiyyəti uğrunda Qafqaz xalqlarına köməklik göstərmiş, Antanta, ağqvardiyaçı ordularına və yerli əksinqilabçı burjuaziyaya qarşı kəskin mübarizə aparmışdır"– deyir (61, 37). Gəlin görək, sinif rəhbərinin dediyi "əksinqilabçı yerli burjuaziya" kimlər idi? Şamaxı, Quba, Bakı Göyçay və digər yerlərdə Şaumyanın daşnaq-bolşevik əsgərləri tərəfindən günahsız öldürülən azərbaycanlılarmı?



Daha sonra məktəblilər Şirak vadisinə, Sorəyelə gəlirlər. Burada da sinif rəhbəri Antonyan ata-anasının Qarsda türk yeniçərləri tərəfindən öldürüldüyünü və yetim qaldığını uşaqlara danışır. Qars tərəfə baxıb köks ötürür. Sinif rəhbəri Ani şəhərindən, İstanbuldan, İstambuldakı Aya-Sofiya məbədinin məscidə çevrilməsini də yana-yana uşaqlara şərh edir (61,81,82). Halbuki oralar indiki "Ermənistana" dəxli olmayan yerlərdir. Əlbəttə bu qeyd olunanlar uşaqlarda ənənəvi erməni millətçiliyi aşılamaq, türklərə qarşı yönəldilmiş düşmənçilik ruhu kökləməkdir. Uşaq zehnində düşmən obrazı yaratmaqdır. Sadəcə olaraq o, yazıçı kimi bir manera edərək uydurma böhtanları bədiiləşdirir.

Bundan başqa, "Наука" nəşriyyatının "Şərq ədəbiyyatı" şöbəsi 1990-cı ildə Q.O.Karapetyanın "Mherin yolu" (Erməni əfsanə və rəvayətləri) kitabını çap etmişdir. 4000 tirajla nəşr edilən bu kitabda üzdəniraq müəllif bir neçə yer-yurd adını uydurub rusların adına bağlamaqla nəşrə nail ola bilmişdir. Kitabı vərəqləyəndə şovonist erməni müəllifinin növbəti fitnələrinin və Moskva nəşriyyatının canfəşanlığının şahidi olursan. Q.Karapetyan Azərbaycan, Ermənistan, Gürcüstan, Türkiyə və Cənubi Azərbaycan ərazilərindəki türkmənşəli yer-yurd adlarını və azərbaycanlılara aid olan toponimik rəvayətləri, ocaq və ziyarətgahların bir çoxunun adını erməniləşdirərək və ya kalka

(hərfi tərcümə) üsulu ilə çevirərək rusdilli xalqları guya erməni mif, əfsanə və rəvayətləri ilə tanış edir. Bir sıra türkmənşəli adları olduğu kimi verərək, həmin toponimlərə uydurma rəvayətlər qondarmış və azərbaycanlılara qarşı başqa xalqlarda nifrət hissi yaratmağa çalışmışdır. Müəllif "Ön söz"də yazır ki, çoxmillətli bir dövlətdə yaşayırıq. Toponimlərin mənəvi-estetik, vətənpərvərlik əhəmiyyətini hamı bilməlidir. Onun bu fikri sadəcə olaraq gözdən pərdə açmaq üçündür. Qanlı dərə (Qarabağ) , Şəki şəlaləsi (Sisyan), Qırğız yaylası (Qarabağ), Arpa dağı (Gorus) , Qızqalası (Şörəyel), Saqqaltutan (Zəngəzur) və s. Azərbaycanmənşəli toponimlərə qərəzli məqsəd güdən rəvayətlər uydurmuşdur. Bundan başqa, böyük türk şah və xaqanlarına – Toğrul şaha, Teymurləngə, Şah Abbasa, Nadir şaha, eləcə də İrəvan, Naxçıvan, Qarabağ xanlarına böhtanlar atılır. David, Aşot, Andranik isə milli azadlıq mübarizəsinin başçıları kimi təriflənir. Məsələn, müəllif kitabın 116-cı səhifəsində "Andranik" adlı qondardığı rəvayətdə belə deyir:

– Andranik doğulanda onu kilsədə xaç suyuna salmaq istərkən naməlum bir adam kilsəyə girir və təzə anadan olan uşağı xaç suyuna salıb gedir. O qeyb olandan sonra uşağın kürəyində xaç nişanı görəndə başa düşürlər ki, onu xaç suyuna salan müqəddəs Gevorq imiş. Sonralar Andranik böyüyüb düşmənlərlə (yəni türklərlə) döyüşəndə onun bədəninə güllə keçmirmiş. O hər



dəfə döyüşdən qayıdanda, güya öz paltarını çırparkən çoxlu düşmən gülləsi tökülürmüş (60, 71).

Rəvayətdən belə bir sual doğur: "Müqəddəs" Andranikin qulağını bəs türklər nə qaxşı kəsə biliblər? Müqəddəs Gevork nə əcəb mane olmayıb?

Kitabda Zəngəzuru–Zanqadzor, Qırğız dağını–Karasunaxçikneri sar, Qızqalası–Axçikaberd, Sürməlini–Surb Mariam, Ərqurunu–Akori kimi erməniləşdirərək təhrif etmişlər. Burada qeyd olunan toponimik rəvayətlərdən bir neçəsinin azərbaycanlıların soykökündə tarixi bir etnonim olması, tarix və etnoqrafiyamız üçün maraqlıdır. Kitabda qeyd edilən yer-yurd adlarının bir neçəsinə fikir verək. Məsəsələn:

BARANA. Tarixi mənbələrdə kənd və mahal adlı kimi qeyd edilmişdir. 1935-ci ildən Noyemberyan rayonu adlanır. B.Radlova görə "baran" qədim türk sözüdür. Bu söz türklərdən ruslara keçib. Barana –"Qoyunlu yer" deməkdir. Tarixdən Ağqoyunlu, Qaraqoyunlu etnonimləri və toponimlərə çevrilən etnotoponimlər bizə məlumdur. Erməni müəllifə görə Barana "abarana" (abarandanıq) sözündəndir. Məlumdur ki, Abaran da türk mənşəli toponimdir.

ŞİRAK (Şörəyel). Bu etnonim haqqında yunan tarixçisi Strabon, öz əsərlərində məlumat vermişdir. Türk tarixçisi Fəxrəddin Kırzıoğlu "Qars tarixi" kitabında Ptolomeyə,

İordanesə əsaslanaraq göstərir ki, eramızdan əvvəl III-II əsrlərdə Xəzərlərin bir qolu olan Şiraklar Don-Terek çayları ətrafında yaşamışlar. Sonralar bu şaman türklər Qafqaz dağlrını aşaraq Azərbaycana gəlmiş və Araz-Arpaçayı boyu yerləşmişlər. "Kitabi Dədə Qorqud" dastanında Şəruk kimi qeyd edilmişdir. Bir çox mənbələrdə Şirak (Sirak) Çırak formasında qeyd edilmişdir. Çıraklı adlı kənd, dağ, qala və s. adlar da həmin etnonimdən törənən etnotoponimlərdir. Hal-hazırda Şirak (Şörəyel) Ermənistanda böyük bir vadinin – coğrafi bölgənin adıdır. Beş rayonu əhatə edən bu ərazidən azərbaycanlılar 1828, 1878, 1920 və nəhayət 1989-cu illərdə çıxarılmışlar. Həmin ərazidə Şirak adı ilə əlaqəli qala və kənd adı indi də qalır. Amasiya kəndlərində Şiroylar adlı tayfa vardı. Şirak sözünün leksik mənası haqqında görkəmli alim M.Seyidov dəyərli fikirlər söyləmişdir. Mənbələrdə Şirakel//Şörəyel kimi qeyd olunur.

Kitabda Gorusdakı Arpa dağa aid də rəvayət uydurulmuşdur:

– Guya Şah Abbas vaxtında zəngəzurlu ermənilərə əmr edilir ki, şahın atları üçün arpa toplanılsın, Zəngəzur erməniləri əmri yerinə yetirmirlər, silaha sarılaraq şahın qoşunundan o qədər qırırlar ki, guya bir təpə əmələ gəlir. O təpəyə də "Arpa təpəsi" deyirlər. Əvvəla, heç Şah Abbas zamanında Zəngəzurda erməni yox idi. Ikincisi də Dərə Ələyəzdəki Arpa kəndi, Arpa çayı (90



km), Ağbabadakı Arpa kəndi (xaraba), Arpa gölü, Arpa çayı (220 km), Tanrı dağından axıb gələn Arpa çayı "Arpa təpəsi" rəvayəti iləmi bağlıdır?! Mənbələrdə arpa türkmənşəli etnonum kimi xatırlanır. Bu etnotoponimlərin və hidronimlərin dənli bitki adı ilə əlaqəsi yoxdur. Bunlardan başqa Qarabağımızın füsunkar gözəlliklərindən biri olan Qırğız dağını erməniləşdirərək "Karasunaxçikneri sar" kimi qeyd edərək rəvayət uydurulmuşdur: – Guya qırx erməni qızını Qarabağ xanının hərəmxanasına əsir kimi apararkən qızlar özlərini sıldırım qayadan atır, həlak olurlar. Ona görə də Karasun (qırx), axçikner (qızlar) sar (dağ) demişlər. Bəli, erməni müəllifi bilməlidir ki, üç, beş, yeddi, qırx və sair saylardan ibarət yer-yurd adları azərbaycanlıların əski inamları ilə bağlı yaranmışdır.

Kitabda Şuşa yaxınlığındakı Sənəm körpüsünü "Sanami kamurc", Cin körpüsünü isə "Satani kamurc" kimi verilmişdir. Lakin bəllidir ki, azərbaycanlıların yaşadığı bir çox ərazilərdə "cin"lə əlaqədar mifoloji toponimlər geniş yayılmışdır. Məsələn, Ağbabanın Təpəköy kəndi yaxınlığında Cin dağı, Cinli bulaq, Cin dərəsi və s.adlar mövcud idi. Başqa yerlərdə də belə toponimlər çoxdur.

Q.Karapetyan Şəmşəddinin Tovuz kəndi yaxınlığmdakı Qız qalasını və Şirak vadisində, Oxçoğlu kəndinin sol tərəfində

- Arpa çayının sahilindəki Qız qalasını da "Axçikaberd" adı ilə ermənıləşdirmişdir.

Şəki şəlaləsi haqqında kitabın 66-cı səhifəsində belə yazır:

– Guya keçmişdə 93 erməni qızını düşmənlər (yəni türklər) Mugana (yəni Azərbacana) əsir apararkən qızlar özlərini Urut çayına atıb boğulurlar. Guya yalnız Şake adlı qız salamat qalır. Qızları aparanlar istəyirlər ki, onu tutsunlar, lakin birdən böyük bir şəlalə əmələ gəlib onlara mane olur. Guya o vaxtdan ora Şəki şəlaləsi,çayın yanındakı kəndə isə Şəki deyirlər. Bəs Şəki adlı paralel toponimlərin ifadə etdiyi məskənlərdə türkdilli kitabələrin, albansoylu qəbir daşlarının varlığı çox şeylər demirmi? Əlbəttə, bir çox toponomistlərimiz Şəki oykonimi barədə inandırıcı fikirlər söyləmişlər.

Kitabda Mehri haqqında yalan, məntiqsiz əfsanələr uyduran müəllif göstərir ki, guya "Sasunlu David" eposunun qəhrəmanı Mher 9-10-cu əsrlərdə ərəblərə qarşı mübarizə aparıb. Rəvayət olunan yolu da o çəkdirdiyi üçün "Mherin yolu" deyirlər. Halbuki atəşpərəstlikdən Mehr adı məlumdur, mənası "günəş", "sevgi" deməkdir. Qədim Şəmsi təqvimində Mehr adlı ay da var. Mehri kəndi, Mehri çayı, Mehransa məbədi və sair adların bir-birilə əlaqəsi sözsüzdür. Azərbaycan onomastikasında Mehri qadın adı kimi də işlənir



"Mherin yolu" kitabında Ərincək qalası (Naxçıvan) və Akorinin–Ərqurunun (Ağrı dağı ətəyində) adı çəkilir və rəvayət uydurulmuşdur. Guya Ərincək qalasını Erincək adlı bir Sünik knyazının arvadı tikdirib. "Qars tarixi" kitabında F.Kırzıoğlu M.Brossetin "Gürcü tarixi" əsərinə istinad edərək göstərir ki, 13-cü əsrdə Kareit türklərindən olan Erinc Gürcüstanda ordu başbuğlarından (sərdar) olub. 1944-cü ilə qədər Kürün yuxarı boyunda Axsqa türklərinin yaşadığı kəndlərdən də birinin adı Erincə idi. Ağbabanın Quzukənd kəndində Erincəlilər adlı bir tayfa qədimlərdən ta 1988-ci ilədək orada yaşayırdılar. "Kitabi Dədə Qorqud" dastanında bir neçə dəfə "Ərqurlu" sözü işlənib. Qorqudşünaslar bu sözün "köndələn" anlamına uyğun gəldiyini söyləyirlər. Müəllif bu sözü təhrif edərək Akori (üzüm meynəsi) kimi qeyd etmişdir. Türk və erməni mənbələrndən aydın olur ki, Ağrı dağı ətəklərində Sürməli türklərinin yaylaq yeri olan Ərquru adlı yaşayış yeri olmuşdur. 1840-cı ildə dağ püskürmüş və yaşayış yeri lavanın altında qalmışdır. Erməni mənbələrində bu toponimin adı 5-ci əsrə aid sənədlərdə çəkilir (17, 32-33).

Dini rəvayətlə bağlı "Yeddi qardaş qəbri", "Oğlan-qız daşı" (Gəvər rayonu), "Qoşun daşı", "Yeddi bacı" qayası (Zəngəzur) və sair mifik məzmunlu adlarımıza da əfsanə uydurmuş, özlərinə çıxmışdır. Haqqında danışdığımız kitabda Göyçə (Sevan) gölü haqqında da əfsanə uydurulmuşdur.

Q.O.Karapetyanın "Mherin yolu" kitabı mənəvi sərvətlərimizə sahib çıxmaq, süni yaranmış "Ermənistan" dövlətinin ərazisini genişləndirmək üçün növbəti fitnəkarlıq və saxtakarlıqlardan biridir. Belə böhtan və iftira dolu bədii əsər, kino-film və teatr tamaşalarının sayı yüzlərlədir.

Ona görə də Sov İKP MK-nın 17 oktyabr 1984-cü ildə "Ermənistzn partiya təşkilatında Sov İKP MK-nın 1983-cü il iyun plenumunun qərarlarının yerinə yetirilməsi haqqında" xüsusi qərar qəbul etmişdir. Həmin qərarda deyilirdi ki, Ermənistanda millətçilik əhval-ruhiyyəsini qızışdıran əsərlər yazılır, tarixi həqiqətlər təhrif olunur, azlıqda qalan millətlərin dilinin və mədəniyyətinin inkişafına imkan yaradılmır, partiya sovet və təsərrüfat strukturlarında onların nümayəndələri təmsil olunmurlar və s. Əlbəttə bu qərar artıq gec idi. Erməni gənclərini babaları daşnaqların zəhərli ideyaları ilə silahlandırırdılar. Bütün türklərin qəddar düşməni olan Z.Balayan Ermənistanın 1063 kəndini gəzərək "Ocaq" kitabını erməni gənclərinə paylayır, onları gələcək mübarizələrə ruhlandırırdı.

1973-cü ildən Türkiyənin xarici ölkə səfirliklərində çalışan onlarca diplomat erməni terrorçuları tərəfindən qətlə yetirildi. XIX əsrin axırları XX əsrin əvvəllərində ermənilərin türklərə və azərbaycanlılara qarşı yönəldilmiş saysız-hesabsız qətliamlar törətməsi məlumdur. Olmayan "erməni genosidi"nin 50 illiyini



keçirəndən sonra türklərə qarşı yönəldilmiş erməni terroru Amerika və Avropaya keçdi: 1965-ci ildə ABŞ-ın Freno şəhərində 1920-ci ildə Berlində Tələt paşanı qətlə yetirən erməni Teylaryana heykəl qoyuldu. Bu heykəl – erməni terrorçularına bir dəstək və terrora çağırış idi (32, 255).

1973-cü ildə Amerikanın Kaliforniya ştatından başlayan erməni terrorşuları 24 nəfər türk diplomatı və onların ailə üzvlərini qətlə yetirmişlər. Onlardan 15 nəfəri elçi statusu olan şəxslər idi. Terrorçuların diplomatlara yönəldilmiş daha 20 hücumu boşa çıxmışdır. Erməni terror dəstələri tərəfindən qətlə yetirilən diplomatların həlakolma şəraiti müxtəlifdir. Məsələn:

**27.01.1973**

ABŞ-ın Santa-Barbara şəhərində (Kalifornifa) Türkiyənin baş konsulu Mahmet Baydar və bir türk diplomatı Bahadur Dəmir "Baltimor" mehmanxanasında mühacirətdə olan 78 yaşlı erməni terrorçusu Hantu Papazyan tərəfindən qətlə yetiriliblər.

**20.02.1975**

Beyrutda Türkiyənin aviasiya kompaniyası olan binada bomba partlamışdır. Partlayışı törədən Qugen Yanikyanın terrorçuları olub.

Avstriyanın paytaxtı Vyana şəhərində: üç nəfər erməni terrorçusu avtomat silahla türk səfirliyinə soxularaq, səfir Dəniş

Tunaliçi qətlə yetirmiş, özləri isə aradan çıxmışlar. Terror aktını "Erməni azadlıq ordusu" terrorçuları törətmişlər.

**24.10.1975**

Fransanın Paris şəhərində Türkiyə səfiri İsmayıl Eres və onun sürücüsü Talıb Yenər avtomaşında səfirliyin yanında qətlə yetirilmişlər. Terror aktının "Erməni Genosidi intiqamçıları" terrorçuları tərəfindən təşkil olunması təsdiq olunmuşdur.

**16.02.1976**

Livanın Beyrut şəhərində, Xamra küçəsində yerləşən qəhvəxanada Türkiyə səfirliyinin birinci katibi Oktay Çirit ASALA üzvləri tərəfindən odlu silahdan açılan atəşlə qətlə yetirilmişdir.

**09.07.1977**

Vatikanda (İtaliya) Türkiyə səfiri Taha Kərim iki nəfər silahlı terrorçu tərəfindən öz mənzilinin astanasında odlu silahdan atılan atəş nəticəsində həlak olmuşdur. Terror aktı "Erməni Genosidi intiqamçıları" tərəfindən törədilmişdir.

**02.06.1978**

İspaniyanın Madrid şəhərində Türkiyə konsulu Zəki Günər Alpın avtomobilinə 3 nəfər erməni terrorçusu odlu silahdan atəş açmışdır. Nəticədə Zəkinin arvadı və keçmiş konsul Bəşir Balçı oğlu qətlə yetirilmişdir. Sürücü ispan A.Torres ağır yaralanır. Terror aktını 2 terror dəstəsi ASALA və "Genosid İntiqamçıları"



törətmişlər.

**12.10.1979**

Hollandiyanın Haaqa şəhərində Türkiyə səfirinin avtomaşınına odlu silahdan atəş açırlar. Səfir Əhməd Benler, 27 yaşlı oğlu Özdəmir qətlə yetirilir. Təşkilatçı : ASALA və "Erməni genosidi intiqamçıları".

**06.02.1980**

İsveçrənin Bern şəhərində "Erməni genosidi qisasçıları" adlanan terrorçular tərəfindən Türkiyə səfiri Doğan Türkmən maşına əyləşərkən odlu silahdan açılan atəşlə əlaqədar yaralanır, terrorçu MAKS KLİNCAN sonradan Marsel şəhərində həbs edilib İsveçrəyə göndərilir.

**31.07.1980**

Yunanıstanın Afina şəhərində ASALA terrorçuları tərfindən Türkiyə konsulxanasının əməkdaşı Qalib Özmen qətlə yetirilir. Onun 14 yaşlı qızı Nəsmixan, arvadı Sevil, 19 yaşlı oğlu Kənan ağır yaralanırlar.

**26.09.1980**

Fransanın Paris şəhərində ASALA və "Gizli erməni ordusu" terror təşkilatlarının üzvləri tərəfindən Türkiyə səfirliyinin əməkdaşı Səlcuq Bəkkalbaşı evinə gedərkən odlu silahdan açılmış atəş nəticəsində ağır yaralanır.

**17.12.1980**

Avstraliyanın Sidney şəhərində Türkiyənin baş konsulu Şərik Əriyak və onun mühafizəkarı Elvin Sevər öz maşınlarında gələrkən onlara motosikletlə gedən şəxslər tərəfindən atəş açılır. Sərrast açılan atəş hər – iki nəfəri qətlə yetirir. Aparılan təhqiqat zamanı bu terror aktının "Erməni genosidi qisasçıları" tərəfindən törədilməsi təsdiq olunur.

**09.06.1981**

İsveçrənin Cenevrə şəhərində erməni terrorçuları tərəfindən terkiyə konsulxanasının katibi Məhmət Savaş Yerquz iş yerindən çıxarkın odlu silahdan açılan atəş nəticəsində qətlə yetirilir. Terrorçulardan Martiros Canqoçyan həbs edilir. Bu caninin tutulması ilə əlaqədar onun buraxılması məqsədilə erməni terrorçuları yeni bir terror təşkilatı qrupu yaradırlar, adını da "9 iyun təşkilatı" qoyurlar.

**25.10.1981**

İtaliyanın Roma şəhərində Türkiyə səfirliyinin ikinci katibi Yergenskon terrorçular tərəfindən öz avtomaşınında odlu silahla yaralanır. Cavab atəşi nəticəsində terrorçu da yaralanır. Terror aktının "24 sentyabr intihar dəstəsi" adlı terror qrupu üzvləri həyata keçirmişlər.

**28.01.1982**

Los-Anjeles şəhərində (ABŞ) Tükiyənin baş konsulu



Kamal Ariken iki nəfər erməni terorçusu tərəfindən qətlə yetirilir. Terror aktının törədən 19 yaşlı Livan emnidi Xaınpiq Sasunyan yaxalanır. Ömürlük həbs cəzasına məhkum edilir. Krikor Slib isə qaşıb aradan çıxır. Bu dəhşətli terror aktı "Erməni genosidi intiqamçıları" adlı terror dəstəsi tərəfindən törədilir.

**04.05.1982**

Kembric şəhərində (ABŞ) "Erməni genosidi intiqamçıları" terror dəstəsinin üzvləri tərəfindən Türkiy Respublikasının fəxri konsulu Orxan Gündüz odlu silahdan açılan atəşlə qətlə yetirilir. ABŞ-ın prezidenti Reyqanın qatili tapmaq barəsində fərmanı olmaslna baxmayaraq, qatili tapmaq mümkün olmur.

**09.09.1982**

Bolqariyanın Burqaz şəhərində Türkiyə konsulxanasınm əməkdaşı Bor Suleykən ASALA terrorçuları tərəfindən odlu silahdan açılan atəş nəticəsində qətlə yetirilir. Terrorçular yazılı bir məlumat da qoyub gedirlər: "Biz erməni genosidini müzakirə edən türk diplomatını öldürdük".

**09.03.1983**

Yuqoslaviyanın Belqrad şəhərinin mərkəzində Türkiyə səfiri Qalib Balkar 2 erməni terrorçusu tərəfindən girov götürülür və qətlə yetirilir. Onun avtomaşınının sürücüsü Nacəddin Qaya ağır yaralanır. Oradan keçən adamlar onları tutmaq istəyərkən terrorçular atəş açırlar. Bir nəfər polkovniki yaralayırlar.

Yuqoslaviya polisi terrorçuların birini yaxalayır. O birisi atəş açmaqla davam edərək bir nəfər tələbəni və bir nəfər qadını yaralayır. Nəticədə onlar ələ keçir. Bunlar "Erməni genosidi intiqamçıları" adlanan terrot dəstəsinin üzvləri imiş.

1989-cu ildən üzübəri Ermənistanın Azərbaycan ərazisində apardığı terror, təxribat aktlarını MTH-in materialları əsasında "Azad Azərbaycan" (16.03.2001, №21) qəzetinda çap olunmuş məlumat bir daha ermənilərin terrorçu olmalarını təsdiq edən faktlardır:

**16.09.1989**

Tiflis-Bakı sərnişin avtobusu partladılmış, 5 nəfər həlak olmuş, 25 nəfər yaralanmışdır.

**10.08.1990**

Tiflis-Ağdam sərnişin avtobusu partladılmış, 20 nəfər həlak olmuş, 25 nəfər yaralanmışdır.

Bu cinayətlərin icraçıları A.Avetisyan və M.Tatevosyan həbs olunmuşlar. Müəyyən edilmişdir ki, bu terrorçu qrup tərəfindən 1991-ci il iyulun 17-də Ağdam-Tbilisi avtobusunda partlayış törədilməsi planlaşdırılmış, lakin onların həbsi buna imkan verməmişdir.

**30.05.1991**

Rusiya Federasiyası Dağıstan Respublikasının Xasavyurd stansiyası yaxınlığında Moskva-Bakı sərnişin qatarı partladılmış,



11 nəfər həlak olmuş, 22 nəfər yaralanmışdır.

**31.07.1991**

Dağıstan Respublikasının Temirtau stansiyası yaxınlığında Moskva-Bakı sərnişin qatarı partladılmış, 16 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır.

**08.01.1992**

Türkmənistandan Kracnovodsk (indiki Türkmənbaşı şəhəri) – Bakı marşrutu ilə sərnişin daşıyan dəniz bərəsində törədilmiş terror aktı nəticəsində 25 nəfər həlak olmuş, 88 nəfər yaralanmışdır.

**28.02.1992**

Rusiyanın Şimali Qafqaz ərazisində Qudermes stansiyası yaxınlığında Kislovodsk-Bakı sərnişin qatarı partladılmış, 11 nəfər həlak olmuş, 18 nəfər yaralanmışdır.

**02.06.1993**

Bakı dəmiryol vağzalında sərnişin qatarının vaqonu partladılmış, dövlətə külli miqdarda maddi ziyan dəymişdir.

Bu partlayışın icraçısı Rusiya vətəndaşı İqor Xatkovski Bakıda həbs olunmuş və etiraf etmişdir ki, o Ermənistan Respublikası Milli Təhlükəsizlik Nazirliyi kəşfiyyat şöbəsinin rəisi polkovnik Con Ohanesyan tərəfindən məxfi əməkdaşlığa cəlb edilərək, casusluq və terrorçuluq məqsədilə Azərbaycana

göndərilmiş, böyük insan tələfatı ilə nəticələnəcək partlayışlar törətmək tapşırığı almışdır. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi və Rusiya Federal Əks-Kəşfiyyat Xidmətinin keçirdiyi birgə tədbirlər nəticəsində Con Ohanesyan, onun müavini mayor Aşot Qaloyan, Rusiya Federal Əks Kəşfiyyat Xidmətinin əməkdaşı mayor Boris Simonyan 1994-cü il mayın 13-də Moskva şəhərində tutulmuşlar. İstintaq sübut etmişdir ki, həmin qrup 1991-1994-cü illər Rusiya ərazisindən Bakıya gələn dəmiryol sərnişin qatarlarının partladılmasını təşkil etmiş, nəticədə 7 nəfər həlak olmuş, 83 nəfər yaralanmışdır.

**01.02.1994**

Dəmiryol vağzalında, Kislovodsk-Bakı sərnişin qatarında terror aktı törədilmiş, 3 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır

**09.02.1994**

Azərbaycanın Xudat stansiyasında ehtiyat yolda dayanan yük vaqonu partladılmış, dövlətə külli miqdarda ziyan dəymişdir.

Erməni daşnaklarının Azərbaycan metrosundakı ilk partlayışı "20 Yanvar" stansiyasında törətmələri təsadüfi deyildir. Onlar bununla bir daha sübuta yetirmək istədliər ki, 1990-cı il 20 yanvar qırğınlarının da əsas törəiciləri məhz onlar olmuşdur. Ermənilər terrorizmdən zövq aldıqları üçün istədikləri vaxt, istədikləri nöqtədə təxribat törədə bildiklərini bir daha sübut etdilər.



**19.03.1994**

Bakı metropoliteninin "20 Yanvar" stansiyasında törədilmiş partlayış nəticəsində 14 nəfər həlak olmuş, 49 nəfər yaralanmışdır

Müəyyən edilmişdir ki, bu terror aksiyası Ermənistan kəşfiyyatı tərəfindən hazırlanmış, separatçı "Sadval" təşkilatının üzvləri tərəfindən həyata keçirilmişdir. İstintaq və məhkəmə ilə sübuta yetirilmişdir ki, 1992-ci ilin əvvəllərində Ermənistan Respublikasının xüsusi xidmət orqanları "Sadval" təşkilatı ilə gizli əlaqə yaratmış, onu maliyyələşdirərək, Azərbaycana qarşı istiqamətləndirmişlər. 1992-ci ildə Ermənistandan Dağıstana "Sadval"ın yaraqlıları üçün vertolyotlarla külli miqdarda silah, döyüş sursatı, partlayıcı maddə gətirilmiş və azərbaycanın şimal rayonlarında təşkilatın fəallarına paylanmışdır. 1992-1993-cü illədə erməni kəşfiyyatı tərəfindən Ermənistan Respublikasının Nairi və Arzni rayonlarında, eləcə də Dağıstan Respublikasının ərazisində, eləcə də Dağıstan Respublikasının ərazisində gizli hərbi təlim-məşq bazaları yaradılmış, bu düşərgələrdə 100-ə yaxın sadvalçı Ermənistandan gəlmiş təlimatçıların rəhbərliyi altında xüsusi terror-təxribat hazırlığı keçmişdir. Həmin terrorçuların 30 nəfəri Bakı metropoliteninin "20 Yanvar" stansiyasındakı partlayışla əlaqədar cinayət məsuliyyətinə cəlb olmuşlar.

**13.04.1994**

Dağıstan Respublikasının "Дагестанские огни" stansiyası yaxınlığında Moskva-Bakı sərnişin qatarı partladılmış, 6 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

**03.06.1994**

Bakı metropoliteninin "28 May" və "Gənclik" stansiyaları arasında elektrik qatarında partlayış törədilmiş, 14 nəfər həlak olmuş, 54 nəfər müxtəlif dərəcəli bədən xasərətli almışdır.

Bu terror aksiyası Azərbaycan Respublikasının vətəndaşı, milliyyətcə ləzgi Aslanov Azər Salman oğlu tərəfindən törədilmişdir. A.Aslanov Qarabağ uğrunda gedən döyüşlər zamanı əsir düşmüş və ermənistanın xüsusi xidmət orqanları tərəfindən məxfi əməkdaşlığa cəlb edilmişdir. İstintaq və məhkəmə prosesində sübuta yetirilmişdir ki, A.Aslanovun terrorçu kimi hazırlanmasında "ideoloji təminatında" erməni separatçı-millətçi ekstremizminin ideoloqlarından Zori Balayanın və Dağlıq Qarabağ erməni separatçılarının lideri Robert Koçaryanın iştirakı ilə olmuşdur. Ermənilərin törətdikləri terrorçu hərəkətlərin sayı çoxdur. Atəşkəs olmasına baxmayarq ermənilər hələ də terrorçu hərəkətlərini davam etdirməkdədirlər.

1982-ci ildə Suriyada erməni kilsəsinin təşəbbüsü ilə Qafqazda sıx yaşayan ermənilərin vəziyyəti müzakirə edildi və 1983-cü ildə Lozanna şəhərində II erməni Konqresi keçirildi.



Müxtəlif millətçi erməni partiyalarının toplandığı bu konqresdə Sovet Ermənistanın 29000 kvadrat – kilometrlik ərazisinin ermənilərə azlıq etdiyi müzakirə olundu. 13 iyun 1985-ci ildə Fransanın Sevr şəhərində ermənilərin III konqresi keçirildi və konqresdə Azərbaycanda ermənilərin sıx yaşadığı rayonların Ermənistana qatılması ermənilərin bu mübarizəyə qoşulması haqqında qərar verildi (29, 7).

1985-ci ildə Fransanın Marsel şəhərində də geniş bir konfrans keçirildi. Həmin konfransda Qarabağda yaşayan ermənilərin mübarizəyə hazırlanması qərara alındı. Bu həmin Marseldir ki, XX əsrin əvvəllərində də ermənilər orada Türkiyəyə qarşı vuruşmaq üçün qərar çıxarmışlar.

Hələ Sov.İKP MK-nin 1987-ci il yanvarın 27-də keçirilmiş "Yenidənqurma və partiyanın kadr siyasəti haqqında" plenumundan sonra Moskvadan göndərilmiş ideoloqların iştirakı ilə hər yerdə seminar-müşavirələr keçirilirdi. Həmin ilin aprel ayında Ermənistanın qərb rayonlarının ideoloji sahə işçilərinin də Hrazdan şəhərdən iki günlük belə bir müşavirəsi oldu. Müşavirədə Moskvadan gəlmiş nümayəndələrlə yanaşı, respublikanın rəhbər partiya və sovet işçiləri də iştirak edirdilər. Müxtəlif mövzulu məruzələr, sual-cavablar şəklində keçən bu müşavirə, nəhayət, həmişə olduğu kimi, yenə də öz məcrasını dəyişərək başqa səmtə yönəldildi. Türkiyə, onun iqtisadi, hərbi potensialı

ermənilləri daha çox maraqlandırdığından həmin suallara görüşdə iştirak edən respublika Xarici İşlər Nazirliyinin nümayəndəsi də qoşulmalı olurdu və açıqca hiss edilirdi ki, Moskvadan gələn nümayəndələrə nisbətən bu ölkə haqqında onun daha dolğun və dəqiq məlumatı var. Müşavirənin bu axarda davam etdiyi vaxtda – Dağlıq Qarabağın "Ermənistan"a birləşdirilməsi ilə bağlı daha çox sualların verilməsi müşavirənin formal olduğunu nəzərə çarpırdı.

Ermənilər və erməni rəhbərliyi Heydər Əliyevin Ermənistan partiya komitələrinin iclas salonunda siyasi büronun üzvü kimi birinci yerdə asılan şəklindən belə qorxurdular. Millətçilik meyllərindən rəhbər işçilər ehtiyyat edirdilər.

M.Qorbaçovun elan etdiyi "demokratiya və aşkarlıq" mühitində və bu ideyalara mane olacaq şəxs Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini və Sov. İKP MK-nın Siyasi Bürosunun üzvlüyündən uzaqlaşdırılması erməni millətçilərinə hər cür şərait yaratdı. Onlara qol-qanad verdi. DQMV-nın Ermənistana birləşdirilməsi kimi bədnam iddia qaldırıb mitinqlər keçirir, türksüz Ermənistan yaratmaq istəklərini mətbuat və mitinqlərdə açıq-aşkar bildirirdilər. Onun nəticəsidir ki, indi Ermənistan monoetnik bir millətçi ölkəyə çevrilib və dünya dövlətlərinin ikili standartları nəticəsində ərköyünlük edərək Qarabağı və ətraf rayonları işğal etmiş 1 milyondan çox



qaçqın və köçkün evsiz-eşiksiz qalmışdır. Dünya ictimaiyyəti bu işə göz yumur.

Milli münasibətləri qızışdırmaq üçün S.Xanzadyanın rus dilində nəşr olunan "Ermənistan dağları, danışın" (1987) kitabında da türklərə qarşı nifrət edilən fikirlər çoxdur: Guya Ənvər paşa alman polkovniki Kurt fon Şultsla birləşərək ermənilərin Mesapotamiyaya köçürülmələrini təşkil etmişdir. Guya türk mollası erməni uşağı olan Manuku müsəlman etsə də, o erməniliyində qalır. Sonralar ordu komandiri kimi Orta Asiyaya, basmaçılarla döyüşə göndərilir. Buxara yaxınlığındakı döyüşlərdə guya Ənvər paşa əsir düşür. Ənvər paşa onu öldürməyəcəyi halda guya Alman banklarında olan 1,5 milyon manatı ona – Manuka verəcəyini vəd edir. Guya Manuk razılaşmır, onu tapanca ilə vurub gumun üzərinə sərir. Bir erməni fədaisi kimi ermənilərin intiqamını aldığını deyir (62, 388,389). Guya Manuk erməni olduğunu Ənvər paşaya deyəndə o təəccüblə: "dünyada yenə mi erməni qalıb?" – deyir.

Bununla belə, 1986 ildə milli münasibətləru qızışdırmaq uçun Raffinin "Qığılcım" romanı da rus dilində çap olunur. Orada da uydurma faktlar önə çəkilir: "Van vilayətinin kəndlərində hər bir erməni evində türk başıpozukları (yəni əsgər) yerləşdirilir və ailənin tam sahibi kimi hərəkət edirdi". Cənubi Azərbaycanda yaşayan azərbaycanlılar haqqında da böhtan dolu iftiralar yazır:

"Burada yaşayan qızılbaşların öz ədəbiyyatları yoxdur. Şəhərlərdə də belə bir adət var: Yağışlı havada hər hansı bir erməninin yaş paltarı müsəlmana toxunmamalıdır. Əğər toxunsa, erməni cəzalandırılmalıdır" (62, 300).

1987-ci ilin noyabr ayında Moskva şəhərinin erməni qəbirstanlığında keçirilən toplantı (buna mitinq də demək olar) məhz 1985-ci ildə Marsel şəhərində erməni millətçiləri tərəfindən qəbul edilmiş qərarların icrası ilə bağlı idi (29, 7, 8). Bundan sonra hadisələr öz macərasından çıxdı, milli münasibətlər gərginləşdi. Əlbəttə M.Qorbaçovun ortaya atdığı "aşkarlıq və demokratiya" anarxiyasından istifadə edən ermənilər daha da fəallaşdı. 1988-ci ildə Sumqayıtda özlərinin törətdikləri qarışıqlığı da bəhanə edərək 1987-1988-ci illərdə "Rədd olsun türklər", "Qarabağ bizimdir" şüarı ilə mitinqlərdə çıxış edirdilər.

M.Qorbaçovun ermənipərəst mövqeyindən istifadə edən ermənilər 1988-ci ilin 20 fevralından başlayaraq Xankəndində yalnız erməni deputatlarının iştirakı ilə Xalq Deputatları Sovetinin növbədənkənar sessiyasını keçirdilər. Sessiya DQMV-ın Azərbaycan Respublikasının tərkibindən çıxarılması haqqında qərar qəbul etdilər. Azərbaycan SSR Ali Soveti DQMV – XDS-nin Azərbaycan Konstitusiyasına zidd qərarını rədd etdi.

1988-ci ilin 18 fevralından başlayaraq ermənilər İrəvan, Leninakan, (1990 - Gümrü) Kirovakan (1990-Vanadzor) və digər



şəhər və rayonlarda mitinqlər təşkil etdilər. Ermənilər "qələbə"ni yaxınlaşdırmaq, yəni Qarabağı ələ keçirmək üçün Sumqayıtda da terrorçu hərəkətlərindən çəkinmədilər. Sumqayıtda ermənilərin 27-29 fevral 1988-ci ildə törətdikləri terror hərəkətlərini araşdıran prof.H.Sadıqov və prof.R.Məmmədov belə qənaətə gəlirlər ki, azərbaycanlıları günahlandırmaq üçün ermənilər bu terrorçu hərəkəti etmişlər. Guya onlarala, yəni azərbaycanlılarla yaşamağın mümkün olmadığını dünyaya yaysınlar. "Sumqayıt hadisələri" kitabında onlar yazırlar: "Zahirən antierməni görüntülü, əslində isə çox ustalıqla təşkil olunmuş və ilk baxışda görünməyən, mahiyyətinə görə antiazərbaycan, antisumqayıt xarakterli hadisədir. (41, 4).

Bu gün artıq istinad materiallarlndan məlumdur ki, hadisələri törədənlərin ön cərgəsində gedən xüsusi hazırlıq keçmiş təxribat qrupu tərəfindən hadisələrə təhrik olunmuş yeniyetmələrə, müxtəlif cinayətkar ünsürlərə və yetkinləşməmiş gənclərə spirtli içkilər və narkotik maddələr qəbul etdirərək onları cuşa gətirən, sonra da "Qarabağ bizimdir", "Erməniləri qırın!", "Ardımca!" şüarları ilə "Qarabağ" və "Krunk" təşkilatlarına pul verməkdən imtina etmiş ermənilərin yaşadıqları mənzillərə istiqamətləndirən, şəxsən 6 nəfər ermənini qətlə yetirən 1959-cu təvəllüdlü, əvvəllər – 1979, 1981, 1982-ci iərdə 3 dəfə mühakimə

olunub üst-üstə 9 il 2 ay 13 gün həbsxanalarda yatmış qatı cani, milliyətcə erməni olan Qriqoryan Eduard Robertoviç idi.

1988-ci il 27-29 fevral hadisələrinin Kremlin göstərişi ilə əvvəlcədən hazırlanmış ssenari üzrə erməni və ermənipərəst millətçi, separatçı qüvvələr tərəfindən törədildiyini sübut edən kifayət qədər faktlar artıq üzə çıxmışdır (41, 12).

Bundan sonra 1988-ci il iyunun 15-də Ermənistan SSR Ali Sovetinin sessiyası Azərbaycan SSR Ali Sovetindən və SSRİ Ali Sovetinin Dağlıq Qarbağın "Ermənistan"a birləşdirilməsini tələb etdi. Lakin iyunun 17-də rədd cavabı verildikdən sonra bütün qüvvələr "burunlarının altında olan düşmənlərin çıxarılmasına..." yönəldildi. (İrəvan dövət universitetinin professoru S.Nazaryanın 20 iyunda 1988-ci il respublika televiziyası ilə çıxışından). İyulun 18-də SSRİ Ali Sovetinin Rəyasət Heyəti də Dağlıq Qarabağın "Ermənistan"a birləşdirilməsini rədd etdi.

Erməni alimləri millətçiliklə zəhərləndiyindən öz uydurma iddialarını ermənipərəst sovet rəhbərliyindən qəti şəkildə tələb etməkdən də çəkinmirdilər.

Bu cəhətdən SSRİ Ali Soveti rəyasət heyətinin 1988-ci il 18 iyul tarixli iclasında Sovetlər birliyinin başçısı M.S.Qorbaçovla – erməni alimi V.Hambarsumyanın dialoqu xüsusi maraq doğurur. Onların dialoqu belədir:



**S.A.Hambarsumyan**: Kommunist, pedaqoq, rektor kimi bütün həqiqəti söyləməyi özümə borc bildim. Vəziyyət gərgindir....

**M.S.Qorbaçov**: "Ermənistanda yaşayan azərbaycanlıların sayı Dağlıq Qarabağdakı ermənilərin sayından az deyildi. İndi neçə olsun, orada da muxtar vilayət yaradaq?

Burada əsasən demoqrafiyanın, əhalinin tərkibinin necə dəyişməsinə istinad edilir. Bu mühüm amil kimi, müəyyən siyasətin nəticəsi olaraq da qələmə verilir. Deyin görək, əsrin əvvəllərində İrəvanda azərbaycanlı əhali nə qədər idi?

**S.A.Hambarsumyan** : Əsrin əvvəllərində , İrəvanda?

**M.S.Qorbaçov**: Bəli.

**S.A.Hambarsumyan**: Deməyə çətinlik çəkirəm.

**M.S.Qorbaçov**: Siz bunu bilməlisiniz. Mən sizə xatırlada bilərəm – əsrin əvvəllərində İrəvanda azərbaycanlılar 83% təşkil edirdi. İndi azərbaycanlılar neçə faizdir?

**S.A.Hambarsumyan**: İndi olduqca azdır. Yəqin ki, bir faizdir.

**M.S.Qorbaçov**: Bunu deməklə erməniləri təqsirləndirmək istəmirəm ki, onlar azərbaycanlıları sıxışdırıb çıxarır. Görünür, hansı proseslər isə baş vermişdir və ümumiyyətlə, bunları araşdırmaq lazımdır. Əgər biz hər rəqəmdən belə ya bundan məkrli nəticələr çıxarsaq, bir-birimizə ittihamlar yağdırsaq, onda

heç nəyə nail ola bilmərik. Siz ki, alimsiniz! İnformasiyada dəqiq, həqiqəti söyləməkdə dəqiq olmaq lazımdır. Əgər bu ancaq sizin həqiqətiniz və ya mənim həqiqətim olacaqdırsa, bu hələ həqiqət deyildir. Lakin olmuş həqiqətlər də vardır. Əsrlər boyu ermənilər və azərbaycanlılar bu torpaqda yaşamışlar. Sizin üçün Dağlıq Qarabağ erməni millətinin beşiyi, necə dəyərlər, dayaq nöqtələrindən biridir. Lakin Azərbaycanın bəstəkarları, bir çox başqa incəsənət xadimləri də axı Şuşadan Qarabağdan çıxmışdır. Axı insanların ürəklərini, ailələri, əsərləri, beləcə asanlıqla, kotanla şumlayırmış kimi ayaq altına salıb şumlamaq olmaz. ("Kommunist" qəzeti. 20 iyul 1988-ci il, №170 (20638).

Görkəmli İrəvan ziyalısı, professor Gövsər Tarıverdiyevanın 1829-1989-cı ilərdə İrəvan şəhərində yaşamış əhalinin etnik və say tərkibi haqqında "Vedibasar" qəzetinin 2015-ci il 4-cü sayında çap etdirdiyi məqalə və statistik cədvəl maraqlıdır:

| İllər | Cəmi əhali | O cümlədən: | | | |
|---|---|---|---|---|---|
| | | Ermənilər | | Azərbaycanlılar | |
| | | sayı | % | sayı | % |
| 1828 | 9700 | 2369 | 24,4 | 7331 | 75,6 |
| 1831 | 11463 | 4131 | 36,1 | 7331 | 63,9 |
| 1886 | 14738 | 7142 | 48,4 | 7238 | 49,1 |
| 1897 | 29033 | 12526 | 43,1 | 12539 | 43,1 |
| 1905 | 28533 | 12912 | 46,9 | 12393 | 45,0 |
| 1914 | 29366 | 15531 | 52,8 | 11500 | 39,2 |
| 1916 | 51289 | 37204 | 72,5 | 12557 | 24,4 |
| 1926 | 64613 | 57259 | 88,6 | 4968 | 7,6 |
| 1931 | 95372 | 83906 | 87,9 | 6656 | 609 |
| 1959 | 499172 | 463311 | 92,8 | 3382 | 0,7 |
| 1970 | 775028 | 738045 | 95,2 | 2721 | 0,4 |
| 1989 | 1199000 | 1175000 | 98,0 | 0 | 0,0 |



(Vedibasar" qəzeti, 1-115, II, 2015, №4(287)).

Həmin günlərdə, yəni 1988-ci ilin yay-payız aylarında ümumerməni hərəkatının liderləri Z.Balayan, S.Harutyunyan, S.Nazaryan, S.Kaputikyan, Ş.Simonyan və S.Xanzadyan hər gün televiziya ilə erməni xalqını türklərə qarşı mübarizə aparmağa çağırırdılar. Qəzet, radio və başqa informasiya vasitələri də bütünlüklə türklərə və azərbaycanlılara qarşı yönəldilmişdi. "Türklər "Ermənistan"dan çıxarılmalıdır", "Türksüz Ermənistan" şüarları hər yerdə səsləndirilirdi. Görüləsi işlərin hamısı öncədən

planlaşdırılmışdı. Plana əsasən zərbə birinci növbədə aran rayonlarına vurulmalı idi. Başlanğıc kimi mayın 1-də Şirazlı faciəsi törədildi. 2 nəfər azərbaycanlı vəhşicəsinə öldürüldü. Dinc sakinlər sərhəddə 2 ay yarım açınacaqlı həyat keçirdilər. Onların haqlı səsini heş kəs eşitmədi.

Bir çox halda rayonlarda təşkil edilən mitinqlərdə azərbaycanlıları tanıyan və rayon mərkəzində yaşayan ermənilər azərbaycanlılardan utanaraq rayon mərkəzində təşkil edilən mitinqlərdə iştirak etmirdilər. Belə olduqda İrəvandan idarə olunan millətçi ermənilər bundan sonra İrəvanda və şəhərlərdə olan ali məktəb və texnikum tələbələri xüsusi avtobuslarla gətirib azərbaycanlılar yaşayan kənd rayonlarında mitinqlər keçirirdilər. Bir rayonun gənclərini tanımadığı digər rayonlara mitinqlərə aparırdılar. Azərbaycanlıların Ermənistan ərazisindan çıxarılmasını – tələb edirdilər. İlk növbədə vəzifəli azərbaycanlıları işdən çıxararaq məktəblərin bağlanmasını təşkil etdilər. Halbuki 300-dən çox azərbaycanlı məktəbi mövcud idi. Azərbaycanlılar rayon mərkəzinə, şəhərə və digər yerlərə gedə bilmirdilər. Qatar və avtobusla getmək də çox çətin və təhlükəli idi. Yüzlərlə insan ermənilər tərəfindən müxtəlif yerlərdə döyülüb həm milliyəti, həm də şəxsiyyəti təhqir edilirdi. Yüzlərlə cinayət işi qaldırılsa da, nəticəsiz qaldı.



Qarabağ hərəkatının üzvlərindən biri, Ermənistan EA-nın üzvi Rafael Kazaryan 1988-ci ilin 4 noyabrında İrşvanın Teatr meqdanında keçirilən mitinqdə "Dəstələrin köməyi ilə emiqrasiyanı (yəni azərbaycanlıların çıxarılmasını) təmin etmək lazımdır. Bizə bütün onilliklər ərzində ilk dəfə Ermənistam təmizləmək imkanı verilmişdir. Mən bunu bu on ayda mübarizəmizin ən böyük nailiyyəti hesab edirəm" demişdir (44, 1991, №17).

22 noyabr 1988-ci ildə Ermənistan Ali Soveti millətçiliyi daha da qızışdıraraq 1915-ci ildə guya Osmanlı Türkiyəsində olmuş "erməni soyqırımını" müzakirəyə çıxardı. Hər ilin 24 aprelini qeyri-iş günü kimi hesab olması barədə Sovetlər Birliyi rəhbərliyi qarşısında məsələ qaldırıldı ("Kommunist" İrəvan, jurnalı. 1988, №22 (930)).



ЗАКОН
АРМЯНСКОЙ СОВЕТСКОЙ СОЦИАЛИСТИЧЕСКОЙ РЕСПУБЛИКИ

180 Об осуждении геноцида армян 1915 года в Османской Турции

Верховный Совет Армянской Советской Социалистической Республики постановляет:

1. Осуждая геноцид армян 1915 года в Османской Турции как тяжелейшее преступление против человечества, объявить 24 апреля Днем памяти жертв геноцида армян.

2. Войти с предложением в Президиум Верховного Совета СССР о признании и осуждении геноцида армян 1915 года.

3. Поручить Совету Министров Армянской ССР совместно с Совпрофом Армении рассмотреть и решить вопрос об объявлении 24 апреля нерабочим днем, перенеся на эту дату один из выходных дней.

Председатель Президиума Верховного Совета Армянской ССР
Г. ВОСКАНЯН

Секретарь Президиума Верховного Совета Армянской ССР
Н. СТЕПАНЯН



Mənfur ermənipərəst Elena Bonnerin "Qolos Armenii" (1990) qəzetində çap etdirdiyi "Ermənilərin ikinci genosidinin qarşısını almaq" adlı məqaləsi başdan-başa antiazərbaycan mövqeyində dayanır. O, 1988-ci ilin dekabrında Bakıda olmasını, zəlzələ nəticəsində guya Ermənistanda bir qarış belə yararlı torpağın qalmadığını deyir və ona görə də Qarabağın Ermənistana verilməsini məqsədəuyğun sayırdı (57, №204).

E.Bonner A.Saxarovla Bakıda olarkən Ə.Vəzirovla görüşməsini və Qarabağın Ermənistana verilməsi məsələsini "müzakirə" etdiyini yazır. Daha sonra Ə.Vəzirovun onlara kəskin olaraq "torpaq verilməz, qanla alınar" cavabı onları hiddətləndirmişdir. Bir daha o, 88-ci ilin axırlarını xatırladaraq yazır: "Budur Ə.Vəzirovun dediyi qan Bakıda töküldü" (57, №204). Guya bu səbəbdən 1990-cı ildə Bakıda 20 Yanvar hadisəsi baş vermişdir.

Doğrudan da, 20 Yanvar faciəsinin səbəbkarları da Bonner kimi ermənipərəst siyasətbazlar oldu. Onların haray-həşiri və köməkliyi ilə Sovet ordusu Bakıda 20 Yanvar faciəsini törətdilər. 140-dan çox insan qətl edildi 1000-dən çox insan əlil oldu, xeyli sayda insan itkin düşdü. Bunlara baxmayaraq azərbaycanlılar öz mübarizliyi və əzmkarlığını dünyaya göstərə bildilər.

Üzdəniraq öz siyasi liderlərinin təhriki ilə qaniçən ermənilər uzun illər qonşuluq şəraitində yaşamalarına

baxmayaraq Qərbi Azərbaycanın hər yerində azərbaycanlılara qarşı vəhşilik törətdilər.

1988-ci ilin oktyabrında Pəmbək bölgəsinin Vardana kəndində (Quqar rayonu) əsrin daha bir faciəsi törəndi. Bu faciə 70 il əvvəl yenə bu kənddə ermənilərin törətdikləri qanlı qırğınlardan fərqli deyildi. Ondan da pis idi.

Kirovakan (1990-Vanadzor) şəhərinə söykək olan Vardana kəndində azərbaycanlılarla bərabər erməni ailələri də yaşayırdılar.

1988-ci ilin may ayında erməni bandalarının təsiri və gücü ilə kənd boşaldılmışdır. Arvad –uşaq Şəmkir rayonunun Leninabad kəndinə aparılmışdır. Avqust ayında qaçqınlar yenidən avtobuslarla geri qaytarıldılar. Hətta Azərbaycanın o vaxtkı rəhbərliyi münasibətləri qaydaya salmadan bu qayıtmanı alqışlayır və sevinirdi. Bəs axırı nə oldu? Kənd sakinləri yenə də söyüş və təhqirlərlə üzləşdilər. Azərbaycanlılarla mülayim davrandığı üçün oktyabrın 25-də sovxoz direktoru Hamlet Sarkisyanın bir qulağını kəsdilər. Direktor da ona görə mehribanlıq göstərirdi ki, sovxozun mal-qarası, qoyun-quzusuna baxan yox idi. Ermənilər ənənvi tarixi olan orta məktəbin sinif jurnallarını və kitabxananın kitablarını meydana töküb yandırırdılar. Məktəbi isə bağladılar. Artıq kəndin ixtiyarı sovet sədri, daşnaq xislətli Jora Arakelyanın əlinə keçmişdir. "Joranın



bandası" deyilən bir terrorun dəstə əmələ gəlmişdi. Şəhərdən gələn erməni gəncləri tərəfindən hər cür vandalizm törədilirdi.

25 oktyabr 1988-ci ildə ermənilər, kənd sakinləri – Şura Qurbanov və Lətif Orucovun ot tayaların və gözəl mülklərini yandırdılar. Belə olduqda guya ixtişaşları sakitləşdirən hərbiçilərin köməkliyi ilə 17 yük maşını verildi ki, sakinlər əşyalarını yükləyib aparsınlar. Amma erməni dığalarından ibarət terrorçu dəstə Eldar Məmmədovun əmlakını maşından töküb yandırdılar. Arvadı Banu Məmmədovanı yanan tonqala ataraq anası Fatmanı isə maşının altında qoyub əzdilər. Daha sonra ev əşyası yüklənmiş 5 avtomobili dayandırıb yükünü boşaltdılar və od vurdular

Kənd sakini Məhəmməd Əliyevi və arvadı Gülsümü də qanına qəltan edərək ev əşyalarıilə birlikdə yandırdılar. Kənd sakini Vova Qriqaryan müharibə veteranı Qərib kişini döyə-döyə pulunu, əmanət kitabçasını əlindən alıb özünü də yanan tonqalın içinə atdı. Kəndi talan etməyə 2 mindən çox erməni doluşmuşdu. Onlar ucu mismarlı dəyənək və baltalarla silahlanaraq adamları qətlə yetirirdilər. Gecə saat 3-də ermənilər ev əşyası yüklənmiş 17 maşını öz qapılarına sürdürüb əşyaları bölüşdürdülər. Daha sonra evlərdəki mal-qara, qoyun –quzu, arı kötükləri və s. talan olundu.

Göründüyü kimi, birinci, ikinci, aşağı, yuxarı, böyük, kiçik sözləri yaxın yaşayış məntəqələrini fərqləndirmək üçün toponimiyada bir sistem kimi mövcuddur. Bu sistem türksoylu respublikaların hamısında mövcuddur.

Bununla belə, qala, kənd, qışlaq, abad, köy topoformantları ilə əks olunan kənd adları da yetərincədir.

Həsənkənd, Təzəkənd, Cəfərabad, Dədəqışlaq, Dərəköy, Düzkənd, Düzxaraba, Təpəköy, Basköy, Məlikkənd, Mollaqışlaq, Sərdarabad, Sultanabad, Daşqala, Qaraqala, Bozqala, Ağcaqala, Qızqala, Paşakənd.

Qeyd edək ki, Qərbi Azərbaycanda "oba" topoformantı ilə kənd adı olmamışdır. Lakin Azərbaycanın şimal rayonlarında oba topoformatlı oykonimlər isə çoxdur. Məsələn: Tahiroba, Mürşüdoba və s.

Bundan başqa, ermənilər relyef və su mənbələrinin adlarını bildirən oronim və hidronilləri tərcümə edərək bildirirlər ki, guya coğrafi obyektin ilkin adı əvvəllər ermənicə olub, sonra türklər öz dillərinə tərcümə etmişlər. Əlbəttə bu da coğrafi adların dəyişdirilməsinə yönəlmiş daha bir erməni saxtakarlığıdır. Rəsmi qaydada ermənilər tərəfindən tərcümə edilərək inzibati ərazi



kitablarında və xəritələrdə qeyd olunnan bir neçə oronimə və hidronimə diqqət edək:

- Ağbulaq- Lyusaxbyur (işıqlı+ bulaq)
- Qarabulaq- Sevcur (qara+su)
- Turşsu- Tutucur (turş+su)
- Güllübulaq- Vartaxbyur (güllü+ bulaq)
- Təzəköy- Norqyuğ (təzə-kənd)
- Qızqalası – Axcıkaberd (qız+qalası)
- Dərəçiçək- Tsaxqadzor (çiçəkli+dərə)

Göründüyü kimi, Qərbi Azərbaycanda Azərbaycan tarixi üçün çox önəmli olan, Azərbaycan dilinin qayda-qanunları ilə yaranan milli-mənəvi dəyərlərə söykənən, tarix və etnoqrafiyamızı əks etdirən oykonim, oronim və hidronimlər Beynəlxalq konversiyaya zidd olaraq rəsmi qaydada dəyişdirilmişdir.

Dəfələrlə müharibə və erməni terroru meydanına çevrilmiş Qərbi Azərbaycanda indi bir dənə də olsun Azərbaycan türkü yaşamır. Uzunmüddətli siyasətin qurbanı olmuş Zəngəzur, Ağbaba, Pəmbək, Vedi, İrəvan, Göyçə, Qaraqoyunlu, Zəngibasar, Meqri, Barana, Lori və digər tarixi torpaqlarımızda yaşayan 7 milyondan çox azərbaycanlı türk olduqlarına görə zaman-zaman deportasiya, repressiya və soyqırıma məruz qalmışlar. Bununla bağlı olaraq yer-yurd adlarımız da ermənilər tərəfindən soyqırıma

məruz qalmışdır. Bunları, xüsusilə hər bir kəndin ərazisində olan mikrotoponimləri yaşlı nəsillərdən toplayıb gələcək nəsillərə çatdırmaq ziyalıların borcu olmalıdır. Özü də mənəvi borcu!

### 5.5. Azərbaycan dilindən erməni dilinə keçmiş etnoqrafik və onomastik leksik vahidlər

Azərbaycan dili türk dillərindən biri olaraq dünyanın inkişaf etmiş dillərindən sayılır. Müasir maarif və mədəniyyət, elm və texnologiyanın bütün sahələrini ifadə edə bilir. Azərbaycan dilinin təsir dairəsi çox genişdir.

XIX əsrin 30-cu illərinədək Azərbaycan türkcəsi Qafqaz xalqlarının ümumi ünsiyyət vasitəsi olmuşdur. Bunu o dövrdə Qafqazda sürgündə olan rus ziyalıları da ( M.Lermontov, Bestuyev-Marlinski və s.) etiraf edirlər. Ümumi ünsiyyət vasitəsi olduğu üçün həm türk, həm də Azərbaycan dilindən zaman-zaman qonşu xalqların dilinə çoxlu miqdarda söz daxil olmuşdur. Xüsusilə, erməni dilinə daha çox həm apelyativ, həm də onomastik leksika keçmişdir. Erməni dili mütəxəssisi K.P.Patkanyan XIX əsrin 70-ci illərində yazırdı ki, erməni dilində türk mənşəli sözlərin işlədilməsinə aid ilk tədqiqat XIX əsrdə yaşamış alman alimi, doktor Mordman aparmışdır. Mordman yazırdı: "Məlumdur ki, ermənilər hind-Avropa mənşəli xalqdır. Lakin onların dili turan dillərinin güclü təsirinə məruz qalmışdır.



Bu ifadə ilə mən heç də çoxəsrlik əlaqə nəticəsində alınmış sözləri yox, eramızın IV, V, VI və VII əsrlərində erməni dilində işlənən Turan sözlərini nəzərdə tuturam" (36, 5-7). Sonra Mordman V-VI əsr erməni yazılı mənbələrində topladığı 28 türk sözünü misal gətirir. Məsələn: aruq (arıq), arık (arx), tel (sap), qoşqar (qoç) və s. O, tel sözünün üzərində daha çox dayanır (36, 5-6). "Erməncə-Azərbaycanca lüğət"də "tel" derivatlı 47 sözün verilməsi həmin fikri təsdiq edir (75, 161-162).

Sonralar H.A.Acaryan da göstərirdi ki, Azərbaycan və türk dillərinin erməni dilinə təsiri təkcə leksik alınmalardan ibarət deyil, erməni dilinin qrammatikası və fonetikası da bu dillərin güclü təsirinə məruz qalmışdır. Hətta 1926-cı ildə Bakıda keçirilmiş I Beynəlxalq Türkoloji qurultayda o, "Türk və erməni dillərinin qarşılıqlı əlaqələri" mövzusunda rus dilində məruzə etmişdir. Məruzəsində o göstərirdi: "Adətən, bir dil başqa dildən isim, sifət, nadir hallarda feilləri alır. Erməni dili isə bunlarla yanaşı, türk dillərindən miqdar, sıra sayları, zərf və bağlayıcıları da almışdır" (36, 8). Həmin məqalədə o qeyd edir ki, Azərbaycan və türk dillərindən erməni dilinə 4 min söz keçmişdir.

Erməni dilində işlənən Azərbaycan-türk sözlərini apelyativ və onomastik leksika baxımından belə təsvir etmək olar:

**I. Erməni dilində işlənən apelyativ Azərbaycan sözləri və onların leksik-semantik məna növləri.**

*a) Yemək məmulatı anlayışı bildirən sözlər:* arişta (əriştə), xingal (xəngəl), lavaş, xaşıl (xəşil), noqul (noğul), pilov (piov), kyabab (kabab), qutab, şilaplov (şiləplov), həlisə (həlimaşı), basdurma (basdırma), piti, canaq (pitinin növü), hadik (hədik), qımız, qata (kətə), aş, şaşlık (şişlik), tolman (dolma), kalacoş (kələcoş), karak (kərə yağ), panir (pendir), tel panir (tel pendir), toşab (doşab) və s. (75, 4).

*b) Bitki və meyvə anlayışı bildirən sözlər:* xantipar (qantəpər), kısılzanbax (qızıl zanbaq), tut, şahtut, xartut, pazı (çuğundur), baber (bibər), pasdıq (fısdıq), paxla (paxla), kanaf (kənaf), avelik (əvəlik), qax, kuncut (küncüt), qornqa (qorunqa), hayva (heyva), nar, badırcan (badımcan) və s. (75, 4).

*ç) Əlamət və keyfiyyət anlayışları bildirən sözlər:* kartu (kərti-bayat), haram, halal, kur (kor), laq (lax), çal (ağ), şimşad (şümşad), xarib (qərib), hınayı (xınayı rəng), xart (qart), amlik (əmlik), kefamel (kefcil), allam – qallam (hələm-qələm), dmağ (dümağ), baxtavor (bəxtəvər), tunc, bam, ala, ğasğa (qaşqa), goçağ (qoçaq) və s.

*c) Musiqi alətləri və oyun havaları adları:* zıma (zurna), tutak (tütək), tumbuq (dümtək), saz, qaytaqi, qazağı, bahari, ceyrani, koçari, karami, bayati və s.

*d) Peşə-sənət anlayışı bildirən sözlər:* basdırmaci (kolbasa hazırlayan), daraxçi, dudukçi, zurnaci, postalci, qapıçı, nalband,



qotanci (kotançı), qorukçi (körükçü), kapançi (qapancı), damurçi (dəmirçi), komurçi (kömürçü), biz və s.

*e) Heyvan, quş, balıq anlayışı bildirən sözlər:* ceyran, porsiq (porsuq), tavar (davar), yabu (yabı), koç (qoç), sıqır, qunduz, tavux (toyuq), xoroz (xoruz), dzazan (sazan), kopak (köpək), ğaz (qaz), bayquş və s.

*ə) Əşya anlayışı bildirən sözlər:* qaranti (kərənti), çalma, dopraq (torba), kafkir (kəfkir), tas (ləyən), mom (mum), dastak (dəstək), toxr (toxa), kapkac (tutqac), kyarki (kərki), çval (çuval), sabon (sabun), ketmen (kətmən), basmaq (başmaq), kotik (evin böyüyü), şenluk (şenlik), tonir (təndir), kopik (köpük), naxş (naxış), dzıx (zığ), taxtaq (taxta), kura (kürə), baxt (bəxt), boxça (boğça), çuxt (cüt), aşuq (aşıq), şalaq (şələ), bad (təndirin badı), nunı (nanay), qyum (güyüm) xanum, ağa, xadjı, usda, bacı və s. (75, 4).

Nümunələrdən göründüyü kimi, erməni dilində işlənən Azərbaycan – türk sözləri müxtəlif fonetik hadisələrə məruz qalır. Erməni dili başqa dil qrupuna mənsub olduğu üçün bu təbiidir.

Azərbaycanmənşəli bir sıra leksik vahidlər erməni dilinin leksik şəkilçiləri ilə işlənərək yeni sözlər yaradır. Məsələn, qirantovor (kərəntiçi), calik (ağsaç), kinot (kinli) və s.

Bir çox sözlər qrammatik şəkilçilərlə də işlənir: tuşel (tuşlamaq), svaqel (suvamaq), skmel (sıxmaq), koçel (köçmək),

tancel (təngimək, tıncıxmaq), çalanel (çallaşmaq), qırpel (qırpmaq), qaribel (qəribsəmək), sahmanel (qaydaya salmaq) və s.

Mənbə kimi göstərilən lüğətlərdə Azərbaycan sözləri – kök söz kimi çıxış edir. Məsələn: tel derivatlı 47, sahman derivatlı 20, tut (meyvə) derivatlı 18, taxta derivatlı 15, sal (sal daş) derivatlı 15 söz və s. verilmişdir (75, 4).

Dilçi və ədəbiyyatşünas M.X.Abeğyan erməni dilində qafiyəli şeirin də Türk-Azərbaycan dilinin təsiri ilə yarandığını dəfələrlə qeyd etmişdir. Hətta o, erməni dilinin sintaksisində də türk dillərinin təsirinin böyük olduğunu göstərir (36, 9; 3, 81).

| ***Azərbaycanca :*** | ***Ermənicə:*** |
|---|---|
| *Durubsan baxa-baxa* | *Qanqneles baxa-baxa,* |
| *Qara çuxa, al yaxa.* | *Sev cuxa, Qarmır yaxa.* |
| | |
| *Bağçayam, mən barım yox,* | *Paxcaem, par cunem yes,* |
| *Heyvayan, mən narım yox.* | *Ayvayem, nar cunem yes.* |
| | |
| *Al at nalı neylər* | *Al dzin nalı inc kanı,* |
| *Gözəllər xalı neylər* | *Siruni xalı inc kanı.* (6, 59) |
| | və s. |



**II. Azərbaycan dilindən erməni dilinə keçmiş atalar sözləri.**

Erməni dilinə Azərbaycan dilindən leksikləşmiş ifadələr də keçmişdir. Məsələn: Kefi kunne, kyandi kyoxanin (Kef sənin, kənd çoxanın). Bir ili, pir ili (Bir olsun, pir olsun). Daven nalbandun tars kaşa (Dəvə nalbəndə tərs baxar). Aziyeti yes kasem, qaymagı Kaspar ude. (Əziyyəti mən çəkim, qaymagı Qaspar yesin). Kores, siles, qəbules. (Korsan, silsən, qəbulsan). Qeçi can harayında, qasab piya man qalis. (Keçi can hayında, qəssab piy axtarır). Drust xosoğı papağı caq qili. (Düz danışanın papağı deşik olar).Vordeğ aş, endeg baş. (Harda aş, orada baş). Vordeğ haye, endeg vaye (Harda hay var, orda vay var) və s.

Göstərilən nümunələrdə kef, kənd, koxa, nalbənd, tərs, əziyyət, qaymaq, kor, şil, qəbul, keçi, can, hayında, qəssab, piy, dürüst, papaq, aş, baş, vay və s. sözlər Azərbaycan mənşəli sözlərdir.

**III. Azərbaycan dilindən erməni dilinə keçən onomastik vahidləri (soyadlar)**

Ermənişünaslar iddia edirlər ki, Kiçik Asiyada yaşayan ermənilər yerli xalqlardan çox az şey iqtibas etmişlər. Halbuki adət-ənənə, peşə-ticarət, mədəni-dini terminlərdən tutmuş, ta onomastikayadək erməni dilində Azərbaycan-türk mənşəli sözlər yetərincə işlənməkdədir. Hər bir xalqın dilində 300-350 familiya

forması işlədilsə də, erməni dilində də 450-dən çox – Azərbaycan-türk dilindən keçmiş soyadlar bu gün də işlənir (63,48).

Azərbaycan antroponomikasında olduğu kimi, erməni onomastikasında işlənən şəxs adları və soyadların əksəriyyəti türkmənşəlidir. Bir az qismi isə ərəb və fars mənşəlidir. Sözsüz ki həmin onomastik vahidlər – şəxs və tayfa adları Azərbaycan və türk dili vasitəsilə erməni dilinə keçmişdir.

Erməni dilinə keçmiş xeyli miqdarda tayfa adları erməni cəmiyyətində, erməni onomastikasında soyad kimi çox fəal işlənir. Ermənilər azərbaycanlılara, eləcə də türklərə düşmən münasibət bəsləsələr də, ancaq şəcərələrini itirmək qorxusundan Azərbaycan tayfa adlarından əl çəkmək istəmirlər. Tayfa adlarımızın erməni dilinə keçməsi XIX əsrə qədər Azərbaycan dilinin Qafqaz və Kiçik Asiyada əsas ünsiyyət vasitəsi olması ilə əlaqələndirmək olar.

Erməni onomastikasında kiçik bir fonetik dəyişikliklə soyad kimi işlənən tayfa adlarını onomastik səviyyədə həm də leksik-semantik mənalarına görə belə qruplaşdırmaq olar:

1. Qədim Türk-Azərbaycan tayfa adları əsasında formalaşan və erməni dilində işlənən soyadlar: Xalacyan, Hunanyan, Avdalyan, Quşçuyan, Dulqadiryan, Afşaryan, Cuxacıyan, Tataryan və s.



2. Peşə, sənət bildirən tayfa adları əsasında formalaşan və erməni dilində işlənən soyadlar: Basdırmacıyan, Bazirqanyan (Bəzirganyan), Çaxmaqçıyan, Çilingəryan, Dəmirçiyan, Daraxçıyan, Dərriyan, Dolmaçıyan, Dülgəryan, Xarratyan, Dəlləkyan (Dəlləkyan), Düdükçüyan, Kapançıyan, Çəkiçceyan, Kotançıyan, Misgəryan, Ozanyan, Zarqaryan (Zərgəryan), Nalbandiyan (Nalbəndiyan), Korukçuyan (Körükçüyan), Zurnaçıyan, Bağbanyan, Alamdaryan (Ələmdaryan) və s. (8, № 6, 30-38)
3. Şəxs adları əsasında formalaşan və erməni dilində işlənən soyadları: Abasyan, Adilyan, Kanbaryan (Qənbəryan), Dursunyan, Tumanyan, Nəsiryan, Turanyan, Şahmuradyan, Şahgəldiyan, Allahverdiyan, Madatyan (Mədədyan), Lalayan, İmranyan, Muradyan və s.
4. Titul bildirən sözlər əsasında formalaşan və erməni dilində işlənən soyadlar: Ağayan, Ağalaryan, Ağamiryan, Paşayan, Alıxanyan. Atabekyan, Babaxanyan, Xanamiryan (Xanəmiryan), Amiryan, Xanoyan, Xanlaryan, Bekzadyan, Beqlaryan, Sarıbekyan, Orduxanyan, Qaraxanyan və s.
5. Ümumi apelyativlər əsasında işlənən familiyalar:

Koçaryan (Köçəriyan), Altunyan, Ataşyan, Cavanyan, Qozalyan (Gözəlyan), İgityan, Budaqyan, Şahbazyan, Çobanyan və s.

6. Tərkibində baba, ata, dədə, ana və s. qohumluq bildirən sözlər əsasında formalaşan və erməni dilində işlənən soyadlar: Ulubabyan, Babayan, Atayan, Ananyan, Babacanyan, Dadayan, Dadamyan, Ağababayan, Dadacanyan və s.

Göründüyü kimi, erməni dilinin fonetikasına uyğun olaraq soyadlar işlənir. Bunları izah etməyə ehtiyac yoxdur. Məsələn, Bekzadyan (Bəyzadələr), Atabekyan (Atabəylər), Sarıbekyan (Sarıbəylər) və s. Heyf bu etnik adlara ki ermənilər daşıyır.

Qeyd edək ki, erməni tayfa adlarına qoşulan "-an", "-yan" qədim pəhləvicə çoxluq, topluluq, aidlik bildirən şəkilçidir. Azərbaycan onomastikasında – lar, -lər şəkilçisinin ifadə etdiyi mənanı bildirir. Məsələn:

| *Azərbaycan dilində* | *Erməni dilində* |
|---|---|
| Basdırmaçılar | Basdırmacıyan |
| Körükçülər | Körükçüyan |
| Kömürçülər | Kömürçüyan |
| Dursunlar | Dursunyan |
| Köçərilər | Köçəryan və s |



| Dəmirçilər | Dəmirçiyan |
|---|---|

Azərbaycan onomastikasında bir neçə etnotoponimin tərkibində -an, -ən şəkilçisi işlənir. Köklərə birikən həmin şəkilçi də topluluq ifadə edir. Məsələn: Avaran (Avarlar), Qacaran (Qacarlar), Zərgaran (Zərgarlar) və s.

Erməni onomastikasında –ov, -yev formatında da soyadlar çoxdur. Məsələn, Kişmişov, Bektaşyev, Atamanov, Almazov, Qaragözov, Karamanov, Yeqanov, Çobanov, Xanlarov, Xaladjiyev, Karakaşov və s. Qarabağda yaşayan ermənilər daha çox –ov (-va), -yev (-yeva) formantlı familiyalar işlətmişlər.

**IV. Erməni dilində işlənən şəxs adları.** Erməni dilində işlənən Azərbaycan şəxs adları da müəyyən fonetik dəyişikliyə məruz qalmışdır. Azərbaycan onomastikasında olduğu kimi, erməni dilinə keçən şəxs adlarında da həmin onomastik sistem mövcuddur. Məsələn:

a) Mülki və hərbi titul əsaslarında yaranan və erməni dilinə işlənən şəxs adları: Amir (Əmir), Amirxan, Sardar (Sərdar), Alıxan, Babacan, Sarıbek (Sarıbəy), Aqabek (Ağabəy), Balabek (Balabəy), Beqlar (Bəylər), Şahsuvar, Mirza//Murza (Mirzə), Ağa, Ağasi, Yuzbaşı (Yüzbaşı), Xanım (Xanım), Orduxan, Xanlar, Şahlar və s.

b) Zoonim və fitonimlər əsasında yaranan və erməni dilinə

işlənən şəxs adları: Ceyran, Sona, Şahbaz, Susan (Süsən), Susanna, Güli (Gülü), Qulnar (Gülnaz), Gulnar (Gülnar), Qonça (Qönçə), Maral və s.

c) Qiymətli daş-qaş adları əsasında yaranan və erməni dilinə işlənən şəxs adları: Qohar (Gövhər), Zumrud (Zümrüd), Almas, Sadaf (Sədəf), Qumuş (Gümüş), Altun, Purza (Firuzə) və s.

ç) Qohumluq münasibətləri, arzu və istək mənalı sözlərdən yaranan və erməni dilinə işlənən şəxs adları: Ata, Arzu, Azad, Ayvaz, Arzuman, Badal, Baba, Murad, İqit və s.

Qeyd edək ki, erməni şifahi və yazılı ədəbiyyatında, eləcə də danışıq dilində işlənən Azərbaycan dilinə aid söz və ifadələr kəmiyyət etibari ilə çoxdur. Rus dilinə tərcümə olunan erməni nəsr və şeir nümunələrində də Azərbaycan sözləri (sənəm, qərib, gül, qərib, ağa, bəy, saz, tar, aşıq, yayla, şamama, palaz, şah, aman, can və s.) tərcümə olunmadan işlədilməsi nəzərə çarpır (36, 50, 200). Əlbəttə, erməni dilinə keçən Azərbaycan-türk sözləri içərisində ərəb-fars mənşəli sözlər də yox deyildir. Lakin istər apelyativ leksika, istərsə də onomastik leksika və frazeoloji deyimlər yuxarıda dediyimiz kimi, Azərbaycan və Türk dili vasitəsilə erməni dilinə keçmişdir.

Göründüyü kimi, dilimizin gözəlliyi, avazı və ahəngi, emosional-poetik xüsusiyyətləri, axıcılığı, söz sırasının poetik



durumu bütün dövrlərdə erməniləri, erməni sair və yazıçılarını məftun etmiş, hazır söz qəliblərindən və deyimlərdən yetərincə faydalanmışlar. Azərbaycan türkcəsinə aid olan sözlərin başqa dillərdə işlədilməsi yaxşıdır, amma etnoqrafik sözlərimizi və sözlərin ifadə etdiyi əşya və məfhumları özlərinə çıxmaları elmi cəhətdən qərəzli saxtakarlıqdır.

## NƏTİCƏ

1991-ci ildə Sovetlər birliyi parçalandıqdan sonra Ermənistan da müstəqilliyini elan etdi. Türkiyə dövlətinin onun müstəqilliyini tanımasına baxmayaraq Ermənistan parlamenti 2 iyun 2007-ci ildə Türkiyə ilə münasibəti məsələlərini müzakirə edərək yenə də torpaq iddiasında olmuş və antitürk mövqedə dayanmışdır: "Sərhədlərin indiki vəziyyətdə tanınması Ermənistan üçün imkansızdır. Sərhədlər Sevr müqaviləsi (10.VIII.1920) ilə düzənlənməlidir. Türkiyə Ermənistana 14,5 milyard dollar soyqırım təzminatı ödəməlidir" (50, 257). Halbuki, 20 noyabr 1922-ci ildən 24 iyul 1923-cü ilə qədər davam edən Lozanna Konfransında 10.VIII.1920-ci ildə müttəfiqlərin təhriki Osmanlı dövləti ilə imzalanan və hər bəndi Türkiyənin parçalanmasına, onu xəritədən silməyə yönələn Sevr müqaviləsinin bütün şərtlərini imperialist dövlətləri üzərində diplomatik qələbə calaraq ləğv etdi. Bunlara baxmayaraq, başda Bogos Nubar paşa olmaqla erməni heyəti yenə də Türkiyə ərazisində "kiçik bir özəl erməni bölgəsi" yaratmaq arzusunda olduqlarını israrla tələb və iddia edirdilər. Ancaq Türkiyə Respublikasının diplomatlarının kəskin etirazı ilə bü təklif rədd edilmişdir (48, 54).



Sevr müqaviləsinə görə Anadolunun Ərzincan, Girəsun, Muş, Van, Ərzurum və ona yaxın olan əyalətlər, Van gölü daxil olmaqla "Ermənistan"a verməli idi. Lozanna Konfransında İsmət İnönü vurğulamışdır ki, Türkiyənin heş kimə torpaq borcu yoxdur. Amma hər kəs gəlib Türkiyədə yaşaya bilər.

Ermənilər Türkiyə vətəndaşı olaraq elə Birinci Dünya müharibəsinin başlanğıcında Osmanlı dövlətinə - Türkiyəyə xəyanətkarlıq etmişlər. Belə ki, Fransa, İngiltərə, Yunanıstan və Rusiya kimi işğalçı dövlətlərin "Böyük Ermənistan" yaratmaq xülyalarına, şirin vədlərinə aldanaraq silahı ilə birlikdə ordudan fərarilik etmiş ermənilər, kişiləri orduya səfərbərlik edilən türk şəhər, qəsəbə və kəndlərində amansız qətllər törədib soyğunçuluqla məşğul olmuş və soyqırımı törətmişlər. Cəbhə üçün ərzaq və sursat daşınmasını əngəlləşdirmiş, ordunun hərəkətini pozmuşlar. Cəbhəboyu işğalçı ordulara qoşularaq həm Qafqazda, həm də Anadoluda türk şəhər, qəsəbə və kəndlərini viran qoymuşlar. Ona görə də 26.V.1915-ci ildə Osmanlı dövləti məcbur olaraq "Təhciz qanunu"nu (köçürülmə) qəbul etmişdir. Məqsəd həm də cəbhə bölgəsində yaşayan ermənilərin mal və can güvənliyini qorumaq idi. Cəbhə bölgəsinin Van, Bitlis, Ərzurum vilayətləri və Adana, Mərsin, Kozan, Bərəkət, Maraş, Hələb, İskəndərun, Antalya qəzalarından Mosul, Zor vilayətləriinin şərqinə, Hələbin cənub-qərb vilayətlərinə və s. köçürülmüşlər.

Köçürülmə zamanı ermənilərin sahibkarlıq hüquqları qorunmuş, daşınmaz əmlakları (zavod, fabrik, dükan, bağ) satılaraq sahibkaların əmanətlərinə yazılması nəzərdə tutulmuşdur. Köçdüyü yerlərdə hər kəndə 50 ailə yerləşdirməklə ev və torpaq sahəsi verilmişdir. Yollardakı təhlükələrdən və xəstəliklərdən qorunmaq üçün xüsusi həkim qrupları və konvoy təyin edilmişdir.

Tarixdə bu cür köçürmələr çox olmuşdur. Məsələn, Sovetlər birliyinin rəhbərliyi 1937-ci ildə Uzaq Şərqdə yaşayan 130 min koreyalının Orta Asiya və Qazağıstana köçürmüşdür. 1939-1940-cı ilərdə Sovetlər birliyinə qatılmış Qərbi Ukrayna, Qərbi Belorusiya, Moldova və Baltikyanı ölkələrdən də on minlərlə insan Orta Asiyaya sürgün olunmuşlar. Rus-Alman savaşı dövründə də guya almanlarla əməkdaşlıq etdikləri üçün Şimali Qafqaz xalqları da (çeçen, inquş, kabardin, balkar, və s.) Orta Asiyaya sürgün edilmişlər. Krım türkləri, Axsqa türkləri və Volqaboyunda yaşayan almanların da taleyi belə olmuşdur. Bütün bunlar soyqırımı deyil bəs nədir? Amma Osmanlıların erməniləri öz yaxın ərazilərinə köçürülməsi soyqırımı adlandırırlar. Hətta bir neçə kapitalist dövlətləri uydurma "soyqırımı"nı dəstəkləyiblər.

1939-1940-ci illərdə Fransa ərazisində almanlar, Amerikada isə yaponlara qarşı belə köçürmələr olmuşdur. Baxmayaraq köçürülən xalqların heç biri ermənilər qədər



xəyanətkar olmamışlar. Ermənilər kimi yerli xalqa qarşı qətllər törətməmişlər.

Soyqırımı ermənilər törətmişlər: indı Qərbi Azərbaycanda bir dənə də olsun azərbaycanlı, eləcə də türk yaşamır. Türkiyədə isə 50-60 min erməni özğür içində yaşamaqdadırlar. Onların 30 məktəbi, 17 mədəniyyət mərkəzi, "Jamanak" və "Marmara" adlı qəzetləri, "Sisli" və "Taksim" adlı idman klubları, müxtəlif səhiyyə ocaqları və s. vardır (49, 55). Azrbaycan Respublikasında da minlərlə erməni ailəsi Azərbaycan vətəndaşı olaraq yaşayır. Azərbaycan Respublikası tolerant bir respublika olduğu üçün bütün millətlər heç bir dini ayrıseçkilik olmadan rahat yaşayırlar.

Bu gün erməni ideoloqları yenə də dünyaya səs salaraq olmayan soyqırımın 100 illiyini hay-küylə geyd etməyə çalışırlar. Halbuki Britaniya prokurorluğu hələ 1921-ci ildə bu soyqırımın olmadığını dəfələrlə vurğulamışdır. Belə ki, Mudros sazişinə uyğun olaraq İstanbulu nəzarətə götürən ingilislər erməni məsələsi ilə əlaqədar olaraq 25 yanvardan 9 martadək (1919) 140-dan çox yüksəkrütbəli məmuru (polis, əsgər, muxtar, məmur və s ) həbs edərək Maltaya sürgün etmişlər.

8.II.1921-ci ildə isə təhqiqatları başa çatdıran Britaniya prokurorluğu bəyanət verərək həm dövlət idarələrində, həm də həbsolunanlarla bağlı olan araşdırmalarda "erməni soyqrımı" ilə əlaqəli heç bir tutarlı sənəd və ya ifadəsinin olmamasını

bildirmişdir. Ona görə də tutulan məmur və yüksək vəzifəli türk vətəndaşlarını tez bir zamanda həbsdən azad etmişlər. (58, 71-72)

Uydurma erməni soyqrımına aid sənəd və şəkillərin 1920-ci ildə Antonyan adlı bir ermənінin quramaları olduğu fransız mənbələrində qeyd olunur. Həmin il Antonyan Parisdə "Turabyan" nəşriyyatında "Erməni qırğınına aid rəsmi sənədlər" adı ilə həmin cızma-qaranı çap etdirir. İngilis ekspertləri həmin sənədləri ekspertizadan keçirərək hamısının saxta olduğu sübuta yetirilir (58,50). Həm də həmin sənədlərin heç birinin əsli tapılmır. Antonyan 1937-ci ildə uydurma erməni soyqırımına aid saxtalaşdırmalarını tamalamadan ölür. Əsli olmayan sənəd və şəkilləri erməni ideoloqları zaman-zaman dünya ictimaiyyətinin gözündə özlərini "məzlum xalq" kimi göstərmək üçün daha da saxtalaşdıraraq "zənginləşdirdilər".

Soyqırımı ermənilər törətmişlər: Qarabağ savaşında onlar 29 mindən çox azərbaycanlını qətlə yetirməklə əsrin əvvəllərində Türkiyə və Qafqazda törətdikləri vəhşiliyi təkrar etmişlər. 1 milyon qaçqın hələ də erməni terrorunun əziyyətini çəkir.

SSRİ prokurorluğu və Azərbaycan istintaq orqanlarına göndərilmiş materiallarda göstərilir ki, 1988-ci ilin axırlarında, 1989-cü ilin ilk aylarında Qərbi Azərbaycanda 217 nəfər azərbaycanlı yenə də ermənilər tərəfindən müxtəlif şəraitdə qətlə yetirilmiş və müxtəlif işgəncələrlə öldürülmüşlər. Bir qismi isə



soyuqdan donmuş və həkim nəzarətsizliyindən, yəni tibbi yardım olmadığından həlak olmuşlar.

Xocalıda 613 nəfər silahsız azərbaycanlının ermənilər tərəfindən qətlə yetirilməsi insanlığa sığmayan qətliamdır. Xocalıda həlak olanların çoxu əli silah tutmayan qocalar və uşaqlar olmuşdur. Bu qətilləri törədən quldur ermənilərin ünvanları bilinsə də, onlar haqqında həbs-qəti imkan tədbiri görülməmişdir. Bunlara bircə ad vermək olar: **SOYQIRIMI!**

Halbuki 1918-ci ildə Anadolunun 10-larla quberniya və rayonlarında türk polisi araşdırma aparmış, köçürülən ermənilərə qarşı cinayət törətmiş və ya əmlakların qəsb etmiş şəxslər barədə 1398 iş hərbi məhkəməyə verilmişdir. Cinayəti sübut olunan bir çox insanlar həbs olunmuş və onlarla insan edam olunmuşdur. (58, 61)

Ermənilərin uydurma soyqırımına münasibətini bildirən Türkiyə prezidenti Rəcəb Teyyub Ərdoğan hələ bir neçə il öncə, elə indi də təkidlə israr edir ki, dünyanın aparıcı dövlətlərinin tarixçilərinin iştirakı ilə arxivlərin açılmasına etiraz etmir və bəyan edir ki, bu işlə siyasətçilər yox, tarixçilər məşğul olmalıdır.

Biz kiçik millət deyilik. "Respublika" qəzetinin 4 oktyabr 1993-cü ildə çap olunmuş sayında dünyanın 6 ölkəsində 48 milyon 853 min 291 nəfər azərbaycanlının yaşadığı qeyd olunur. Bu statistik məlumatı Almaniyada yaşayan iş adamı, həmyerlimiz

Əli xan İqbal vermişdir. Qəzetin məlumatına görə o, bu məlumatları toplamaq üçün 1 milyard dollar xərcləmişdir. 12 illik artımı da nəzərə alsaq, dünyada 50 milyondan çox azərbaycanlının yaşadığı aydın olur. Bu böyük güvvədir. Xarici ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatlarımız bu qüvvədən istifadə etməklə tarixi faciələrimizin səbəbkarı olan ermənilərin dəfələrlə türklərə və azərbaycanlılara qarşı törətdikləri soyqırımı dünya ictimaiyyətinin nəzərinə arxiv sənədləri əsasında elmi surətdə çatdırılsa, kimin kim olduğu aşkarlanar.



## ƏDƏBİYYAT


1. Avtandil Ağbaba. "Durnam uçar olsan bizim ellərə". Bakı, 2009.
2. Azərbaycanlılara qarşı edilmiş vəhşiliklərin açıqlanması və erməni terrorizminin qurbanlarının xatirəsinin əbədiləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. Bakı, 23 fevral 1993.
3. Abbasov İsrafil. Folklorşünaslıq axtarışları. II cild, Bakı, 2009.
4. Azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi torpaqlardan 1948-1953-cü illərdə kütləvi surətdə deportasiyası haqqmda Azərbaycan Respublikası Prezidentinin fərmanı. B., 18.XII.1997.
5. Azərbaycan EA "Xəbərləri". Bakı, 1989.
6. Azərbaycanlılarm soyqırımı haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. Bakı, 26.03.1998.
7. Azərbaycan tarixi, VII cilddə, VII-ci cild (1941-2002-ci illər), Bakı, 2008.
8. Ataxan Paşayev. Köçürülmə. Bakı, 1995.
9. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifəsi. Bakı, 1998.
10. Bayramov A.Ə. Qədim Oğuz ellərinin – Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin yer-yurd adları. B., 2003.
11. Bayramov A.Ə. Gözəldərə faciəsi. «Məslək» qəzeti, 2002

12. Bayramov A.Ə. 1918-ci ilin deportasiyası və soyqırımı. ADPU-da keçirilən elmi konfransın materialları, Bakı, 1998.
13. Bayramov A.Ə. Deportasiya Ağbaba kəndlərindən yan keçmədi. "Ağrı dağ" qəzeti, 1998, № 1,2
14. Bayramov A.Ə. "Köçürmə" adlı erməni deportasiyası. "Məslək" qəzeti, 1998, №1
15. Bayramov A.Ə. Ağbabada deportasiya və repressiyaya məruz qalanlar. "Vətən səsi" qəzeti, 1995, №21
16. Bayqara Hüseyn. Azərbaycan, istiqlal mübarizəsi tarixi - 1975. İstanbul, 1992, Bakı.
17. Bayramov A.Ə. Söz ürəkdən gələndə. Bakı, 2007
18. Bayramov İ. Qərbi Azərbaycan tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti. Bakı, 2012.
19. Bünyadov Z., Yusifov Y.B. Azərbaycan tarixi, II cild, Bakı, 2011.
20. Çaxmaqlı Qafar. Qars adlı vətən. Bakı. 2000.
21. Cəfərov Cəfər. Ruhlar kimlə danışır. "Xalq qəzeti". 14.03.1998.
22. Dadaşpur Məhbub. Kazım xan Quşçu – Müqavimət salnaməsi. Bakı, 2011.
23. Deportasiya. Bakı. 1998.
24. Didərqinlər. Bakı. 1990.
25. Ermənistan Azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995.
26. "Elturan" jurnalı. Bakı. 1999. №1-2(3).
27. Əliyev Əli. Qırmızı tabor. Bakı. 1990.
28. Ələkbərli Əziz. Qədim türk-oğuz yurdu "Ermənistan". Bakı, 1992
29. İrəvan xanlığı. Bakı, 2010.
30. İrəvanlı Əkbər. Azəri-erməni ədəbi əlaqələri. İrəvan. 1968.
31. Qars müqaviləsi. Bakı, 2004
32. Qazıyev Y. Erməni məsələsi. Yalanlar və gerçəklər. B., 2009.
33. Qlinka S.N. Ermənilərin Azərbaycana köçürülməsi. Bakı, 1995.
34. Məmmədov İ., Əsədov S. Ermənistan azərbaycanlıları və onların acı taleyi. B., 1992.
35. Məmmədov İ. Tariximiz, torpağımız, taleyimiz. Bakı, 2002.
36. Məmmədov M. Dillərin qarşılıqlı əlaqəsi. İrəvan. 1968.
37. Mir Möhsün Nəvvab. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı, 1993.
38. Mirzəyev Həsən. Qərbi Azərbaycanın Dərə Ələyəz mahlı, Bakı.
39. Nuriyev Əziz. Zəngəzur:tarixi hadisələr və faktlar. Bakı. 2007.
40. Ordubadi M.S. Qanlı illər. B., 1993.
41. Sadıqov H.Ş., Məmmədov R.S. Sumqayıt həqiqətləri. I kitab,

Sumqayıt, 2010.

42. Vidadi İsayev. Haradan gəlir bu köçş Bakı, 1995
43. Vəliyev İ. Qaçqınlıq. Bakı, 1996.
44. "Vətən səsi" qəzeti 1990, №21, 15, 1991, №2, 17. 28, 1992, №53, 21, 1994, №20, 21, 124; 1995, №21.
45. "Vedibasar" qəzetinin külliyatı. Bakı. I, II, III, IV cildlər.
46. Vəlibəyov R. Keçmişdən səhifələr. İrəvan. 1969.
47. Zeynalov Cahangir. Müxtəsər Azərbaycan tarixi. İstanbul. 1924. Bakı, 1992.

*Türk dilində*

48. Doqquz sual-cavabda erməni məsələsi. Ankara, 1992.
49. Kırzıoğlu Faxreddin. Qars tarixi. İstanbul, 1953.
50. Lord Kinross, Osmanlı imperatorluğunun yüksəlişi və çöküşü. İstanbul, 2008.
51. Nalbəndoğlu Mühəddin. Türklərə qarşı erməni vəhşəti. İstanbul, 1992.
52. Receb Şükürli Aryhan. Türklerin Tarihi. İstanbul, 2008.

*Rus dilində*

53. Беженцы (1918-1920, 1948-1952, 1988-1989). Баку, 1992.
54. Величко Б.Л. Кавказ. Русское дело и междуплеменные вопросы. С.-П.б., 1852.
55. Военно-топографические карта Кафказское военного округа. Тбилиси, 1903.



56. Геноцид армян в Османской империи. Ереван, 1982.
57. Голос Армении. 15.IX.1990, №204 (17091); 20.VI.1988, №151 (6886); 16.IX.1990, №205.
58. Жорж де Малевил. Армянская трагедия 1915 года. Баку, 1990.
59. История Армянского народа. Ереван, 1980.
60. Карапетян Г. Дорога Мхера. Москва, 1990
61. Ханзадян С. Страна семи долин. Москва, 1968.
62. Ханзадян С. Говорите горы Армении. Ереван. 1987.
63. Мусульманский Моисей. Армянский ономастикон мусульманского происхождения. «Ирс», 209, №6 (42).
64. Раффи. Искра. Ереван. 1980.
65. Погосян А.М. Присоединение Карсской области в состав России.
66. Поэзия Армении с древнейших времен до наших дней. Москва. 1916.
67. Свод статистических данных о население Закавказского края извлеченных из посещенных списков – 1986. Тбилиси, 1893.
68. Шавров Н.И. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. С.-П.б., 1911. Баку, 1990.
69. Шопен И.И. Исторический памятник состояния

Армянской области в эпохи присоединеиие к Российской империи. С.-П.б., 1852.

*Erməni dilində*

70. Arakelyan Q.M. Sisyan (bələdçi-sorgu məlumat kitabı), İrəvan, 1987
71. Akopyan T.H., Melik-Baxşiyan, Barseğyan O.X. – Ermənistan və ona yaxın olan ərazilərin toponimlər lügəti. İrəvan, 1986.
72. Baqdasaryan H. Yaşayış yerlərinə layiqli adlar gərəkdir. "Sovetakan Hayastan" qəzeti, İrəvan, 16.X.1968.
73. Balayan Z. Ocaq, İrəvan, 1984.
74. Ermənistanın SSR-in Ensiklopediyası 12 cilddə, İrəvan, 1974-1986.
75. Ermənicə-azərbaycanca lüğət. İrəvan. 1978.
76. Ermənistanın inzibati-ərazi bölgüsü. İrəvan, 1978.
77. Qriqoryan A.O., Arutyunyan H.M. İzahlı adlar lüğəti. İrəvan, 1983.
78. Karapetyan H.C. Şirak, İrəvan, 1984.
79. Korkodyan Z. Sovet Ermənistanının əhalisi son yüz ildə – 1831-1931-ci illər, İrəvan, 1932.
80. Meliksetyan O.U. Qərbi ermənilərinin deportasiyası və xaricdə yaşayan ermənilərin Sovet Ermənistanına repatriasiyası, 1914-1940. İrəvay, 1975.



**Məşhurların ermənilər haqqında dediklərindən**

***Qabusnamə.***

"Erməni eybi: bədfel, kündəbədən, gözügötürməyən, bir ayağı qaçmaqda olan, əmrə baxmayan, yersiz hay-küy salan, vəfasız, riyakar, söyüş sevən, ürəyi xıltlı, ağasma düşmən..."

***Kürd xalq məsəli***

Atın kolasına, itin tulasına, erməni balasına etibar yoxdur.

***Gürcü xalq məsəli***

"Erməni gəldi, özü ilə yeni bəla gətirdi"

***Erməni xalq məsəli***

Harda hay var, orda vay var! (Vordeğ haye, endeğ vaye)

***A.Puşkin, rus şairi***

Sən kölesən, sən qorxaqsan, sən ermənisən..

***A.S.Qriboyedovun Rus imperatoruna yazdığı məktubundan***

Ermənistanın bir dövlət kimi bəşəriyyət tarixində heç bir mühüm rol oynamamağı, onun adı ermənilərin səpələndiyi coğrafi termin olub güclü dövlətlərin --assuriyalıların, midiyalıların, iranlıların, yunanların, monqolların, rusların öz mübahisələrini həll etdikləri yer olmuşdur. Mən onlarla

(ermənilərlə) heç zaman dil tapa bilmədim. Onların hiyləgərliyi olduqca iyrənc, alçaqlığı olduqca dözülməz, əclaflığı olduqca təəssüfləndiricidir.

***M.S.Ordubadi, Azərbaycan yazıçısi***

Ermənilər bulanlıq sudan duru çıxmaq üçün hər şeyə qadirdilər. Hətta namusu da pay verməyə.

***Kornelit Taüit***

Bu xalq xasıyyətinə görə ermənilər qədimdən ikiüzlü və riyakardır.

**N.N.Şavrov (Новая угроза русскому делу в Закавказье предстоящая распродажа «Мугани янородцам». СПб, 1911, стр.59)**

1828-1830-cu illərdə Türkiyədən 84 min, İrandan 40 min erməni gətirib İrəvan və Yelizavetpolun ən yaxşı torpağı və müəyyən iqlimi olan əyalətlərdə məskunlaşdırdıq.

***A.S.Qriboyedov (Записки о перемещении армян из Персии в наши области. «Сочинения», т.2, М., 1971, стр.314)***

"Ermənilərin ilk dəfə buraxıldıqları torpaqlara sonralar



onların əbədi sahibi duracaqlarından müsəlmanlar içərisində yaranan qorxunu aradan qaldırmaq və (sonuncuların) düşdükləri ağır vəziyyətin uzun sürməyəcəyini bildirməklə onları sakitləşdirmək məsələsini biz dəfələrlə götür-qoy etmişik".

***F.M.Minorski***

Qədim türk etnosları e.ə. VIII-VII əsrlərdə indiki Ermənistan ərazisində yaşamış yerli xalqdır. Bunlar indiki Azərbaycanlıların ulu əcdadı olmuşlar. O vaxt bu ərazidə ermənilər yaşamamışdır.

***Prof. T.Svyatoxovski***

Azərbaycanda yaşayan ermənilər də daxil olmaqla Cənubi Qafqazda yaşayan bütün ermənilər köklü xalq deyil, gəlmədirlər. Onların böyük hissəsi XIX əsrdə İran və Türkiyədən köçürülüb.

***Adam Mets. Isveçrə şərqşünası.***

Ermənilər ağ dərili qulların ən pisidir. Onlanın abırları yoxdur. Onlar yalnız dəyənək və qorxu altinda yaxşı işləyirlər.

***Adolf Karte, alman səyyahı.***

"Mən türklə bir işgörəndə yazılı saziş bağlamıram, çünki türkün bir sözü ki- fayətdir. Yunanlarla yazılı şərt baglayıram, çünkı belə lazımdır və xeyirlidir. Ermənilərlə isə hətta yazılı sazişlə heç bir iş görmürəm, çünki onların yalan və araqarışdıran xasiyyətlərinin qarşısını heç bir yazılı şərtlə kəsmək mümkün deyil".

***Rus diplomatı general Mayevskinin xatirələri. "Ermənilərin törətdiyi kütləvi qırğınlar"kitabından***

Qarabağın tarixi kökləri antik dövrə gedib çıxır. Bu, Azərbaycanın tarixi əyalətlərindən biridir. Bu region Azərbaycanın vacib siyasi, mədəni və mənəvi mərkəzidir... Bədnam Qarabağ problemi ermənilər tərəfindən saxta ideyalar əsasında yaradılmışdır.

***İ.Çavşavadze, gürcü yazıçı və mütəfəkkiri***

Əlahəzrət, mərkəzi rus torpaqlarında ermənilərin məskunlaşmasına icazə verməyin. Onlar elə tayfadırlar ki, bir neçə on il yaşadıqdan sonra dünyaya hay-küy salacaqlar ki, bura bizim qədim dədə-baba torpağımızdır, deyəcəklər.



***Framsız alimi de-Ban. Eçmidzin kilsəsinə səfəri haqqında***

Ermənilərin xalq qəhrəmanlığı barəsində bir şey eşidən olubmu? Onların azadlıq uğrundakı mübarizələrinin adları harada həkk edilib? Heç yerdə! Çünki ermənilərin "qəhrəmanları" həmişə öz xalqlarının xilaskarlarından daha çox cəlladı olublar.

***Rus diplomatı general Mayevskinin xatirələri. "Ermənilərin törətdiyi kütləvi qırğınlar" kitabından.***

Kəndlərə aparılan yollara müsəlman kəndlilərinin süngüyə keçirilmiş meyitləri, kəsilmiş bədən hissələri və dağılıb tökülmüş daxili orqanları səpələnmişdi... Əsasən qadınlar və uşaqlar! Hakimlər və sahibkarlar qətlləri təşkil etmiş, erməni ordusu onu yerinə yetirmişdir. Dərin quyular qazılmış və köməksiz insanlar heyvan kimi kəsilərək bir-birinin ardınca quyulara atılmışdır. Qətllər üçün məsuliyyət daşıyan ermənilər bir evə səksən nəfər müsəlman doldurur, sonra isə onların başını kəsirdi.

***Rus tədqiqatçısı V.L.Veliçkonun "Qafqaz" əsərindən.***

"Ermənilər silməyə və gürcülərə məxsus olan xram və monastırlarda gürcülərin izini məhv edir, daş üzərində gürcü yazılarını qaşıyır, yaxud silir, daşın özünü tikintidən çıxarır

və onların əvəzinə erməni yazıları ilə əvəz edirlər".

***Fransız səyyahı qraf De-Şolye.***

Ermənilər yerli əhalinin şirəsini sormağa başladılar. Bununla kifayətlənməyərək gəlmə ermənilər yerli müsəlman əhalisinin şan-şöhrətini korlamaq siyasəti yeridirdilər ki, gələcəkdə onları qovub torpaqlarına sahib ola bilsinlər. Zaqafqaziyada yaşayan 1 milyon 300 min nəfər ermənin 1 milyonu yerli deyildir. Və onlar vilayətə bizim tərəfimizdən köçürülüb. Bu kilsə bir müddət saxta pul düzəldənlərin yuvası olmuşdur. Bu monastır məndə dini mərkəzdən çox siyasi mərkəz təəssüratı yaratdı.

***İ.Çavçavadze, gürcü şairi.***

Ermənilər dost cildində düşməndir. Onun nəvazişindən, təbəssümündən qorxduğum qədər açıq düşməndən qorxmuram.

***Qraf de Şoll, fransız səyyah***

Ermənilərlə heç cür yaxinlıq edə bilmirdim, çünki onların alçaqlığı və əclaflığı dözülməzdir. Ermənilərdə mənfur bir biclik, biabırçı bir əclaflıq və rusvayçı bir alçaqlıq vardır.



***İngilis səyyahı Vilson:***

-"Ermənilər acgöz və tamahkardırlar. Fitnəkar və araqarışdırandırlar. Heç kəsi bəyənmirlər."

***V.L. Veliçko*** (Кавказ – русское дело и междуплеменные вопросы.

С-Петербург, 1904, с.69.)

Bütün qafqazlılar bilirlər ki, ermənilər burada köklü xalq kimi yox, xeylı miqdarda Türkiyə və İrandan qaçanlar kimi XIX yüzilliyin birinci yarısında görünməyə başlanmışlar.

**N.N.Şavrov (Новая угроза русскому делу в Закавказье, предстоящан распродажа «Мугани инородцам». СПб, 1911)**

Qafqazda yaşayan 1 milyon 300 min ermənidən 1 milyonu 1828-ci ildən (Türkmənçay müqaviləsindən) sonra İran və Türkiyədən Qafqaza köçürülənlərdir.

***Polkovnik-leytenant Qryaznovun 1915-ci ildə Ərzincandakı qırğınlar haqqında raportundan.***

11-12 mart gecələrində erməni cəlladları Ərzincan ətrafındakı ərazilərdə müsəlmanları süngülər və baltalarla qətlə yetirdilər. Bu vəhşilər öz qurbanlarını əksərən öz məsum olanları

məqsədi ilə qazılmış xəndəklərə atırdılar. Mənim yavərim 200 belə xəndək saymış və cinayətlərin üstünü acmışdı.

***Rus ordusunun generalı L.Odişelidzenin 1915-ci il tarixli məlumatından***

"Ali məktəbdən tutmuş lap adicə ibtidai məktəblərə qədər bütün erməni məktəbləri Avropa paytaxtlarında ifrat dərəcəyə çatdırılmış erməni təbliğatçılarının qızğın fəaliyyət meydanına çevrilmişdi. Vətənpərvərlik mədhiyyə və mahnıları, kəskin satira və təmsillər, müəllimlər mühitindən yeniyetmələrin odlu qəlbinə düşürdü, onlarda müsəlmanların mənfur hakimiyyətinə qarşı qəzəb, kin-küdurət hissini heç kimə məlum olmayan gələcəyin fantastik illüziyalarının bütöv bir silsiləsini alovlandırırdı. Beləliklə, ən qısa bir vaxt (3-4 il) ərzində onların yaratdığı illüziyanın müdafiəsi üçün qanlı fədakarlığa hazır olan quduğan, inadkar gənclər yarandı ..."

***Françesko, İtaliyanın baş naziri (1919-cu ilin yayındakı nitqindən)***

"Türklər ermənilərin uydurduğu kimi qəddar və zülümkar deyildi. Onların bədbəxtçiliyi çox məkirli və hiyləgər ermənilərlə əhatə olunmasıdır".



***Kerzon, İngiltərənin xarici işlər naziri (1920-ci ilin mart ayında İngiltərənin icma palatasındakı çıxışından).***

"Cənablar, mənə belə gəlir ki, siz erməniləri 8 yaşında təmiz və məsum bir qız kimi zənn edirsiniz. Bu fikirlə çox yanılırsınız. Halbuki, ermənilər son dərəcə vəhşi davranışları ilə nə qədər qan tökən xalq olduqları qeyd şərtsiz"

***G.Çiçerin. RSFSR Xarici İşlər Komissarı. (1922-ci ilin dekabrında Lozanno konfransındakı çıxışından).***

"Şərqdə işğalçılıq siyasəti yürüdən xarici kəşfiyyatın agentləri satqın, yaltaq və xain erməni daşnaklarıdır".

***F.Engels. Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi. Moskva. 1959, səh.70.***

Erməni kilsə xadimləri Alban kilsəsinin daxili quruluşunda dəyişiklik aparırdı. Onlar alban mədəniyyətinin varisi olmağa can atırdılar.

***Odri L.Altstadt (ABŞ. Konnektikut Universitetinin professoru, Mərkəzi Asiya icmalı jurnalı, M.4. 1988, s.63-78).***

Ermənistanda yaşayan azərbaycanlıların torpağı tarixən onların öz qanuni torpağıdır və onlar bir sahib kimi öz "erməni qonaqlarına" yaxşı münasibət göstərmişlər. Lakin Azərbaycanın Zəngəzuru ermənilərə, Qazax rayonunun bir hissəsi isə Gürcüstana verilmişdir.

***"Moskovskiy komsomolets" qəzeti. 29.01.1994. "Neft sindromu" məqaləsindən***

Dağlıq Qarabağdakı konflikt yaxşı planlaşdırılmış, əvvəlcədən hazırlanmış həyata keçirilməsi Ermənistanın kommunist rəhbərlərinin üzərlərinə düşən aksiyadır...
"Qarabağ hərəkatı"nın liderləri millətin öz müqəddəratını təyin etməsi prinsipini hipertrofiyaya uğradaraq elə bir həddə çatdırmışdır ki, ondan sonra separatizm başlayır.

***Samuel A.Uims. I cild "Ermənistan terrorçu "xristian ölkənin gizlinləri", ermənilərin böyük fırıldaq seriyaları.***

"Biz Xocalı faciəsinin şahidiyik. Biz Xocalı müdafiəçilərinin, yüzlərlə dinc sakinlərinin – qadınların, uşaqların, qocaların eybəcər hala salınmış cəsədlərini gözlərimizlə gördük... Ermənilər bizim vertolyotu da atəşə tutduqlarına görə çəkilişi başa çatdıra bilmədik. Amma elə elə yüksəklikdən gördüklərimiz də törədilən vəhşilikəri təsəvvürə gətirmək



üçün kifayət edirdi. Bu, tükürpədici mənzərə idi. 5-6 yaşlı uşaqları, qundaqdakı ermənilər cəlladlıqla heç kəslə müqayisəyə gəlməzlər".

***Xocalı qırğınının şahidi fransız jurnalisti Jan İv Yunet***

Əsirlər var. Lakin artıq yaşamağa yararlı deyillər. Qışda onları səhərlər ayaqyalın qarın-buzun üzərinə çıxarırlar. Təpələrindən soyuq su tökür, başlarında şüşə sındırır, sonra təzədən kameraya salırlar. Əsl işgəncələr isə bundan sonra başlanır. Barmaqlarını qapının arasına qoyub qırır, çığırdıqca rezin dəyənəklə döyürlər. Çoxu əzablara tab gətirməyərək dəli olub ölür. Biz növbəti kəndi zəbt edəndə bir ermənin diri uşaqı götürüb iki böldüyünü görmüşəm. Sonra bədənin bir hissəsi ilə anasının sifətinə, başına o qədər döydü ki, övladının al qanına bulaşmış qadın dəli olub gülməyə başladı.

Aşkanaz Mravyanın (dövlət xadimi) "Daşnaksutyunun böhranı" əsərindən: - " Ermənilər qırğınlar törədir, ancaq bunu böyük bəla hesab etmirdilər. Təki qırğınlar Avropanın diqqətinə yetərli olsun.
Aleksandr Myasnikyan (dövlət xadimi) : – "Ermənistanın müsəlman və rus kəndlərini onlar (yəni daşnaklar) odla, qılıncla məhv etdilər. Daşnak hökümətinin başında duran

kimlər idi? - Aran, Ruben, Martiros və Pilosadək nadan, talançı, quldur, xmıbapetlər. Bu ordu silahsız insanlara divan tutmaqla, dinc əhalini çapıb talamaqla məharətli və cəsarətli idi."



**MÜNDƏRİCAT**


Azərbaycanlıların soyqırımına aid dövlət sənədləri 3

**Giriş** 20

**I Fəsil.** 1801-1830-cu illərində Qərbi Azərbaycandan azəri türklərinin deportasiyası, soyqırımı və ermənisiz "Erməni vilayəti"nin yaradılması .............. 49

**II Fəsil.** 1905-1907, 1914-1920-ci ilərin qanlı faciələri .................... 113

**III Fəsil.** Köçürmə siyasəti və onun acı nəricələri (1948-1953) .................... 217

**IV Fəsil.** 1988-ci ildən başlayan erməni terroru və vandalizminin sonuncu mərhələsi .................... 272

**V Fəsil.** Mənəvi soyqırımına məruz qalan yer-yurd adlarımız (1935-1991) .................... 339

**Nəticə** .................... 390

Ədəbiyyat ............................................................ 397
Məşhurların ermənilər haqqında dedikləri .................. 403

**Aslan Bayramov**

# TARİXİ FACİƏLƏRİMİZ: DEPORTASİYA, REPRESSİYA VƏ SOYQIRIMI

**Sumqayıt 2015**

Tərtibatçı-dizayner Həzi Hacıbəyli
Korrektorlar: Sevda Şahverdıyeva
Ləman Əsgərova
Texniki redaktor: Ceyhun Saadov
Montajçı: Çinarə Əmirova
Şərti çap vərəqi 26.
Kağız formatı 60x84 1/16.

"AM"965 poliqrafiya müəssisəsi

Kitab «AM965» MMC poliqrafiya müəssisəsində çap olunmuşdur.

Tel: 347-86-63
051-510-99-90